**RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ**

**SULTANƏLİ ŞÜKÜR OĞLU QURBANOV**

# YER ÜZÜNÜN ƏN ŞƏRƏFLİ PEŞƏSİ- MÜƏLLİMLİK

*(Metodik vəsait)*

***Metodik vəsait ADPU-nun Ümumi Pedaqogika kafedrasının 30.04.2025 – ci il (Prot.№11) tarixli iclasında, Tarix – Coğrafiya fakültəsinin 20.06, 2025- ci il tarixli (prot.№08) Elmi –Metodik iclasında, Tarix – Coğrafiya fakültəsinin Elmi Şurasının 11.07. 2025- ci il tarixli (prot.№ 10) Şurasında və ADPU- nun 16 iyul, 2025 ci il tarixli (Prot. № 04) Elmi- Metodik Şurasında müzakirə edilərək bəyənilmiş və çap edilməsi məsləhət görülmüşdür.***

**Bakı – 2025**

*Redaktor:* **Prof.Dr. İramin İsayev**
*ADPU-nun Pedaqogika kafedrasının müdiri*

*Rəyçilər:* **Prof.Dr. Ləzifə Qasımova**
*BDU-nun Pedaqogika kafedrasının müdiri*

**Prof.Dr. Akif Abbasov**
*ARTİ-nin elmi katibi, Əməkdar Müəllim*

**Dos.Dr. Aytəkin Məmmədova**
*SDU-nun Pedaqogika və psixologiya kafedrasının müdiri*

**Dos.Dr. Kəmalə Rüstəm qızı Quliyeva**
*ADPU-nun Ümumi Pedaqogika kafedrasının dosenti*

R.L.Hüseynzadə, S.Ş.Qurbanov. **Yer üzünün ən şərəfli peşəsi - Müəllimlik** *(Metodik vəsait)*

Bakı: **"Müəllim"** nəşriyyatı – 2025-ci il, 400 səh.

*Cəmiyyətin inkişafı, insanların rifah halının yüksəlişi, onların təhsili, tərbiyəsi, mədəni davranışı, səmərəli fəaliyyəti müəllimin pedaqoji fəaliyyətindən, onun fədakar əməyindən çox asılıdır. Müəllim bu günkü yetişən nəslə təhsil verməklə millətin gələcəyini hazırlayır. Ulu Öndər Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir". Müəllimlik cəmiyyətin ən şərəfli və ən hörmətli peşəsidir. İnsanlar müəllimlər vasitəsilə elm, bilik qazanaraq müxtəlif peşələrə yiyələnir, inkişaf edir, formalaşır, sosiallaşır, tərbiyə olunur, dünyanı dərk edir, ətrafda baş verənləri düzgün qiymətləndirir, həyatda fəal mevqe tutur və gələcək həyatını qurur. Bu cəhətdən müəllimlik bütün peşələrin anası və yer üzünün ən şərəfli peşəsidir.*

**© R.L.Hüseynzadə, S.Ş.Qurbanov – 2025.**



*"Mən yer üzündə müəlllim adından yüksək bir ad tanımıram".*

**Heydər Əliyev**

# ÖN SÖZ

Bu gün müstəqil Azərbaycanda təhsilin yenidən əsaslı şəkildə qurulması, təhsildə keçirilən islahatların qarşıya qoyduğu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müəllimin elmi-pedaqoji, metodiki, psixoloji hazırlığından, onun peşəsinə fəal və yaradıcı münasibətindən, pedaqoji ustalığından, səriştəliliyi və peşəkarlığından çox asılıdır.

Cəmiyyətin inkişafı, insanların rifah halının yüksəlişi, təhsili, tərbiyəsi, mədəni davranışı, müdrik fəaliyyəti, xoş rəftarı bir çox cəhətdən müəllimin pedaqoji fəaliyyətindən, onun fədakar əməyindən asılıdır. Müəllimlik cəmiyyətin ən şərəfli və ən hörmətli peşəsidir. İnsanlar müəllimlərin vasitəsilə elm, bilik qazanır, şüurlu fəaliyyətə yönəlir, hərtərəfli inkişaf edir, formalaşır və sosiallaşır. Müəllimlərin fədakar əməyi sayəsində yetişən nəsil tərbiyə olunur, inkişaf edir, dünyanı dərk edir, ətrafda baş verən hadisələri düzgün qiymətləndirir, həyatda fəal mövqe tutur və gələcək həyatını müəyyənləşdirir.

Müəllim cəmiyyətimizdə gedən tərəqqinin, yeni dövlət quruculuğunun önündə addımlayan və yetişən nəsli ən yeni biliklərlə silahlandıran, tərbiyələndirən, inkişaf etdirən fəal bir ziyalıdır.

Müəllim əməyi ona görə şərəfli və dyərlidiir ki, o insanın özünü yeniləşdirir, şüurunu formalaşdırır, böyük həyata hazırlayır. Həyatda fəhlə və ya alim, mühəndis ya sürücü peşəsindən asılı olmayaraq hamı ilk biliyi, savadı, yazıb oxumağı müəllimdən alır və onlar özlərinin ilk müəllimini unutmur, həmişə onları minnətdarlıqla xatırlayırlar. Cəmiyyəti bir binaya

bənzətsək, müəllim bu binanaın ən böyük ustası və qurucusu olar. Bu binaya qoyulan daşlar ilk öncə müəllimin əlindən keçər və divara qoyulmadan son şəklini onun əlindən alar. Sağlam, möhkəm bina qurmaq istəyiriksə, yaxşı ustalara sahib olmalıyıq. Cəmiyyətdə yaxşı nəslə sahib olmaq istəyiriksə yaxşı müəllim yetişdirməliyik. Elə müəllim ki, o ilk növbədə yüksək mənəviyyata, nəcib əxlaqi keyfiyyətlərə, dərin biliyə sahibdir, vətənini, millətini dərin məhəbbətlə sevir, öz biliyini xalqının yüksəlişinə, ölkəsinin qüdrətlənməsinə, cəmiyyətin xeyrinə sərf edir.

Cəmiyyətimizdə yetişən nəsil müəllimlər vasitəsilə tərbiyə və təhsil alır, hərtərəfli inkişaf edir, mükəmməl elmlərlə silahlanır, geniş dünyagörüşə malik olur, əxlaqi keyfiyyətləri özündə cəmləşdirir və cəmiyyət üçün ləyaqətli ölkə qurucusu kimi ictimai həyatda fəal mövqe tutmağa hazırlanır. Onlar cəmiyyətdə xüsusi peşə, ixtisas, təcrübə və qabiliyyət sahibi olub həyata vəsiqə, alır müəyyən ictimai vəzifə daşıyaraq xalqa xidmət edirlər.

Müəllim keçmişlə gələcək arasında canlı bir  bağ, əlaqələr yaradır. Müəllim keçmişdən öyrənir, bu günü dəyərləndirir, gələcəyi görərək onları bir-birilə əlaqələndirərərək gənc nəslə dövrün ən zəruri, müasir biliklərini öyrədir, bu günün problemləri ilə tanış edir, gələcəyə hazırlayır.

Müəllim əməyinin özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, şair əməyinin nəticəsini yaratdığı əsərlərində, rəssam gözəl tablolarında, memar ucaltdığı yaraşıqlı, gözəl binalarda, həkim sağaldıb həyata qaytardığı insanlarda, mühəndis yaratdığı müxtəlif maşınlarda, fəhlə hazırladığı alətlərdə, kəndli becərdiyi taxıl zəmilərində, dövlət xadimləri apardıqları uğurlu  siyasətində görürsə - bu ilk növbədə müəllimin şərəfli əməyinin nəticəsidir.

Müəllim əməyi o peşə sahiblərinin özünü yetişdirmiş, onların fəaliyyət məhsullarının keyfiyyəti müəllim əməyinin nəticəsi olaraq ölçülə bilər. Bu cəhətdən müəllim bütün peşələrin anasıdır. O öz peşəsi, əməyi ilə şərəf duyur, iftixar və qürur hissləri keçirir və daim xatırlanır. Müəllim milli-mənəvi, ümumbəşəri dəyərləri qoruyan, elmi, biliyi yayan, hər yerdə maarifçilik fəaliyyəti göstərən, geniş dünya görüşünə malik olan, elmi-nəzəri biliyə, praktik bacarığa yiyələnən məntiqi və yaradıcı təfəkkürlü, müstəqil düşüncəli, rəqabətqabiliyyətli, hörmətli şəxs, dəyərli ziyalı və mükəmməl mütəxəssisdir.Müəllim gələcək ailə başçısı, Vətən üçün müdafıəçi, cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirir. O cəmiyyətin firavan, xoşbəxt yaşayışını və sürətli inkişafını təmin etmək üçün yüksək dərəcədə hazırlıqlı, səriştəli, geniş elmi dünyagörüşlü, hərtərəfli məlumatlı, dərin bilikli və zəkalı, mənəvi cəhətdən sağlam, saf, nəcib əxlaqlı, yüksək mədəniyyətli, humanist və fədakar bir ziyalıdır.

Bu gün Azərbaycan müəlliminin bir amalı vardır: Müstəqil Azərbaycanımızı çiçəklənən, inкişaf edən, firavan, qüdrətli bir ölкəyə çevirməyə qadir, müstəqilliк ideyalarına sadiq, özünü Vətənin azadlığı uğrunda fəda etməyə hər an hazır olan, yeni təfəккür tərzini qavrayaraq cəmiyyətin müasir tələblərinə cavab verən, sağlam əqidəli, milli ruhlu, yüksək mənəviyytlı, vətənpərvər nəsil yetişdirməкdir.

*Rüfət Hüseynzadə*
*Sultanəli Qurbanov*

# I . ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜƏLLİMLİK PEŞƏSİ HAQQINDA

## 1. ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ MÜƏLLİMLİK

Ulu Öndər Heydər Əliyev müəllim adına, müəllim əməyinə, fəaliyyətinə daim böyük qiymət vermiş, bu şərəfli əmək sahiblərinin fəaliyyətini həmişə yüksək dəyərləndirmişdir.

**Mən yer üzündə müəllim adından yüksək və şərəfli bir ad tanımıram! –** deyən Heydər Əliyev onun müəllimlik peşəsinə yaxından bələd olmasından, bu peşənin icəliklərinə qədər dərindən bilməsindən, bu peşəni məhəbbətlə sevməsindən və müəllimlərinə dərin hörmət və məhəbbət bəsləməsindən irəli gəlirdi.

Heydər Əliyev bu barədə Azərbaycan Müəllimlərinin I qurultayındakı nitqində belə demişdir: **"Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz... mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və**

**ailəmə kömək etmək istəyirdim. ... Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxtdan dərs vermək təcrübəm olubdur...".**

Heydər Əliyevin məktəblə, maariflə həmişə sıx bağlı olması haqda özü belə deyirdi: **"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam...Hesab edirəm ki, cəmiyyət harada olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir..."** O müəllimlik peşəsini ürəkdən sevmiş, müəllim əməyinə yüksək qiymət vermiş və heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız **"Xalq müəllimi"** fəxri adını məmnuniyyətlə qəbul etmişdir.

Heydər Əliyev müəllimlik adını çox yüksəkdə tutmuş və ona müqəddəs bir peşə kimi baxmışdır. **"...Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir..." -** demişdir.

Heydər Əliyev müstəqil respublikamızın birinci qurultayında da müəllim şəxsiyyətini yüksək qiymətləndirərək deyirdi:**"Mən bəyan edirəm ki, bizim müstəqil respublikamızda, Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil.**

**Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir".**

Ümummilli Lider Heydər Əliyev müəllimlərə tövsiyə xarakterli tarixi çıxışlarında bildirirdi ki, müəllimlər bütün qüvvə və bacarıqlarını doğma vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin yetişdirilməsinə sərf etməlidirlər.

Heydər Əliyev müəllimlik peşəsini bütün peşələrdən üstün tutmuş və demişdir: "Müəllim adı dünyada ən yüksək addır. Şəxsən mən yer üzərində müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə çatdıran məktəbdir, məktəbdə təhsil verən müəllimdir" - deyən Heydər Əliyev müəllimin şəxsi və peşə keyfiyyətlərinə xüsusi önəm verərək müəllimin mənəvi-əxlaqi simasını, ideya inamını, səmimiliyi, vicdanlılığını, maraq dairəsinin genişliyini məktəbdə qüdrətli tərbiyə amili hesab edirdi.

Müəllim yüksək nüfuz sahibi və ən hörmətli şəxsdir. O, öz nüfuzu və hörməti ilə uşaqlara təsir edir, onlarda əxlaqi keyfiyyətlər, mənəvi zənginliklər bilik və düşüncə formalaşdırır. Onun qarşısında duran vəzifələrdən biri şagirdlərdə yüksək vətəndaşlıq hisslərini formalaşdırmaqdır. Heydər Əliyevin də dediyi kimi **"Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar, vətənpərvərlər hazırlamaqdır".**

44 günlük Vətən müharibəsi zamanı vətənin keşiyində duran əsgərlərimizdə olan yüksək vətəndaşlıq və vətən-

pərvərlik keyfiyyətləri düşmən üzərində qələbəmizin əsas təminatçısı olmuşlar.

Bu tarixi qələbə əlbəttə ki, həm də müəllimlərimizin əməyinin, gənclərimizə aşıladığı vətənpərvərlik tərbiyəsinin nəticəsi idi və ümumilikdə isə Azərbaycan məktəbinin Zəfər ideyalı uğurlu fəaliyyətinin nəticəsi idi.

"Müəllimlik" çox çətin və şərəfli peşədir. Heydər Əliyev deyirdi **"Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır."**

Heydər Əliyevin səlis və aydın nitqi, insanlara humanist münasibəti, demokratik düşüncələri, tolerantlığı, əzmkarlığı, peşə fədakarlığı, dərin zəkası, incə yumoru, dəmir iradəyə sahibliyi, habelə səliqəli geyimi, vüqarlı yerişi, ifadəli baxışları, düzgün davranış və hərəkətləri hər bir müəllimin peşə keyfiyyətləri, peşə fəaliyyəti üçün bir nümunədir.

Heydər Əliyevin müəllimlik peşəsinə olan münasibətində həmişə bir müdriklik, qayğıkeşlik, bu sənətə böyük hörmət və ehtiramı görünməkdədir. Bu, bir tərəfdən onun dövlət başçısı kimi vəzifəsindən irəli gəlsə də, digər tərəfdən onun yenə də ilk ixtisasca müəllim olması ilə bağlı olduğunu deyə bilərik. Onun insanlara yanaşma tərzi, onlarla ünsiyyət və münasibəti, hər bir insanın "öz dilində danışması" Ulu Öndərimizin pedaqoji məharətindən, psixoloji, etik, estetik biliklərə dərindən yiyələnməsindən, geniş dünyagörüşündən, çevik və hərtərəfli bilik və məlumatlılığa malik olmasından, "Heydər Əliyev pedaqogikası"ndan xəbər verir.

**"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram"**,-deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllimlərə böyük hörmətlə yanaşmış, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının daim yaxşılaşdırılmasının xüsusi qayğısına qalmışdır.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: **"Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".** Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalamışdır. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin parlaq nümunələridir.

Bu gün aktuallıqla qarşımıza qoyulan səriştəli müəllim kadrlarının hazırlığı məsələsi, dahi rəhbər Heydər Əliyevin nəzəri irsində hələ 1980-ci illərdə irəli sürülmüş və bu keyfiyyətlər müəllim üçün zəruri sayılmışdr. Heydər Əliyev 1980- ci ildə ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində demişdir: **"...Biz istəyirik ki, hər bir ali məktəb müəllimi öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək hər bir ali məktəb müəllimi elmi biliklərdən əlavə, yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin..".**

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, mündəricəsini yüksək qiymətləndirən Ulu Öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Ulu Öndərimizin aşağıdakı dəyərli fikirləri bu baxımdan səciyyəvidir: **"İnsan təhsilinin əsasını orta məktəbdə alır... Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, ...cəmiyyətimizin şüurlu üzvü olacaqdır".** Bu mövzunun davamı kimi qeyd edək ki, dahi rəhbərin orta təhsilin qarşısında duran vəzifələrlə bağlı qiymətli tövsiyə və tapşırıqları da bütün zamanlar üçün dəyərini saxlayan əsl fəaliyyət proqramıdır. Xalqımızın böyük oğlu Heydər Əliyev tədris ocaqlarında, o

cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş, bunlarla yanaşı, istisnasız olaraq hər bir şagirdin elmləri mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurğulamışdır: **"Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər... Amma, orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".** Bütün bunlar isə təhsilin milli məzmununu müəyyənləşdirən çox mühüm amillər kimi düşünülmüş, ciddi bir vəzifə, bir strteji proqram olaraq qarşıya qoyulmuşdur.

Təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə və keyfiyyətcə yeniləşməsini dahi rəhbər çox vacib şərt saymışdır. Bu da təsadüfi deyil idi. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məhz məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir. Ona görə də ümummilli liderimiz tövsiyə edirdi: **"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər".**

Heydər Əliyev bir pedaqoq məharəti ilə müəllimlərə təkcə öyrənmək və öyrədə bilmək bacarığını deyil, həmçinin, məktəbliləri, tələbə-gəncləri Vətənə sədaqətlə xidmət etmək ruhunda böyütməyi, xalqımızın milli xüsusiyyətləri, milli dəyərləri əsasında tərbiyə etməyi, onları milli-mənəvi dəyərlər əsasında yetişdirməyi tövsiyə edirdi. Ulu Öndərimizin 1 sentyabr 1997-ci ildə Bakının 18 №-li məktəbində keçirilən görüşdəki nitqi bu baxımdan təqdirəlayiqdir: **"Uşaqlar gərək orta məktəblərdə bütün fənləri mənimsəsinlər. Bunların hamısı ilə bərabər, bizim xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəviyyatını, mənəvi dəyərlərini uşaqlara öyrətmək, çatdırmaq, uşaqları məhz həmin ənənələr ruhunda tərbiyə etmək müəllimlərin müqəddəs borcudur. Mən arzu edərdim ki, müəllimlər bunu heç vaxt unutmasınlar...."**.

Ulu Öndərimiz Heydər Əliyev özlərini vətən torpağının bir zərrəsi sayan gənclərin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir. Heydər Əliyev deyirdi ki, **müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaş hazırlayır. Müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyini - uşaqlarının tərbiyəsini yalnız ona etibar edir.**

Ulu Öndər deyirdi ki, ölkədə təhsilin hərtərəfli yüksəlişində, təlim-tərbiyə prosesində qarşıda duran mühüm, çoxşaxəli vəzifələrin uğurla həyata keçirilməsində təkcə məktəbin, orada çalışan pedaqoji heyətin əməyi kifayət deyil.

Yeniyetmə və gənclərin gələcəyin savadlı mütəxəssisi, layiqli vətəndaşı kimi formalaşması üçün bütün cəmiyyət maraqlı olmalıdır, xüsusən də məktəblə ailənin birgə fəaliyyəti təmin edilməlidir.

Müəllim gənc qəlbin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini-uşaqları, öz ümidini, öz gələcəyini müəllimə etibar edir. Müəllim isə cəmiyyətin bu "qiymətli sərvətini" bir müqqəddəs vəzifəsi kimi pedaqoji fəaliyyət prosesində həyata keçirir, cəmiyyət üçün layiqli, yararlı, milli ruhlu, vətənpərvər vətəndaşlar, layiqli insan formalaşdırır.

Pedaqoji peşə, müəllimlik peşəsi yarandığı vaxtdan müəllimin əsas vəzifəsi bilik vermək, tərbiyə etmək, inkişaf etdirmək və cəmiyyətə layiqli vətəndaşlar yetişdirmək olmuşdur.

Müəllimin mənəvi təmizliyi, daxili zənginliyi, yaradıcı fəaliyyəti həmişə diqqət mərkəzində olmuşdur. Astronoma teleskop, laboratoriya işçisinə mikroskop lazım olduğu kimi, müəllimə də dərin bilik, yaradıcılıq, axtarıcılıq, yenilikçilik düşüncəsi, yüksək mədəni davranış, mənəvi zənginlik, saf, dürüst əxlaq lazımdır. Belə olduqda müəllim elmlə, ədəb və əxlaqla tədris etdiyi fənni birləşdirib pedaqoji fəaliyyət göstərə bilər.

Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Ona görə də müəllim əməyində onun şəxsiyyəti aparıcı yerlərdən birini tutur. Müəllim şəxsiyyəti lazımi səviyyədə formalaşmazsa cəmiyyətin onun qarşısında

qoyduğu sosial sifarişi həyata keçirə bilməz.

Müəllim gənc qəlbin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini-uşaqları, öz ümidini, öz gələcəyini müəllimə etibar edir. Müəllim isə cəmiyyətin bu "qiymətli sərvətini" bir müqqəddəs vəzifəsi kimi pedaqoji fəaliyyət prosesində həyata keçirir, cəmiyyət üçün layiqli, yararlı, milli ruhlu, vətənpərvər vətəndaşlar, layiqli insan formalaşdırır.

Müəllimin qarşısında duran vəzifələr haqqında Ulu Öndərimiz Heydər Əliyev 1998-ci ildə Azərbaycan Müəllimlərinin Qurultayına müraciətində demişdir: **"Azərbaycan müəlliminin bir amalı olmalıdır. Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir ölkəyə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək".** Bu müdrik sözlərdə müəllimin qarşısında duran vəzifələr aydın ifadə olunmuşdur.

Ümummilli liderimiz həmin məsələyə xüsusi diqqət yetirərək demişdir: **"Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz, çünki bu proses kompleks bir prosesdir və onun səmərəliliyini valideynlərlə pedaqoqların birgə səyi ilə yüksəltmək lazımdır".**

Heydər Əliyevin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq

gücünə malikdir. Bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumən, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.

Təhsil və tərbiyə prosesində müəllimin peşə hazırlığı, savadı, mənəviyyatı mühüm əhəmiyyət daşıyır. **"Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır"**, - deyən dahi rəhbərimizin müdrik tövsiyəsi belədir ki, əsl pedaqoq olmaq, şagird və tələbələrə mükəmməl, hərtərəfli bilik vermək, onları nəcib mənəvi amallara sədaqət ruhunda yetişdirmək üçün məktəblərdə müvafiq şərait, lazımi mühit yaradılmalı, müəllimin özü bu yüksək keyfiyyətləri dərindən mənimsəməli, yetirmələrinə nümunə olmalıdır: **"Məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün ... Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".**

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Ona görə də Heydər Əliyev söz sənətini yaradanlara xüsusi rəğbət bəsləyir, onları vaxtında dövlət mükafatları, fəxri adlarla təltif edir- bir sözlə, yazıçı, şair, sənətkar adını uca tuturdu. Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, Şərqdə, o cümlədən də Azərbaycanda həmişə sənətkara, yazıçıya, şairə böyük hörmət olubdur. Ona görə

**“Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdır”.**

Heydər Əliyevin səlis və aydın nitqi, insanlara humanist münasibəti, demokratik düşüncələri, tolerantlığı, əzmkarlığı, peşə fədakarlığı, dərin zəkası, incə yumoru, dəmir iradəyə sahibliyi, habelə səliqəli geyimi, vüqarlı yerişi, ifadəli baxışları, düzgün davranış və hərəkətləri hər bir müəllimin peşə keyfiyyətləri, peşə fəaliyyəti üçün bir nümunədir.

Ulu Öndərimiz Heydər Əliyevin müəllimlik peşəsinə verdiyi qiymət, təlim və tərbiyə haqqında söylədiyi müdrik fikirlər dünən də, bu gün də, sabah da aktual və əhəmiyyətlidir, O fikirlər pedaqoji elmimizin dəyərli mənbəyi, fəaliyyətimizin kompası, təhsilimizin və pedaqoji elmimizin metodoloji əsasıdır.

Heydər Əliyevin milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində apardığı islahatlar, müəllim əməyinə verilən qiymət bu gün Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müəllimin mənəvi təmizliyi, daxili zənginliyi, yaradıcı fəaliyyəti ilə həmişə diqqət mərkəzindədir. Astronoma teleskop, laboratoriya işçisinə mikroskop lazım olduğu kimi, müəllimə də yaradıcılıq, axtarıcılıq, yenilikçilik düşüncəsi lazımdır. Belə olduqda müəllim elmlə tədris etdiyi fənni bir-birinə birləşdirə bilər.

Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi və

hərəkətverici qüvvəsidir. Ona görə də müəllim əməyində onun şəxsiyyəti və nüfuzu aparıcı yerlərdən birini tutur. Müəllim şəxsiyyəti, şərəf və ləyaqəti lazımi səviyyədə formalaşmazsa cəmiyyətin onun qarşısında qoyduğu sosial sifarişi həyata keçirə bilməz.

Heydər Əliyevin müəllimə xüsusi diqqət və qayğısı haqqında mətbuat səhifələrində xeyli yazılar verilmişdir, həmin yazıların birində Heydər Əliyevin tələbəlik yoldaşı olmuş **Zəkiyə Hacıyeva öz məqaləsində Heydər Əliyevin müəllimə olan münasibət və ehtiramı haqqında çox dəyərli, fikirlər yazmışdır ki, onu müəllif belə qələmə almışdır: "Müəllimə ehtiramın Heydər Əliyev örnəyi".**

**"Dahi siyasətçi, ümummilli lider Heydər Əliyevin vətən və millət qarşısında xidmətlərindən, uğurlu siyasətindən, müstəqil dövlət quruculuğuna verdiyi misilsiz töhfələrdən nə qədər bəhs etsək azdır. Mən bu yazıda Ulu Öndərin Naxçıvanda Pedaqoji Texnikumda Azərbaycan dili və ədəbiyyat müəllimi olan, ədəbiyyatşünas alim, görkəmli maarif xadimi, "İstiqlal" ordenli, Respublikanın Əməkdar müəllimi Lətif Hüseynzadəyə olan münasibəti haqqında söhbət açmaq istərdim.**

Heydər Əliyevin sadə insanlara münasibəti qibtə ediləcək qədər örnək idi. O, hakimiyyətdə olduğu bütün dövrlərdə hara səfər edirdisə, tanıdığı zəhmət adamları ilə görüşür, hal-əhval tutur və onlarla ünsiyyətə can atırdı. Naxçıvanda dövlət qulluğunda işləyərkən onun hər gəlişini səbirsizliklə gözləyər, hər çıxışına diqqətlə qulaq asardım. Görkəmli siyasi xadimin öz

müəllimin olan münasibətinin şahidi olduğum bir neçə məqamını oxucularla bölüşəcəyəm.

I məqam. 1996-cı il oktyabrın 26-da Naxçıvan şəhərində görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin təntənəli açılış mərasimi keçirilirdi. Əlində əsa gözündə qalın eynək olan 100 yaşını haqlamış bir qoca böyük izdihamı yararaq məqbərənin qarşısına yaxınlaşırdı. Bu Heydər Əliyevin Pedaqoji Texnikumda müəllimi olmuş Lətif Hüseynzadə idi. Bu məqam Prezident Heydər Əliyevin diqqətini cəlb etdi. O, pillələri enib, onunla səmimi görüşdü, hal-əhval tutdu, stul gətirdərək onu ön sırada əyləşdirdi, sonra qalxıb tarixi çıxışına davam etdi...

II məqam. 13 oktyabr 1999-cu il tarixdə Naxçıvanda "Kazım Qarabəkir paşa məscidi"nin açılış mərasimi keçirilirdi. Geniş nitqi söyləyən Prezident Heydər Əliyev birdən dayanır, çöhrəsinə təbəssüm qonur, sanki ötən günləri xatırlayır. Üzünü mərasim iştirakçılarına tutaraq deyir: **"Burada mənim gənc vaxtımda, 13-16 yaşlarımda, orta məktəbi bitirdiyim illərdə mənə dərs verən, ana dili, türk dili, Azərbaycan dili dərsi verən müəllimim oturubdur - Lətif Hüseynzadə. Dünən təntənəli mərasimdə öz müəllimlərimi yada salırdım. 60 il, bəlkə də 65 il bundan öncə mənə dərs deyən müəllimlərimdən birinci - əziz müəllimim Lətif Hüseynzadənin adını çəkdim. O, dünən mərasimdə yox idi. Amma, onu yad etdiyimi televiziya ilə eşidib bu gün buraya gəlmişdir. Mən burada onunla görüşdüm. Çox məmnunam, çox sevinirəm ki,**

**indiyə qədər yaşayır, öz fəaliyyətini davam etdirir və böyük işlər görür".**

Daha sonra Heydər Əliyev öz nitqində belə deyir: **"Xatirimdədir, 1982-ci ildə - o vaxt Azərbaycanın başçısı idim, - məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və baş nazirin birinci müavini vəzifəsinə təyin etdilər. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Moskvada üç il ağır şəraitdə yaşayandan sonra Bakıya, oradan da Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik evində yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə gəldi. O qədər sevindim ki! Çünki mən ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al. Naxçıvana təcavüzə icazə vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi, hamımızı qıracaqdılar. Bu mənim gözümün qabağında olan hadisədir. Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi tövsiyələrini verdi".**

8 "AZƏRBAYCAN MÜƏLLİMİ" 2 sentyabr 2024-cü il

# "MƏN ÖZ MÜƏLLİMLƏRİMİ HƏMİŞƏ XATIRLAYIRAM"

*Heydər ƏLİYEV, Ümummilli Lider*

"...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir...".

"...Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...".



III məqam. 18 iyun 2002-ci il. Naxçıvanda görkəmli realist rəssam Bəhruz Kəngərlinin muzeyinin açılış mərasimində geniş nitq söyləyən Prezident Heydər Əliyev yekunda belə deyir: **"Bəli, bu gün demək olar ki, Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindən biridir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının böyük istedada malik insanları olubdur. Yeri gəlmişkən, bu bina haqqında bir neçə kəlmə demək istəyirəm. Çünki mən bu binada oxumuşam, təhsil almışam. Mən burada orta təhsil alandan sonra Bakıya gedib Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə**

**daxil olmuşam. Mən həmişə Naxçıvanda oxuduğum dövrü xatırlayıram, bu dövr mənim yadımdan heç vaxt çıxmayacaqdır. Ona görə də müəllimlərimin hamısı yadımdadır.**

**Mən birinci gün sevdiyim müəllimim Lətif Hüseynzadə ilə görüşdüm. Elə bil ki, dünən idi. O, Azərbaycan dili dərsi keçirdi, Azərbaycan ədəbiyyatı dərsi keçirdi. Məndən bəzən soruşurlar, axı Siz təhsilinizin əsas hissəsini rus dilində almısınız, işlərinizin hamısı, demək olar ki, o dövrün tələblərinə görə rus dilində gedibdir. Bəs nə cür olubdur ki, Azərbaycan dilini bəzi azərbaycanlılar kimi unutmamısınız? - Onlar heç əvvəl də bilməyiblər ki, unutsunlar. Beləl期 xüsusilə Bakıda çoxdur. Amma, o illər Lətif müəllimin, təkcə Lətif müəllimin deyil, başqa müəllimlərimizin də bizə verdiyi dərslər, şəxsən mənə verdiyi dərslər və tövsiyələr bu günə qədər yadımdadır və bütün həyatımda həmişə mənə kömək edibdir".**

Ulu Öndərin böyük məhəbbətlə xatırladığı, ehtiram göstərdiyi Lətif Hüseynzadə 1903-cü il aprelin 24-də Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini şəhərdəki "Xeyriyyə" və "Rüşdiyyə" adlanan məktəblərdə sonra isə 1922-1925-ci illərdə Naxçıvan Müəllimlər Seminariyasında oxumuşdur. Bu təhsil müəssisələrində İstanbulda təhsil almış Hüseyn Caviddən, Təbrizdə, Tehranda təhsil almış onun böyük qardaşı Şeyx Məhəmməd Rasizadədən, Qori Müəllimlər Seminariyasında təhsil almış Əlirza Rasizadədən dərs almışdır. Lətif Hüseynzadə 1925-ci ildə Bakıya gələrək əvvəlcə Pedaqoji

İnstitutda sonra isə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Univeristetdə oxuyarkən Seredinskinin rəhbərlik etdiyi Jurnalistika şöbəsinin məşğələlərinə də gedir, mətbuat işinə ciddi maraq göstəririrdi.

Lətif müəllim hələ məktəb illərindən mətbəəçilik, qəzet nəşr etmək təcrübəsi olmuşdur.Belə ki, Lətif müəllim məktəbi bitirdikdən sonra Naxçıvanda yeni açılmış pedaqoji seminariyada təhsilini davam etdirmiş və buranı bitirdikdən sonra o, müəllimlik etməklə bərabər, 1921-ci ilin əvvəllərindən Naxçıvanda nəşrə başlayan "Cavanlar həyatı" (Sonralar "Şərq qapısı") qəzetində mürəttib və müxbir kimi çalışmışdır.

1928 – 1929-cu tədris ilində Lətif Hüseynzadə universitetin ilk mətbuat orqanı olan "Student – jurnalist" qəzetinin nəşrində fəal iştirak etmişdir. Çox az tirajla buraxılmış universitet qəzetinin bu ilk nömrəsi bəlkə də yeganə nüsxədir ki, Lətif müəllimin arxivində qorunub saxnanılır. Bu barədə Lətif müəllim xatirələrində yazmışdır: "Yaxşı xatirimdədir. 1928-29-cu dərs ilində Darülfünunun 10 illik yubileyində Şərq fakültəsi nəzdində jurnalistika şöbəsi yaradıldı. Biz dərslərimizdən əlavə jurnalistika qrupunun məşğələlərində də iştirak edirdik. Burada qəzetçilik, mətbəə ləvazimatı, redaksiya işlərinə dair dərslər keçirdik. Bu fakültənin rəhbəri professor S. Seredinski idi. Bir gün rektorumuz Tağı Şahbazi qrupumuza gəldi. Tədris işlərindən, problemlərdən danışdı. Biz də Darülfünunda bir qəzet nəşr edilməsini, burada bir mətbəə təşkilini xahiş etdik. Rektor özü də sanki bu fikirdəymiş kimi bizim təklifimizi razılıqla qarşıladı. Biz də həvəslə dərhal işə başladıq. Redaksiya

heyəti təşkil olundu. Redaksiya heyətində A.Şərifov, A.Əfəndizadə, M.A.Dadaşzadə, S.Aşurbəyli, H. Mirzəzadə, Ə.Salamzadə, Ə.Seyidov, A.Məmmədzadə, M.Səlimxanlı, K.Məmmədzadə, İ.Cəfərzadə, D.Səfərzadə və mən – Lətif Hüseynzadə daxil olduq. Qəzetin "Student –jurnalist" adı ilə buraxılmasını qərara aldıq. Qəzetin ilk nömrəsini hazırlamaq üçün iş bölgüsü aparıldı və **1929-cu ilin isti iyun ayında "Student-jurnalist" qəzetinin ilk nömrəsini çıxardıq…»**. Qəzetin başlığı qırmızı şriftlərlə verilmişdir. İlk səhifənin yuxarı hissəsində "Jurnalistika kafedrası" başlıqlı şəkil verilmişdir. Şəkildə ortada rektor Tağı Şahbazi, onun yanında jurnalistika kafedrasının müdiri S.Seredinski və arxada redaksiya heyətinin üzvləri verilmişdir. İlk səhifədə T.Şahbazinin "Böyük yubiley qarşısında" adlı baş məqaləsi, Seridinski ilə müsahibə və A.Şərifin "Türk Mətbuatı gözləyir" adlı məqaləsi getmişdir. Burada müəllif göstərir: qəzet idarələrində son vaxta qədər türklərdən reportyor, felyetonçu və qeyri-ixtisas sahibi yetişdirmək mümkün olmamışdır… Belə bir ehtiyacı ödəmək üçün açılmış Azərbaycan Dövlət Darülfününun yanında mətbuat kafedrasından və studentlərdən böyük fəaliyyət tələb edilir…»Qəzetin növbəti səhifələrində Ə.Salamzadənin "Darülfünun nə verdi?", A.Səlimxanlının "Azərbaycanda jurnalizm", A.Əfəndizadənin "Nəşriyyat işləri nə haldadır", "Qələbə" imzası ilə "Azərbaycan necə öyrənilir?», Tanabeylinin prof. Bəkir Çobanzadə ilə müsahibəsi verilmişdir...."

Lətif Hüseynzadə Univeristeti bitirdikdən sonra İlk əmək fəaliyyətinə İrəvan Türk Müəllimlər Seminariyasında

başlamışdır. O 1930-1936-cı illərdə bu Seminariyada dərs demişdir. 1936-cı ildən 1940-cı ilədək Naxçıvan Pedaqoji Texnikumunda müəllim və dərs hissə müdiri vəzifəsində işləmişdir. Daha sonra C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda müəllim, kafedra müdiri və direktor vəzifələrində çalışmışdır.

Lətif Hüseynzadə Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elmi Mərkəzində elmi işçi, daha sonra direktor, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutunda dil-ədəbiyyat metodikası şöbəsinin müdiri, İrəvan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda dosent vəzifəsində çalışmışdır. O, pedaqoji fəaliyyəti ilə yanaşı, xeyli elmi araşdırmalar aparmışdır. Azərbaycan ədəbiyyatının aktual problemlərinə dair əsərlər yazmışdır. Mütəmadi olaraq dövri mətbuatda məqalələr çap etdirmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin istedadlı davamçılarından olan satirik şair Əliqulu Qəmküsarın həyat və yaradıcılığı mövzusunda namizədlik dissertasiyası müdafiə edən Lətif Hüseynzadə orta əsrlər divan ədəbiyyatını da ətraflı araşdırmışdır. O, XV əsrdə yaşamış Qaraqoyunlu hökmdarı Müzəfərəddin Cahanşahın "Həqiqi" təxəllüsü ilə Azərbaycan və fars dillərində yazdığı əlyazma "Divan"ını İrəvan Əlyazmalar İnstitutundan aşkara çıxararaq, böyük tirajla nəşr etdirmişdir. Lətif Hüseynzadə Dədə Qorqud dastanının, Qazi Bürhanəddin, Nəimi, Nəsimi, Heyran xanım, Qönçəbəyim kimi sənətkarların ilk tədqiqatçılarından biri olmuşdur. Külli miqdarda elmi məqaləsi və 10 elmi-kütləvi monoqrafik əsəri dərc olunmuşdur.

Lətif Hüseynzadə ötən əsrin əvvəllərində erməni-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Naxçıvanda törətdikləri qırğınların şahidi kimi tarixi əhəmiyyətli xatirələrini qələmə almış. Alimin bu xatirələri "Araz şahiddir. Kazım Qarabəkir Paşa Naxçıvanda" adı ilə ölkəmizdə (2002) və Türkiyədə (2008) nəşr olunmuşdur.

2002-ci ildə Prezident Heydər Əliyev Lətif Hüseynzadənin 100 illiyinin dövlət səviyyəsində keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə göstəriş vermiş və onu Azərbaycanın ali mükafatı - "İstiqlal" ordeni ilə təltif etmişdir. 2007-ci il may ayının 9-da "Azərbaycan müəllimi" qəzetinə verdiyi müsahibəsində Lətif Hüseynzadə yubileyində ümummilli liderin onu təbrik etdiyini iftixarla belə söyləmişdir: "Heydər Əliyevin özü Bakıdan mənim 100 illiyimi təbrik etdi. Məni Vətənin ən yüksək ordeni ilə - "İstiqlal" ordeni ilə təltif etdi. Bu mənim üçün böyük şərəfdir. Bu orden müəllim əməyinə, bütün müəllimlərə, onların fədakar pedaqoji fəaliyyətinə verilən yüksək qiymətdir. Dahi rəhbərin mənə göndərdiyi təbrik məktubu müəllimə göstərilən hörmətin parlaq bir nümunəsidir. Dövlət başçısından, zəmanənin ən böyük tarixi simasından, dünya siyasətinin liderindən xoş sözlər duymaq, eşitmək böyük xoşbəxtlik və böyük iftixardır. Heydər Əliyev öz dərin zəkası, diplomatik siyasəti ilə bütün dünyanı fəth etmiş və Azərbaycanı bütün dünyaya tanıtdırmışdır. Onun Vətənimiz, xalqımız qarşısındakı xidmətləri tarixdə misli görünməyən və heç vaxt unudulmayan xidmətlərdir…"

**(Zəkiyyə Hacıyeva, Suraxanı rayon Heydər Əliyev Mərkəzinin baş elmi işçisi Mədəniyyət.- 2015.- 8 may.- S. 7).**

Bakı Dövlət Universitetinin professoru, Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü Rauf Cəfərov "Vedibasar" qəzetində dəyərli bir məqaləsində Lətif müəllimin İrəvanda maarifçilik mühitində fəaliyyəti haqqında, daha sonra isə Naxçıvanda Pedaqoji Texnikumda fəaliyyətinə dair maraqlı məqamlara toxunmuşdur ki, o məqalədən müəyyən parçalar oxucularımız üçün də çox maraqlı olar: "Müasir dövrün ən şanlı azərbaycanlılarından biri - Heydər Əliyevin ilk müəllimlərindən biri, Ulu Öndərin Naxçıvannda tələbəlik illərinin yaxından canlı şahidi olmuş Lətif Hacı Talıb oğlu Hüseynzadə 24 aprel 1903-cü ildə Azərbaycan türklərinin qədim yaşayış məskənlərindən biri olan, Naxçıvanda, Araz çayının ləpədöyənində yerləşən Qaraçuq kəndində Qaraçuxalılar,- Qaraxanbəyli obasında dünyaya göz açmış, həyatının müəyyən bir hissəsi və yaradıcı fəaliyyəti İrəvan şəhəri ilə sıx bağlı olmuşdur. Böyük azərbaycanlılar, İrəvanda ilk gimnaziyanın təməlini qoymuş şuşalı Haşım bəy Nərimanbəyov, naxçıvanlı Cəlil Məmmədquluzadə, ordubadlı Yusif Məmmədəliyev kimi, Lətif Hüseynzadə də uzun illər Qərbi Azərbaycanda maarifçiliyin, o cümlədən ali təhsilin inkişafına xidmət etmişdir.

Lətif Hüseynzadə Bakı Dövlət Universitetinin ilk məzunlarından biri kimi təyinatla İrəvan Türk Pedaqoji Texnikumuna müəllim göndərilmişdir. Daha sonra Naxçıvan Pedaqoji Texnikumunda əvvəlcə müəllim olmuş, daha sonra

dərs hissə müdiri (1936-1940) vəzifəsində çalışmış, C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda müəllim, dosent, kafedra müdiri, direktor, Azərbaycan Elmlər Akademiyasının Naxçıvan filialında elmi işçi, daha sonra direktor, Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda dil-ədəbiyyat metodikası şöbəsinin müdiri işləmiş, yenidən İrəvana qayıdaraq İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində dosent vəzifəsində çalışmış və ailəlikcə İrəvana köçüb bir neçə on illər ərzində Azərbaycanın Qərbində gələcək ali təhsilli pedaqoji kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir.

Lətif müəllim böyük pedaqoq, namuslu insan, fəal vətəndaş, Dövlət qarşısında sözünün kəsəri olan təəssübkeş bir azərbaycanlı ziyalısı olmuşdur. ..Lətif müəllimin maraqlı və çox əhəmiyyətli xatirələrindən biri Böyük Öndər Heydər Əliyevlə ilk tanışlığı hadisəsidir. Lətif müəllim bu tanışlıq haqqında belə söyləmişdir: *'30-cu illərinin ortaları idi, dərs ili bir neçə həftə idi başlamışdı. Naxçıvan Pedaqoji Texnikumunda dərs hissə müdiri vəzifəsində çalışırdım. Bir gün səhər pəhləvan cüssəli ağbəniz bir kişi – bu dəmiryolçu Əlirza kişi idi , özü kimi hündürboylu, yaraşıqlı bir gənc ilə - bu Heydər Əliyev idi - otağa daxil oldular. Əlriza kişi atam Hacı Talıbın başmaqçı dükanına tez- tez gələrdi.Əlirza kişi Lətif müəllimə, yeniyetmə oğlu Heydərin müəllim olmaq istəyini bildirdi. O zamanın tələbinə uyğun olaraq yeniyetmə Heydər Əliyevlə geniş müsahibə apardım. Müsahibə çox uğurlu keçdi. Heydər Əliyev suallara çox düzgün və məntiqli cavablar verdi. Bu gəncin çox zəkalı, ağıllı, geniş dünyagörüşlü olduğu aydın hiss edilirdi. Onlar birlikdə*

*direktorun otağına daxil oldular və Lətif müəllim direktora bildirdi ki, bu gənci texnikuma qəbul etməliyik, mən onunla müsahibə apardım, çox ağıllı, məntiqli cavablar verdi, o gələcəyin dahisi olacaqdır... Direktor gülümsəyərək bildirdi ki, onda riyaziyyatdan da müsahibə keçriməli, Tofiq Bektaşini dəvət etmək lazımdır. Tofiq müəllim çox tələbkar bir riyaziyyatçı idi və onu elmi tərəfdən razı salmaq, ondan qiymət almaq çox çətin bir iş idi. Tofiq müəllimin verdiyi tapşırıqları Heydər Əliyev tez və düzgün həll edərək riyaziyyat bilikləri haqqında da müsbət rəy yaratdı və onun cavabaları "Əla" qiymətləndirildi. Beləliklə gənc Heydər Əliyevi Pedaqoji Texnikuma qəbul etdik. Elə həmin gün bu yaraşıqlı gənc, gələcəyin böyük Dövlət xadimi və Azərbaycan xalqının gələcək milli lideri, dünyanın ən böyük ölkəsi olan SSRİ-nin rəhbərlərindən biri olacaq Heydər Əlirza oğlu Əliyev dərhal sinfə, dərs otağına dəvət edildi. İlk gündən o tələbələrin sevimlisi oldu, onların böyük hörmət və rəğbətini qazandı, özü də texnikumun ən fəal, bilikli, bacarıqlı tələbələrindən oldu..."* (Rauf Cəfərov."Vedibasar" qəz. "Ulu Öndər, ilk müəllimi...." adlı (30 iyun- 30 iyul 2025- ci il, № 13-14).

İrəvan Dövlət Pedaqoji İnstitutunda ən sevimli tələbələrindən biri olmuş, institutu bitirəndən sonra, elə həmin il İrəvan şəhər M.F. Axundov adına Azərbaycan orta təhsil məktəbinin tərbiyə işləri üzrə direktor müavini kimi əmək fəaliyyətinə başlamış, sonralar Azərbaycan Respublikasının Əməkdar Müəllimi adına yayiq görülmüş, İrəvanın qədim ailələrindən birinin övladı olan Mənzərə xanım Əli qızı Cəfərova (Qasımova) ömrünün son illərində bu sətirlərin tərtibçisi olan oğlu ilə təhsil illəri xatirəsini bölüşərkən müəllimi

olmuş Lətif müəllim haqqında bir xatirəsini də söyləmişdir: *'1965-ci ilin yaz günlərinin birində, 24 apreldə səhər 8-də Gedərçay məhəllləsindəki evimizdən çıxıb, Lətif müəllimin növbəti ad gününü hansı sözlərlə təbrik etməyimi götür-qoy edərək, başımı qaldırıb, evimizin qarşısında yerləşən Pedaqoji İnstitutun əsas binası istiqamətinə baxarkən böyük izdiham gördüm. Sən demə ayın bu tarixində, vur tut 15-20 il qabaq siyasət elminə daxil edilən genosid termininindən "yararlanan" hayların, özlərinə qarşı da "soyqırım törədildiyinin" (?!) üstündən 50 il keçdiyi indi yadlarına düşmüşdü. İçərilərində erməni gənclərini qisasa çağıran, türklərə ölüm, azərbaycanlılara qarğış və təhqirlər yağdıran milliyətçi-şair Silva Kaputikyanın da olduğu bir qrup hay-küyçü erməni "ziyalısının" təhriki ilə gənc erməni tələbələr, azərbaycanlı tələbələrin institut binasına daxil olmasına imkan vermirdilər. Uzun illər özünü beynəlmiləlçi və dost kimi təqdim edən bu "şair qadının" mikrofonla hay-küyü guya ki, 1915-ci il aprelin 24-də Osmanlı İmperiyasında o ərazilərdə o sayda əhalinin olmadığı bir milyon yarım ermənininin qətlə yetirilməsi uydurması haqqında idi. Şübhəsiz ki, dövlət orqanlarının bu aksiyadan xəbərləri olmamış olmazdı, bəlkə də altdan-altdan elə özləri bu provokasiyalara rəhbərlik edirdilər. Bu dəqiqələrdə Lətif müəllim də institutun qapısına yaxınlaşmışdı, biz azərbaycanlı tələbələr onun ətrafına toplaşdıq, o, bizə heç bir təxribata getməməyi tapşırdı və institut binasına daxil oldu.Bir neçə dəqiqədən sonra rektor ilə qayıtdı, artıq binanın qarşısına İrəvan Şəhər İcraiyyə Soveti sədrinin xidməti maşını yetişmişdi. Şübhəsiz ki, hakimiyyət orqanlarına daha yüksək instansiyalardan məlumatlar daxil olmuşdur. Fəlsəfə müəllimimiz dosent Sabir Əsədov, Ermənistan*

*Dövlət Təhkükəsizlik komitəsinin məsul işçisi Səfər Əliyev, Sovet Ermənistanı qəzetinin məsul işçisi Teymur Əhmədov özlərini institututa çatdırıb bu təxribatın qarşısını almağa çalışırdılar. Müəyyən söhbət və müzakirələrdən sonra nəhayət azərbaycanlı tələbələrin binaya daxil olmasına icazə verildi. Lətif müəllimin cəsarətlə institua daxil olub rəhbərliyi ayağa qaldırması, İrəvan hökümət rəhbərliyini məlumatlandırması, həmkarlarını bu hadsəyə cəlb etməsi onun bir ziyalı, bir vətəndaş mövqeyi idi.*

*Lətif müəllimin fəaliyyəti ictimai, pedaqoji sahələr ilə məhdudlaşmırdı. O, ciddi elmi axtarışlarla da məşğul idi. İrəvanda yerləşən Mətndaran (Əlyazmalar) adlanan fondda elmi axtarışlar apararaq Qaraqoyunlu Dövlətinin hökmdarı dahi Azərbaycan şairi Cahanşah Həqiqinin divanının əlyazmasının, çətinliklə də olsa, mikrofilmini çıxarmış, orta əsrlər mədəni irsimizi daha da zənginləşdirmişdir. Mehriban, gülərüz, səmimi, gümrah görkəmli bu müdrik insana hamı doğma hisslərlə yanaşıb, hörmət və ehtiramlarını daim bildirirdilər. Ali təhsil illərini başa vurduq. Amma Lətif müəllimin xatirəsi daim qəlblərdə yaşayır"* ((Rauf Cəfərov."Vedibasar" qəz. "Ulu Öndər, ilk müəllimi...." adlı (30 iyun- 30 iyul 2025- ci il, № 13-14).

Heydər Əliyev dəfələrlə bildiridi ki, mənə dərs deyən, uşaq vaxtlarımdan, gənclik çağlarımdan məni tərbiyə edən müəllimləri heç vaxt unutmamışam, həmişə onları minnət-darlıqla yad etmişəm- mən bunu həm cəmiyyətdə müəllimlərə hörməti daha da artırmaq üçün, həm də böyük bir həyat yolu keçmiş insan kimi, müəllimin cəmiyyətdə nə qədər mühüm rol oynadığını qeyd etmək üçün deyirəm. Əgər müəllim olmasa,

heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta və bugünkü kimi fəaliyyət göstərə bilmərik.

Ümummilli lider müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişdir-"...hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir-bu, mənim prinsipial mövqeyimdir". Ümumiyyətlə, müəllim haqqında, onun keyfiyyətləri barədə günlərlə, saatlarla danışsaq da fikrimizi bitirə bilmərik. Azərbaycanda görkəmli ziyalılarımız, elm və sənət adamlarımız, ədiblərimiz hər zaman müqəddəs varlıq olan müəllim haqqında dəyərli fikirlər söyləmişlər.

Ulu Öndər söyləyirdi ki, müəllimlərimizin əsas vəzifəsi əlbəttə ki, ilk növbədə, gənc nəslə – məktəblərə qədəm qoyan şagirdlərə, ali məktəblərə qəbul olunan gənclərə yaxşı təhsil verməkdən ibarətdir. Amma gərək unutmasınlar ki, hər bir azərbaycanlı gənc yaxşı təhsil almaqla yanaşı, həm də gərək dəyərli vətəndaş kimi formalaşsın, öz dövlətinə, millətinə və xalqının adət-ənənələrinə sadiq vətəndaş kimi yetişsin!

Ümummilli liderin memarı olduğu Azərbaycan Respublikası bu gün dünya durumunu müəyyənləşdirəcək güc mərkəzlərinin hesablaşdığı varlı, inkişaf etmiş, güclü orduya malik, torpaqlarını azad etmiş, qürurlu, məğrur, "Kosmik ailə"nin üzvü, müxtəlif sahələrə aid öz modelini yaradaraq ixrac edən, nümunə olan, Böyük Turan Birliyini qurmağı hədəfləmiş dünya dövlətidir. Bütün bu qazanılan və qazanılacaq neçə-neçə uğurların sarılmaz əsası Ulu Öndərin fenomenal təhsil siyasətinin məntiqi nəticəsidir. "Təhsilimizin məqəsdi gənc nəsilə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan həm də eyni zamanda yetkin vətəndaş olmalıdır"

Ümummili liderin müəllim peşəsinə sonsuz diqqəti onun siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir, müəllim nüfuzunun yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. “Azərbaycanın əldə etdikləri bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur. Azərbaycan müəlliminin tarixən xalqımızın intelektual potensialının formalaşmasında böyük xidmətləri vardır”-deyən Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkədə müəllimlərə, bütövlükdə təhsilə və təhsil işçilərinə eyni həssaslıqla xüsusi diqqət və qayğı göstərilir. Hər yeni dərs ilinin başlanğıcı Azərbaycanda onlarla yeni məktəbin, eləcə də bu və ya digər ali məktəbin, yeni fakültələrin, yeni tədris korpuslarının açılışı ilə yadda qalır.

Azərbaycanda müəllimlərin maddi rifah halının yaxşılaşdırılması məqsədilə Prezident tərəfindən davamlı olaraq xüsusi addımlar atılır.

Azərbaycanın vətənpərvər gəncləri 44 günlük Vətən müharibə ilə torpaqlarımızı yağı düşməndən azad edərək xalqımıza zəfər sevincini yaşatdılar, onlar 23 saat 43 dəqiqəlik antiterror əməliyyatı ilə yadelliləri birdəfəlik qovaraq bütöv Qarabağda üç rəngli bayrağımızı dalğalandırdılar. Danılmaz faktr ki, bizə qələbə sevincini yaşadan hər gəncin bu qədər vətənpərvər ruhlu olmasında müəllimin əməyi əvəzsizdir və bir daha sübut olundu ki, müəllimin uzun illər ərzindəki fəaliyyəti nəticəsində qarşıya qoyulan vəzifələrə-Vətənin keşiyində duran, torpaqlarımız, ümummilli dəyərlərimiz üçün canından keçməyə hazır olan vətəndaşlar yetişdirməyə nail olunmuşdur. Bu, Azərbaycan müəlliminin, təhsilimizin, eyni zamanda Ümummilli liderin siyasətini layiqincə davam etdirən cənab İlham Əliyevin ən böyük uğurudur.

Son illər təhsil sahəsində həyata keçirilən uğurlu islahatlar, məqsədyönlü şəkildə görülən işlər dövlətimizin daha da qüdrətlənməsinə, savadlı, bacarıqlı gənclərin yetişdirilməsinə imkan verir. Düşünürəm ki, biz gələcəkdə də işlərimizi bu istiqamətdə qurmalıyıq-yüksək intellektli, bilikli, bacarıqlı gənclər yetişdirmək ən böyük amalımız olmalıdır, çünki bizi qarşıda böyük işlər gözləyir. Azərbaycanın inkişafını olduğu yerdən daha da irəliləməsi, eyni zamanda Qarabağın, işğaldan azad olunmuş ərazilərin yenidən bərpası intellektlə, biliklə sıx bağlıdır.

Bu gün müstəqil Azərbaycan əzəmətlə işıqlı sabahlara doğru irəliləyir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə atdığımız hər addımda isə həm milli, həm də bəşəri dəyərləri özündə əks etdirən, qəlbi vətənpərvərlik hisi ilə döyünən, torpağımızın hər qarışı uğrunda canlarını fəda edən dəyərli, elmli gənclərimizi görməkdəyik-Vətən müharibəsi bu güc və sevginin bariz nümunəsi oldu. İndiki gənclərin yüksək mənəvi keyfiyyətlərini formalaşdıran isə ölkəmizdə milli təhsil siyasətimizi uğurla həyata keçirən, elm və bilik yollarında yorulmadan fəaliyyət göstərən müəllim ordusudur.

Məhz Azərbaycan müəllimi sabahın hərtərəfli zəkaya malik olan vətəndaşını yetişdirir. Hazırda onlarla gəncimiz dünyanın müxtəlif ölkələrində tanınmış universitetlərdə öz təhsillərini davam etdirməkdədirlər. Bütün bunlar bir daha sübut edir ki, bu gün ölkəmizdə müasir standartlara cavab verən savadlı gənclik formalaşmaqdadır. Bunun üçün isə hər birimizin taleyində əhəmiyyətli yeri olan, bilik xəzinəsini daim insanların üzünə açan müəllimlərimizə borcluyuq. Müəllim öz biliyi, yüksək mənəvi keyfiyyətləri və əməlləri ilə cəmiyyətə layiqli töhfələr verir-bəşəriyyət Yer üzünün bu dəyərli varlığı qarşısında baş əyir.



*Heydər Əliyev  Lətif Hüseynzadə ilə görüşərkən.*

## 2. HEYDƏR ƏLİYEVİN NAXÇIVAN PEDAQOJİ TEXNİKUMUNDA TƏHSİL İLLƏRİ

**1938-1939 - cu tədris ilində Ulu Öndərimiz Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumun məzunu olmuş və burada ilk peşə ixtisasına yiyələnmişdir.**

Heydər Əliyev hələ Naxçıvanda orta məktəbdə oxuduğu illərdə, daha sonra isə təhsil aldığı Naxçıvan Pedaqoji Texnikumda yalnız "əla" qiymətlərlə oxumuş, hər sahədə qabaqcıl və nümunəvi tələbə olmuş, həmişə öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları **daim minnətdarlıqla xatırlamışdır: Heydər Əliyev bu barədə** demişdir: **"Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısı yadımdadır.**

**Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumağım mənim üçün çətin olmayıb. Əksinə, burada olduğu kimi, tələbələr arasında da seçilmişəm. ... Texnikumda çox yaxşı oxuyurdum – bu sözümə görə məni bağışlayın, özümü tərifləmirəm. Hər halda bizim sinifdə hamıdan yaxşı oxuyurdum… Gecə gündüz çalışmışam yaxşı oxuyum. Özü də o vaxt Naxçıvanda elektrik işığı yox idi. Neft lampası var idi.İçində bir az neft, başında da şüşə olur və şüşə də tez-tez sınırdı. Pulumuz yox idi ki, gedib ikinci**

şüşə alaq. Qəzet кağızı ilə şüşəni yamaqlayırdıq кi, ondan istifadə edə biləк. Mən belə охumuşam. Ancaq mən müəllimlərimə minnətdar olmuşam, müəllimlərimi indiyə qədər xatırlayıram....

İndiyə qədər həyatımda keçdiyim yol mənim biliyim, elmim - hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə bağlıdır, eyni zamanda mənim kimi bizim də, xüsusən mənim müəllimə böyük hörmətimlə, ehtiramımla bağlıdır. Mən indi də - on illər keçib üstündən - müəllimlərimi heç vaxt unutmamışam və ömrümün son dəqiqəsinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, cansağlığı və səadət diləyirəm"..İndiyə qədər həyatımda keçdiyim yol mənim biliyim, elmim - hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə bağlıdır, eyni zamanda mənim kimi bizim də, xüsusən mənim müəllimə böyük hörmətimlə, ehtiramımla bağlıdır. Mən indi də - on illər keçib üstündən – müəllimlərimi heç vaxt unutmamışam və ömrümün son dəqiqəsinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün

**müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, cansağlığı və səadət diləyirəm".**

Texnikumun peşəkar, tələbkar müəllimləri Heydər Əliyevin ən sevimli müəllimləri olmuş və özünün də dediyi kimi: **"...39-cıı ildə burada pedaqoji texnikumu qurtarmışam. O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir... Naxçıvan məktəbində müəllimlərimin mənə verdiyi dərslər, o cümlədən başqaları ilə bərabər ana dili, ədəbiyyat dərsləri mənim bu günkü dilimin əsasını təşkil edir. Ona görə mən öz müəllimlərimi həmişə xatırlayıram.**

**Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm, çox böyük şəxsiyyətlər görmüşəm. Yadda qalanları da, qalmayanları da var. Az yadda qalanı var, çox yadda qalanı var. Amma, sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir...".**

Naxçıvanda "Rüşdiyyə" adlı "Yeni üsul" məktəbində İstanbulda təhsil almış Hüseyn Caviddən türk dili, onun böyük qardaşı Tehranda, Nəcəfdə təhsil almış Şeyx Məhəmməd Rasizadədən ərəb dili, kiçik qardaşı Qori Müəllimlər Seminariyasında təhsil almış Əlirzadan rus dili dərsləri almış, Naxçıvan Pedaqoji Texnikumunda dərs hissə müdiri və ədəbiyyat müəllimi kimi çalışmış, "İstiqlal" ordenli "Əməkdar müəllim", dosent Lətif Hüseynzadə haqqında böyük rəhbərimiz Heydər

Əliyev belə deyirdi: **"Pedaqoji texnikumda bizə Azərbaycan dilinin incəliklərini öyrədən, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı öyrədən gözəl müəllimlərimiz var idi. Amma, bu müəllimlərin içərisində Lətif Hüseynzadə xüsusi yer tutur...O sinifdə lövhədə Azərbaycan dilinin qrammatikasından sözləri yazırdı, hər bir sözün düzgün yazılışını, mənasını ətraflı öyrədirdi. Bir də Azərbaycan ədəbiyyatını-şairlərimizi, yazıçılarımızı çox yaxşı öyrədirdi... Lətif Hüseynzadə özü canlı bir tarixdir".**

Lətif müəllim Naxçıvan Pedaqoji Texnikumunda çalışdığı illəri xatirələrində qələmə almışdır ki, onlara da nəzər yetirə bilərik: **(Lətif Hüseynzadə. Xalqın müəllimi. Bakı:Müəllim, 2008)**

"1938--1939 -cu tədris ilində mən Naxçıvanda pedaqoji texnikumda dil-ədəbiyyat müəllimi və texnikumun dərs hissə müdiri işləyirdim. Bizim bu texnikum o zaman Azərbaycanda çox tanınmış, nüfuzlu, şərəfli yeri olan bir texnikum idi. Bura respublikanın hər tərəfindən təhsil almağa gəlirdilər. Hər il texnikumun 700-dən artıq tələbəsi olurdu. Buranın məzunları yüksək ixtisaslı kadrlar kimi ölkənin hər yerində çalışırdlar. Burada çox yüksək səviyyəli, dərin bilikli, tələbkar, eyni zamanda qayğıkeş müəllimlər çalışırdı. Texnikumun direktoru Kazım Talıblı idi. Çox bacarıqlı işgüzar, təşkilatçı və olduqca tələbkar bir şəxs idi. Tofiq Bektaşi Moskvada təhsil almışıdr. Çox ciddi, tələbkar və dərin bilikli fizika-riyaziyyat müəllimi idi. Ondan müsbət qiymət almaq da çox çətin idi. Əli Əliyev tariximizin mükəmməl bilicisi, xüsusilə Naxçıvan tarixini gözəl

bilən onu tədris və təbliğ edən, tələbələrə böyük qayğıkeşliklə yanaşan bir pedaqoq, alim, müəllim idi. Yenə tarix müəllimi Əbülfəz Həsənov – çox ciddi, tələbkar müəllim idi. Əsəd Cəfərli təcrübəli bir müəllim kimi təbiət, biologiya dərslərini tədris edirdi. Bir müddət texnikumun direktoru vəzifəsində də işləmiş və Naxçıvan maarifinin inkişafında xidmətləri böyük olmuşdur. Murad Tutayuq rus dilini çox gözəl bilən fizika-riyaziyyat müəllimi idi. Cəfər İmanov, Əsgər Əhmədov kimya dərslərini tədris edirdilər. Cəlil İskəndərli ədəbiyyat, Abbas Əsgərov Azərbaycan dili müəllimi idi. Həsən Bəy Qaziyev İrəvanda təhsil almış, anatomiya dərslərini aparırdı. Əbdüləzim Bəy Rüstəmov coğrafiya müəllimi idi. Naxçıvanda maarif və mədəniyyətin inkişafında böyük xidmətləri olmuş və ictimai xadim kimi də fəaliyyət göstərmişdir. Sonralar Ordu Generalı olmuş Akim Abbasov texnikumun hərbi rəhbəri idi. Həsən Səfərli riyaziyyat, Nəcəf Qəhrəmanov isə hərbi hazırlıq müəllimləri idilər. Daha sonra Kazımbəy Rəhimbəyov (Qori Müəllimlər Seminariyasının məzunu), Həsən Salayev, David İsrafilov, Xədicə Yusifbəyli, Mirzə Musayev və başqaları texnikumun sevimli müəllimləri idilər. Texnikumda bədən tərbiyə və idman işləri yüksək səviyyədə qurulmuşdu. Bu dərsləri İbrahimxəlil Axundov öyrədirdi. O həm də Rusiyada zabitlik məktəbini bitirdiyindən tələbələrin hərbi təliminə ciddi fikir verirdi. Texnikumda çox zaman orkestr sədaları altında idman məşqləri keçirilir, tələbələrin hərbi-fiziki hazırlığına diqqət verilir, silahdan istitfadə etmək qaydaları öyrədilirdi. İbrahimxəlil müəllim demək olar ki, şəxsi təşəbbüs və səyi ilə

texnikumda hər cür idman avadanlığına malik geniş idman zalı yaratmışdı. Texnikum tələbələrinin gücü ilə şəhərdə futbol meydançası təşkil etmişdi. Texnikumda voleybol, güləş, yüngül atletika, ağırlıq qaldırma, boks, futbol, üzgüçülük kimi idman bölmələri fəaliyyət göstərirdi. Yarışlarda texnikum birinciliyi əldən verməzdi. Bayramlarda, əlamətdar günlərdə şəhərdə qaçış, velosiped yürüşləri təşkil olunurdu ki, ona İbrahimxəlil Axundov başçılıq edirdi. 1937-ci ildə SSRİ Ali Sovetinə ilk dəfə keçirilən seçkilər münasibətilə Naxçıvan-Bakı velosiped yürüşü təşkil olunmuşdu. 12 nəfərdən ibarət tərkib noyabrın 1-də Naxçıvandan çıxmış, 7 noyabrda Bakıya çatmışdı. İbrahimxəlil Axundov ölkədə tanınmış məşhur idmançı idi. Onun Naxçıvan MR-da bədən tərbiyə və idmanın inkişafında görkəmli xidmətləri olmuşdur. Ölkədə idman işlərinin ilk və əsas təşkilatçısı olmuşdu. Muxtar Respublikada idman müəllimlərinin yetişməsində onun böyük xidmətləri olmuşdur. Bunu da qeyd edim ki, 1918-ci ildə İbrahimxəlil Axundovun təşəbbüsü ilə könüllü xalq taburu təşkil edilmişdi. Axundov bu taburla Ordubadın erməni təcavüzündən qorunmasında böyük fədakarlıqlar göstərmişdir. Texnikumumzda hər gün səhər gimnastikasının keçirilməsi ənənəsi var idi ki, bu sonralar bütün şəhər məktəblərinə də yayılmışıdı. Pedaqoji texnikumun tələbələrinin maddi ehtiyaclarını müəyyən qədər ödəmək üçün onlara hər gün pulsuz yemək verilir və xüsusi tələbə geyimi verilirdi. Texnikumun uzaqdan gələn tələbələri üçün yataqxanası da var idi...

Pedaqoji texnikum Naxçıvan Muxtar Respublikasının

maarif və mədəniyyətinin tərəqqisində müəllim kadrlarının yetişməsində, təkmilləşməsində böyük rol oynamışdır. Texnikum müəllimləri ardıcıl olaraq rayonlara gedərək müəllimlər arasında pedaqoji mühazirələr, seminarlar təşkil edirdilər. Əhalinin savadlanması üçün savad kursları açırdılar. Şəhərdə maarif və mədəniyyət ocaqlarında maraqlı elmi, pedaqoji söhbətlər təşkil edir, qəzetdə tez-tez təlim-tərbiyə problemləri ilə bağlı məqalələrlə çıxış edirdilər.

Heydər Əliyev Naxçıvan MR - nın 75 illik yubileyində etdiyi çıxışında dövrünün Naxçıvan pedaqoji, ziyalı mühitini çox yüksək qiymətləndirir və deyirdi: **"...demək istəyirəm ki, burada çox güclü məktəblər, güclü müəllimlər var idi. Təsadüfi deyil ki, Azərbaycanda elə bu gün də, on il də, iyirmi il də, otuz il də bundan öncə böyük alimlərin, elmlə məşğul olan insanların - akademiklərin, professorların, universitetlərdə dərs verənlərin, yaxud Elmlər Akademiyasında, elmi-tədqiqat institutlarında çalışanların çoxu öz həyat yollarını Naxçıvandan başlayıblar. Burada mühit də buna şərait yaradıbdır. Ancaq buradakı məktəblər, ümumiyyətlə məktəb mühiti də şərait yaradıbdır"**...

Naxçıvan Pedaqoji Texnikumu öz məzunları və müəllimləri ilə məktəb və pedaqoji fikri tariximizdə çox layiqli yer tutmuş və Azərbaycan pedaqoji kadrlarının hazırlanmasında müühm xidmətləri olmuşdur.Texnikumun məzunları çox dəyərli, ləyaqətli, vətənpərvər məzunlar olmuşlar ki, onları Qori Müəllimlər Seminariyasının məzunları ilə də müqayisə etmək olar

Pedaqoji texnikumun məzunları arasında vətənə xalqa ləyaqətlə xidmət edən, yüksək səviyyəli elm adamları, akademiklər, şair və yazıçılar, dövlət adamları, böyük vəzifələrdə, dövlət işlərində çalışan şəxslər olmuşdur.

Onların arasında görkəmli akademik Cəlal Əliyev, professor, AMEA-nın müxbir üzvü, Coğrafiya elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Səfərəli Babayev, görkəmli professorlar Əli Sultanlı, Mustafa Hüseynov, Yəhya Məmmədov, Yusif Seyidov, Qaraş Mədətov, Yavuz Axundlu, Sovet İttifaqı Qəhrəmanları Abbas Quliyev, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, istedadlı şair, rəssam, millət vəkili, Əməkdar Müəllim, "Şöhrət" ordenli Dövlət Məmmədov, maarif və mədəniyyətimizin və mətbuatımızın tərəqqisində böyük xidmətləri olan, ictimai xadim, Əməkdar Müəllim Manaf Xudiyev, istedadlı şair, publisit, jurnalist, mətbuat tariximizdə diqqətəlayiq xidmətləri olan Cavad Cavadlı, görkəmli ədəbiyyatşünas-professor İnayət Bəktaşi, onun qardaşı Abbas Bektaşi (II dünya müharibəsində itgin düşmüş), Görkəmli ədəbiyyatşünas ailim, professor Firudin Hüseynov, tanınmış alim, psixoloq, ictimai xadim, professor İsa Məmmədov, xalq yazıçısı, Naxçıvan MR yazıçılar ittifaqının sədri "Şöhrət" ordenli Hüseyn İbrahimov, şair, yazıçı Həsən Fətullayev, filosof-alim Yunis Qasımov maarif və mədəniyyətimizin inkişafında xüsusi xidmətləri olan, öz yetişdirmələrinin xoşbəxtliyi yolunda fədakarcasına çalışan əməkdar müəllim Teymur Nağıyev və bir çox başqaları olmuşdur.

**Texnikumun Səkinə Əliyeva, Səkinə Rzalı, Firüzə Rzayeva, Göyçək Vəzirova kimi qadın məzunları da olmuşdur ki, onlar ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmişlər.**

Texnikumun məzunları içərisində görkəmli ictimai-siaysi xadim, Müstəqil Azərbaycan dövlətinin qurucusus, dünya siyasət aləminin lideri, **Ulu Öndərimiz Heydər Əliyevin xüsusi yeri olmuşdur.**

Heydər Əliyev millətin gələcəyini düşünən lider olaraq bütün həyatını fəaliyyətini canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə, inkişafına, yüksəlişinə həsr etmişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, Azərbaycançılıq ideologiyasının banisi, milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Heydər Əliyev böyük, tarixi hadisələrə imza atmışdır ki, onun titank fəaliyyəti tükənməzdir.

Deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin anadangəlmə fitri istedadı, liderliyə məxsus xüsusi qabiliyyətləri olmuşdur. Heydər Əliyevin liderliyi, hər bir işdə birinci olması onun yalnız siyasi fəaliyyətindən başlamamışdır. O hələ kiçik yaşlarından, məktəbli həyatından, uşaqlıq və yeniyetməlik dövründən, gənclik həyatından lider olmuş və əsası da elə oradan başlamışdır. Heydər Əliyevin yeniyetməlik və gənclik dostları öz söhbətlərində, yazılarında bildirirlər ki, gənc Heydər Əliyev yeniyetməlik və gənclik illərində də çox ağıllı, tədbirli, təfəkkürlü, savadlı, istedadlı, səliqəli, mehriban və həmişə haqq və ədalətin tərəfində olan, qamətli, fiziki cəhətdən

görkəmli bir oğlan idi. Kəndə gələndə bütün kənd cavanları onun başına toplaşar onunla söhbət edərdilər. Onda insanları asanlıqla öz ətrafına toplamaq, onları idarə etmək, onlara rəhbərlik etmək bacarığı çox yüksək idi.

O təhsilində, həmçinin müxtəlif fəaliyyət növlərində yalnız birinci olmuşdur. Heydər Əliyev Naxçıvanda orta məktəbi "Əla" qiymətlərlə bitirmiş və Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuşdur. Burada o mükəmməl pedaqoji təhsil almış, müəllimlik peşəsinə yiyələnmiş və müəllim haqqında bu gün bir aforizmə çevrilmiş dahiyənə fikrini demişdir: **"Mən Yer üzündə müəllim adından yüksək bir ad tanımıram".** Onun bütün fənlərdən aldığı qiymətlər yalnız "Əla" qiymətlər olmuşdur. Ayrıca olaraq əxlaqdan aldığı qiymət də "Əla" dır.


AzSSR
XALQ MAARIF QOMISSARIATЬ

ATTESTAT

Bu attestat 1923 ildə doqulmuş Əlijev (familijası)
Hejdər Əlirza oƣluna (adı və atasının adı)
Naxçıvan şəhər international (şəhər, rajon)
Pedaqoƶi məktəbi məktəb şe'basinin вytyn qursunu ə'la əxlaq
və aşaqьda gestərilən вiliklə вitirdiji ycyn verilir:

| | |
|---|---|
| Ana dili | ə'la |
| Ana dilinin tə'limi metodiqasь | ə'la |
| Ədəвijjat | ə'la |
| Azərвajçan dili | — |
| Rus dili və ədəвijjatь | ə'la |
| Rus dili tə'limi metodiqasь | ə'la |
| Arifmetiqa | ə'la |
| Arifmetiqa tə'limi metodiqasь | ə'la |
| Algeвra | ə'la |
| Geometrija | ə'la |
| Triqonometrija | ə'la |
| Təвijjat | ə'la |
| Təвijjat tə'limi metodiqasь | ə'la |
| Tarix | ə'la |
| Tarix tə'limi metodiqasь | ə'la |
| Geoqrafija | ə'la |
| Geoqrafija tə'limi metodiqasь | ə'la |
| Fiziqa | ə'la |
| Kimja | ə'la |
| Pedaqogiqa | ə'la |
| Məktəв gigijenasь | ə'la |
| SSRI Qonstitusijasь | ə'la |
| Xariçi (franuz) dil | ə'la |
| Rəsm | ə'la |
| Rəsm tə'limi metodiqasь | ə'la |
| Rəsmxətt | ə'la |
| Fizqultura | ə'la |
| Fizqultura tə'limi metodiqasь | ə'la |
| Nəqmə və musiqi | ə'la |
| Hərвi iş | ə'la |
| Məktəвdə praqtiqa | ə'la |

Vətəndaş Əlijev Hejdər Əlirza oƣlu (familijasь, adь və atasьnь adь)
1938/39 ilin tədris planь yzrə myəjjən edilmiş tələвləri ədədiji ycyn, iвtidai məktəвdə, tam olmajan orta və orta məktəвin I-IV siniflərində myəllimlik hyququna malikdir.

25 ijun – июня 1939
№ 2027

Pedaqoƶi məktəв direqtoru:
Директор педучилища:

АзССР
НАРОДНЫЙ КОМИССАРИАТ ПРОСВЕЩЕНИЯ

АТТЕСТАТ

Настоящий аттестат выдан Алиеву Гейдару Алирза (фамилия, имя и отчество)
оглы, родивш. в 1923 году
в том, что он окончил полный курс обучения школьного
отдела Нахичеванского интернацион. (город, район) Педагогического училища и обнаружил, при отличном поведении, следующие знания:

| | |
|---|---|
| По родному языку | отлично |
| „ методике преподавания родного языка | отлично |
| „ литературе | отлично |
| „ азербайджанскому языку | — |
| „ русскому языку и литературе | отлично |
| „ методике преподавания русского языка | отлично |
| „ арифметике | отлично |
| „ методике преподавания арифметики | отлично |
| „ алгебре | отлично |
| „ геометрии | отлично |
| „ тригонометрии | отлично |
| „ естествознанию | отлично |
| „ методике преподавания естествознания | отлично |
| „ истории | отлично |
| „ методике преподавания истории | отлично |
| „ географии | отлично |
| „ методике преподавания географии | отлично |
| „ физике | отлично |
| „ химии | отлично |
| „ педагогике | отлично |
| „ школьной гигиене | отлично |
| „ Конституции СССР | отлично |
| „ иностранному (французск.) языку | отлично |
| „ рисованию | отлично |
| „ методике преподавания рисования | отлично |
| „ чистописанию | отлично |
| „ физкультуре | отлично |
| „ методике преподавания физкультуры | отлично |
| „ пению и музыке | отлично |
| „ военному занятию | отлично |
| „ практике в школе | отлично |

Гражданин Алиев Гейдар Алирза оглы (фамилия, имя и отчество)
как выполнивший установленные учебным планом 1938/39 г. требования, пользуется правом преподавания в начальной школе, I-IV классах неполной средней и средней школы.

Myəllimlər:
Учителя:

Texnikumun nəzdində qüvvətli tələbə dram dərnəyi var idi. Bu dərnəkdə kiçik tamaşalar hazırlanırdı. Heydər Əliyev burada fəal iştirak edirdi.

Pedaqoji texnikumda təhsil aldığı illərdə Heydər Əliyev rəssamlıqla məşğul olmuş, musiqi ilə məşğul olmuş, Texnikumda yaradılmış tələbə dram dərnəyinin rəhbəri olmuş, burada tamaşalar göstərilmiş, özü  də aktyor kimi burada ardıcıl olaraq çıxış etmişdir. O Pionerlər evinə getmiş tar dərnəyində tar çalmış, idmanla, üzgüçülüklə ciddi məşğul olmuş, daim mütaliə etmiş, dəyərli kitablar oxumuşdur. Bütün bu işlərdə Heydər Əliyev hər zaman öndə olmuş, birinci olmuş, uğurlu olmuş və həyatda həmişə fəal mövqe tutmuşdur.

Ulu Öndər, milli lider daha sonra Leninqradda (Sankt-Peterburq) DTK məktəbində təhsil aldığı illərdə, daha sonra da Bakı Dövlət Universitetindən məzun olduğu zaman onun təhsil haqqında sənədlərində yenə də yalnız "Əla" qiymətlər olmuş, bütün fəaliyyət növlərində ən fəal, ən qabaqcıl olmuş, daim yoldaşlarına kömək etmiş, qayğısına qalmış birinciliyi heç zaman əldən verməmişdir.

Heydər Əliyev tələbəlik illərində yoldaşları arasında böyük hörmət və nüfuz qazanmış və özünü həmişə fəal bir şəxsiyyət kimi aparmışdır. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar olmuşdur. Elmlərə yiyələnmək, ictimai işlərdə fəal iştirak etmək həvəsi daim yüksək olmuşdur. Öz düşüncə tərzi, həyata baxışı, insanlara münasibətilə  ilə fərqlənmişdir.

**1918-ci ildə Türkiyədən Naxçıvana xeyli türk ədəbiyyatı, kitablar, məcmuələr göndərilmişdi. Naxçıvanda Milli**

**Kitabxananın əsası da elə bu kitablarla qoyulmuşdur.** Burada zəngin türk ədəbiyyatı kitabxanası yaradalmışdı. Bu kitabxana tələbələrin ən sevimli yerlərindən biri idi. Heydər Əliyev tez-tez bu kitabxanaya gedər və buradakı kitabları həvəslə mütaliə edərdi. Bədii təfəkkürü də çox yüksək idi. İstər türk klassiklərinin əsərləri, istərsə də rus, Avropa yazıçılarının əsərlərini orijinaldan mütaliə edirdi. Rus dilini gözəl bildiyindən Lev Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyub məzmununu tələbə yoldaşlarına danışırdı. Türk ədəbiyyatını-Rəşad Nuri Güntəkinin əsərlərini Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərini böyük həvəslə oxuyurdu. Sonralar öz çıxışlarının birində - 1997-ci ildə Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində deyirdi: **"Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam".**

Heydər Əliyev bütün fənləri əla oxuyurdu. Hər bir dərsə səylə hazırlaşır, əlavə materiallarla maraqlanırdı. Tələbələr də onu çox sevir ona hörmətlə yanaşırdılar. O, dərs danışanda

sinifə tam sükut çökürdü. Uşaqlar ona diqqətlə qulaq asırdılar. Gözəl nitqi, ifadəli danışıq tərzi var idi. Qədd-qamətli, yaraşıqlı siması, şax duruşu, zabit yerişi var idi. O fəaliyyətində qətiyyətli, inamlı, tapşırılan işə məsuliyyətli idi. Onun ifadəli baxışları, nəzakətli rəftarı, mədəni davranışı, hamıya mehribanlıqla, hörmət və qayğı ilə yanaşması və xüsusilə həmişə hər yerdə birinci olmağa səy göstərməsi bu tələbənin səciyyəvi xüsusiyyətləri idi.

Mən indi 100 yaşımı keçmiş bir dövrdə o illəri xatırlayarkən yenə düşünürəm ki, Heydər Əliyev sanki elə o vaxtdan böyük bir rəhbər, lider olmaq arzusunda olmuş, xalqa, millətə daha yaxşı, firavan həyat bəxş etmək istəyində olmuşdur.

Heydər Əliyev heç vaxt tək özünü düşünməmişdir. Ətrafdakı insanların həyatının yaxşılaşdırılması haqqında həmişə düşünmüşdür. O yoldaşlarının qayğısına qalır, onların problemləri ilə maraqlanır ehtiyacı olanlara kömək etməyə çalışırdı.

**Heydər Əliyev texnikumda keçilən bütün fənləri eyni dərəcədə çox yaxşı öyrənir və yalnız "əla" qiymətlər alırdı.** Müəllimlər tələbələrin fəaliyyəti haqqında danışanda Heydərdən daha çox danışırdılar. Tofiq Bəktaşı deyirdi ki, ondan yaxşı riyaziyyatçı olacaq, onda riyazi təfəkkür çox yüksəkdir. Tarix müəllimi də bildirirdi ki, Heydər tariximizi dərindən öyrənir, ciddi maraqlanır, o yaxşı tarixçi ola bilər. Mən isə fikirləşirdim ki, Heydər Əliyev ən yaxşı ədəbiyyatçı, dilçi ola bilər. İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi.

**Heydər Əliyev yaxşı oxumaqla bərabər, həm də yaxşı rəssam idi, incəsənəti çox sevirdi.** Müəllimlərimiz öz yetişdirmələrinə bilik verməklə bərabər, onlara təbiəti, doğma vətən torpağının gözəlliklərini sevdirir, müxtəlif yollarla estetik zövqlərini inkişaf etdirirdilər. Doğma diyarımıza ekskursiyalara gedib qayıtdıqdan sonra tələbələrə ekskursiyadan aldıqları təəssüratdan inşa yazmağı tapşırırdıq. Hamı yazırdı. Amma, Heydər fərqli yazırdı. O ekskursiyadan aldığı təəssüratı çox məzmunlu yazmaqla bərabər ekskursiyada gördükləri gözəlliklərini təsvirini də qələmə alırdı. Tarixi yerlərə, abidələrə getdiyimiz zaman o oranın tarixi haqqında ətraflı məlumat toplayır, yazır və tarixi abidənin rəsmini də  çəkirdi. Məsələn, Möminə Xatın, Yusif ibn Küseyr məqbərələrinin şəkillərini, Haça dağın rəsmini öz dəftərinə çəkmişdi. Naxçıvanın 75 illiyinin təntənəli qeyd edilməsi mərasimində iştirak edən Heydər Əliyev Möminə Xatun məqbərəsinə yaxınlaşaraq dedi ki, mən memar Əcəminin yaratdığı bu əsəri çox sevirəm. Bu abidənin hər bir naxışını, hər bir detalını yaxşı bilirəm. Mən bu abidənin nə qədər şəkillərini çəkmişəm…

Heydər Əliyevin tələbə yoldaşı və yaxın dostu bizim sevimli və fəal tələbəmiz olmuş, indi əməkdar rəssam, müəllim, ictimai xadim Dövlət Məmmədov xatirələrinin birində deyirdi ki, "Bizi Heydər Əliyevlə birləşdirən təkcə tələbə yoldaşlığımız deyildi, hər ikimiz həm də rəssamlığa maraq göstərirdik. Tez-tez Möminə Xatun türbəsinin yanına gedib oradan dəmiryol vağzalı istiqamətində olan mənzərələri çəkirdik. 1937-ci ildə rus şairi A.S.Puşkinin 100 illiyi keçirilirdi. Biz də onun əsərlərinə

illüstrasiyalar çəkmişdik… O vaxt təşkil olunmuş sərgidə Heydər Əliyev birinci yeri, qardaşı Hüseyn Əliyevlə mən ikinci, üçüncü yerləri tutduq"("Şərq qapısı" qəzeti, 6 iyul, 2004).

**Heydər Əliyev teatrı, aktyorluq sənətini çox sevirdi.** Texnikumda **b**ir çoxları düşünürdü ki, Heydər Əliyev yaxşı aktyor olacaqdır. O Naxçıvan teatrının daimi tamaşaçısı, fəal iştirakçısı və həvəskar aktyoru idi. Naxçıvan teatrı Azərbaycanın ən qədim teatrlarından biri olub zəngin ənənələrə malik idi. Bu teatrda M.F.Axundovun, C.Məmmədquluzadənin, H.Cavidin, Ü.Hacıbəyovun, Ə.Haqverdiyevin əsərləri səhnəyə qoyulmaqla bərabər, dünya dramaturgiyasının ən görkəmli nümayəndələrinin – Şekspirin, Şillerin, Ostrovskinin, Qorkinin, Əbdülhaq Hamidin əsərləri səhənələşdirilirdi. Bu teatrda görkəmli aktyorlar – **İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Səməd Mövləvi, İsa Musayev, Rza İsfəndiyarlı, Rza Təhmasib, Əli Xəlilov, Mirhəsən Mirişli, Məşədi Mirzə Bağır, Sadıq Həsənzadə, Ruxsarə Ağayeva, Firuzə Əlixanova, Xədicə Qazıyeva** kimi sənətkarlar çalışmışlar.

Heydər Əliyevin həssas qəlbi, zərif, incə zövqü, ifadəli nitqi, insanları duymaq, hiss etmək və onlara təsir etmək qabiliyyəti çox yüksək idi. Bu da onun yüksək pedaqoji, psixoloji qabiliyyətindən irəli gəlirdi. Onun aktyorluğa məxsus səs tonu, gözəl diksiyası və xoş fiziki görünüşü, müsbət aura və emosiyası var idi. Qardaşı Hüseyn Naxçıvan Teatrında rəssam işlədiyindən tez-tez ora gedər, səhnələrin tərtibatında, rəsmlərin çəkilməsində, afişlərin yazılmasında ona kömək edər və özü də teatr üçün rəsmlər çəkərdi.

Naxçıvanda Telman klubu var idi. Bu o zamanlar pionerlər evi adlanırdı. Vaxtilə Bəktaşilərin Zaviyə məscidi və mədrəsəsi bura olmuşdur. Tarixi abidə kimi bu günədək qorunub saxlanmaqdadır.

Heydər Əliyev burada - pionerlər evində tar dərnəyinə getmiş, tar çalmaqla məşğul olmuşdur. Amma, təəssüflənirdi ki, özünün şəxsi tarı yox idi.

Heydər Əliyev qeyd etdiyimiz kimi teatrı çox sevir, tez – tez Naxçıvan teatrının tamaşalarına gedirdi. Özü o illəri xatırlayaraq deyirdi: **"13-14-15 yaşlarında Naxçıvan Dövlət Teatrının tamaşalarına çox böyük həvəs və maraqla baxırdım. İbrahim Həmzəyevin ifa etdiyi rolların vurğunu idim. Sonralar eşitdim ki, İbrahim Həmzəyev dram dərnəyi təşkil edib. Mən o dərnəyə yazıldım və həvəslə iştirak etdim. Mən teatrla gənc yaşlarımdan məşğul olmuşam. Baş rollarda oynamışam. Mən həmişə teatra yaxın və bağlı adam olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdə var".**

Naxçıvan Pionerlər Evində məktəblilər üçün teatr tamaşaları da göstərirdilər. Həmin tamaşaları məşhur rejissor, sonralar Xalq Artisti adını almış İbrahim Həmzəyev səhnələşdirib təşkil edirdi.

Heydər Əliyev texnikumumuzun dram dərnəyinin üzvlərini toplayıb tez-tez teatra aparır və orada tamaşalar göstərirdilər. Özü də tamaşalarda rollarda çıxış edirdi. O həmişə kral, padşah, hökmdar rollarında oynayırdı. Hətta İbrahim Həmzəyev, Zəroş Həmzəyeva kimi peşəkar aktyorlarla

tərəf-müqabil olurdu. İbrahim Həmzəyev deyirdi ki, o rolları əsil peşəkar aktyor kimi oynayır. Teatr, aktyorluq sənəti müxtəlif insan psixologiyaları ilə zəngin bir həyat məktəbidir.

Naxçıvan Pedaqoji Məktəbində təhsil aldığı illərdə bu dram dərnəyinin fəal üzvü olan Heydər Əliyev burada hazırlanan "Qaralar ölkəsində" (K. Həsənov), "Lənkəran xanın vəziri" (M. F. Axundov), "On min manatı kim uddu" (M. Ordubadi), "Qanlı döyüş" (İ. Həmzəyev) kimi tamaşalarda oynadığı rollarla tamaşaçıların, xüsusən də müəllimləri və tələbə yoldaşlarının rəğbətini qazanırdı.

Aktyor sənəti ilə müəllimlik peşəsi arasında çox yaxın əlaqə, yaxınlıq və bənzərlik vardır. Hər ikisi daim müxtəlif rollarda çıxış etməli olurlar. Heydər Əliyev hər iki məktəbi – aktyorluq və müəllimlik məktəbini uğurla başa vurmuşdur. Heydər Əliyev çıxışlarının birində deyirdi: **"Mən həmişə teatra bağlı və yaxın olmuşam. Bu ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdədir. İncəsənətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür. Bu qüvvədən bacarıqla istifadə etmək həmişə vacibdir..."**

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə də teatr tamaşalarına gedir, sonra səhnə arxasına keçərək rejissorla, rəssamlarla, ayrı-ayrı aktyorlarla bu sahənin bilicisi kimi söhbət edər, fikirlərini bildirərdi. Ulu Öndərimiz ömrünün son günlərinə qədər bu ənənəni davam etdirmişdir. Heydər Əliyevin teatra gəlişi, teatr bitdikdən sonra onun səhnə arxasına keçib yaradıcı heyətlə görüşləri, söhbətləri çox mənalı və

əhəmiyyətli idi. Heydər Əliyevi Mustafa Kamal Atatürklə müqayisə edənlər çox haqlıdırlar. Onlar ruhən bir-birinə yaxın olmuşlar. Bəli, bu yerdə Mustafa Kamal Paşanın tamaşadan sonra səhnə arxasına keçib aktyorlarla görüşləri və onu müşayiət edən məmurlara dediyi sözləri xatırlamaq çox yerində olar: **"Əfəndilər, onu bilin ki, hər biriniz nazir, millət vəkili, hətta cumhur başqanı da ola bilərsiniz. Amma, sənətçi, aktyor ola bilməzsiniz. Gəlin həyatını bu müqəddəs işə qurban verənləri sevək!"**.

**Heydər Əliyev texnikumda bədən tərbiyəsi və idman işlərinin əsas təşkilatçısı idi.** O texnikumda idmanın bütün növləri ilə məşğul olmuşdu. Yarışlarda fəal iştirak edirdi. Üzgüçülüyü daha çox sevir və üzgüçülüklə məşğul olurdu.

Heydər Əliyev böyük ictimaiyyətçi və təşkilatçı idi. Hər zaman tələbələrin, gənclərin arasında idi. Xatırlayıram ki, o zamanlar bir dövr yaranmışdı ki, şəhərdə məhəllələr arasında ardıcıl savaşlar meydana gəlmişdi. Bir məhəllənin gəncləri o biri məhəllənin uşaqlarını, gənclərini daşlayır, vururdular. Bu da Naxçıvana köçürülən gəlmələrin fitnə-fəsadları idi. Bu vəziyyətin daha da böyümək və genişlənmək təhlükəsi də var idi. Bu təhlükəli halın qarşısını məhz Heydər Əliyev aldı. Məhəllənin böyükləri ilə, savaşanların başçıları ilə "tədbirli" görüşdü, onların böyükləri ilə, valideynləri ilə söhbətlər apardı və bu fitnə-fəsadı o aradan qaldırdı. Heydər Əliyev deyə bilərəm ki, hələ yeniyetmə – gənclik dövründə belə hərtərəfli inkişaf etmiş bir şəxsiyyət, təşkilatçı bir lider olmuşdur.

Heydər Əliyev pedaqoji texnikumu müvəffəqiyyətlə bitir-

di. Onun texnikumu bitirmək haqqında "Attestat"ında yalnız "Əla" qiymətlərdir. Fəxr edirəm ki, həmin Attestatda mənim də imzam vardır..."

Heydər Əliyev bütün siyasi fəaliyyəti dövründə müəllimə, onun şəxsiyyətinə daim böyük hörmət və diqqətlə yanaşmışdır. Bu diqqət və qayğı onun böyüklüyünün, müəllimə göstərilən hörmət və qayğının ən parlaq nümunəsidir.




Özünün bütün həyatını Azərbaycana, onun inkişafına və tərəqqisinə sərf edən Heydər Əliyev başqa sahələrdə olduğu kimi, xalqımızın təhsilinə, onun yüksəlişinə, bu sahədə şərəflə çalışan insanların şəxsiyyətinə, işinə, əməyinə həmişə yüksək qiymət vermiş, onlara böyük hörmət və ehtiramını bildirmişdir. Bu hörmət və ehtiram onun bütün çıxışlarında, fəaliyyətində özünü göstərmişdir. İstər müəllimlər qarşısında çıxışlarında,

istər müəllimlər qurultayına göndərdiyi təbrik məktubunda, istərsə də respublikamızın problemləri ilə bağlı digər məruzə və çıxışlarında bu xətt həmişə olmuş və özünü göstərmişdir.

Bəli, Heydər Əliyev hərtərəfli inkişaf edərək, dahi bir şəxsiyyət, dinya şöhrətli siyasətçi, xalqın milli lideri, Ulu Öndərimiz olmuşdur.

Heydər Əliyev pedaqoji texnikumda təhsil illərində onun tələbə yoldaşları, onunla bir qrupda təhsil alan yoldaşları çox maraqlı xatirələr yazmışlar ki, onları da diqqətə çatdıraq. Onlar Heydər Əliyev haqqında xatirələrində bildirmişlər ki, Ulu Öndər hələ tələbəlik illərində yüksək mənəvi, əxlaqi keyfiyyətlərə, liderlik xüsuiyyətlərinə malik idi. O insanlara, böyüklərə, müəllimlərə xüsusi qayğı və hörmətlə yanaşır, insanlara hörmət və qayğısından, müəllimlərə dərin ehtiram hisslərindən xəbər verir.

**Həsən Salayev yazır:** "Naxçıvanda Pedaqoji Texnikumda oxuyarkən sinifdə çox uşaq vardı, buna görə də elə ilk gündən etibarən dörd – beş nəfərdən ibarət müxtəlif dostlar qrupu yarandı. Bizim qrup da məhz Heydər adlı yeniyetmənin ətrafında formalaşdı.

Sinifimizdə təhsil alanların əksəriyyətindən fərqli olaraq Heydər ətraf rayonlardan deyildi, Naxçıvan şəhərində anadan olmuşdu və burada yaşayırdı. Elə birinci gündən başlayaraq bu gənc nəinki bizim kiçik qrupun, bütün sinfin liderinə çevrilmişdi. Sinifdə ən yaxşı oxuyan beş nəfər sırasında Heydərlə mən də var idim.

4 il bir yerdə oxuduq. Heydər Əliyev yeniyetmə olmasına baxmayaraq, özünü elə aparırdı ki, hamıya hər sözünün, hər hərəkətinin yerini bilən insan təsiri bağışlayırdı. Buna görə də özünə qarşı hamımızda bir həsəd yaratmışdı. Ən yaxşı cəhətlərindən biri o idi ki, bütün qrup yoldaşlarımıza, texnikumun başqa kurslarında oxuyanların hamısına eyni münasibət bəsləyir, ona çox hörmətlə yanaşırdılar. Dərs oxumağı ilə nümunə göstərirdi, hamımız heyran qalırdıq. Güclü yaddaşı və məntqi ilə onu tanıyanlarda, tələbə və müəllimlərdə təəccüb doğururdu.

Sadə geyinirdi, çox səliqəli görünürdü. Təmkinli, dərrakəli və ağıllı idi. Dərslərinə ciddi hazırlaşırdı. Tarixi, ədəbiyyatı, riyaziyyatı, ümumiyyətlə, bütün fənləri əla oxuyurdu. Yoldaşlarına da yaxından kömək edirdi. Sanki dünyaya insanlara kömək etmək üçün gəlmişdi.

Yalana, riyakarlığa nifrət edirdi, ədalətsizliyi bağışlaya bilmirdi. Bu da onun təbiətindən doğurdu. Yoldaşlarımız arasında baş verən hər hansı münaqişəni tezliklə və ədalətlə aradan qaldırırdı. Təşkiltçılığı xüsusilə yüksək idi. Bütün tədbirdə, məclislərdə həmişəki kimi sinifin birincisi idi. O, xalq teatrında da fəal iştirak edir, adətən, şah rollarını oynayırdı.

O dövrdə Lətif Hüseynzadə bizə ədəbiyyatdan dərs deyirdi. Heydər Əliyevin heç kimə məxsus olmayan fitri istedadını, fenomen yaddaşını, digər müsbət keyfiyyətlərini, mən deyərdim ki, ilk dəfə elə Lətif müəllim kəşf etdi. Lətif müəllim deyirdi ki, **"Heydər, sən adi tələbə deyilsən, səndə çox qeyri – adiliklər var. Sən gələcəyin dahi şəxsiyyəti**

**olacaqsan, Naxçıvanın, Azərbaycanın adını ucaldacaqsan..."** Sözün düzü, bu fikirlər o vaxt bizə təəccüblü görünürdü. Ancaq onilliklər ötdükcə artıq yaşı 100 – ü keçmiş Lətif müəllimin uzaqgörənliklə dediyi o sözlər Naxçıvandan Kremlədək uzanan bir yolda öz təsdiqini tapdı...

Heydər həqiqətən də adi yeniyetmə deyildi. Düzdür, o da hamı kimi şənlənirdi, deyirdi – gülürdü, hətta müəllimlərə də yeri gələndə atmacalar da atırdı. Ancaq bütün bunların hər biri yerli – yerində olurdu, əndazəni aşmırdı və bütün bunlar bir yeniyetməyə böyük nüfuz gətirirdi.

Dərsdən sonra Heydəri o vaxtlar həmişə Puşkin küçəsində görərdim. O zamanlar bu küçə şhərin ən iri və ən gözəl küçələrindən biri idi. Yolun hər tərəfi su ilə axan arx idi. Bu arxlardan həmişə dolu su axırdı. Söyüd ağacları da bu arxlar boyu uzanıb gedirdi. Bu mənada bu küçəyə "Söyüdlü bilan" da deyirdilər. Heydər Əliyev həmişə bu küçədə gəzişərdi. Çox hallarda onu burada xəyala dalmış vəziyyətdə görürdüm. Ümumiyyətlə, gülərüz oğlan olan Heydər bununla yanaşı, çox ciddi və daim nə isə düşünən, fikirləşən adam idi.

1939 – cu ildə Pedaqoji texnikumu "Əla" qiymətlərlə bitirən tələbələr kimi Heydər Əliyevin, mənim, Zərqələm Əliyevanın, Sona və Zaman adlı daha iki nəfərin şəkli "Şərq qapısı " qəzetində çap olundu. Buna o qədər sevinirdik ki, o qəzeti indi də yadigar kimi saxlayıram. Sonrakı illərdə Heydər Əliyevin dünyanın ən məşhur adamları ilə, bir sözlə, dünyanın taleyini müəyyənləşdirən siyasətçilərlə çəkdirdiyi şəkilləri görərkən, onları kəsib öz albomuna yapışdırarkən qürur

duydum ki, bu böyük insanla mənim də şəklim var və bu fotonun tarixi daha qədimdir. Pedaqoji texnikumu bitirdikdən sonra Heydər Əliyev Bakıda ali məktəbə, mən isə ikiillik Naxçıvan Müəllimlər İnstituna üz tutduq... "

1939 – cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirən tələbələrin demək olar ki, hamısı öz sahəsində yaxşı mütəxəssis, bacarıqlı kadr kimi tanınmış və "Heydər Əliyevin tələbə yoldaşları elə belə də olmalıdırlar"- qənaətini öz uğurları ilə təsdiqləmişlər.

1939 – cu ildə Pedaqoji texnikumu bitirərkən, hamımız bilirdik ki, Heydər Əliyev çox böyük adam olacaq, Lətif müəllimin dediyi kimi, Naxçıvanın, Azərbaycanın adını hər yerdə ucaldacaq. 40 – cı illərdə öyrəndim ki, Heydər Bakıda ali təhsil alır, sonra isə məlumat aldım ki, xüsusi xidmət orqanlarında çalışır. 4 illik tələbəlik dövründə bir – birimizə o qədər yaxnlaşmış, doğmalaşmışdıq ki, Naxçıvanda yaşayan bütün keçmiş tələbə dostlarımızla görüşərkən hamı birinci "Heydərdən nə xəbər var" sualı ilə bir – birinə müraciət edirdi.

Uzun müddət mən Heydər Əliyevlə görüşə bilmədim. 1953 – cü ildə Naxçıvan Vilayət Partiya Komitəsində şöbə müdiri vəzifəsində çalışırdım. Bir gün eşitdim ki, Heydər Əliyev Naxçıvana gəlib və məni axtarır. Sevinə - sevinə onun görüşünə tələsdim. Mehribanlıqla görüşdük. Bir neçə saat söhbət etdik. Ötən xatirələri yada saldıq. İşimlə, dolanışığımla maraqlandı. Tələbə yoldaşlarımızı bir-bir soruşdu. Qazandığım hörməti, vəzifə irəliliyişlərimi biləndə üzünə xoş bir təbəssüm qondu – "elə belə də gözləyirdim...

Lətif müəllimin vaxtı ilə dediyi sözü – "Heydər çox böyük adam olacaq" – fikrini ona xatırladanda xeyli gülərək – "bunu Allah bilər... " - dedi.

Sonrakı illərdə Heydər Əliyevin adı onun yalnız dostları, tanışları arasında deyil, artıq bütün Bakıda, ardınca ittifaqda, daha sonra isə bütün dünyada məşhur oldu.

Hamımız onunla qürur duyurduq, " HEYDƏR " adı hər birimiz üçün iftixar yeri idi. Ona qarşı 80 – ci illərin sonlarında ədalətsizliklər başlayanda isə hamımız narahat olduq. 1990 – cı ilin iyun ayında Heydər Əliyev Naxçıvana qayıtdı, öz doğma elinə pənah gətirdi və bütün Azərbaycanın pənahına çevridi. Üç il Naxçıvanda yaşadığı müddətdə gecəsi-gündüzü olmadı. O ağır vəziyyətdən də Naxçıvanı ancaq Heydər Əliyev xilas etdi. Bu illərdə onunla müxtəlif tədbirlərdə tez- tez görüşürdük. Onda olan əzmkarlığa, iradəyə heyran qalmamaq mümkün deyildi. Bakıya gedəndə də bir məqsədi vardı: Azərbaycanı böhrandan, parçalanmadan xilas etmək. Və buna da böyük siyasi ustalıqla nail oldu. Tarix səhnəsindən silinməkdə olan Azərbaycan, müstəqilliyimiz məhz onun fədakarlığı hesabına yenidən yaşadı. Azərbaycanın bugünkü varlığının təməlini məhz Heydər Əliyev qoydu...15 oktyabrda səhər tezdən tələsə-tələsə seçkilərə gedib İlham Əliyevə səs verdim.Allah şükr edirdim ki, Heydər Əliyevin tərbiyəsi ilə böyümüş, siyasətini tam mənimsəmiş, o böyük insanın yolu ilə gedən liderimiz var... Tez tez tələbəlik illərini xatırlayıram . Sanki yenı sinif otağına hündürboylu, səliqəli geyinmiş, güləriz Heydər daxil olacaq, biz  də onun ətrafına toplaşacaq baş verən hadisələri

müzakirə edəcəyik . Lətif müəllim də sinfə daxil olacaq və deyəcək – “Heydər sən Naxçıvanın adını, Azərbaycanın adını ucaldacaqsan...”

**(“Azərbaycan” qəzeti, 07 dekabr, 2004 –c ü il).**




***Heydər Əliyevin foto şəkli yer alan 1938-1939 –cu tədris ilinin Naxçıvan Pedaqoji Texnikumu məzunlarının venetkası.***

Özünün bütün həyatını Azərbaycana, onun inkişafına və tərəqqisinə sərf edən Heydər Əliyev başqa sahələrdə olduğu kimi, xalqımızın təhsilinə, onun yüksəlişinə, bu sahədə şərəflə çalışan insanların şəxsiyyətinə, işinə, əməyinə həmişə yüksək qiymət vermiş, onlara böyük hörmət və ehtiramını bildirmişdir.

## 3. HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ TƏHSİL SİYASƏTİ

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: **"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".** Ulu Öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər, islahatlar həyata keçirmişdir.

1969–1982-ci illər Azərbaycan xalqının tarixinə elmin, təhsilin, ədəbiyyatın, incəsənətin intibah illəri kimi daxil olmuşdur. 1969-cu elədək olan dövr Azərbaycan üçün tənəzzül dövrü idi. Heydər Əliyevin 1969-cu ildən başlanan siyasi kursu Azərbaycana bütün sahələrdə – elmdə, təhsildə, iqtisadiyyatda, mədəniyyətdə, dövlət quruculuğunda, beynəlxalq aləmdə böyük uğurlar gətirdi. Bu müdrik siyasət nəticəsində

Azərbaycan bütün dünyada tanınır, beynəlxalq nüfuzu durmadan yüksəlir. Artıq dünyanın böyük ölkələri Azərbaycanla hesablaşır, siyasətdə "Azərbaycan modeli" bir nümunə kimi götürülür, bir sıra beynəlxalq layihələr Azərbaycanın milli maraqları nəzərə alınmaqla həyata keçirilir. Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə təhsilə, tərbiyəyə diqqət və qayğı həmişə ön planda olmuşdur. O deyirdi: **"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir".**

Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu irəli çəkərək demişdir: **"Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".**

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, mündəricəsini yüksək qiymətləndirən Ulu Öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Ulu Öndərimizin aşağıdakı dəyərli fikirləri bu baxımdan səciyyəvidir: **"İnsan təhsilinin əsasını orta məktəbdə alır... Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, ...cəmiyyətimizin şüurlu üzvü olacaqdır".** Bu mövzunun davamı kimi qeyd edək ki, dahi rəhbərin orta təhsilin

qarşısında duran vəzifələrlə bağlı qiymətli tövsiyə və tapşırıqları da bütün zamanlar üçün dəyərini saxlayan əsl fəaliyyət proqramıdır. Xalqımızın böyük oğlu Heydər Əliyev tədris ocaqlarında, o cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş, bunlarla yanaşı, istisnasız olaraq hər bir şagirdin mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurğulamışdır: **"Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər... Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".** Bütün bunlar isə təhsilin milli məzmununu müəyyənləşdirən çox mühüm faktorlar kimi düşünülmüş, ciddi bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini də dahi rəhbər çox vacib şərt saymışdır. Bu da təsadüfi deyil. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir. Ona görə də ümummilli liderimiz tövsiyə edirdi: **"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox**

**ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər".** Eyni ciddi vəzifələri Ulu Öndər Azərbaycanın dövlət rəmz və atributlarının, dilinin, ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi sahələrinə də aid etmişdir.

Göründüyü kimi, Ulu Öndərin təlim-tərbiyə ilə əlaqədar nəzəri fikirləri təhsilin davamlı inkişafı inkişafı və bu əsasda da müstəqil Azərbaycanın dövlətçiliyinin inkişafı xüsusi yer tutmuşdur.

Ulu Öndərin tapşırığı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq edilməsi və buna uyğun olaraq, həyata keçirilən Təhsil islahatı təhsil sistemində mühüm yeniləşməyə rəvac vermişdir. Ümummilli liderin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 30 mart 1998-ci il tarixli Sərəncamına uyğun olaraq, təhsil sektorunun bütün sahələrini əhatə edən islahat proqramı hazırlanmışdır. 15 iyun 1999-cu il tarixli Sərəncamla qəbul olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" bu sahədə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət sənədidir. Bu gün Respublikamızın Prezidenti İlham Əliyevin "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (24 oktyabr 2013-cü il), "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası") təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələdir. Bütün bunlar Heydər Əliyev ideyalarının davamı olaraq

ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır.

Heydər Əliyev istər müəllimlər qarşısında çıxışlarında, istər müəllimlər qurultayına göndərdiyi təbrik məktublarında, istərsə də respublikamızın problemləri ilə bağlı digər məruzə və çıxışlarında müəllim əməyinə həmişə yüksək qiymət vermişdir. **O deyirdi: "Əgər müəllim olmasa heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik". Bütün müvəfəqiyyətlərin əsası təhsildən, müəllimin verdiyi biliklərdən asılıdır.**

Heydər Əliyevin müəllimə olan münasibətində bir müdriklik, qayğıkeşlik, bu sənətin mahiyyətinə dərindən nüfuz etmək, cəmiyyətin əsl müəllimlərə böyük ehtiyacı olduğunu tövsiyə etmək məharəti özünü göstərir. Bu, bir tərəfdən onun dövlət başçısı kimi vəzifəsindən irəli gəlsə də, digər tərəfdən onun ilk ixtisasca müəllim olması ilə bağlıdır-desək bəlkə də səhv etmərik. Çünki, müəllimə aid olan bütün kəlamlarında onun özünün bu peşəyə, sənətə şəxsi hörməti, münasibəti açıq-aydın görünür. Ulu Öndərimiz özü də öz müəllimlərinə həmişə dərin hörmət və ehtiarmla yanaşmışdır.

**"Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlayıram"-** sözləri Heydər Əliyevin təkcə özünün müəllimlərinə olan münasibətini bildirən ifadələr deyildir. Bunlar həmçinin, hər bir şəxsin öz müəllimini sevməsi, ona hörmət və ehtiram göstərməsinin vacibliyinin nümunəsi və

tövsiyəsidir. Ulu Öndər bununla həm də gəncliyi öz müəllimlərinin qədrini bilməyə, onları qiymətləndirməyə səsləyir.Dahi bir şəxsiyyətin müəllimlərini həmişə xatırlaması, onları yad etməsi böyüklükdür, müdriklikdir, ucalıqdır, insanlıqdır.

Çox dəyərli tədqiqatçı filoloq alimlərimiz, böyük ziyalılarımız, yazıçı və naşirlərimiz olan **Həsənova Könül Həsənova və Nazilə Abdullazadənin "Zəkanın və milli yaddaşın təntənəsi" *Bakı: Müəllim, 2023, 388 s) adlı dəyərli monoqarfik əsəri Ulu Öndərimiz Heydər Əliyevin geniş və hərtərəfli fəaliyyətinə, quruculuq işlərinə, maarifçilik, işlərinə, təhsilimizin, maarif və mədəniyyətimizin inkişafına həsr edilmişdir. Bu dəyərli əsərdə Heydər Əliyevin müəllimə qayğı, diqqət və ehtiramı bir daha xüsusi olaraq qeyd edilmişdir: Heydər Əliyev həyatı boyu müəllimlərini unutmamış, onları tez- tez xatırlamışdır. Lətif Hüseynzadə Naxçıvanda Pedaqoji Texnikumda Heydər Əliyevin müəllimi olmuş. Ulu Öndər harada, hası vəzifədə, siaysi mövqeyindən asılı olmayaraq müəllimini unutmamış, Lətif Hüseynzadənin 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalamış və Lətif müəllimə şəxsi təbrik məktubu göndərmişdir. Məktubda yazılırdı: "Sizi – Azərbaycanın görkəmli pedaqoqu və yorulmaz tədqiqatçı alimini, sevimli müəllimimi anadan olmağınızın 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz Azərbaycan ziyalılarının yaşlı nəslinə mənsub olan gözəl pedaqoq və ədəbiyyatşünas alim kimi ölkəmizdə yaxşı**

**tanınırsınız. Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Hüseyn Cavid kimi böyük simadan dərs alaraq yetişdiyiniz dövr Azərbaycanda mədəni-maarifçilik hərəkatının böyük vüsətlə yüksəlişi mərhələsinə təsadüf edir. Keçən əsrin əvvəllərinin görkəmli maarifçi ziyalılarının işini davam etdirərək seçdiyiniz müəllimlik peşəsi sizin bütün həyatınızın əsl mənasını təşkil etmişdir. Siz Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi neçə-neçə nəsli Vətənə, xalqa, onun zəngin mədəni irsinə, mənəvi dəyərlərinə, tarixi ənənələrinə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etmisiniz..Keçən əsrin əvvəllərinin görkəmli maarifçi ziyalılarının işini davam etdirərək seçdiyiniz müəllimlik peşəsi Sizin bütün həyatınızın əsil mənasını təşkil etmişdir. Siz Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi neçə- neçə nəsli Vətənə xalqa, onun zəngin mədəni irsinə, mənəvi dəyərlərinə tarixi ənənələrinə sədaqət, vətənpərvərlıik ruhunda tərbiyə etmişsiniz. Sonralar hansısa sənətə yiələnməsindın asılı olmayaraq Sizdən dərs almış hər bir şəsxdəAzərbaycan dilinə, Azərbaycan ədəbiyyatına bəslədiyi tükənməz məhəbbət və sonsuz vurğunluq hisslərini məhz Siz aşılamışsınız.... İnanram ki,uzun və şərəfli həyat yolunuz, torpağa, xalqa hədsiz bağlılığınız , həmişə uca tutduğunuz müəllimlik peşəsinə sonsuz sədaqətiniz Azərbaycanın hələ neçə nəsilləri üçün gözəl örnək olacaqdır..." (Heydər Əliyev).**

Heydər Əliyevin nəzəri irsində təhsil məsələləri, müəllim əməyinə qiymət, bu sahədə onun müdrik kəlamları daim aktual və əhəmiyyətlidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmışdır. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edirdi. 1970-ci illərdən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratmışdır.

Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı. Həmin dövrdə təhsilin inkişafına xüsusi diqqət məktəb tikintisində də özünü göstərdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdı. Şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minə yüksəldi. 1970-1980-ci illərdə respublikada 683,1 min

şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı.

Dahi rəhbərin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu. 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev ana dilində söylədiyi nitqində ali təhsil sahəsində qarşıda duran vəzifələrdən danışdı. Bu, təkcə universitet kollektivi deyil, bütün Azərbaycan cəmiyyəti üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu. Universitetin Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında mühüm rolunu vurğulayan Heydər Əliyev dedi: **“1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik**

**ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər".**

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi. Onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi.Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olmuşdur. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin

əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərmişlər. Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı.

Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) təhsilin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı. Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı.

1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı. Əgər 1993-1994-cü tədris ilində

respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alıbsa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi.

Bununla yanaşı, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək buraya 12 minə yaxın şagird cəlb olundu.

**"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir",** - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

İslahat proqramının məqsədi təhsilin hərtərəfli gələcək inkişafı üçün əsaslı zəminin, yaradılması, bu sahədə möhkəm

təməlin qoyulmasıdır. Bu münasubətlə islahat proqramında deyilir: “Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir”.

Beləliklə Ulu ğndər tərəfindən başalanan təhsil islahat proqramı gələcək təhsil strategiaylarının inkişafına əsaslı zəmin yaratmış oldu.

Ulu Öndər Heydər Əliyevin bu dahiyanə sözü - ***“Təhsil millətin gələcəyidir”*** – fikri millətin millət kimi yaşamasına, inkişafına və tərəqqisinə yönəlmişdir. Təhsilsiz millət irəli gedə bilməz və müstəqil xalq kimi formalaşa bilməz və başqa xalqların köləsinə çevrilər. Dahi rəhbərimiz bunu çox yaxşı bilərək belə demişdir. Təhsil millətin gələcəyi və müstəqil dövlətin təməlidir. Bəşər tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlər məhz elmin, təhsilin sayəsində dahilik rütbəsinə yüksəlmişlər.

Müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin əsəridir. Xalqımızın ümum milli lideri milli təhsilimizin inkişafı, formalaşması və onun dünya standartları səviyyəsində qurulması istiqamətində müstəsna xidmətlər göstərmişdir. İnkişaf etmiş dünya ölkələrində, o cümlədən

Azərbaycanda iqtisadi, siyasi və mədəni sahədə böyük uğurların qazanılması məhz elmin və təhsilin sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksəlməsində, milli və bəşəri dəyərlərin mənimsənilməsində Ulu Öndərimiz Heydər Əliyevin misilsiz fəaliyyəti və xidmətləri olmuşdur. Heydər Əliyev deyirdi: **"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir".**

Ümummilli liderimizin zəngin həyatı həmişə təhsillə bağlı olmuşdur: Ümummilli lider qeyd edirdi: ***"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam…Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun ,kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir".*** Bu kəlamlar böyük rəhbərimizin təhsilə nə qədər önəm verdiyinin nümunələridir.

Azərbaycan müstəqillik illərində əslində çox da böyük olmayan bir dövrdə başqa sahələrdə olduğu kimi elm və təhsil sahəsində də çox uğurlar qazanmış və dünya elm və təhsilinə inteqrasiya olunmuşdur.

1992-ci Təhsil Qanununun qəbul olunması, ali və orta ixtisas məktəblərində qəbulun test usulu ilə aparılması, qeyri-obyektivliyə və mənfi hallara qarşı mübarizənin aparılması

təhsil və maarifin təkmilləşməsində mühüm yeniliklərin bünövrəsini qoydu.Təhsil sistemi getdikcə təkmilləşir, dövlət səviyyəsində təhsil sahəsində qəbul olunmuş qərar və sərəncamlar gənclərdə yüksək bilik potensialını aşkara çıxartmağa, yeni standartların və metodların tətbiqinə stimul yaradırdı.

Ulu Öndərin təhsil sahəsində də uzaqgörənliyi onun qəbul etdiyi qərar və fərmanlarda, yeni Təhsil Proqramının qəbulu və həyata kecirilməsində, tövsiyə və göstərişlərində özünü göstərirdi.Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını mühüm bir vəzifə kimi qarşıya qoymuş və bu sahədə aparılacaq islahatların mahiyyət və məqsədini  açıqlayaraq bildiridi ki,  irəli sürülən inteqrativ təhsil konsepsiyasının əsas qayəsi müstəqilliyimizin qorunub möhkəmlkəndirilməsi, humanist və demokratik hüquqi cəmiyyətin qurulması, iqtisadi potensialın, "İnsan kapitalı"nın yüksəlişi və  inkişafı  ilə bağlıdır.

Bu gün təhsilimiz mütərəqqi, dünya standartlarına uyğun Boloniya təhsil prosesinə  qoşulmuş dünya təhsilinə inteqrasiya olunmuş və uğurla fəaliyyətini davam etdiirir.  Qloballaşan dünyamız müasir əsrimizi "Elm və texnika əsri", "İntellekt əsri" strateji xətt kimi qəbul etmişdir. Bu xətt ilk  növbədə hər bir vətəndaşın müasir dövrə, zamana uyğun təhsllə əhatə olunmasını tələb  edir.

Avropa Birliyi məkanında baş verən Bolonya prosesi bu gün dünyada geniş yayılan ən mütərəqqi təhsil prosesidir. Azərbaycan təhsili bu prosesə qoşularaq bəşəri dəyərlərə,

dünya təhsil sisteminə töhfələr verməklə yanaşı, həm də onların uğurlu cəhətlərini əxz edən universitetlərimiz qonşu dövlətlərin təhsil sisteminə təsir etməklə, qloballaşan dünyaya, xüsusən də qloballaşan təhsil sisteminə uğurlu töhfələr verməkdədir.

Təhsildə inteqrasiya proseslərinə, elm və təhsilin müsir problemlərinə, qərb təhsil sisteminin nailiyyətlərinə öz münasibətini bildirərkən, Heydər Əliyev bu işdə ehtiyatlı və diqqətli olmağı rəhbər tutaraq deyirdi ki, *"öz milli tarixi nailiyyətlərimizə əsaslanaraq digər ölkə və xalqların nailiyyətlərini öyrənmək, bizim üçün faydalı olan mütərəqqi cəhətləri mənimsəyib onlardan səmərəli istifadə etmək lazımdır".* Heydər Əliyev düşünülməmiş, kor - koranə təhsil sisteminin yaradılmasını və yaxud bir sıra xarici dəyərlərin milli dəyərlərlə əvəz olunmasını qəbul etmirdi. Azərbaycan dövlətinin təhsil sisteminin təkmilləşdirilməsindən və bu işdə digər ölkələrin ən yaxşı nailiyyətlərindən istifadə etmək məsələlərindən bəhs edərkən Heydər Əliyev xalqın əqli və mənəvi həyatının təməlini təşkil edən milli dəyərlərimizə xüsusi qayğı və hörmətlə yanaşmağı tələb edir və deyirdi: *"...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz".* Ulu Öndər təhsil sistemində hər bir islahatın, hər bir yeniləşmənin, inteqrasiyanın yalnız təkamül yolu ilə aparılmasını və bu prosesdə bütün cəmiyyətin iştirakını tövsiyə edirdi.

O daha sonra deyirdi: ***" Azərbaycan təhsilində indiyə qədər əldə olunmuş müsbət təcrübə özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və***

***müasirləşdirilməlidir"*** **.** Heydər Əliyev bununla təhsil islahatında ilk növbədə tarixən formalaşmış mütərəqqi ənənələrin, qazanılmış və zamanın sınağından çıxmış qabaqcıl təcrübənin öyrənilməsini və yeni şəraitdə nəzərə alınmasını tövsiyə edirdi.

Ulu Öndər təhsildə yığışıb qalan problemlərdən, nöqsanlardan, neqativ hallardan yaxşı xəbərdar idi. Onların aradan qaldırılması yönündə proqram xarakterli göstərişlər, sərəncamlar verir və deyirdi**:** ***"Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşdirilməsi, mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üçün çox əhəmiyyətli və faydalı olacaqdır".***

Müstəqil Azərbaycan Respublikası XXI əsrin, elm və təhsil ilinin ilk illərini yaşayır ki, biz bu gün təhsilimizlə, alim və müəllimimizlə, gənc məzun mütəxəssisimizlə fəxr edə bilərik. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev dövlət idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə gənc nəslin intellektual inkişafını düşünmüşdür.

Xalqımızn təhsil alma səviyyəsinin yüksəlişi, fundamental elmlərin yaranması və inkişafı, milli mədəniyyətimizin tərəqqisi, insan amilinin yüksəlişi ilə sıx şəkildə bağlı olmuşdur. Təhsilin milli tərəqqidəki rolundan və insan amilindən danışarkən dahi rəhbər deyirdi: *"...təhsil sisteminin nə qədər dəyərli olduğunu onda görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik olan insanlar var və onlar*

*cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı Azərbaycanın iqtisadiyyatı indi belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyətləri heç zaman unutmamalıyıq".*

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikamızda təhsil müəssissələrinin dünya standartlarına uyğun zəngin şəbəkəsi yarandı, möhkəm maddi texniki baza quruldu, respublikadan kənarda Azərbaycan üçün yüksək ixtisaslı mütəxəssis kadrları hazırlandı ki, məhz bunların sayəsində bugün respublikamızda müasir sivilizasiyaya cavab verən böyük elmi, milli təhsil sistemi yaranmışdır.

Hələ 1969-1982-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin birinci mərhələsində təhsilimizə çox böyük qayğı ilə yanaşaraq Avropa standartlarına cavab verən çoxsaylı məktəb binası tikilərək istifadəyə verilmişdir. Ölkəmizdə yeni Ali təhsil müəssisələri açılaraq, maddi-texniki bazası möhkəmləndirilərək lazımi avadanlıqlarla təchiz olunmuşdur.

Təhsilin cəmiyyətin tərəqqisində və inkişafında mühüm yer tutduğunu yüksək dəyərləndirən Heydər Əliyev deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir".***

Təhsilin cəmiyyətin inkişafında rolunu və insan şıxsiyyətinin hərtərəfli formalaşmasında vacibliyini və əhəmiyyətini yüksək dəyərləndirən dahi liderin qəbul etdiyi sərəncamlar, uzaqgörənliklə təqdim etdiyi konseptual düşüncələr və ideyalar, tarixi məsləhət və tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının yerinə yetirilməsində ən vacib təməllərdir. Ulu Öndər yaxşı bilirdi ki, gənc nəslin düzgün tərbiyə olunması, istiqamətlənməsi ilk növbədə təhsilə və milli-mənəvi dəyərlərə bağlılıqdan asılıdır.

Məlimdur ki, 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan Sovetlər birliyinin tərkibində olmuşdur, bu dövrdə də dahi rəhbərin dediyi kimi Azərbaycan böyük inkişaf yolu keçmişdir. Həmin illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Azərbaycanın şəhər kənd və qəsəbələrində 770- ə qədər məktəb binası istifadəyə verilmiş, respublika Ali məktəblərinin sayı 12- dən 17- yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni Ali təhsil müəssisəsi açılmışdır.

Ümummilli liderimiz Heydər Əliyev müstəqilliyini bərpa etmiş Azərbaycanın başqa sahələrində olduğu kimi, təhsil sahəsində də islahatlar keçirilməsinin vacibliyini qeyd edərək, yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsinin, proqram xarakterli tədbirlərin təşkilinin zəruriliyini və təxirəsalınmazlığını göstərmişdir.

Ulu Öndər Heydər Heydər Əliyevin yetişən gənc nəslin

təhsilin bütün pillərində müasir təhsilə, texnologiyaya, kompüter biliklərinə yiyələnmənin təmin edilməsini, ümumtəhsil və ali  məktəblərimizdə verilən bütün fənlərin yaxşı mənimsənilməsini, gənclərin hərbi məktəblərə, hərbi təlimə, yeni peşələrə istiqamətləndirilməsini təhsil işçilərinin birinci dərəcəli vəzifəsi kimi qarşıya qoymuşdur. Çünki mükəmməl təhsil olmadan əsrin müqaviləsi də öz nəticəsini mükəmməl verə bilməz. “Təhsil millətin gələcəyidir” – Ulu Öndər Heydər Əliyevin müdrik fikri hər keçən gün daha aktual və daha əhəmiyyətli özünü göstərməkdədir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri irsi təhsilimizin inkişafında zəngin bir xəzinədir. Onun təhsil haqqında müdrik fikirləri özqnqn praktik fəaliyyəti ilə təhsilimizn inkilşafına  işıq  tutmuş və aydın yol göstərmişdir. Heydər Əliyev təhsilimizin həqiqi vəziyyətini  yaxşı bilmiş və təhsilin bütün sahələri ilə  ciddi maraqlanmış, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi haqqında dəyərli fikirlər söyləmiş, mühüm əhəmiyyətli sərəncamlar imzalaməşdır.

Heydər Əliyevin hələ 1970-ci illərin əvvəllərində Bakıda orta ixtisas hərbi məktəbinin açılması haqqında göstərişlər verdi, sərəncamlar imzaladı. Yaradılmış bu hərbi məktəbin məzunları sonrdan müxtəlif Ali Hərbi məktəblərdə təhsillələrini davam etdirdilər və ixtisaslı zabitlər kimi yetişdilər. Vətənimizin bir  parçası olan Qarabağın və digər rayonlarımızn işğaldan azad olunmasında, 44  günlük Vətən müharibəsində Zəfər qazanmağımızda həmin zabitlərin böyük  rolu olmuş, vətənpərvər ruhlu gənclərimiz fədakarcasına  vuruşaraq üç

rəngli qalibiyyət bayrağımı Vətən torpağında ucaltmışılar.

Heydər Əliyevin 1970-1980-ci illərdə təhsilimizin milli zəmin üzərində qurulmasının, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə almalarının, təhsil ocaqlarımızın müasir maddi texniki bazasının möhkəmləndirilməsi və səriştəli müəllim kadrlarının yetişdirlməsinin təməllərini qoymuşdur.

Heydər Əliyevin göstərişi ilə 1980-ci illərin əvvəllərindən başlayaraq təhsilimzidə millilik, Azərbaycançılıq, milli ideoligiya xüsusi yer tutmağa başladı, Azərbaycan tarixi, ədərbiyyatı daha geniş tədris olunmağa başladı, Azərbaycan məktəbi və pedaqoji fikir tarixi, məktəbəqədər pedaqogika ali pedaqoji təhsil ocaqlarında xüsusi sahə kimi geniş tədris edilməyə başlandı.

Ulu öndər Heydər Əliyevin təhsil sahəsində xidmətləri və uzaqgörənliyi onun imzaladağıı çox saylı, mühüm və əhəmiyyətli Sərəncamlarda, dəyərli Fərmanlarda, Yeni Təhsil Proqramının və yeni Təhsil Qanunun qəbulu və həyata keçirilməsində, dəyərli tövsiyə və göstərişlərində özünü göstərmişdir.

Heydər Əliyev müasir Azərbaycan təhsilinin Heydər Əliyev nəzəri irsində təhsilin, elmin, milli kadr hazırlığının inkişaf konsepsiyası həm siyasi, həm sosial-iqtisadi, həm əxlaqi-mənəvi dəyərlərə əsaslanmışdır ki, bütün bunlar da Təhsil haqqında Qanunda öz əksini tapmişdir (Təhsil haqqında Azərbaycan Respubliksaının Qanunu 2009). Təhsilimizin inkişafı sayəsində Heydər Əliyevin nəzəri irsi, praktik

fəaliyyəti geniş öyrənilməili, tədqiq və təhlil edilməli və davamlı olaraq praktik fəaliyyətimizdə həyata keçirilməlidir.

Təhsilimizin sabahını düşünərkən deyə bilərik ki, Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetişdirmək deyil, həm də müstəqil, demokratik, açıq cəmiyyət quruculuğu işində fəal iştirak edən, Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək göstərən, yüksək mənəviyyatlı, əxlaqlı, əsl vətənpərvər vətəndaşlar, layiqli şəxsiyyətlər tərbiyə etməkdir.

Cəmiyyətdə təhsilin inkişafına və dövlət quruculuğuna bir sistem kimi yanaşan Heydər Əliyev burada təhsilin əsas yerini müəyyənləşdirərək vurğulayırdı ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla irəli getmək üçün müasir tələblərə uyğun təhsil sistemi yaradılmalı və bu təhsil sistemi təkamül yolu ilə inkişaf etdirilməlidir. Təhsilsiz heç bir insan, millət irəli gedə bilməz və heş bir uğur qazana bilməz.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına, məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaqdır. Azərbaycanın indiki və gələcək nəsilləri üçün ədəbi örnək olacaqdır.

Öz şərəfi və möhtəşəm fəaliyyəti ilə Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətini yaratdı. Onun idarəçilik mexanizmini yaratdı, formalaşdırdı. Milli - mənəvi dəyərlərimizi dirçəltdi və təhsilimizi dünya miqyasında inkişafı üçün əsaslı zəmin yaratdı.

## 4. MÜƏLLİMLƏRİN PEŞƏ BAYRAMI - XALQIN BAYRAMIDIR

Hazırda dövlətimizin qazandığı müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin nəticəsidir. Müəllimləri yeni cəmiyyət quruculuğunun memarları hesab etsək səhv etmərik. Hər birimizin layiqli vətəndaş kimi yetişməyində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur. Dünya ölkələrində **Beynəlxalq Müəllimlər Gününün qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də verilmişdir, həmin vaxtdan başlayaraq 5 oktyabr Beynəlxalq Müəllimlər Günü kimi bayram edilir**. Bu tarix həm BMT-nin beynəlxalq və ümumdünya günlər sisteminə daxildir. Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna xüsusi diqqət edilməsini nəzərdə tutmuşdur.

Müəllimlər Günü hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə dı qeyd edilir.

Müstəqil Azərbaycan Respublikasında **"Müəllimlər Günü" Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü il oktyabrın 5-də rəsmiləşdirilmişdir.** Həmin vaxtdan etibarən hər il ölkəmizdə Müəllimlər Günü bu müqəddəs peşə sahiblərinə böyük hörmət və sevginin ifadəsi olaraq qeyd edilir. Heç şübhəsiz ki, müstəqil Azərbaycanın müəllimlər ordusu həmişə olduğu kimi bundan sonra da xalqımızın gələcək

xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edərək respublikamız üçün layiqli vətəndaşların yetişdirilməsində səy və bacarıqlarını əsirgəməyəcəklər. İnsanı öz halal zəhməti hesabına yaşadan və ucaldan hər bir peşə şərəfli olduğu kimi, hər bir peşə sahibi də hörmətə layiqdir.

Dünyada bir peşə var ki, o peşənin sahibləri hər bir cəmiyyətin, hər bir fərdin həyatında xüsusi rol oynayır, insanların mənəvi və əqli inkişaf səviyyəsini müəyyən edir, hər bir fərdin yetkin vətəndaşa çevrilməsinə öz töhfələrini verir ki, bu peşə sahibi MÜƏLLİMDİR. Müəllim adı, peşəsi, özü dünyanın ən şərəfli varlıqları hesab edilir.

Milyonlarla insan bu adın ziyasından işıq alır. Bu ad bizə əlimizdən qələm tutaraq ilk dəfə ana, vətən kəlmələrini yazdıran varlıq, ilk dəfə bizə həyatı bütün boyaları ilə dərk etdirən məxluqdur. Vəzifəsindən, peşəsindən asılı olmayaraq hər kəs bu adın qarşısında baş əyir. Ulu Öndər Heydər Əliyevin müəllim peşəsi haqqında msili görünməmiş tarixi əhəmiyyətli sözləri – **"Mən Yer üzündə müəllim adından yüksək bir ad tanımıram"** – çox qiymətli sözləri bu peşə sahiblərini daim şərəfləndirir və iftixar hissi yaradır.

Ümummilli lider müəllim adının şərəfini, müqəddəsliyini daim vurğulamışdır. Bəli, müəllim sözün əsil mənasında müqəddəs varlıqdır ki, ana haqqı və müəllim haqqı eyni dərəcədə tutularaq əvəzi ödənilə bilməyən haqlardır. İnsanlara elm öyrətməklə öz həyatını şam kimi əridən, qəlblərdə əbədi taxt quran bir şəxsiyyətdir. Bu şərəfli peşə sahibləri hər birimizin həyatında ikinci valideyn rolunu oynayır.

Müəllim yeni təfəkkürlə böyüyən gənc nəslin mənəvi aləminin əsil memarıdır. **Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dediyi kimi, "Əsərinin üzərində imzası olmayan yeganə sənətkar müəllimdir".** Şair demişkən "hər könüldə yeri olan" müəllimlərimiz qəlbimizdə əzəmətli taxt qurublar. Müəllim uşaqlığımızdan qocalanadək hər birimizin təfəkküründə saf, təmiz duyğulara malik bir şəxsiyyət kimi qalmaqdadır.



# II. TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR. TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ

## 1. "TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR"

Ulu Öndər Heydər Əliyevin bu dahiyanə sözü - ***"Təhsil millətin gələcəyidir"*** – fikri millətin millət kimi yaşamasına, inkişafına və tərəqqisinə yönəlmişdir. Təhsilsiz millət irəli gedə bilməz və müstəqil xalq kimi formalaşa bilməz və başqa xalqların köləsinə çevrilər. Dahi rəhbərimiz bunu çox yaxşı bilərək belə demişdir. Təhsil millətin gələcəyi və müstəqil dövlətin təməlidir. Bəşər tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlər məhz elmin, təhsilin sayəsində dahilik rütbəsinə yüksəlmişlər.

Müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin əsəridir. Xalqımızın ümum milli lideri milli təhsilimizin inkişafı, formalaşması və onun dünya standartları səviyyəsində qurulması istiqamətində müstəsna xidmətlər göstərmişdir. İnkişaf etmiş dünya ölkələrində, o cümlədən Azərbaycanda iqtisadi, siyasi və mədəni sahədə böyük uğurların qazanılması məhz elmin və təhsilin sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksəlməsində, milli və bəşəri dəyərlərin mənimsənilməsində Ulu Öndərimiz Heydər Əliyevin misilsiz fəaliyyəti və xidmətləri olmuşdur. Heydər Əliyev deyirdi: *"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini,*

*mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir".*

Ümummilli liderimizin zəngin həyatı həmişə təhsillə bağlı olmuşdur: Ümummilli lider qeyd edirdi: ***"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam…Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun ,kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir".*** Bu kəlamlar böyük rəhbərimizin təhsilə nə qədər önəm verdiyinin təzahürüdür. Azərbaycan müstəqillik illərində əslində çox da böyük olmayan bir dövrdə başqa sahələrdə olduğu kimi elm və təhsil sahəsində də çox uğurlar qazanmış və dünya elm və təhsilinə inteqrasiya olunmuşdur.

1992-ci il ilk Təhsil Qanununun qəbul olunması, ali və orta ixtisas məktəblərində qəbulun test usulu ilə aparılması, qeyri-obyektivliyə və mənfi hallara qarşı mübarizənin aparılması təhsil və maarifin təkmilləşməsində mühüm yeniliklərin bünövrəsini qoydu.Təhsil sistemi getdikcə təkmilləşir, dövlət səviyyəsində təhsil sahəsində qəbul olunmuş qərar və sərəncamlar gənclərdə yüksək bilik potensialını aşkara çıxartmağa, yeni standartların və metodların tətbiqinə stimul yaradırdı. Ulu Öndərin təhsil sahəsində də uzaqgörənliyi onun qəbul etdiyi qərar və fərmanlarda, yeni Təhsil Proqramının qəbulu və həyata kecirilməsində, tövsiyə və göstərişlərində özünü göstərirdi.Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını

mühüm bir vəzifə kimi qarşıya qoymuş və bu sahədə aparılacaq islahatların mahiyyət və məqsədini açıqlayaraq bildiridi ki, irəli sürülən inteqratuiv təhsil konsepsiyasının əsas qayəsi müstəqilliyimizin qorunub möhkəmlkəndirilməsi, humanist və demokratik hüquqi cəmiyyətin qurulması, iqtisadi potensialın, "İnsan kapitalı"nın yüksəlişi və inkişafı ilə bağlıdır. Bu gün təhsilimiz mütərəqqi, dünya standartlarına uyğun Boloniya təhsil prosesinə qoşulmuş dünya təhsilinə inteqrasiya olunmuş və uğurla fəaliyyətini davam etdiirir. Qloballaşan dünyamız müasir əsrimizi "Elm və texnika əsri", "İntellekt əsri" strateji xətt kimi qəbul etmişdir. Bu xətt ilk növbədə hər bir vətəndaşın müasir dövrə, zamana uyğun təhsllə əhatə olunmasını tələb edir.

Avropa Birliyi məkanında baş verən Bolonya prosesi bu gün dünyada geniş yayılan ən mütərəqqi təhsil prosesidir. Azərbaycan təhsili bu prosesə qoşularaq bəşəri dəyərlərə, dünya təhsil sisteminə töhfələr verməklə yanaşı, həm də onların uğurlu cəhətlərini əxz edən universitetlərimiz qonşu dövlətlərin təhsil sisteminə təsir etməklə, qloballaşan dünyaya, xüsusən də qloballaşan təhsil sisteminə uğurlu töhfələr verməkdədir.

Təhsildə inteqrasiya proseslərinə, elm və təhsilin müsir problemlərinə, qərb təhsil sisteminin nailiyyətlərinə öz münasibətini bildirərkən, Heydər Əliyev bu işdə ehtiyatlı və diqqətli olmağı rəhbər tutaraq deyirdi ki, *"öz milli tarixi nailiyyətlərimizə əsaslanaraq digər ölkə və xalqların nailiyyətlərini öyrənmək, bizim üçün faydalı olan mütərəqqi cəhətləri mənimsəyib*

*onlardan səmərəli istifadə etmək lazımdır".* Heydər Əliyev düşünülməmiş, kor - koranə təhsil sisteminin yaradılmasını və yaxud bir sıra xarici dəyərlərin milli dəyərlərlə əvəz olunmasını qəbul etmirdi. Azərbaycan dövlətinin təhsil sisteminin təkmilləşdirilməsindən və bu işdə digər ölkələrin ən yaxşı nailiyyətlərindən istifadə etmək məsələlərindən bəhs edərkən Heydər Əliyev xalqın əqli və mənəvi həyatının təməlini təşkil edən milli dəyərlərimizə xüsusi qayğı və hörmətlə yanaşmağı tələb edir və deyirdi: *"...Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz".* Ulu Öndər təhsil sistemində hər bir islahatın, hər bir yeniləşmənin, inteqrasiyanın yalnız təkamül yolu ilə aparılmasını və bu prosesdə bütün cəmiyyətin iştirakını tövsiyə edirdi. O daha sonra deyirdi: *" Azərbaycan təhsilində indiyə qədər əldə olunmuş müsbət təcrübə özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir".* Heydər Əliyev bununla təhsil islahatında ilk növbədə tarixən formalaşmış mütərəqqi ənənələrin, qazanılmış və zamanın sınağından çıxmış qabaqcıl təcrübənin öyrənilməsini və yeni şəraitdə nəzərə alınmasını tövsiyə edirdi.

Ulu Öndər təhsildə yığışıb qalan problemlərdən, nöqsanlardan, neqativ hallardan yaxşı xəbərdar idi. Onların aradan qaldırılması yönündə proqram xarakterli göstərişlər, sərəncamlar verir və deyirdi: ***"Azərbaycanda məktəbin, təhsil işinin təkmilləşdirilməsi, mövcud olan nöqsanların aradan qaldırılması, Azərbaycan xalqının təhsilinin daha da yüksəklərə qaldırılması üçün çox əhəmiyyətli və faydalı***

***olacaqdır".*** Müstəqil Azərbaycan Respublikası XXI əsrin, elm və təhsil ilinin ilk illərini yaşayır ki, biz bu gün təhsilimizlə, alim və müəllimimizlə, gənc məzun mütəxəssisimizlə fəxr edə bilərik. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev dövlət idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə gənc nəslin intellektual inkişafını düşünmüşdür.

Xalqımızn təhsil alma səviyyəsinin yüksəlişi, fundamental elmlərin yaranması və inkişafı, milli mədəniyyətimizin tərəqqisi, insan amilinin yüksəlişi ilə sıx şəkildə bağlı olmuşdur. Təhsilin milli tərəqqidəki rolundan və insan amilindən danışarkən dahi rəhbər deyirdi: *"...təhsil sisteminin nə qədər dəyərli olduğunu onda görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik olan insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı Azərbaycanın iqtisadiyyatı indi belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyətləri heç zaman unutmamalıyıq"*. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublika-mızda təhsil müəssissələrinin dünya standartlarına uyğun zəngin şəbəkəsi yarandı, möhkəm maddi texniki baza quruldu, respublikadan kənarda Azərbaycan üçün yüksək ixtisaslı mütəxəssis kadrları hazırlandı ki, məhz bunların sayəsində bugün respublikamızda müasir sivilizasiyaya cavab verən böyük elmi, milli təhsil sistemi yaranmışdır.

Hələ 1969-1982-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin birinci mərhələsində təhsilimizə çox böyük qayğı ilə yanaşaraq Avropa standartlarına cavab verən çoxsaylı məktəb binası tikilərək istifadəyə verilmişdir. Ölkəmizdə yeni Ali təhsil müəssisələri açılaraq, maddi-texniki bazası möhkəmləndirilərək lazımi avadanlıqlarla təchiz olunmuşdur. Təhsilin cəmiyyətin tərəqqisində və inkişafında mühüm yer tutduğunu yüksək dəyərləndirən Heydər Əliyev deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir".***

Təhsilin cəmiyyətin inkişafında rolunu və insan şıxsiyyətinin hərtərəfli formalaşmasında vacibliyini və əhəmiyyətini yüksək dəyərləndirən dahi liderin qəbul etdiyi sərəncamlar, uzaqgörənliklə təqdim etdiyi konseptual düşüncələr və ideyalar, tarixi məsləhət və tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının yerinə yetirilməsində ən vacib təməllərdir. Ulu Öndər yaxşı bilirdi ki, gənc nəslin düzgün tərbiyə olunması, istiqamətlənməsi ilk növbədə təhsilə və milli-mənəvi dəyərlərə bağlılıqdan asılıdır.

Məlimdur ki, 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan Sovetlər birliyinin tərkibində olmuşdur, bu dövrdə də dahi rəhbərin dediyi kimi Azərbaycan böyük inkişaf yolu keçmişdir. Həmin

illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Azərbaycanın şəhər kənd və qəsəbələrində 770- ə qədər məktəb binası istifadəyə verilmiş, respublika Ali məktəblərinin sayı 12- dən 17- yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni Ali təhsil müəssisəsi açılmışdır. Ümummilli liderimiz Heydər Əliyev müstəqilliyini bərpa etmiş Azərbaycanın başqa sahələrində olduğu kimi, təhsil sahəsində də islahatlar keçirilməsinin vacibliyini qeyd edərək, yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsinin, proqram xarakterli tədbirlərin təşkilinin  zəruriliyini və təxirəsalınmazlığını göstərmişdir.

Ulu Öndər Heydər Heydər Əliyevin yetişən gənc nəslin təhsilin bütün pillərində müasir təhsilə, texnologiyaya, kompüter biliklərinə yiyələnmənin təmin edilməsini, ümumtəhsil və ali  məktəblərimizdə verilən bütün fənlərin yaxşı mənimsənilməsini, gənclərin hərbi məktəblərə, hərbi təlimə, yeni peşələrə istiqamətləndirilməsini təhsil işçilərinin birinci dərəcəli vəzifəsi kimi qarşıya qoymuşdur. Çünki mükəmməl təhsil olmadan əsrin müqaviləsi də öz nəticəsini mükəmməl verə bilməz. "Təhsil millətin gələcəyidir" – Ulu Öndər Heydər Əliyevin  müdrik fikri hər keçən gün daha aktual və daha əhəmiyyətli özünü göstərməkdədir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri irsi təhsilimizin inkişafında zəngin bir xəzinədir. Onun təhsil haqqında müdrik fikirləri özqnqn praktik fəaliyyəti ilə

təhsilimizn inkilşafına işıq tutmuş və aydın yol göstərmişdir. Heydər Əliyev təhsilimizin həqiqi vəziyyətini yaxşı bilmiş və təhsilin bütün sahələri ilə ciddi maraqlanmış, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi haqqında dəyərli fikirlər söyləmiş, mühüm əhəmiyyətli sərəncamlar imzalaməşdır.

Heydər Əliyevin hələ 1970-ci illərin əvvəllərində Bakıda orta ixtisas hərbi məktəbinin açılması haqqında göstərişlər verdi, sərəncamlar imkzaladı. Yaradılmış bu hərbi məktəbin məzunları sonrdan müxtəlif Ali Hərbi məktəblərdə təhsillələrini davam etdirdilər və ixtisaslı zabitlər kimi yetişdilər. Vətənimizin bir parçası olan Qarabağın və digər rayonlarımızn işğaldan azad olunmasında, 44 günlük Vətən müharibəsində Zəfər qazanmağımızda həmin zabitlərin böyük rolu olmuş, vətənpərvər ruhlu gənclərimiz fədakarcasına vuruşaraq üç rəngli qalibiyyət bayrağımı Vətən torpağında ucaltmışılar.

Heydər Əliyevin 1970-1980-ci illərdə təhsilimizin milli zəmin üzərində qurulmasının, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə almalarının, təhsil ocaqlarımızın müasir maddi texniki bazasının möhkəmləndirilməsi və səriştəli müəllim kadrlarının yetişdirlməsinin təməllərini qoymuşdur.

Heydər Əliyevin göstərişi ilə 1980-ci illərin əvvəllərindən başlayaraq təhsilimizdə millilik, Azərbaycançılıq, milli ideoligiya xüsusi yer tutmağa başladı, Azərbaycan tarixi, ədərbiyyatı daha geniş tədris olunmağa başladı, Azərbaycan məktəbi və pedaqoji fikir tarixi, məktəbəqədər pedaqogika ali pedaqoji təhsil ocaqlarında xüsusi sahə kimi geniş tədris edilməyə başlandı.

Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində xidmətləri və uzaqgörənliyi onun imzaladağıı çox saylı, mühüm və əhəmiyyətli Sərəncamlarda, dəyərli Fərmanlarda, Yeni Təhsil Proqramının və yeni Təhsil Qanunun qəbulu və həyata keçirilməsində, dəyərli tövsiyə və göstərişlərində özünü göstərmişdir. Heydər Əliyev müasir Azərbaycan təhsilinin məzmununu cəmiyyətin tələblərinə uyğun qurulmasını, xalqın mənəviy-yatına müvafiq qurulmasını vacib sayırdı. Heydər Əliyev 1999-cu ilin 19 aprelində təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində demişdir: " ... təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sahəsinə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" (Heydər Əliyev).

Heydər Əliyev nəzəri irsində təhsilin, elmin, milli kadr hazırlığının inkişaf konsepsiyası həm siyasi, həm sosial-iqtisadi, həm əxlaqi-mənəvi dəyərlərə əsaslanmışdır ki, bütün bunlar da Təhsil haqqında Qanunda öz əksini tapmişdir (Təhsil haqqında Azərbaycan Respubliksaının Qanunu 2009). Təhsilimizin inkişafı sayəsində Heydər Əliyevin nəzəri irsi, praktik fəaliyyəti geniş öyrənilməili, tədqiq və təhlil edilməli və davamlı olaraq praktik fəaliyyətimizdə həyata keçirilməlidir.

Təhsilimizin sabahını düşünərkən deyə bilərik ki, Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetişdirmək deyil, həm də müstəqil, demokratik, açıq

cəmiyyət quruculuğu işində fəal iştirak edən, Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə kömək göstərən, yüksək mənəviyyatlı, əxlaqlı, əsl vətənpərvər vətəndaşlar, layiqli şəxsiyyətlər tərbiyə etməkdir.

Cəmiyyətdə təhsilin inkişafına və dövlət quruculuğuna bir sistem kimi yanaşan Heydər Əliyev burada təhsilin əsas yerini müəyyənləşdirərək vurğulayırdı ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla inkişaf etmək üçün müasir tələblərə uyğun təhsil sistemi yaradılmalıdır. Təhsilsiz heç bir insan irəli gedə bilməz və uğur qazana bilməz. Təhsil sahəsində aparılan işləri sistemli və planlı şəkildə həyata keçirmək məqsədi ilə ölkə Prezidenti Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı əsasında *"Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası"* yaradıldı. Bu islahat proqramı Azərbaycan təhsili sahəsində yeni, uzunmüddətli və ən mütərəqqi mərhələnin əsasının qoyulması demək idi. Dövlət komissiyası tərəfindən hazırlanmış *"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"* xalqın geniş müzakirəsinə verildikdən sonra prezident Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli qurtuluş günündə bu proqrm xüsusi sərəncamla təsdiqləndi. Beləliklə, müasir təhsil tariximizə tarixi bir səhifə yazılmış oldu. Bu səhifəyə sonrakı illərdə daha yeni təhsil proqramları, təhsil standartları, təhsil Qanunu, kuriku-lumlar, Dövlət təhsil strategiyası yazıldı.

Bu təhsil islahatı proqramı təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsipləri özündə birləşdirərərək Azərbaycan milli təhsil

sisteminin strategiya və taktikasını, uzunmüddətli konsep-siyasını müəyyənləşdirdi. Ulu Öndərin *"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında"* sərəncamı (Bakı şəhəri, 15 iyun 1999-cu il) təhsildə gələcək islahatlar aparmaq üçün əsaslı zəmin yaratdı. İslahat proqramında deyildiyi kimi: *"Təhsil sahəsinin islahatı təhsil müəssisələrinin fəaliyyətində, bütövlükdə təhsil sisteminin strukturu, idarə sistemi və iqtisadiyyatında köklü yeniləşmənin həyata keçirilməsini nəzərdə tutur. Müstəqilliyin çətin yolları ilə irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi təhsil sahəsində də böyük vəzifələr yerinə yetirmək zərurəti ilə üz-üzə dayanmışdır. Ölkəmizdə start götürmüş geniş islahatçılıq hərəkatı çərçivəsində təhsil sahəsində də mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsi obyektiv tələbatdır"*

İslahat proqramının əsas məqsədi təhsilin hərtərəfli gələcək inkişafı üçün əsaslı zəminin, yaradılması, dövlət siyasətini həyata keçirmçək və bu sahədə möhkəm təməllərin qoyulmasıdır. Bu münasubətlə islahat proqramında belə deyilir:*"Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir".*

İslahat proqramında təhsilin əsas inkişaf istiqamətləri göstərilərkən təhsilimizin inkişaf tarixinə dair çox dəyərli məlumatlar da verilir. Bu məlumatlardan aydın olur ki, Azərbaycan dünya təhsil sisteminə qoşulsa da, Avropaya inteqrasiya edilsə də hələ qədim və orta əsrlərdə özünün mükəmməl təhsil sistemi olmuş, zəngin mədəniyyəti, milli-mənəvi dəyərləri olmuşdur.

Bu barədə islahat proqramında belə deyilir: *"Eramızın üçüncü əsrindən başlayaraq Azərbaycanda ilkin savad verən ayrıca məktəblər mövcud olmuşdur. VII əsrdə isə elmi təhsili daha yüksək məqama qaldıran İslam dininin təsiri ilə oxumaq istəyənləri əhatə edən təhsil sistemi yaranmışdır. Artıq X-XIII əsrlərdə Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Həmədan, Ərdəbil kimi şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilmişdi.*

*XII-XV əsrlərdə Azərbaycan yüksək ali təhsil müəssisələri ilə dünyada məşhurlaşmışdı. Bu dövrdə Azərbaycanın Gəncə, Şamaxı, Beyləqan, Naxçıvan, Bərdə, Təbriz, Marağa kimi şəhərlərində ali məktəblər, rəsədxanalar, kitabxanalar fəaliyyət göstərmişdir. Həmin ali məktəblər memarlıq, musiqi, astronomiya, təbabət, dəqiq elmlər və say üzrə biri digərini təkrar etməyən, təmayülə malik olmuşlar.*

*XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə qatıldı, qısa müddət ərzində bütün milli məktəblər ləğv edildi, əvəzində təlim rus dilində olan tədris müəssisələri yaradılaraq, milli təhsil sistemimizin əsaslarına güclü zərbə vuruldu. Bununla yanaşı, Azərbaycanda XX əsrin əvvəllərində pedaqoji fikrin səciyyəvi cəhətlərindən biri klassik pedaqoji ideya və ənənələrin Avropa üslublu dünyəvi təhsil təcrübəsi*

*ilə birləşməsi və təlimdə yeni üsulların tətbiqinin diqqəti daha çox cəlb etməsi idi. Rus imperiyasının süqutu nəticəsində 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Respublikada təhsil sistemi Azərbaycan Xalq Cümhuriyyəti dövründə öz təşəkkülünü tapmış və xüsusilə 20-ci illərdə Azərbaycan sovetləşəndən sonra bu sahə əhəmiyyətli dərəcədə sürətlə inkişaf etdirilmişdir".*

**Təhsil islahatı Proqramı üç mərhələdn ibarət olmuşdur: I mərhələ hazırlıq mərhələsidir və bu 1999-cu illəri əhatə edir. II mərhələ qısamüddətli perspektivi əhatə edir. Bu 2000-2003-cü illəri əhatə edir. III mərhələ 2004-cü ildən sonrakı mərhələdir ki, burada da Proqramda nəzərdə tutulan bütün tədbirlərin müxtəlif yönüm və səviyyəli təhsil müəssisələrinin inteqrasiyası, onların keçirilməsi yolları əhatə olunmuşdur.**

İslahat Proqramında I mərhələdə 50, II mərhələdə 57, III mərhələdə 21 tədbirin, bütövlükdə 128 tədbirin həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkəmizin möhtərəm prezidenti, cənab İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsinə Azərbaycanın gələcək inkişafının əsas strateji xətti kimi baxır. Prezident belə hesab edir ki, *Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, intellektual əməyin inkişafından, informasiya və kompyüter texnologiyalarının geniş tətbiqindən keçir.*

Prezident cənab İlham Əliyevin *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı* təhsilimizin inkişafında, pedaqoji elmimizin

inkişafında yeni bir mərhələ açmışdır. Bu mühüm dövlət sənədini təhsil sistemimizin metodoloji əsası, pedaqoji elmimizin təməl prinsipi hesab edə bilərik. Bu sənəd ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır ki, bu da səriştəli müəllim kadrları hazırlığının mühüm şərtidir. Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bu günkündən daha bilikli, daha ağıllı və daha hazırlıqlı olmalıdır.

Təsadüfi deyildir ki, ölkə prezidenti və vitse Prezident, Heydər Əliyev fondunun Prezidenti Mehriban xanım Əliyeva məhz bunu nəzərə alaraq, təhsilə ildən-ilə büdcə xərclərini artırır. Məktəbəqədər təhsildən başlamış təhsilin bütün mərhələlərini əhatə edən və nəhayət, ali təhsilin inkişafının təmin edilməsini əsaslandıran bir sıra Dövlət proqramları hazırlanıb qəbul edilmişdir.

Heydər Əliyev xalqımızın çoxminillik tarixinin ayrı-ayrı dövrlərində adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunmasını xalqın yaşaması və qorunması üçün vacib hesab edərək onların öyrənilməsini, qorunmasını hər bir azərbaycanlının müqəddəs borcu sayırdı. Ulu Öndər yaxşı

bilirdi ki, gənc nəslin düzgün tərbiyə olunması, düzgün istiqamətlənməsi və yaxşı təhsil alması ilk növbədə xalqın milli-mənəvi dəyərlərini öyrənməkdən başlayır.

Ulu Öndər Heydər Əliyevin toxunduğu məsələlərdən biri də təhsilin məzmunca dövlətçilik prinsipləri əsasında qurulmasına nail olmaqdan, yeni məzmunlu milli dərsliklərin yaradılmasından, milli ideologiyanın, vətənpərvərliyin əsas reallaşma vasitələri olan dil, ədəbiyyat, tarix, mədəniyyət, xalqın adət və ənənələrin öyrənilməsini mühüm vəzifə kimi qarşımıza qoymuşdur: *"...Gənclərimiz milli- mənəvi ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi, ədəbiyyatımızı yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".* Ulu Öndərin bu fikirləri yetişən gənc nəslin milli-mənəvi ruhda və onun tərkib hissəsi olan vətənpərvərlik tərbiyəsində bir proqram xarakteri daşıyır ki, onu daim öyrənməli və əməl etməliyik.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına, məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaqdır. Azərbaycanın indiki və gələcək nəsilləri üçün ədəbi örnək olacaqdır. Öz şərəfi və möhtəşəm fəaliyyəti ilə Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətini yaratdı. Onun idarəçilik mexanizmini yaratdı, formalaşdırdı. Milli - mənəvi dəyərlərimizi dirçəltdi və təhsilimizi inkişaf etdirdi.

## 2. HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİNİN MÜDRİKLİYİ

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu Öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu Öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər, islahatlar həyata keçirmişdir.

1969–1982-ci illər Azərbaycan xalqının tarixinə elmin, təhsilin, ədəbiyyatın, incəsənətin intibah illəri kimi daxil olmuşdur. 1969-cu ilədək olan dövr Azərbaycan üçün tənəzzül dövrü idi. Heydər Əliyevin 1969-cu ildən başlanan siyasi kursu Azərbaycana bütün sahələrdə – elmdə, təhsildə, iqtisadiyyatda, mədəniyyətdə, dövlət quruculuğunda, beynəlxalq aləmdə böyük uğurlar gətirdi.

Bu müdrik siyasət nəticəsində Azərbaycan bütün dünyada tanınır, beynəlxalq nüfuzu durmadan yüksəlir. Artıq dünyanın böyük ölkələri Azərbaycanla hesablaşır, siyasətdə "Azərbaycan modeli" bir nümunə kimi götürülür, bir sıra beynəlxalq layihələr Azərbaycanın milli maraqları nəzərə alınmaqla həyata keçirilir. Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə təhsilə, tərbiyəyə diqqət və qayğı həmişə ön planda olmuşdur. O deyirdi: **"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir".**

Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu irəli çəkərək demişdir: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, məzmununu yüksək qiymətləndirən Ulu Öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır.

Ulu Öndərimizin aşağıdakı dəyərli fikirləri bu baxımdan səciyyəvidir: **"İnsan təhsilinin əsasını orta məktəbdə alır... Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, ...cəmiyyətimizin**

**şüurlu üzvü olacaqdır".** Bu mövzunun davamı kimi qeyd edək ki, dahi rəhbərin orta təhsilin qarşısında duran vəzifələrlə bağlı qiymətli tövsiyə və tapşırıqları da bütün zamanlar üçün dəyərini saxlayan əsl fəaliyyət proqramıdır.

Xalqımızın böyük oğlu Heydər Əliyev tədris ocaqlarında, o cümlədən orta ümumtəhsil məktəblərində şagirdlərin bütün müvafiq elmlər üzrə zəruri biliklərə yiyələnməsini, onların seçdikləri gələcək ixtisaslara uyğun fənləri daha dərindən öyrənməsini lazım bilmiş, bunlarla yanaşı, istisnasız olaraq hər bir şagirdin mükəmməl bilməsi son dərəcə vacib olan fənləri də ayrıca vurğulamışdır: **"Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər... Amma orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər".**

Bütün bunlar isə təhsilin milli məzmununu müəyyənləşdirən çox mühüm faktorlar kimi düşünülmüş, ciddi bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Təhsilin məzmunca milli müstəqil-liyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fən-lərin, xüsusən Azərbaycan dilinin, tarixinin və ədəbiyyatının tədrisinin mahiyyətcə yeniləşməsini də dahi rəhbər çox vacib şərt saymışdır. Bu da təsadüfi deyil. Çünki gələcəyin qurucuları olan yeni nəsillərin milli ideologiyaya yiyələnməsi məktəbdən başlayır və bu işin düzgün təşkili ölkə üçün həyati əhəmiyyətə malikdir. Ona görə də ümummilli

liderimiz tövsiyə edirdi: "Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər". Eyni ciddi vəzifələri Ulu Öndər Azərbaycanın dövlət rəmz və atributlarının, dilinin, ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi sahələrinə də aid etmişdir.

Göründüyü kimi, Ulu Öndərin təlim-tərbiyə ilə əlaqədar nəzəri fikirləri təhsilin davamlı inkişafı inkişafı və bu əsasda da müstəqil Azərbaycanın dövlətçiliyinin inkişafı xüsusi yer tutmuşdur.

Ulu Öndərin tapşırığı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq edilməsi və buna uyğun olaraq, həyata keçirilən Təhsil islahatı təhsil sistemində mühüm yeniləşməyə rəvac vermişdir.

Ümummilli liderin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 30 mart 1998-ci il tarixli Sərəncamına uyğun olaraq, təhsil sektorunun bütün sahələrini əhatə edən islahat proqramı hazırlanmışdır. 15 iyun 1999-cu il tarixli Sərəncamla qəbul olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" bu sahədə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət sənədidir. Bu gün Respublikamızın Prezidenti İlham Əliyevin "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (24 oktyabr 2013-cü il), "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf

Konsepsiyası”) təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələdir. Bütün bunlar Heydər Əliyev ideyalarının davamı olaraq ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlam-larından və xüsusilə “maddi kapitalın insan kapitalına çevirmək” ideyasından qaynaqlanır.

Heydər Əliyev istər müəllimlər qarşısında çıxışlarında, istər müəllimlər qurultayına göndərdiyi təbrik məktublarında, istərsə də respublikamızın problemləri ilə bağlı digər məruzə və çıxışlarında müəllim əməyinə həmişə yüksək qiymət vermişdir. O deyiridi**: “Əgər müəllim olmasa heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik”.** Bütün müvəfəqiyyətlərin əsası təhsildən, müəllimin verdiyi biliklərdən asılıdır.

Heydər Əliyevin müəllimə olan münasibətində bir müdriklik, qayğıkeşlik, bu sənətin mahiyyətinə dərindən nüfuz etmək, cəmiyyətin əsl müəllimlərə böyük ehtiyacı olduğunu tövsiyə etmək məharəti özünü göstərir. Bu, bir tərəfdən onun dövlət başçısı kimi vəzifəsindən irəli gəlsə də, digər tərəfdən onun ilk ixtisasca müəllim olması ilə bağlıdır-desək bəlkə də səhv etmərik.

Çünki, müəllimə aid olan bütün kəlamlarında onun özünün bu peşəyə, sənətə şəxsi hörməti, münasibəti açıq-aydın görünür. Ulu Öndərimiz özü də öz müəllimlərinə həmişə dərin hörmət və ehtiarmla yanaşmışdır.

**“Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam” - sözləri Heydər Əliyevin təkcə özünün müəllimlərinə olan münasibətini bildirən ifadələr deyildir. Bunlar həmçinin, hər bir şəxsin öz müəllimini sevməsi, ona hörmət və ehtiram göstərməsinin vacibliyinin tövsiyəsidir.** Ulu Öndər bununla həm də gəncliyi öz müəllimlərinin qədrini bilməyə, onları qiymətləndirməyə səsləyir, nümunə göstərir. Dahi bir şəxsiyyətin müəllimlərini həmişə xatırlaması, onları yad etməsi, böyüklükdür, müdriklikdir, ucalıqdır.

Heydər Əliyevin nəzəri irsində təhsil məsələləri, müəllim əməyinə qiymət, bu sahədə onun müdrik kəlamları daim aktual və əhəmiyyətlidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”, - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmışdır.

Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edirdi. 1970-ci illərdən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratmışdır.

Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı. Həmin dövrdə təhsilin inkişafına xüsusi diqqət məktəb tikintisində də özünü göstərdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 1965-ci ilə nisbətən üç dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdı. Şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minə yüksəldi. 1970-1980-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946-1970-ci illərdəki müvafiq göstəricidən iki dəfə çox idi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7, təhsilalanların sayı isə 2,5 dəfə artdı. Onun təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirildi, 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başladı.

Dahi rəhbərin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu. 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət

Universiteti) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev ana dilində söylədiyi nitqində ali təhsil sahəsində qarşıda duran vəzifələrdən danışdı. Bu, təkcə universitet kollektivi deyil, bütün Azərbaycan cəmiyyəti üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu. Universitetin Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında mühüm rolunu vurğulayan Heydər Əliyev dedi: **"1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər".**

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi.

Onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi.

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaq-görənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, azərbaycanlı gənclərin respublika hüdudlarından kənardakı ali məktəblərə təhsil almağa göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institut-larında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradırdı.

**“Təhsil millətin gələcəyidir”,** - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı.

Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı. Əgər 1993-1994-cü tədris ilində respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alıbsa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi.

Bununla yanaşı, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırıldı, 200 yeni məktəb binası tikilərək istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. İstedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək buraya 12 minə yaxın şagird cəlb olundu.

“Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir”, - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmir, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir.

“Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram”,-deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil

işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil.

Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalayıb. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin ən parlaq nümunələridir.

## 3.HEYDƏR ƏLİYEV İDARƏÇİLİYİNDƏ LİDERLİK

Heydər Əliyev qarşıya qoyduğu məqsədlərə çatmaq, müəyyən etdiyi vəzifələrin layiqincə yerinə yetirilməsi üçün ilk növbədə idarəçilikdən başlamışdı. Respublikamızın inkişafının təmin edilməsi üçün geniş islahatlar həyata keçirən Ulu Öndər ilk növbədə diqqəti idarəçilikdəki mənəvi-psixoloji mühitin sağlamlaşdırılmasına yönəltmişdi. Məhz idarəçilikdə təmin olunan nizam-intizamın, o cümlədən qanunçuluğun möhkəmləndirilməsinin nəticəsi olaraq bütün sahələrdə irəliyə doğru dönüşün təməlləri yaradıldı. İdarəetmədə intizamın, haqq-ədalətin təminatına nail olan və bunu məmur aparatının əsas amalına çevirən Ulu Öndər bu yolla hakimiyyət orqanları ilə vətəndaşlar arasında möhkəm mənəvi və hüquqi bağlantını, qarşılıqlı etimadı təmin etdi. Ulu Öndərin qarşıya qoyduğu məqsədlərə uyğun olaraq rüşvətxorluğun və korrupsiyanın qarşısının alınması üçün sərt və qətiyyətli islahatlar həyata keçirildi. Təbii ki, bu addımlar həm ümumi inkişafın stimullaşdırılmasına, həm də cəmiyyətin mənəvi baxımdan sağlamlaşdırılmasına öz müsbət təsirini göstərdi. Bu mənada o illərdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinin əsas səbəblərindən biri Heydər Əliyevin idarəçilikdə yaratdığı nizam-intizam və şəffaflıq, bütün neqativ təzahürlərə son qoyması idi.

Heydər Əliyevin idarəetmə prioritetlərindən biri ölkəmizi qlobal məkanda iqtisadi cəhətdən güclü dövlətə çevrilməsindən ibarət idi. Bu məqsədlə o, ölkənin iqtisadi inkişafına

yönəlməklə, makroiqtisadi göstəricilərin inkişafını, sənayenin, eləcə də emal sənayesinin inkişafını hədəf seçmişdir. Sovetlər məkanının dağılması ilə müstəqil dövlətə çevrilən, Qarabağ müharibəsinin ağrıacısından iqtisadi zərər çəkən respublikamız özünün çətin dövrlərini yaşayırdı. Məhz Heydər Əliyevin hakimiyyətə gəlişi və qayıdışı xalqa bu iqtisadi böhrandan çıxmaq ümidini verdi. Çox keçmədi ki ölkəmizdə iqtisadi tənəzzülün qarşısının alınması və islahatların aparılması məqsədilə düzgün iqtisadi siyasət aparmaqla Ümummilli Liderimiz iqtisadi inkişafın əsasını qoydu.

Heydər Əliyev yüksək idarəçilik qabiliyyətinə malik idi. Onun idarəçiliyinin əsas prinsipi humanistlik, demokratiklik və ədalətdir.

İnsanların daim qayğısına qalmaq, onlara yol göstərmək, xeyirxahlıq etmək, onları idarə etmək çətin və müərəkkəb bir iş olduğu kimi, həm də şərəfli bir işdir. Düzgün, yaxşı, kamil idarəçilik keyfiyyətinə hər kəs əlbəttə, sahib ola bilmir. **Hərtərəfli humanist idarəçilik, insan hüquqlarına hörmət etmək və ədalətli rəhbərlik etmək xarizmatik idarəçiliyin ilk şərtləridir ki, bu keyfiyyətlər Heydər Əliyev idarəçiliyində mövcud olmuşdur.**

Xarizmatik lider keyfiyyətlrəinə malik biz ilk növbədə Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyev nümunəsində, onun liderlik fəaliyyətində görə bilirik. O bütöv bir Azərbaycan xalqının lideri olmaqla bərabər, dünya liderliyində də lider olmuşdur. Heydər Əliyev - böyük siyasi lider daim öz iradəsi, cəsarəti, çevik və rasional qərarları ilə ən

çətin situasiyalarda belə çıxış yolunu tapan parlaq şəxsiyyəytdir. O məharətli çıxışları, nitqləri, söhbətləri ilə insanlara qüvvətli pozitiv təsir etməyi bacarmış, insanlar arasında ayrı seçkiliyə yol verməmiş, onların tələbat və ehtiyaclarına diqqət və qayğı ilə yanaşmış, zamanın nəbzini tutaraq ona uyğun fəaliyyət göstərmişdir.

**Prfessor Mahirə Hüseynova "Missiya" adlı çox dəyərli monoqrafiaysında yazır: "Xarizması ilə diqqəti hər vaxt özünə çəkən Heydər Əliyev öz parlaq siyasi zəkası, və istedadı sayəsində yeni Azərbaycanı onun bu günkü gerçəklərini yaratmış və gələcəyə aparan yolları müəyyənləşdirmişdir" (Mahirə Hüseynova. Missiya.Bakı, 2019, səh.350).**

XX əsrdə xalqımızın yetirdiyi ən böyük şəxsiyyət, dünya şöhrətli siyasi xadim, xalqımızın milli lideri Heydər Əliyev dövlətçilik konsepsiyasında üç ali dəyəri - ədalət, müdriklik, həqiqət meyarını önə çıxararaq gücün siyasətinə qarşı siyasətin gücünü, ağlın və müdrikliyin, zəkanın gücünü qoymuşdur.

Heydər Əliyevin uzaqgörənliyi, hadisələri qabaqlaması, intusiyası, öngörümü, cəsarəti, iradəsi və xüsusi fəhmi ilə əsil liderlik keyfiyyətlərini özündə birləşdirmişdir. Heydər Əliyev millətin gələcəyini düşünən lider olaraq bütün həyatını fəaliyyətini canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə, inkişafına, yüksəlişinə həsr etmişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, Azərbaycançılıq ideologiyasının banisi, milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Heydər Əliyev böyük,

tarixi hadisələrə imza atmışdır ki, onun titank, hərtərəfli geniş siyasi fəaliyyəti tükənməzdir. "Ümummilli Lider Heydər Əliyev uzaqgörən, zəngin idarəetmə və dövlətçilik təcrübəsinə malik bir şəxsiyyət idi. Onun o dövrdə atdığı praqmatik addımlar sayəsində ölkədə baş verən dağıdıcı proseslərin qarşısı alındı. Məhz buna görə də tarixçilər Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtmasını Azərbaycanın müasir tarixinin ən vacib siyasi hadisələrindən biri kimi qiymətləndirirlər.

Burada bir faktı da qeyd etmək lazımdır ki, Heydər Əliyevin liderliyi, hər bir işdə birinci olması onun yalnız siyasi fəaliyyətindən başlamamışdır. O hələ kiçik yaşlarından, məktəbli həyatından, uşaqlıq və yeniyetməlik dövründən, gənclik həyatından lider olmuş və əsası da elə oradan başlamışdır.

Bəli Ulu Öndər Heydər Əliyevin anadangəlmə fitri istedadı, liderliyə məxsus xüsusi qabiliyyətləri olmuşdur.

Heydər Əliyevin yeniyetməlik və gənclik dostları öz söhbətlərində, yazılarında bildirirlər ki, gənc Heydər Əliyev yeniyetməlik və gənclik illərində də çox ağıllı, tədbirli, təfəkkürlü, savadlı, istedadlı, səliqəli, mehriban və həmişə haqq və ədalətin tərəfində olan, qamətli, fiziki cəhətdən görkəmli bir oğlan idi. Kəndə gələndə bütün kənd cavanları onun başına toplaşar onunla söhbət edərdilər. Onda insanları asanlıqla öz ətrafına toplamaq, onları idarə etmək, onlara rəhbərlik etmək bacarığı çox yüksək idi.

O təhsilində, həmçinin müxtəlif fəaliyyət növlərində yalnız birinci olmuşdur. Heydər Əliyev Naxçıvanda orta məktəbi "Əla" qiymətlərlə bitirmiş və Naxçıvan Pedaqoji Texnikumuna daxil olmuşdur. Burada o mükəmməl pedaqoji təhsil almış, müəllimlik peşəsinə yiyələnmişdir. Onun burada və sonrakı təhsil illərində aldığı qiymətlər yalnız "Əla" qiymətlər olmuşdur.

Heydər Əliyevin çıxışları, nitqləri həmişə öz zənginliyi, məna dolğunluğu ilə, pozitiv, emosional təsiri ilə seçilirdi. O, özünün əzəmətli görkəmi, baxışı, səsinin ahəngi ilə auditoriyanın diqqətini özünə cəlb edirdi. Dahi natiq insanlarla ünsiyyətə girir, sual verib, cavab alırdı. Bu dahi şəxsiyyətin nitqindəki məna ardıcıllığı və məntiqilik bütün çıxışlarında özünü göstərirdi.

Heydər Əliyev çıxış edərkən bütün varlığı və inamı ilə danışır və hamı ona diqqətlə qulaq asırdı. **Heydər Əliyevin Naxçıvan Pedaqoji Texnikumunda təhsil illərindəki fəaliyyətini xatırlayan "İstiqlal" ordenli, Əməkdar Müəllim, dos.Lətif Hüseynzadə o illəri xatırlayaraq yazırdı ki, "Heydər Əliyev sinifdə dərs danışarkən sinfə tam sükut köçürdü. Onun məntiqli danışığı, işlətdiyi sözlər, ifadələr fərqli və çox diqqətçəkici idi...".** Heç şübhəsiz Heydər Əliyevin bu natiqlik qabiliyyəti, liderlik qabiliyyəti onun hərtərəfli hazırlığından, təhsil illərindəki uğurlu təhsilindən, mütaliəçi olmaısndan irəli gəlmiş və sonrakı fəaliyyətində də daha təkmil şəkildə özünü göstərmişdir.

Ulu Öndər, milli liderimiz daha sonra Leninqradda (Sankt-Peterburq) DTK məktəbində təhsil aldığı illərdə, daha sonra da Bakı Dövlət Universitetindən məzun olduğu zaman onun təhsil haqqında sənədlərində yalnız "Əla" qiymətlər olmuşdur. O bütün fəaliyyət növlərində ən fəal, ən qabaqcıl olmuş, daim yoldaşlarına kömək etmiş, qayğısına qalmış birinciliyi, liderliyi heç zaman əldən verməmişdir.

Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin, təhsilimizn inkişafına, xalqın tərəqqisinə, adət və ənənələrinin qorunmasına, zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edir və deyirdi: **"Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".**

Onun bütün fəaliyyəti – uşaqlıq, yeniyetməlik, gənclik həyatı və siyasi fəaliyyəti gənc nəslimizə nümunə olmaldıır. Liderliyi ondan öyrənməli, onun liderlik məktəbini öyrənmək lazmdır.

Hazırda ölkəmiz iqtisadiyyatın inkişafı sahəsində, hərbi texnika sahəsində lider ölkələr sırasındadır. Ölkəmiz 44 günlük Vətən müharibəsində ölkə başçısının komandanlığı, müdrik siyasəti, "Dəmir yumruq" hərbi əməliyyatı ilə işğal olunmuş torpaqlarımız azad edildi, xalqımız tarixi Zəfər qazandı.

Əsgərlərimiz qəhrəmanlıq və şücaət göstərmiş, ordumuz hərb tarixində görünməmiş qələbələr qazandı, ən yeni hərbi texnika nümayiş etdirdi, düşmənə hərb tarixində ağır zərbələr vurdu, xüsusi hazırlıq görmüş əsgərlərimiz əlbə-yaxa döyüşlərdə, çətin şəraitdə qələbə çaldılar. Bütün bunlar hazırda bir çox ölkələrdə Azərbaycanın hərb üsul-idarəsi, qələbə əzmkarlığı, hərbi texnikası öyrənilməkdədir.

Bütün bu uğurların müəllifi xalqımızın yeni əsrdə, yeni lideri Heydər Əliyevin liderlik siyasi məktəbinin layiqli davamçısı İlham Əliyevdir. Prezident İlham Əliyev mili ruhlu, xəlqi xislətli, qətiyyətli, iradəli, cəsarətli, pozitiv təsirli, praqmatik dünya siyasətçisidir. Böyük Türk şairi Ziya Paşanın dediyi kimi:

***Ayinəsi işdir kişinin, lafa baxılmaz,***
***Şəxsin görünür, rütbeyi əqli əsərində***

O bir neçə dildə sərbəst danışır, nitq söyləyir, xarici jurnalistlərə müsahibələr verir, eyhamlı, təxribatçı suallara tutarlı cavablar verir, bəzən zarafatla, bəzən yumorla tərəfkeşlik edən jurnalistə də yerini göstərir. O, özünün dediyi kimi, nəyin, nə vaxt edəcəyini, nə zaman deyəcəyini yaxşı bilir. Budur Liderlik, budur, birinci olmaq.

Beləliklə, Ulu Öndərizmiz, milli liderimiz, XX əsrin dünya lideri Heydər Əliyevin və XXI əsr Azərbaycan Respublikasının Prezidenti, müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyevin liderliyini, onların həyat və fəaliyyəitini mükəmməl öyrənmək və onlardan nümunə götürmək təlim və tərbiyə işimizdə mühüm yer tutmalıdır.

# 4. TƏHSİLİN İNKİŞAFINA HEYDƏR ƏLİYEV QAYĞISI

Öz qiymətli ömrünü təkcə respublikanın tərəqqisi üçün deyil, eyni zamanda bütün türk dünyasının tərəqqisinə həsr edən dahi liderin fəaliyyət meydanı çox geniş, rəngarəng olmuşdur. O, bütün sahələrin bilicisi və ən azından bütün sahələr üzrə məlumatlı idi. Gənclərin inkişafına və təhsilinə isə xüsusi qayğı ilə yanaşır, gənclərin tərbiyəsində təhsilin də önəmini əsas tuturdu. Ulu Öndər dəfələrlə deyirdi ki, dövlətin vəsaiti, qayğısı, bütün imkanları birinci növbədə təhsilimizin daha da inkişaf etdirilib dünya standartları səviyyəsinə yüksəldilməsi işinə yönəldilməlidir. Hər iki hakimiyyəti dövründə Heydər Əliyev təhsil sahəsində böyük dəyişikliklərə nail oldu. Onun fikrincə təhsili olmayan gəncliyin gələcəyi olmaz. Və Ümummilli lider məhz bu yolda əlindən gələni etmişdir. Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə (1969-1982-ci illərdə) onun təşəbbüsü və bilavasitə qayğısı ilə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində azərbaycanlı oğlan və qızların təhsil alması üçün yaratdığı şərait də bunun bariz nümunəsi idi. Yüzlərlə gənc xaricdə təhsil almağa göndərildi. Həmin dövrdə Ulu Öndərimizin böyük qayğısı və diqqəti ilə Moskvanın, Leninqradın və eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdir. Hər il ali təhsil almaqdan ötrü respublikamızdan kənara orta hesabla 800 nəfərdən artıq tələbə

göndərilməsi yaxşı ənənə halını almışdı. Müqayisə üçün deyək ki, 1969-cu ildə Azərbaycandan həmin ali məktəblərə cəmi 47 nəfər təhsil almağa göndərilməsi planlaşdırılmış və onların da əksəriyyəti başqa millətlərdən idisə, 1970-ci illərin axırlarında həmin məktəblərə göndərilən abituriyentlərin sayı 700-800 nəfər (80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər) təhsil almağa göndərilirdi və onların da çoxunu azərbaycanlılar təşkil edirdi. Bu gənclər çox keçmədən yüksək səviyyəli mütəxəssislər kimi ölkəyə qayıtdılar, bilikli istedadlı kadrlar kimi respublikanın müxtlif sahələrində uğurla fəaliyyət göstərdilər.

Azərbaycan müstəqillik qazandıqdan sonra azərbaycanlıların xaricdə təhsil alması prosesi yenidən sürətləndi. İldən-ilə xaricdə təhsil alanların sayı artırdı. Ulu Öndərin keçən əsrin 60-cı illərində əsasını qoyduğu bu təhsil ənənəsi uğurla davam etdirilir. Xaricdə təhsil alan azərbaycanlı gənclərin sayı xeyli artmış, on minləri keçmişdir. O dövrdə 2013-2014-cü tədris ilində Dövlət Proqramı çərçivəsində 700-ə yaxın tələbə ali təhsil almaq üçün dünyanın qabaqcıl universitetlərinə göndərilmişdir. Ümumiyyətlə, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində indiyədək yüzlərlə azərbaycanlı gənc Dövlət Neft Fondu hesabına maliyyələşdirilməklə dünyanın inkişaf etmiş ölkələrinin tanınmış universitetlərinə təhsil almağa göndərilmişdir. Dövlət vəsaiti hesabına xaricdə təhsil məsələsi hətta dünyanın ən zəngin dövlətləri üçün nadir hadisədir. Belə ki, digər ölkələrdə təhsil üçün ödənilən vəsait məzun işə düzəldikdən sonra hissə-hissə qaytarıldığı halda, Azərbaycanda həmin vəsait təhsil alana bağışlanır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bu təhsil ənənəsi

Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, maddi kapitalın insan kapitalına çevrilməsi istiqamətində məqsədyönlü iş aparılır. Cənab Prezident tərəfindən 19 oktyabr 2006-cı ildə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı" haqqında və bununla bağlı sonrakı illərdə qəbul edilmiş sənədlər bu sahəyə dövlətin diqqət və qayğısının parlaq nümunəsi kimi kimi qiymətləndirilməlidir. Bu məqsədyönlü siyasət Azərbaycan dövlətçiliyinin möhkəm-lənməsinə, Azərbaycan xalqının tərəqqisinə istiqamətlənmişdir. Çünki təhsil millətin tərəqqisinin ən mühüm şərtidir.

Ulu Öndərin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təhsil sahəsinmdə hərtərəfli inkişafa geniş şərait yaradan qiymətli dövlət konsepsiyasıdır. Belə ki, sonrakı islahatlar üçün bu Proqram baza rolunu oynadı. İslahatlar arasında Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Sərəncam, "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Sərəncamı qeyd etmək olar.

Bu mühüm dövlət qərar və sərəncamları, təhsil islahat Proqramları təhsilimizin inkişafında, tərəqqi etməsində, inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edilməsində mühüm strateji əhəmiyyət daşımışdır.

# 5. GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA VƏ VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNDƏ HEYDƏR ƏLİYEV İDEYALARININ TƏNTƏNƏSİ

Müasir şəraitdə, qloballaşma dövründə gənc nəslin təlim-tərbiyə işləri onlarda milli - mənəvi dəyərlər, ləyaqət, milli mənlik şüuru, vətənpərvərlik və milli iftixar hissi, yüksək humanizm keyfiyyətləri, tolerantlıq xarakteri formalaşdırmalı, yüksək mənəvi əqidəyə malik vətən üçün layiqli vətəndaşlar yetişdirməyə istiqamətlənməlidir.

Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət, təhsil siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada yetişən gənc nəslimiz yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi, mədəni və mənəvi abidələrini, adət və ənənələrini, dilimizı, dinimizi, mədəni sərvətlərimizi, tariximizi, ədəbiyyatımızı dərindən öyrənməlidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində demişdir: **"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".** Ulu Öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-

mənəvi ruhda, mənəvi mədəniyyət əsasında tərbiyəsi bu gün təhsilimiz qarşısında duran ən vacib məsələlərdəndir.

Vətənpərvərlik mənəviyyatın tərkib hissəsi olaraq tərbiyəsi dövlətin təhsil sahəsindəki siyasətinin prinsiplərindən biri hesab edilir və bu məsələ "Təhsil haqqında Qanun"da təsbit edilmişdir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsi bəşər tarixində klassiklərin, görkəmli alimlərin həmişə diqqət mərkəzində olmuşdur. Vətənpərvərlik tərbiyəsi antik filosofların – Sokratın, Platonun, Aristotelin əsərlərində öz əksini tapmışıdr.

Vətənpərəvərliyin yüksək mərhələsi hərbi vətənpərvərlikdir. Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə etmək peşəsindən, vəzifəsindən asılı olmayaraq hər kəsin, hər yerdə qarşısında duran ən ümdə vəzifələrdəndir.

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm mənəvi keyfiyyətidir. Vətənpərvərlik olmadan başqa keyfiyyətlərin olmasının heç bir əhəmiyyəti yoxdur, əksinə zərəri vardır. Vətən sevgisi olmayan şəxs öz biliyini, bacarığını vətənin, onun insanlarının zərərinə istifadə edəcəkdir. Bu cəhətdən Ümummilli lider Heydər Əliyev vətənpərvərliyi, təbii duyğularla, mənəviyyatla bağlayaraq deyirdi**: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, demək o insan mənəviyyatsızdır".**

Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət təhsil siyasətinin uğurla reallaşdırılması nəticəsində bu gün mühüm nailiyyətlər,

qələbələr əldə olunmuşdur. Ulu Öndər Heydər Əliyev gənclərə daim sonsuz qayğı ilə yanşmış, gənc nəslin milli- mənəvi ruhda tərbiyəsinə böyük diqqət və həssaslıqla yanaşmışdır. Ümummilli liderimiz Heydər Əliyev zəngin mənəvi irsimzin yaradəlmasına və inkişafına parlaq yol açmış, milli birliyimizin bütövlüyümüzün möhkəmlənməsində əvəzsiz rol oynamışdır.

Bu gün fərəhli haldır ki, əskəri xidmətə çağırılan gənclərimiz böyük həvəslə bu işə qoşulurlar. Gənclərimiz ilkin hərbi bilik və vərdişlərə böyük maraqla yiyələnirlər. Gənclərin ordu həyatı ilə ilkin tanışlıqları onların hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarına zəmin yaradır. Hansı peşədə çalışmasından asılı olmayaraq, gənclərimizin milli qürur hissinə sahib olan, dövlətçiliyimizi qoruyub saxlayan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır olan vətəndaşlar kimi formalaşmasında hər kəs bir olmalı, birgə fəaliyyət göstərməlidir. Bu işdə ən böyük məsuliyyət isə əlbəttə, müəllim və pedaqoqların, tərbiyəçilərin üzərinə düşür.

Bu gün parta arxasında əyləşən hər bir şagirdimiz yaxşı anlayır ki, hərbi xidmət keçmək, Vətəni müdafiə etmək onların övladlıq, vətəndaşlıq borcudur. Şagirdlərimizi Vətənimizin fəal müdafiəsinə hazırlamalı, ilkin hərbi hazırlığqa və vərdişlərə ilkin vaxtlardan öyrətməliyik. Bu gün tarixi Zəfər qələbəmiz gənclərimizdə vətənpərvərlik, hərb peşəsinə sevgi, orduya rəğbət xeyli qüvvətlənmişdir. Bu gün hətta oğlanlarla yanaşı, gənc qızlarımız da hərbçi olmaq arzusundadırlar. Onların hər biri yaxşı bilir ki, aprel döyüşlərində də, II Qarabağ Vətən müharibəsində düşmənə ağır zərbələr endirən qəhrəman

oğullarımızdır ki, onlar da vaxtilə parta arxasında əyləşmişlər. Şagirdlərimizi Mübarizlər, Raquflar, Turallar, Çingizlər, Poladlar, Amidlər... kimi mərd, cəsur, Vətənə bağlı igidlər kimi yetişdirməliyik.

**Görkəmli pedaqoq, filoloq, professor Mahirə Nağı qızı Hüseynova Heydər Əliyevə həsr etdiyi dəyərli "Missiya" adlı kitabında ümummilli liderimizin Azərbaycan gəncliyi üçün örnək olan xarakterik xüsusiyyətləri ətraflı və geniş şəkildə təqdim etmişdir. Kitaba akademik İsa Həbibbəyli ön söz yazaraq qeyd etmişdir:"Professor Mahirə Hüseynovanın Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik və ümummilli liderlik fəlsəfəsi haqqındakı dərin elmi idrakdan doğan fikirləri sınaqalardan çıxmış dövlətçilik strategiaysının əbədiyaşarlığını düşünməyə əsas verir" .**

**Bu dəyərli kitabda yetişən gənc nəslin təhsili ilə bərabər onların mənəvi cəhətdən kamilliyinə çalışan müəllif çox haqlı olaraq Azərbaycan dövlətçiyinin banisi Heydər Əliyevin həyatından nümunələr gətirmiş, bu barədə anoloji epizodlara yer verməklə gənclərə hər bir xalqın ali siyasi iradəsinin təzahürü olan dövlətin qiymətini bir daha xatırlatmiş, onu qurmağın, qorumağın, inkişaf etdirməyin nə qədər mühüm olduğunu diqqətə çatdırmış, və yetişən gəncliyi Heydər Əliyevdən nümunə götürməyə çağırmışdır.. " (Hüseynova M.N. Missiya. Bakı: ADPU, 2019, 366 s. ).**

Professor Mahirə Hüseynovanın bu dəyərli kitabını yüksək qiymətləndirən **akademik İsa Həbibbəyli qeyd edir ki, "Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik və**

**ümummilli fəlsəfəsi haqqındakı dərin elmi idrakdan doğan fikirləri sınaqlardan çıxmış dövlətçilik strategiyasının əbədi yaşarlığını düşünməyə əsas verir. Azərbaycan dövlətçiliyinin tarixində yeni tarixi mərhələ olan Prezident İlham Əliyev erası ölkəmizin müasir dövrünün relallıqlarını və daha böyük gələcəyini aydın surətdə təsəvvür etməyə işıq salır. Bu mənada professor Mahirə Hüseynovanın "Missiya" kitabı dünəni, bu günü dərindən düşünən sabahlara doğru qətiyyətlə addımlayan hər bir Aərbaycan vətəndaşının ölkəmiz və xalqımız qarşısındakı missiyasını dolğun şəkildə mənalandıran, daha möhtəşəm gələcəyə nikbin baxmağa istiqmətləndirən əhəmiyyətli bir çağırışın elmi ifadələridir" (İsa Həbibbəyli, akademik. Mahirə Hüseynovanın "Missiya" kitabına ön sözün müəllifi ).**

Vətənpərvərlik tərbiyəsi və onun aşılanmasında xalqımızın min illər ərzində göstərdiyi qəhrəmanlıq nümunələri, xalqımızın deyimlərində Vətənə vurğunluq, torpağa məhəbbət kəlamları pedaqoji prosesin daim əsas canı olmalıdır. Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri və birincisi vətənpərvərlik tərbiyəsi olmalıdır. Bu sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilməlidir. Hər kəsə yaxşı bəllidir ki, vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət

hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu istiqamətdə təhsil müəssisələrimizdə keçirilən tədbirlər göstərir ki, dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi daim diqqət mərkəzindədir.

Ulu Öndər, xalqımızn ümummilli Lideri Heydər Əliyev müstəqilliyimizin ilk illərindən - ***"Gənclər müstəqil Azərbaycanın gələcəyidir"*** – şüarı ilə yola çıxaraq yetişən gənc nəslin hərtrəfli yetişdirilməsi diqqət və qayğısına qalaraq sistemli, düşünülmüş gənclər siyasəti apardı.

Ümummilli Lider gənc nəslin mütəşəkkil olaraq, nizamlı formada yetişdirilməsi, tərbiyələndirilməsi və təhsilləndirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi təşkil etdi ki, bu bu nazirlik gənclərlə daha sistemli, daha planlı işlər həyata keçirməyə başladı. Bu nazirliyin yanında Gənclər Fondunun yaradılması da gənclər siyasətinin elmi- nəzəri əsaslara bağlılığının bir nəticəsi idi. Bu tədbirlərin əməli davamı olaraq 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunun keçirilməsi oldu. Forumda respublikanın bütün rayon və şəhərlə gənclərinin müxtəlif təbəqələrin təmsil edən 2 minədək nümayəndə, həmçinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri milli məclisin üzvləri və xüsusilə Heydər Əliyev iştirak etmişdir. Forumda iştirak edən dahi rəhbər, Ümummilli Lider dərin məzmunlu və proqram xarakterli nitq söyləyərək dövlət orqanlarının gənclər təşkilatlarının və hər bir gəncin qarşısında

duran vəzifələr müəyyənləşdirdi, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində təsirli tədbirlərin görülməsi, bütün əlaqədar təşkilatların qarşısında əsaslı vəzifələr qoydu.

Ulu Öndər bu forumdakı çıxışında deyirdi: *"Müstəqil Azərbaycanın gələcəyi gənclərdir"- "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu gününü, gələcəyini düşünməlidir... Gənclərimiz milli ruhda tərbiyələnməlidir, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək demək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik.***

Ümummilli Lider Heydər Əliyevin bu nitqi gənclərin tərbiyəsi, təhsili və həyatda fəaliyyəti, mövqeyi üçün əsaslı bir proqramdır. Yetişən gənc nəsil bu proqrama daim müraciət etməli, burdan öyrənməli, burdan faydalnamlıdır.

Bu forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi. Bu forum gənclərlə işin daha da yaxşılaşıdırlmasına, daha da təkmilləşdirilməsinə səbəb oldu. Forumun əhəmiyyətindən biri də bu oldu ki, gənclərin çoxsaylı müraciətlərini nəzərə alan ölkə başçısı Heydər Əliyev 1997-ci

ildə imzaladığı sərənsama əsasən forumun keçirildiyi günü,- 2 fevralı **“Azərbaycan Gənclər Günü”** elan etdi. Daha sonrakı illərdə bir ənənə olaraq II, sonra III Gənclər forumları keçirləməyə başladı.

II Forumun nəticəsi olaraq Heydər Əliyevin imzaladığı 29 iyul 1999-cu il tarixli “Dövlət Gənclər Siyasəti haqqında” fərmanı gənclərə göstərilən diqqət və qayğının daha bir təzahürü kümü qiymətləndirilə bilər.

Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin təməllərini qoydu, zəruri qanunvericilik bazasını təmin etdi. Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmışdır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə öz yeni mərhələsini yaşayır. Ölkəmizin Prezident cənab İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz uğurlu siyasəti ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və əlverişli imkanlar bu sahəyə böyük diqqət və qayğının nəticəsidir.

İkinci Qarabağ döyüşlərində- Vətən müharibəsində qələbəmizin təminatçısı ağıllı, şücaətli, vətənpərvər gənclərimiz oldular. Müzəffər ordumuzun Ali Baş Komandanı möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan gənclərinin qəhrənamlığını yüksək qiymətləndirmiş və bununla belə gənclər qarşısında xüsusi vəzifələr qoymuş və demişdir:

***"Gənclər üçün əsas istiqamət əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox ciddi fikir versinlər. Çünki bu günkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gtedir ki, bilik savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar.İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar... Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiaydan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimzi olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə böyük dövlət marfaqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər.... Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclərhəm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar... Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik"***

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artmışdır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub.

Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi xeyli dərəcədə artmışdır. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: **"Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya,**

**əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır...".**

Bəli bu gün bizim gənclərimiz yüksək vətənpərvərlik, şücaəti, qəhrəmanlıq nümunələri göstərərək vətənin azadlığı uğrunda, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda fədakarlıq göstərdilər. Onlar vətən üçün canlarını fəda etdilər.Vətən uğrunda ölümün gözünə dik baxaraq bayrağımızı ucaltdılar , özləri də şəhidlik zirvəsinə ucaldılar.

Necə ki, Bayraq haqqında vətənpərvərliklə yoğrulmuş misralarda deyilir:

**"Bayraqları bayraq yapan üstündəki qandır**
**Torpaq, əgər uğrunda ölən varsa vətəndir".**

Əbədiyaşar komandan, Milli liderimiz Heydər Əliyevin dediyi "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətən-pərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" sözləri, gənclərimizin vətənpərvərlik tərbiyəsinin düzgün üçün bizim qarşımızda duran ən vacib məsələ və ən düzgün istiqamətdir".

Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı qüvvələri **"Dəmir yumruq"** əməliyyatı adı altında işğal edilmiş ərazilərimizin azadlığı uğrunda 44 günlük şanlı tariximizi yazan tarixi zəfər yürüşünə başladı. Dərindən düşünülmüş hərbi strategiya, döyüş əməliyyatlarının məharətlə keçirilməsi, vəziyyəti daim nəzarətdə saxlamağa qadir olan döyüş taktikası, Ali Baş Komandanın prosesi yüksək peşəkarlıqla idarə etməsi qələbəyə gedən yolumuzu daha da asanlaşdırdı.

Belə ki, düşmən bu ərazilərimizə praktiki cəhətdən bələd idi. Həmçinin, bizim bir çox əskər və zabitlərimiz isə bu coğrafiyada ilk dəfə idi ki, vuruşurdu. Bizim qarşımızdakı ordu isə işğal etdiyi bu yerləri daha yaxşı tanıyırdı. Havadarları Ermənistana pulsuz verdiyi texnika və hərbi surstlar hesabına düşmən silahlansa da onlara qarşı istifadə edilən pilotsuz uçuş aparatları (PUA), "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən və "Zərbə" dronlarından qaçışları mümkün olmamışdır.

Əsası Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğumuz cənab İlham Əliyevin təşəbbüsü ilə daha da inkişaf etdirilmiş, təkmilləşdirilmiş muasir standatlara cavab verən silahlar və artilleriya eyni zamanda müxtəlif tip qoşun növləri ilə düşmən ordusunu məhv etdi. Əskər və zabitlərimiz bu 44 gün ərzində Ermənistanın 30 ilə yaxın bir müddətdə qurduğu istehkamları yararaq keçdi. Davam edən müharibə dövründə 4 oktyabrda Cəbrayıl şəhəri, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhəri düşmən qüvvələrinin işğalından azad edildi. Ordumuzun qəhrəman övladları öz missiyasını yerinə yetirdi. Onlar Şuşa şəhərini böyük şücaət və mərdliklə dağlardan, meşələrdən, sıldırım qayaları keçərək, onlara dırmanaraq əlbəyaxa döyüşdə düşməni məhv edərək işğaldan azad etdi. 8 noyabrda Şuşanın işğaldan azad edilməsi tarixi bir nailiyyət idi. Bundan sonra düşmənin təslim olmaqdan başqa yolu qalamdı. Ermənistan ordusu darmadağın oldu , 10 mindən çox fərarisi 7 mindən çox ölüsü olan Ermənistan

ordusunun yenilməzliyi haqqındaki mifi Azərbaycan ordusu məhv etdi, Azərbaycan ordusu öz gücünü düşmənə layiqincə göstərdi.

Müzəffər ordumuz 44 gün ərzində düşmənə qalib gələrək işğal olunmuş torpaqlarımız azad olundu. Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz cənab İlham Əliyev müzəffər ordumuzun qələbəsi ilə Azərbaycan tarixinə silinməz izlər həkk etdi. O Zəfər tarixini əbədi olaraq yazdı, tariximizin parlaq səhifəsini yaratdı. 10 noyabrda Ermənistan müharibənin başa çatması ilə bağlı Kapitulyasiya aktına imza atdı.

Bu gün Qarabağın işğaldan azad olunmuş hər yerində, hər bir kəndində, Şuşada, Xankəndində Azərbaycanın şanlı üçrəngli bayrağı dalğalanır. Qazanılan zəfərlər təkcə silahın gücü ilə deyil, eyni zamanda Ali Baş Komandanımızın uzaqgörən müdrik siyasəti, dünyada yüksək nüfuzunun məntiqi nəticəsi idi. Ölkəmizdə məskunlaşmış koçkünlər öz doğma torpaqlarına qayıdırlar. Artıq tökülən qanlar durdurulmuş, insanlarımız dinc həyata qovuşur, quruculuq işlərinə başlayırlar.

Dahi şairimiz Hüseyn Cavidin misraları yada düşür:

**"Kəssə hər kim tökülən qan izini**
**Qurtaran dahi odur Yer üzünü".**

1990-cı illərdə torpaqlarımız bir birinin ardınca erməni təcavüzünə məruz qalaraq işğal olunurdu, məsum insanlarımız qətl edilir, hər gün qan tökülürdü. 1994-cü ildə Ulu Öndərimiz Heydər Əliyev bu qan tökülməsinin qarşısını

aldı, atəşkəs elan edildi. İnsanlarımızın bir nəfəs alaraq, güc toplamalarını saxladı.

**2020-ci il, 8 noyabr Azərbaycan tarixinə "Zəfər" bayramı kimi qızıl hərflərlə yazıldı.** Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı və müdrik rəhbərliyi, uzaqgörən siyasəti ilə işğal edilmiş torpaqlarımız azad edildi. Prezident İlham Əliyevin təbirincə desək**, "bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir.. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı".** Tökülən qanlar durduruldu. Erməni vəhşiliyinə, erməni qəsbkarlığına son qoyuldu. Bölgədə savaş kəsildi. Düşmən təslimçilik haqqında tarixi bəyanata gizlənərək imzasını qoydu

Azərbaycan xalqının qəhrəmanlıq dastanı bu gün də davam edir. Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bu gün də bütün cəbhə boyu mərd oğullarımız mənfur düşmənlə üz-üzə durub və qəhrəmancasına mübarizə aparır onlar sərhədlərimzi inamla qoruyurlar. Birgə bəyanatın imzalanmasından bir ay keçdikdən sonra Ermənistan silahlı qüvvələrinin Xocavənd rayonu ərazisində diversiya-təxribat, terroçuluq əməliyytalarına başlaması onu göstərirdi ki düşmənə inanmaq olmaz. Azərbaycanın silahlı qüvvələri tərəfinədn aparılan antiterror əməliyyatı nəticəsində Ermənistan vətəndaşları olan 62 nəfərdən ibarət diversiya qrupunun üzvləri saxlanıldı. Müdriklər yaxşı demiş ki, düşmənə heç zaman etibar etmək olmaz. Evlərimizi,

yurdumuzu, məktəblərimizi, məscidlərimizi, meşələrimzi dağıdıb, yandırıb viran qoyan düşməni heç vaxt bağışlamaq olmaz. Gəncəyə, Tərtərə, Bərdəyə - dinc əhaliyə raket bombaları atan, məsum insanları – körpə uşaqları, qocaları, qadınları qətl edən düşməni bağışlamaq olmaz. Xocalıda dinc əhalini, əli silahsız insanları, məsum körpələri, anaları, bacıları, ahılları, qocaları misli görünməmiş vəhşiliklə qətl-am edən düşməni bağışlamaq olmaz

Burada yenə də dahi şairimiz Hüseyn Cavidin misraları yada düşür:

**"Düşmən bağışlansa yolunu azar,**
**Qazar məzlum üçün dərin bir məzar".**

Vətən müharibəsində şəhidlər verdik. Onların qarşısında baş əyirik. Onlar canını müstəqil Azərbaycanımız uğrunda qurban verdilər. Hüseyn Cavid "Şəhidlər ölməz, vətən bölünməz, onlar əbədiyyətə qovuşarlar" ideyasından çıxış edərək belə söyləyirdi:

**"Vətən eşqinə can nisan edən ərlər**
**Əbədi bir həyat içində gülər".**

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq.

Xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi

diqqət və qayğı öz uğurlu nəticələrini verir. Aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Silahlı Qüvvələrimizin hərbi-texniki təchizat səviyyəsi, nizam-intizamı və döyüş ruhu gündən günə yüksəlir. Ən mühüm məqamlardan biri bundan ibarətdir ki, bu gün Azərbaycan cəmiyyətində Silahlı Qüvvələrimizə böyük inam və etibar vardır. Silahlı Qüvvələrimiz hər bir vətəndaşın qürur mənbəyidir. Bu, olduqca vacib amildir. Çünki ordu cəmiyyətdə daxili özünə inamı, dövlətə etimadı gücləndirən ən mühüm amillərdən biridir. Döyüşçülərimizin dilindən eşitdiyimiz sözlər qürurvericidir." Düşmən bizi ən çox yaralı dostumuza köməyə gedərkən vurdu.." , "Ayaqlarımı vurulduğum yerdə basdırdılar, döyüş dostlarımın yardımı ilə döyüş yerindən aralandıq", "Şuşanın dağ yamaclarında yaralı dostumuzu tək buraxmadıq, onu arxama bağlayaraq iplə endirdik ...", "Yanımızda partlayan mina hərəmizi bir tərəfə atdı.. dostum çox ağır idi, mənim isə gözüm görmürdü... yaralarıma , ağrılarıma baxmayaraq onu tək qoymadım ..." "Səkkiz ölünün içində idim. Mən də onlardan biri idim, özümü hiss etmirdim. Döyüş yoldaşlarım köməyə gəlməsəydilər... onların sayəsində, onların yardımı ilə dirildim.." Bu sözlər bizim gənclərimzin mənəvi dünyasını, əxlaqi keyfiyyətlərini əks etdirir. Bunlar insanın daxili aləminin bir mənəviyyat nümunələridir. Bu sözlərlə qürur duyuruq. Bu döyüşlərdə bir nəfər də olsun döyüşdən qaçan fərarilik edən, ruhdan düşən əsgər olmadı. Döyüşlərdə qələbə əzmi, həmrəylik, birlik, mənəvi əxlaqi təmizlik nümayiş etdirmək qələbəmizin təməl amillərindən

oldu. Respublikamızda şəhidlərin xatirəsinə qanlı 20 yanvar gününün, 31 mart 1918, Xocalı soyqırımının matəm günləri kimi keçirilməsi xalqımızın dözümlü, səbr və təmkinli, əzimli bir xalq olduğunu bütün dünyaya nümayiş etdirdi. Şəhidlər Xiyabanına doğru gedən insan axını bir daha təsdiq edir ki, xalqımız özünün dərin mənəvi tarixi köklərini, milli mənliyini, milli ləyaqətini, vətəndaşlıq dözümünü dərindən dərk etmişdir. Belə dərketmə gənclərin mənəvi dünyasına ciddi təsir etmişdir.

Bu gün respublikamızda mənəvi əsasların təsir dairəsi genişlənərək yeni məzmun kəsb etmiş, insanların fəaliyyətinə, gündəlik davranışlarına mənəvi keyfiyyətlərin təsiri güclənmiş, onların sosial və əxlaqi məsuliyyətinin artmasına şərait yaratmışdır. Əxlaqi və hüquq normalarına əməl edilməsi, Vətənin xeyrinə işləmək, Vətən uğrunda canı fəda etmək hər bir gəncin təbii tələbat və sarsılmaz daxili qanununa çevrilmişdir. Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və onların ailə üzvlərinə göstərdiyi diqqət və qayğı, maddi və mənəvi dəstək xalqımız tərəfindən yüksək dəyərləndirilir. Dövlət başçısının və Mehriban xanımın şəhid ailələri ilə ardıcıl görüşməsi, xəstəxnalara gedib yaralılara baş çəkməsi,maddi və mənəvi dəstək verməsi, onlarla səmimi söhbətləri yüksək mənəviyyatın bariz nümunələridir.

Nəhayət, deyə biləlrik ki, qazanılmış bu tarixi zəfər, bu tarixi qələbə həmçinin təhsilimizin, məktəbimizin, müəllimimizin, həkimimizin, hər bir vətəndaşımızn qələbəsidir. Azərbaycan elminin, təhsilinin qələbəsidir. Yetişən gənc

nəslimzin mənəvi - əxlaqi keyfiyyətləri, vətənpərvərlik tərbiyəsinin qələbəsidir, ümumilkdə Azərbaycan xalqının qələbəsidir.

Qalibiyyətimizin rəmzi olaraq 10 dekabda Azadlıq meydanında möhtəşəm "Zəfər paradı" keçirildi, Azərbaycan müzəffər ordusunun, qəhrəman əskərimizin gücünü və qüvvətini bir daha dünyaya sübut etdi.

Azərbaycan Xalqı Vətən müharibəsini böyük zəfər və tarixi qələbə ilə başa vurdu. Şücaətli, qəhrəman Prezidentimizin **"Dəmir yumruq" əməliyyatı** Azərbaycan xalqının taixinə qızıl hərflərlə yazıldı. "**Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq!"**

# III. TƏHSİLİN İLK TARİXİ MƏKANI. MÜƏLLİM PEŞƏSİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

## 1. TƏHSİLİN TƏŞƏKKÜLÜ VƏ İLK TARİXİ MƏKANI

**Qədim Yunan, Misir, Roma, Çin, Hindistan sivilizasiyaları haqqında çox eşitdik, oxuduq, amma, Azərbaycan sivilizasiyası haqqında az deyilmiş, az yazılmışdır. Halbuki, Azərbaycan sivilizasiyası yüksək inkişaf etmiş, qədim və zəngin elm və mədəniyyətə malik bir diyar olmuşdur.**

**Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasnın mərkəzində yerləşən Azərbaycan bəşəriyyətə böyük alimlər bəxş etmişdir. Bu yurdun qədim sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zaman-zaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir.**

Zəngin şifahi xalq ədəbiyyatımız – "Kitabi Dədə Qorqud", "Bilqamıs", "Alp Ər Tunqa", "Oğuz", "Ərkənəqun" kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək

və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsindən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, müalicə üsullarına sahib olduqlarını təsdiq edir.

Ulu Öndərimiz Heydər Əliyev demişdir: "**Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür**" **(1,s. 17).**

Naxçıvan dünyanın ən qədim şəhərlərindən və ən qədim insan məskəni olmuşdur. "Naxçıvanın dünyanın ən qədim yaşayış məskəni olduğunu Dünya tufanı və Nuh peyğəmbərlə bağlı konkret faktik materiallar və maddi arxeoloji tapıntılar, habelə xalq yaddaşında qorunub saxlanılmış mifoloji

materiallar sübut edir. Şəhərin tarixi minilliklərin dərinliklərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

Naxçıvanda tunc dövrünə aid Gəmiqaya abidəsi eramızdan əvvəl I-III minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir. At, dəvə, ulaq, araba təsvirləri, gəmi, qayıq rəsmləri insanların istifadə etdikləri nəqliyyat növlərini göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xət və ya çox xət Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir.

Qayalarda at və atın üstündə atlı, onun başında papaq, əynində kürk, ayağında çəkmə olan rəsmlər var. Bu rəsmlər o dövrün peşələrindən - papaqçılıq, çəkməçilik, kürk toxumaqdan xəbər verir. Böyüklər əldə etdiyi bilik, bacarıq və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmişlər. Qədim insanımız ilk dəfə olaraq vəhşi

atı əhliləşdirmiş, sürət əldə etmiş, hündürə qalxaraq idarəçilik etmişdir.

Mənbələrdə göstərilir ki, vəhşi atı ilk dəfə əhliləşdirən türklər olmuşdur. Bu o deməkdir ki, bura - Gəmiqaya qədim türk yurdu, türk məkanıdır.

Buradakı iki təkərli, dörd təkərli at arabası rəsmləri diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, "Oğuznamə"lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfaları olmuşlar: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanq, kanq" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən "Kanğaluğ" adı qoy kanğanı yada salsın"(16, 28). Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasının adıdır. Rus dilində işlənən və "atlı", "yarış" mənalarını verən "гонка", "конки" sözləri - "Kanqa" sözündən yaranmışdır.

Tədqiqatlardan məlum olur ki, Gəmiqayada 1500-ə yaxın yazı, rəsm daş və metal alətlərlə döymə, qazma, sürtmə yolu ilə həkk olunmuşdur. Onlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1) İnsan rəsmləri; 2) Araba rəsmləri; 3) Heyvan rəsmləri; 4) Müxtəlif mövzulu səhnələr; 5) İşarələr; 6) Qeyri-müəyyən təsvirlər (4, s.24).

**Akademik İsa Həbibbəyli son dərəcə dəyərli və iri həcmli "Nuhtabandan – Naxçıvana" (Bakı: Elm və təhsil, 2015, 846 səh) adlı dəyərli əsərində Gəmiqaya və buradakı yazılar, rəsmlər haqqında öz fikir və düşüncələrini əks etdirmiş və**

**yazmışdır: Gəmiqayada özündə qədim tarixin izlərini əks etdirən bu qəbildən olan çox saylı yazı və işarələr, toponimlər Naxçıvan diyarının Dünya tufanı Nuh peyğəmbər hadisəsi ilə əlaqədar olduğunu diqtə edir. Bütün bunlar isə Naxçıvan sözünün Nuhçıxan , yəni həzrəti Nuh Peyğəmbər gəmisinin gəlib çıxıdğı məkan olduğu barədəki mülahizələrin reallığına inamı artırır" (İsa Həbibbəyli. Nuhçıxandan – Naxçıvana. Bakı: Elm və təhsil, 2015, səh.4).**

Tədqiqatçı alim Əjdər Fərzəli öz dəyərli kitabında yazır: "Gəmiqayalıların 32 hərfdən ibarət əlifbaları olmuş. Onların 9-u sait, 23 –ü isə samit olmuşdur. Hərflər həm də müstəqil şəkildə müəyyən bir sözü də ifadə edir. Bu əlaməti Orxon Yenisey əlifbasında da görmək olur (2, s. 328). "Gəmiqayadakı təsvirlərin özü sübut edir ki, burada yüksək inkişaf etmiş mədəniyyət olmuşdur. Buradakı yazılar, işarələr, rəsmlər istedadlı rəssamlar və bilicilər tərəfindən çəkilmiş nadir sənət inciləridir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir və Tanrıçılıq - yaradılış inamını yer-göy əlaqələrini, kosmik düşüncəni əks etdirir... Gəmiqaya yüksək inkişaf mədəniyyətinin bir göstəricisidir" (6, s.50).

**AMEA və onun Naxçıvan bölməsinin Gəmiqayaya təşkil etdiyi ekspedisiyada iştirak etmiş folklorşünas alim, filologiya üzrə elmlər doktoru, dosent Əkrəm Rüfət oğlu Hüseynzadə** (Təəssüf ki, gənc yaşlarında 41 yaşında 08.10.2024-cü ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin) bildirirdi ki, Gəmiqayanın pik nöqtəsinə qədər qalxdıq. Azərbaycan

bayrağını ən yüksək nöqtəyə taxdıq. Bura çox maraqlı, tarixi bir yerdir. Bura xalqımızın milli- mədəni və mənəvi irsinin əsas mənbəyidir. Bu dağın ən yüksək nöqtəsinə qalxanadək minlərlə çapılmış, qazılmış işarələrə, mixi yazılara, piktoqrafik yazılara, rəqəmlərə, iti alətlərlə çızılmış işarələrə, ov səhnələrinə, müxtəlif mənzərələrə rast gəldik. Burada müxtəlif heyvan və quş rəsmləri – maral, keçi, ceyran, göyərçin, qaranquş, at, atlı, həmçinin iki təkərli və dörd təkərli at arabalarına, gəmi, qayıq rəsmlərinə rast gəldik. Burada xeyli qəbirlər də vardır. Bu qəbirlər yerin üstündə 1 metr hündürlükdə daşlardan hörülmüş dairəvi şəkilli qəbirlərdir... Bunlar Gəmiqayalıların uzun illər burada yaşadıqlarını təxmin etməyə əsas verir....

Əkrəm Hüseynzadənin vəfatı həmkarlarında və onu tanıyanlarda böyük təəssüf hissi yaratdı, görkəmli filoloq alim, dosent, dəyərli tədqiqatçı, publisist yazıçı-jurnalist Seyid Surə öz hiss və duyğularını ifadə etməklə mövzumuzu daha da məlumatlı etmiş olur:

***"Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim – Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi..."*** **Heydər ƏLİYEV**

2000-ci illərdə Naxçıvan Dövlət Universitetinin tələbələri 100 yaşını haqlamış, ümummilli lider Heydər Əliyevin

müəllimi olmuş bu dəyərli alimi yaxşı xatırlayırlar. Biz onu tez-tez tələbələrlə keçirilən görüşlərdə, müxtəlif dövlət tədbirlərində görərdik. Həmin dövrdə əl ağacı ilə yeriməkdə çətinlik çəkən Lətif müəllimi bütün tədbirlərdə qaraqaş-qaragöz, suyu şirin bir oğlan müşayiət edərdi. Bir gün tədbirlərin birində ona yaxınlaşıb kimliyini soruşdum:

– ƏKRƏM HÜSEYNZADƏ – Lətif müəllimin nəvəsiyəm dedi. Bu hadisədən bir neçə ay sonra başqa bir tədbirdə Əkrəmlə qarşılaşdıqda elmi işimlə bağlı Lətif müəllimlə necə görüşüb danışa biləcəyimi soruşdum. Babasının ev ünvanını verib nə vaxt istəsəm gələ biləcəyimi bildirdi.

Bir gün mənə verilən ünvana getdim. Əkrəm qapını açaraq məni içəri dəvət etdi. Lətif müəllim yazı masasının arxasında əyləşib məni gözləyirdi. Naxçıvanda mətbuatın yaranması ilə bağlı söhbətlərimiz günlərlə çəkdi.. Lətif müəllim məxəz idi, nə qədər çox məxəzdən bəhrələnsəm də yenə də maraqlı xatirələrindən doymur, yorulmurdum. Lətif müəllim canlı ensiklopediya idi. Lətif müəllim təkcə Naxçıvanda mətbuatın yaranması və inkişafında xüsusi rolu olan ziyalı deyildi, o həm də cümhuriyyət tariximizin canlı şahidi, tarixi hadisələri öz qələmi ilə tarixə çevirən tədqiqatçı alim idi. Hazırda elmi mühitimizdə "Araz-türk" cümhuriyyətinin fəaliyyəti haqqında əsas mənbə kimi Lətif müəllimin xatirələri əsas götürülür. Əlyazmalar daha sonra kitab şəklində nəşr olunub oxuculara təqdim olunubdur.

Hər görüşdə Lətif müəllimlə məni təkbətək qoyan Əkrəm arada qapını aralayıb babasının nə istədiyini soruşar, onun səhhəti ilə də maraqlanardı.

Babaya güc verən nəvəsinin sevgisi idi, o Əkrəmlə nəfəs alır, onunla fəxr edirdi. Lətif Hüseynzadə ilə görüşlərimizdən birində Əkrəmin ona necə qayğı ilə yanaşmasından bəhs edərək dedi: Əkrəm sizə əmanətdir, mən bu dünyadan köçəndən sonra əmanətimə sahib çıxın, onu tək qoymayın...

Lətif müəllimin vəfatından sonra onun yolu ilə gedən Əkrəm elmi məqalələr üzərində işləyir, dissertasiyasını tamamlamağa çalışırdı. Onun tədqiqatları artıq sərhəd tanımırdı.. Elmi uğurları onu AMEA Naxçıvan Bölməsinin elmi katibi vəzifəsinə qədər qaldırdı. Bu vəzifəyə seçiləndə də çox sevinmişdi. Amma sevinci və fərəhi də uzun çəkmədi. Amansız xəstəliklə mübarizə aparmaq böyük güc və səbir tələb edirdi..

Xatırlayıram ki, pandemiya vaxtı mən Ali Məclisdə çalışanda Əkrəmin ağır vəziyyətdə xəstəxanaya yerləşdiyini eşitdim. Bu xəbər mənə elə təsir etmişdi ki, Səhiyyə Nazirinə zəng edib -Lətif müəllimin əmanətinə sahib çıxmalıyıq, Əkrəm sağalmalı və normal həyata geri dönməlidir- demişdim. Apardığımız səylər də müsbət nəticəsini verməkdə idi. Çox təəssüf ki, cəmi 4 il ömrünü uzada bildik…Əkrəm elmi mühitimiz üçün bir dəyər idi, onda bütün müsbət cəhətlər cəmləşmişdi. Əkrəm elmi mühitimizin ziyası idi.

Bir faktı da qeyd edim ki, üç nəsil elmi mühitimizə Hüseynzadələr qədər töhfə verən ikinci nəsil tanımıram. Lətif Hüseynzadə, Rüfət Hüseynzadə, Əkrəm Hüseynzadə.

Bağışla, əziz müəllimimizin dəyərli əmanəti!!! Səni qoruya bilmədik, əmanətə sahib çıxa bilmədik.. Babanla birlikdə başladığın yola babanla birgə getmək nəsibin oldu.

Əminəm ki, həssas qəlbin cənnətdə əbədi rahatlıq tapa biləcəkdir. Ruhun şad olsun, əziz dost, çox təəssüf ki, sənin haqqındakı dəyərli sözləri sənə sağlığında deyə bilmədim…

Sağlığında qiymət verək insanlara,
Yaxşılara sağ olanda yaxşı deyək
Sağlığında yaman deyək yamanlara…
Sağlığında qiymət verək insanlara…

**Surə Seyid**. **Naxçıvan.** Medianews.az, 10.10.2024

Seyid Surə xanıma belə aydınladıcı, dəyərli yazısına görə təşəkkür edirik.

Davam edərək qeyd edək ki,Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasına nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi, işığı, tərəqqini ifadə edir.

Ümumiyyətlə günəş, işıq, ziya insanların cahillikdən uzaqlaşıb tərəqqiyə, inkişafa yönəlməsini göstərən bir simvoldur. Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasına nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi, işığı, tərəqqini ifadə edir.

Ümumiyyətlə günəş, işıq, ziya insanların cahillikdən uzaqlaşıb tərəqqiyə, inkişafa yönəlməsini göstərən bir simvoldur. Yeri gəlmişkən deyək ki, hələ qədim **Hindistanda V əsrdə indus dininə mənsub olanlar cahilliyə, avamlığa qarşı mübarizə cəmiyyəti yaratmışdılar ki, bunun adına "Qurukul" deyilmişdir.**

**Təhsilimizə, pedaqogika elmimizə daxil olmuş "Kurikulum" anlayışı - "Kurikulum"** (curriculum) latın sözündən yaranıb, "təlim kursu", "tədris planı", "proqram" kimi izah olunur.

K**urikulum sözünün istifadə və inkişaf tarixinə nəzər saldıqda məlum olur ki,** Curriculum sözünə ilk dəfə Leyden (1582-ci il) və Qlazqo (1633-cü il) şəhərlərinin universitetlərinin sənədlərində rast gəlinmişdir.Bəzi alimlərin qeyd etdikləri kimi, 1876-cı ildən etibarən ondan bir termin kimi istifadə olunmağa başlanmışdır.

Kurikulum termini ilk dəfə Con Franklin Bobbit tərəfindən elm sahəsində istifadə edimişdir. İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meyda-na gəlmışdir. 1970-ci illərdən sonra Kurikulum nəzəriyyəsi formalaşmışdır. Azərbaycanda bu termindən 1990-cı illərinin sonlarından başlayaraq istifadə olunmuşdur. Kurikulum dünyanın mütərəqqi təhsil modellərindən biri olmaqla hazırda geniş miqyasda tətbiq olunur, hər bir ölkənin özünə məxsus Kurikulumları, hətta bəzi məktəblərin özünəməxsus Kurikulumları mövcuddur.

Prof. Rüfət Hüseynzadənin tədqiqatlarından məlum olmuşdur ki, Kurikulum əslində çox qədim bir tarixə malikdir. Belə ki, **Kurikulum ilk dəfə V əsrdə Hindistanda meydana gəlmişdir.**

"Qurikul" anlayışına başqa yöndən baxdıqda yenə də dəyərli bir məna verdiyi məlum olur. Belə ki, hind dilində müəllimə **"Quru"** deyilir. **"Kul"** isə "icma", "ailə" deməkdir. Qədim Hindistanda Quruların (yəni müəllimlərin) evində xüsusi ailə məktəbləri fəaliyyət göstərirdi. Uşaqlar təhsil almaq üçün müəllimin evinə gedirdilər. Burada uşaqlar həm təhsil alır, ev tapşırıqlarını yerinə yetirir, çalışır, həm də uzaqdan

gələnlər müəllimin evində qalırdılar. Belə təhsil prosesinə **“Qurukul”** deyilirdi. Belə ailə məktəbləri tədricən genişlənmiş və yayılmışdır. Bu gün də Hindistanda ailə tipli xüsusi məktəblər var ki, onlara “Qurukul” deyilir (17, s.189).

Qeyd edək ki, Naxçıvan şəhəri haqqında ilk məlumat yunan filosofu İosif Flaviyə (e.ə.I əsr) məxsusdur (5, s.15). Sonra yunan coğrafiyaşünası Klavdi Ptolomeyin (b.e. II əsr) "Coğrafiya" əsərində Naxçıvan şəhərinin adı "Naksuana" şəklində qeyd edilmişdir.

Henrix İohann Hübşman Naxçıvan toponimini Nuh peyğəmbərlə bağlı “dünya tufanı” hadisəsi ilə əlaqələndirir. Onun fikrincə "Naxçıvan" toponimi "törəyiş yeri" anlamını verməkdədir. Hübşmanın istinad etdiyi Nuh tufanı hadisəsinə görə “Naxçıvan” sözü üç hissədən – “Nax” (Nuh) və türk dillərində isim düzəldən şəkilçi olan “-çı” şəkilçisi, sonra da türk dilində yer, məkan bildirən “van” toponimindən meydana gələrək, “Nuhçuvan” – Nuhçuların (Nuh tərəfdarlarının) məskəni”, “Nuhun diyarı” deməkdir. Naxçıvanda tədqiqatlar aparmış böyük rus alimi Nikitin K.A. yazır ki, Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur (13, s. 111).

Yunan alimi Klavdi Ptolomeyin bizim eranın ikinci əsrində tarixdə ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlatması diyarın zəngin tarixi mədəniyyətinə Şərq kontekstindən əlavə, həm də dünya tarixinin mədəni prizmasından baxmağa əsas yaradır. Sonrakı dövrlərdə dünyanın fərqli ölkələrindən bura səfər etmiş səyyah və coğrafiyaşünasların xatirələrində də Naxçıvanın Nuhla bağlılığı

diqqətə çatdırılır. Bu isə bəşəriyyətin ikinci yaranışının Naxçıvanla birbaşa əlaqəli olması faktını ortaya qoyur.

**Akademik İsa Həbibbəyli uzun illik apardığı təhlil və tədqiqləri nəticəsində bildirir ki, Nuh tarixi şəxsiyyət olmuşdur. Gəmiqaya ətəklərindəki Qaranquş yaylağı – Nuh peyğəmbərin suyun çəkilib – çəkilmədiyini öyrənmək üçün əfsanəvi gəmidən buraxdığı və caynağında palçıq, yaxud dəfnə yarpağı geri dönən Qaranquşun adını əbədiləşdirən toponimdir (6,s.18). Həbibbəyli İ. Ə. Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti. Naxçıvan: İlkin şəhər və Duzdağ"Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013, səh 8.**

Naxçıvan Azərbaycanın və Şərqin, hətta deyə bilərik ki, dünyanın ən qədim şəhərlərindən və ən qədim insan məskənidir. Şəhərin tarixi minilliklərin dərinliklərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

**Gəmiqaya Kiçik Qafqazda ən hündür dağdır ki, hündürlüyü 3906 metrdir. Zirvəsi "Qapıcıq" adlanır. "Qapıcıq bəşəriyyətin yeni həyatına "açılan kiçik qapı", "giriş yeri" mənasını daşıyır" (6,s.18).**

Yerli sakinlər arasında dolaşan əfsanəyə görə, Nuh peyğəmbər daşqın çəkildikdən sonra burada ailəsi ilə, Ham, Sam, Yafəs adlı oğlanları ilə ömrünün sonuna qədər yaşamış və bu torpaqda da vəfat etmişdir.

Naxçıvanda yaşamış uzunömürlü ağsaqqallar, o cümlədən 106 il ömür sürmüş, "İstiqlal" ordenli, Əməkdar müəllim,

dosent Lətif Hüseynzadə Nuh peyğəmbərin dəfn edildiyi yeri bilirmiş və o yerin müəyyənləşdirilməsi beynəlxalq komissiyasında iştirak edərək o qəbrin yerini dəqiq  göstərmişdir. Qəbir yerin üstündə 1.5 metr hündürlükdə qırımızı daşlardan hörülmüş dairəvi şəkillidir.

Realist məşhur rəssam Bəhruz Kəngərli "Nuhun qəbri" ni 1919-1921-ci illərdə 3 dəfə çəkmişdir (3, s. 18-19). Naxçıvan MR Ali Məclisinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa olunması haqqında"kı 28 iyun, 2006- cı il tarixli xüsusi sərəncamı ilə Nuhdaban deyilən yerdə Nuh peyğəmbərin möhtəşəm türbəsi də ucaldılmışdır.

Görkəmli tarixçi alim, tədqqiatçı, təhsilimizin inkişafında və tərəqqisində, tələbə- gənclərimizin təlim və tərbiyəsinin yüksək səviyyədə təşkilində böyük xidmətləri olan **Elbrus İsayevin "Böyük ipək yolu və Naxçıvan" adlı kitabı (Bakı: Elm və təhsil, 2012, 214 s).  Naxçıvan şəhərinin qədimliyini, zəngin mədəniyyətini, maarifini göstərməklə yanaşı onun qədim ticarət mərkəzi olduğunu, qədim "İpək yolu"nun üstündə mövcud olaraq ticarət əlaqələri haqqında maraqlı məlumatlar verən dəyərli bir monoqrafik əsərdir. Bu dəyərli əsərdə Naxçıvan adının, Naxçıvan şəhərinin Nuh peyğəmbərlə bağlı olduğu göstərilmişdir. Əsərə Hacı Fəxrəddin Səfərli "Ön söz" yazaraq kitabın əhəmiyyəti, yüksək dəyəri  haqqında məlumat vermişdir (9).**

Bu qədim və zəngin diyarın ilk təhsil məkanı  da təbii ki, bu qədim diyara mənsub olacaqdır.

Pedaqoji mənbələrdə göstərilir ki, qədim Yunanıstanda quldar balalarını xüsusi təlim-tərbiyə müəssisəsinə aparıb-gətirən, onların təlim tərbiyəsi ilə məşğul olan adamlara "Peydaqoqos" deyilirdi. Qədim yunan dilində "Paydas" - "uşaq" , "gogos" - "yola salan" deməkdir ki, "pedaqogika", "pedaqoq" sözləri də buradan meydana gəlmişdir. Oradakı xüsusi təlim tərbiyə müəssisəsinin adına "Şkola" deyilirdi ki, bunun da mənası kitablarda yazıldığı kimi qədim yunan dilində "Asudə vaxt keçirilən yer" deməkdir.

Pedaqogika elminin banisi, XVII əsrin görkəmli pedaqoqu Yan Amos Komenski yazır ki, yunanlar bu sözü – yəni "Şkola" sözünü Şumerlərdən götürmüşlər. Daha sonra o **"Böyük didaktika" əsərində qeyd edir ki, tarixdə ilk məktəbi Nuhun oğlu Sam (Sim) yaratmışdır. Adını Skala adlandırmışdır (9, Глава 8, параграф 3. стр.23). Y.A.Komenski bu fikri bizim eradan əvvəl I əsrdə yaşamış yunan filosofu İosif Flavidən götürmüş və ona əsaslanaraq bunu yazmışdır.**

İosif Flavi Nuhun gəmisinin dayandığı yer olaraq "Apobaterion"(yun. Αποβατήριον) toponimini qeyd edir ki, bu toponim "İlk dayanacaq yeri" mənasını verir. Adı çəkilən toponim Flaviyin qeyd etdiyi kimi Naxçıvan şəhərinə aid edilir (5, 56)

"Skala" ilkin mənasında "pillə", "mərhələ" mənasını vermişdir. Rus dilində "Şkala"- "dərəcə", "mərhələ" deməkdir. Nuhun dövründə də pilləli, mərhələli məktəb yaradılmışdır. İngilis dilində məktəb mənasını verən "Skul", fransız dilində "Lekol", alman dilində "Şule", türk dilində "Okul", rus və

belarus dillərində "Şkola" kəlmələri "Skala" sözündən əmələ gəlmişdir.

Həmçinin başqa dildən götürülmüş rus dilində işlənən "Skala" sözü də qaya mənasında işlənməkdədir. Nuhun Gəmisi dağa deyil, məhz qayaya - Gəmiqayaya yön almış, orada dayanmışdır. Bəs bu ad – "Skala", Şkola" Şumerlərə necə gedib çıxmışdır ki, yunanlar da bunu oradan götürmüşlər.

Tarix kitablarında göstərilir ki, Şumerlərlə Arattalıların həmişə sıx əlaqələri, xüsusilə, müntəzəm olaraq sıx ticarət əlaqələri olmuşdur. Naxçıvan da Aratta, sonralar Manna və Midiya dövlətinin tərkibində olmuşdur. Naxçıvan duzu at arabaları ilə Şumerlərə daşınmış və oradan əvəzində lacivərd (Ləl-cəvahirat) alıb gətirmişlər. "Şumerlər duza yüksək dəyər vermiş və duza səcdə etmişlər" (8, s. 125). O zaman məşhur "Duz yolu" mövcud olmuş, Naxçıvan duzu nəinki Şumerlərə bütün Şərqə, Osmanlı dövlətinə daşınmışdır. Bu mübadilə mədəniyyətlərin də mübadiləsinə təsir etmişdir.

Dos. Əkrəm Hüseynzadə duz haqqında bir neçə dəyərli məqalə yazmış və qeyd etmişdir ki, "tarixdə duzun ilk dəfə kəşf olunması Naxçıvan diyarına məxsusdur. Duzu ilk dəfə mətbəxə gətirən oğuzlar olmuşdur. Belə rəvayət edirlər ki, Nuh peyğəmbərin nəvəsi Türk xanın oğlu Tütək xan duz dağ ərazisində ət yeyərkən tikəsi yerə düşmüş, qaldırıb tikəni yedikdə tikənin daha dadlı olduğunu duymuşdur. Ona məlum olmuşdur ki, bu duzdur. O vaxtdan duz mətbəxdə istifadə edilməyə başlamışdır" (18, s. 82).

Duz insanların ən lazımlı qida məhsuludur. Duzsuz yaşamaq olmaz. Qədim vaxtlarda Hollandiyada məhbusları cəzalandırmaq üçün qeyri humanist hərəkət edərək onlara duzsuz yemək vermişlər. Nəticədə məhbuslar bir neçə aydan sonra iflic olmuş, ya da həyatla vidalaşmışlar. Bu onu göstərir ki, duz olmadan yaşamaq mümkün deyildir. Necə ki, atalar sözündə deyilir: "Məni tək yeməzlər, mənsiz də yemək olmaz"!

Çinlilər, Romalılar, Fransızlar və bir çox başqa xalqlar savaşlar üçün vəsait toplamaq üçün duz vergisi qoymuşlar. Çində duz istifadəsi e.ə.800-cü illərə aiddir. Duz mühüm müqavilələrin bağlanmasında bir simvol kimi işlənmiş, ziyafət süfrəsində duzun olmaması düşmənçilik sayılmış, şübhə yaratmışdır.

Erkən orta əsrlərdə duz müqəddəs sayılmış, duza inanmışlar. "Duz haqqı demişlər". "Manas" dastanında duz zənginlik ifadə edər, "Qutatqu Bilik"də comərdlik və qonaqpərvərlik üçün duzla bağlı bir çox ifadələrə rast gəlmək olur, Qazi Bürhanəddin, Yunus Əmrə şeirlərində duzla bağlı ifadələrə rast gəlinir.

Fransız alimi Katerina Marro yazır: "Naxçıvandakı Duzdağının duzu m.ö. 4 mininci illərdə belə geniş şəkildə işlənmişdir" (12, s.25). Osmanlı arxiv sənədlərində də göstərilir ki, Naxçıvan duzu müxtəlif ticarət yolları vasitəsilə ayrı-ayrı şəhərlərə daşınmışdır. "Osmanlı ordusunun yemək xərcləri hesablanarkən, Naxçıvandan alınan duza sərf edilən vəsaitin miqdarı göstərilir" (11, s.55).

Naxçıvan şəhərinin bir neçə kilometrliyində yerləşən Duzdağa uzaqdan baxdıqda lay-lay rəngli torpaq qatlarını görmək olur. Duzdağın dünyanın ilkin insan məskəninin Naxçıvanda var olması bu torpağın müqəddəsliyinə və qədimliyinə dəlalət edən faktlardan biridir. Tarixən duzu müqəddəs bilən ata-babalarımız, bəlkə də, elə bu torpağın müqəddəsliyini elə Duzdağla, duzla əlaqələndirib bizlərə çatdırmışlar.

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin Naxçıvanın dünya miqyasında tanıdan və özünəməxsus sərvəti olan duza, Duz dağına, duz mədənlərinə, duzun əhəmiyyətinə həsr olunmuş "Duzdağ mozaikası" adlı kitabı çox dəyərli və maraqla qarşılanmış bir əsərdir. "Elm və təhsil" (2017) nəşriyyatı tərəfindən yüksək poliqrafik keyfiyyət və dizaynla nəşr olunan 308 səhifəlik kitabın elmi redaktoru AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir.**

Naxçıvandakı Duzdağ ilə, Duz müalicəxanası ilə hərtərəfli tanışlıq baxımından, insanları məlumatlandırmaq baxımından kitab çox qiymətlidir. Belə zəhmət tələb edən bir nəşrin ortaya çıxması əlbəttə böyük vətəndaşlıq mövqeyinin elmi ifadəsi kimi səciyyəvidir.

Arxeoloji tədqiqatlar zamanı ərazidən tapılmış müxtəlif daş alətlər, məmulatlar belə bir fikir söyləməyə əsas verir ki, bəşər tarixində duzdan qida elementi kimi və müalicə vasitəsi kimi ilk dəfə Naxçıvanda istifadə olunmuşdur. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, Duzdağ Naxçıvanın

qədim tarixi və mədəni potensialını özündə cəmləşdirən əvəzsiz məkandır. Məsələnin digər maraqlı tərəfi bundan ibarətdir ki, son illərdə muxtar respublikaya gələn yerli və xarici turistlərin ən çox ziyarət etdiyi ünvanlardan biri Duzdağdır.

**"Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamını çox yüksək qiymətləndiririk. Bu mühüm dövlət sənədində deyilir: "Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb etmiş, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir.**

**Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə verilən "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində Nuh peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir.**

**Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılmış, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunmuşdur. Aparılan tədqiqatların davamı olaraq "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapmış, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanmış, kitablar nəşr olunmuşdur" (15).**

Arxeoloji tədqiqatlar zamanı ərazidən tapılmış müxtəlif daş alətlər, məmulatlar belə bir fikir söyləməyə əsas verir ki, bəşər tarixində duzdan qida elementi kimi və müalicə vasitəsi kimi ilk dəfə Naxçıvanda istifadə olunmuşdur. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, Duzdağ Naxçıvanın qədim tarixi və mədəni potensialını özündə cəmləşdirən əvəzsiz məkandır. Məsələnin digər maraqlı tərəfi bundan ibarətdir ki, son illərdə muxtar respublikaya gələn yerli və xarici turistlərin ən çox ziyarət etdiyi ünvanlardan biri Duzdağdır.

Qeyd etdiyimiz kimi Naxçıvan duzu hələ qədim zamanlardan Şərq ölkələrinə - o cümlədən Şumerlərə ticarət məqsədilə aparılmışdır. Bu ticarət mübadiləsində şübhəsiz ki, burada olan mədəniyyətin Şumerlərə, Şumerlərin də mədəniyyəti bu tərəflərə yayılması təbii hal olacaq idi.

Tədqiqatçı Şümeroloqlar – amerikalı Kramer, türkiyəli İlmiyyə Müəzzəz Çığ apardıqları tədqiqatlara əsasən bildirirlər ki, Şumerlər özlərinə Kəngər deyirdilər. Kəngər tayfaları isə Naxçıvandadır. Bu tayfa öz cəngavərlikləri ilə, şücaətləri ilə tarixdə məşhurdurlar. Generel Naxçıvanskilər, Naxçıvan xanları Kəngərli tayfalarıdır. Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov "Az-ya" əsərində türk xalqlarına məxsus maraqlı bir məlumatı yazır ki, onun bilavasitə xalqımızın yazı mədəniyyəti ilə bağlılığı vardır: "Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu ("Kanqlı") xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə - horizontal xətlə yazılar yazırmış" (17, 134). Kanqlı tayfası bu gün Azərbaycanda yaşayan Kəngərlilərin qədim adıdır. Onlar barədə hələ bizim eradan əvvəl I əsrdə və bizim eranın I əsrində, Flavi, Strabon və Plini yazmışdır. Eramızın ilk əsrlərində Çin, Bizans, Alban, ərəb tarixçiləri öz əsərlərində Kəngərlilər haqqında maraqlı məlumatlar vermişlər. Kəngərlilər "Kitabi-Dədə-Qorqud"da "Qanlı", "Kanqlı" adı altında xatırlanır."Qanlı qoca oğlu Qanturalı boyu"nda (10,183) "Qanlı"- "Kanqlı" kəlməsindəndir. Dədə Qorqudda deyilir: "Bu qədim soyköklərdən biri olan kəngərlilərin qədim adıdır (10, s. 261).

Gəmiqaya ilə bağlı Şumer və Naxçıvan əfsanə və rəvayətləri də demək olar ki, eyniyyət təşkil edir. Gəmiqaynın dibində yerləşən Nəsirvaz kəndinin adı Şumerlərin "Bilqamıs" dastanındakı Nuh Peyğəmbərlə əlaqədar təsvir olunan Nisir dağını yada salır.

Bütün bunlar onları deməyə əsas verir ki, Naxçıvan qədim insan məskəni, zəngin mədəniyyət mərkəzi, böyük elm, təhsil beşiyi olmuş, buradan təlim, yazı və oxu mədəniyyəti bütün dünyaya yayılmışdır.

## Ədəbiyyat


1. Heydər Əliyev. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi.Bakı: Nurlan, 2005.
2. Аждар Фарзали. Ноев Ковчег и Гямигая – Гобустанский алфавит. Баку, 2014
3. Бехруз Бек Кенгерли. Каталог. Баку: 1947.
4. Əliyev V.Q. Gəmiqaya abidələri. Bakı: Azərbaycan Dövlət nəşriyyatı. 1992.
5. Flavius Josephus, William Whiston, Paul L. Maier - The new complete works of Josephus, Revised and expanded edition, Kregel Academic, 1999, 56).
6. Həbibbəyli İ. Ə. Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti. Naxçıvan: İlkin şəhər və Duzdağ"Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
7. Həbibbəyli İ.Ə. Nuhçıxandan - Naxçıvana. Bakı:Elm və təhsil, 2015.
8. İsayev Elbrus. Böyük ipək yolu və Naxçıvan. Bakı: Elm və təhsil, 2012, 214 s.

9. Коменский Я.А. Великая дидактика. Москва: Просвещения, 1999.
10. Kitabi Dədə Qorqud. Bakı:Yazıçı, 1988.
11. Kirzioğlu Fahrettin. Osmanlıların Kafkas Ellerini Fethi (1451-1490). T.T.K.Basımevi, Ahkara 1993, s.100-120.
12. Marro K. Duzdağında duz mədənçiliyinin başlanğıcı haqqında". Naxçıvan: İlkin şəhər və Duzdağ"Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
13. Nikitin K.A. Naxçıvan şəhəri və Naxçıvan mahalı. "Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materaillar" məcmuaəsi. Tiflis, 1882.II buraxılış.
14. Mahmudov Y. Naxçıvan: Dünya sivilizasiyanın ən qədim mərkəzlərindən biri. Naxçıvan: İlkin şəhər və Duzdağ"Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
15. "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı/ Şərq qapısı, 12 sentyabr, 2017-ci il.
16. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.
17. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.
18. Hüseynzadə Ə.R.Naxçıvan folklor mətnlərində yaşayan tarix. Bakı: Elm və təhsil, 2016, 184 s.

## 2. MÜƏLLİMLİK PEŞƏSİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

Pedaqoji peşə, müəllimlik peşəsi çox qədim tarixə malikdir. Hələ qədim insanlar, ibtidai icma dövründə böyüklər öz qazandıqları bilik və təcrübəni kiçiklərə öyrədirdilər.

Kiçiklər də böyükləri müşahidə edir, onlardan soruşur, öyrənirdilər. Bu öyrətmə- öyrənmə prosesi bu günkü dillə desək pedaqoji proses adlanmış, müəllimlik peşəsinin ilkin əlamətləri yaranmışdır. Bu proses inkişaf etmiş, tədricən əmək alətləri yaranmış, birlikdə çalışmaq, ov etmək, balıq tutmaq, qida əldə etmək və s. pedaqoji prosesi də inkişaf etdirmişdir.

Qədim Babilstanda, Misirdə, Suriyada müəllimliklə ilk dəfə kahinlər, Qədim Yunanstanda pedanomlar, didaskallar, paydaqoqoslar məşğul olmuşlar. Onlar uşaqların təkcə təlimi ilə deyil, həm də əxlaqı, mənəviyyatı ilə də məşğul olmuş, yeni nəsli həyata hazırlamaq işində fəal çalışmışlar.

Pedaqoji peşə formalaşdıqdan sonra müəllimlər həm təlim, həm də tərbiyə vəzifələrini həyata keçirmişlər. Buna görə də cəmiyyətdə müəllim təkcə təhsil verən kimi deyil, həm də tərbiyə edən, inkişaf etdirən, yol göstərən müdrik şəxs kimi qəbul edilmişdir.

Müəllimə müdrik, hər şeydən, hətta bütün elmlərdən, həyat hadisələrindən xəbərdar olan, hamıya məsləhət verən şəxs kimi baxılmış, ona inam güclü olmuş və etibar edilmişdir. Bu gün də müəllim cəmiyyətin ən hörmətli, şərəfli, bilikli, əxlaqlı insanlarıdır. Müəllim vətəndaşdır, cəmiyyətin ən etibar edilən şəxsi və şəxsiyyətidir.

**İxtisasını dərindən bilən, pedaqoji, psixoloji biliklərə sahib, yetişən gənc nəslə düzgün yol göstərə bilən, tərbiyə edən, inkişaf etdirən , yüksək əxlaqi sifətlərə malik olan və dövlət tərəfindən səlahiyyətlənmiş şəxs MÜƏLLİM adlanır. Bu müəllimə verilən xüsusi tərifdir.**

**Müəllimə ümüumi tariflər də verilmişdir: Kimdənsə, nəsə öyrənirsənsə o müəllimdir. Yaxud, kiməsə nəyisə öyrədirsənsə o müəllimlikdir.**

Bəşər tarixində müəllim adını qazanmış çox böyük şəxsiyyətlər, alimlər olmuşlar.

Antik filosoflar – Sokrat, Platon, Aristotel həm də müəllim olmuşlar. Onlar başqalarına öyrətmişlər. Özləri çox dərin elm və bilik sahibi olmuşlar. Baxmayaraq ki. Sokrat demiş ki, "bircə onu bilirəm ki, heç nə bilmirəm". O elmin nə qədər dərin və intəhasız olduğunu bildirmək istəmişdir.

Platon alademiya yaratmış orada dərs keçmiş, tərbiyəçilik etmişdir. Platon Akademiyası Aralıq dənizinin hər tərəfindən alimləri özünə cəlb edirdi və təqribən 900 il - b.e. VI əsrinə qədər mövcud oldu. Məşhur Platon Akademiyası adı bu gün də qalmaqda, yaşamaqdadır.

Əfsanəvi qəhrəman Akademus`un (və ya Hekademus adlı nüfuzlu bir şəxsin, vətəndaşın) adı ilə adlandırılan bu akademiya b.e.ə. 388 və ya 387-ci ildən başlayaraq fəaliyyət göstərmişdir. Əslində Akademiyada dərs deyilmir və ya dərs üsulu, yəqin ki, az yer tuturdu, əsas üsul ortaya məsələ, problem qoyub onu həll etməyə çalışmaq və dialoq idi (Sokrat metodu); Platonun əsərlərinin dialoq şəkli ("Sokrates`in

Apologiyası" istisnadır), görünür ki, onun yazıçılıq istedadı ilə yanaşı (hər dialoq öz ideyası və dramatizmi, maraqlı və güclü şəxsiyyətləri, ibrətamiz rəvayətləri ilə yadda qalır), həm də Akademiyadakı müzakirələrlə bağlıdır.Yəqin ki, şifahi danışıqdan yazıya keçmək üçün də dialoq daha maraqlı görünürdü (Sokrates dialoq aparır, amma yazmırdı)...

Akademiyada məşğələlər məşq xarakteri daşıyırdı, ruhi çalışmalar əsas yer tuturdu. Bu, açıq havada və örtülü yerdə baş verə bilirdi. Akademiya üzvlərinə akademiklər deyirdilər. Platon buradakı intellektual fəaliyyəti tənzimləyir və ilhamlandırırdı.

**Tarixdə ilk müəllim** ünvanı almış tarixi şəxsiyyət yunan filosofu "**Aristotel"** olmuşdur. O Likey məbədində ilk dəfə olaraq məktəb açaraq müəllimlik etmişdir.

O natiqlik və məntiq elminə mükəmməl yiyələnmiş, məntiq elminin əsasını qoymuş, ritorika ilə məşğul olmuş, səs, heca söz, cümlə və s. qramattik qaydalar haqda ilk məlumatlar vermiş və dövlət, cəmiyyət, siyasət haqqında dəyərli əsərlər yazmışdır. O tələbələrə gəzərək dərs vermişdir ki, buna **Peripatetik** dərslər deyilmişdir. Platon onu "Yeriyən ağıl", ev kitabxanasını isə "Kitab dükanı" adlandırmışdır. O demişdir ki, müəllim insana tərbiyə, ağıl, şüur verdiyinə görə o daha çox hörmətə layiqdir. Özü demişdir: "**Atam Filip məni dünyaya gətirmiş, müəllimim isə məni dünyaya yüksəltmişdir".**

**"İkinci müəllim" ("Müəllimi sani")** ünvanını alan IX əsrdə yaşamış **Əbu Nəsr Farabi Əl- Türki (870-950)** olmuşdur. O Aristotelin əsərlərini ərəbcəyə çevirmiş, sadələşdirmiş, ona şərhlər yazmış və Şərqə çatdırmışdır. Buna görə ona **"İkinci**

**müəllim"** adı verilmişdir. İbn Sina təkcə türk dünyasında deyil, həm də bütün dünya elm və mədəniyyət aləmində yüksək mövqe qazanmış böyük loğman, filosof və pedaqoq olmuşdur. Təsadüfi deyil ki, dünya pedaqoji fikir tarixində birinci müəllim Aristoteldən sonra «İkinci müəllim» («Müəllimi Sani») adına layiq görülmüş Farabiyə qarşılıq olaraq İbn Sina da «Üçüncü müəllim» («Müəllimi-Salis») adı ilə şöhrət tapmışdır.

Farabinin elmi-pedaqoji irsində başlıca yeri fəlsəfi-pedaqoji xarakterli əsərlər tutur. Farabi hələ həyatda ikən müasirləri onu **"Ulu müəllim"** adlandırmışlar.

Deyilənə görə Farabinin bu kitabı olmasaydı İbn Sina özünün "Şəfa kitabı"nı da yaza bilməzmiş. İbn Sina deyilənə görə Aristotelin "Metafizikası"nı 40 dəfə oxuduğuna baxmayaraq heç nə anlamamışdır. Amma Farabinin kitabım bir dəfə oxumaqla onu yaxşı anlamışdır.

Farabi qeyd edir ki, insan tərif və məzəmmətlə qarşılaşmasa xoşbəxtliyə yetişə bilməz. İnsan əsil xoşbəxtliyə tərif və məzəmmətin birgə vəhdətində çata bilər. Farabi xoşbəxtliyi ən yüksək nemət adlandırmış və bu nemətə yalnız bilik,bacarıq və çalışmaqla mümkün olduğunu söyləmişdir.

O yazırdı: "Mənalı xoşbəxtiiyə biliklə fəaliyyətin vəhdəti qovuşdura büər. Xoşbəxt ömür mənəvi gözəlliklə bilavasitə bağlıdır. Ona görə də insan elmləri, sənətləri, fəlsəfəni öyrənməklə öz zehnini qəlbini zənginləşdirməlidir". Bu isə insanın ən yaxşı fiziki, mənəvi, zehni qabiliyyətlərini kamilləşdirməyi tələb edir.

O əbədi xoşbəxtliyə çatmağı tərbiyənin ən ali məqsədi hesab etmişdir.

Farabi insanm mənəvi tərbiyəsinə yüksək qiymət verərək göstərir ki, mənəviyyat qəlbin yaxşı işlər görmək üçün ehtirasından irəli gəlir. Mənəviyyat və ağlın gücü insanın ləyaqətini meydana gətirir. Farabi göstərir ki, bədənin fəaliyyətinə ruh istiqamət verir. Ruhun varlığı isə ağıla bağlıdır. Ağıl isə bilik və idrak sayəsində inkişaf edir. O belə nəticəyə gəlir ki, əxlaqilik, pisi və yaxşmı seçə bilmək bacarığı yalnız ağılla mümkündür.

Farabinin fikrincə müəlllim şagirdlərində düzlük, ədalət, nəzakət tərbiyə etmək istəyirsə, özü bu keyfiyyətlərə malik olmalıdır.O kəslər yaxşı tərbiyəçi və müəllim, rəhbər ola bilərlər ki, onlar özlərində 12 anadangəlmə və həyatda qazanılmış keyfiyyətlərə malik olsun və həmin keyfiyyətləri özündə uğurla birləşdirsin.

Nəzərdə tutulan keyfiyyətlər aşağıdakılardır: "Hiss orqanlarının yüksək kamilliyi, dəmir məntiq, dərketməyə və öyrənməyə məhəbbət, öyrətmək qabiliyyəti, fenomen yaddaş, iti müşahidəçilik qabiliyyəti, aydın və səlis nitq, yeməkdə və içməkdə orta həddi gözləmək, həqiqətə məhəbbət, yalana nifrət, mərdlik, igidlik" .

Farabi göstərir ki, gənclərin başını hədsiz dərəcədə biliklərlə doldurmaqdansa onlara daha əyani, daha aydm, daha sadə biliklər verməli, onları vaxtı düzgün bölüşdürməyə alışdırmaq lazımdır. Farabinin bu müdrik pedaqoji fikirləri sonralar XVII əsrdə alman pedaqoqu A.Disterveq tərəfindən söylənəcəkdi: "Bacardıqca az öyrətməli, çox düşündürməli... Sobanı da ağzınacan doldursan o yanmaz, tüstüləyər". Farabi bu fikirlərin işığmda elmlərin təsnifatında onlarm daha çox

tərbiyəvi təsir qüvvəsinə diqqət yetirir və yazır: ".. .Biz məşhur elmləri bir-birinin ardınca məntiqi əsasmda beş bölmədə düzməyə çalışdıq. Biz onlarm həm bütovlükdə həm də hər elmin hissələrinin nəyi ifadə etdiyini, onların məzmununu aydınlaşdırmağa çalışdıq. Onlar belədir:

1. Dil elmi
2. Məntiq elmi
3. Təlimi elmlər
4. İlahiyyat
5. Mədəni elmlər".

Farabi daha sonra bu elməlrin içinə daxil olan ayrı-ayrı elməlri müəyyənləşdirmişdir.

Farabinin elmi-pedaqoji əsərlərində estetik tərbiyə, xüsusilə musiqi mühüm yer tutur. Belə ki, Farabi kamil insarun tərbiyəsində estetik tərbiyənin rolunu yüksək qiymətləndirir. İnsarun hərtərəfli inkişafmda musiqidən tərbiyə vasitəsi kimi istifadə edilməsini irəli sürür.

Farabi üç cür musiqini ayırmışdır: Sevimli musiqi- (Əl-Muzisel) insanda xoş duyğular yaradır; Hiddətli musiqi- (Əl-infialiyə) insanda ehtiras və hiddət yaradır; Xəyali musiqi (Əd-Muhayyil) insanm təsəvvür və təxəyyülünü inkişaf etdirir. Farabi "Kitabül musiqi-əl Kəbir" əsərində havanın rəqslərindən meydana gələn səs hadisəsinin ilk məntiqi izahını, səsin fiziki və fizioloji şərhini vermiş və ilk dəfə olaraq səs dalğalarını kağıza köçürərək musiqi notunun əsasını qoymuşdur.

Farabi həm də bir bəstəkar və gözəl musiqi ifaçısı olmuşdur. Şərq musiqi alətləri haqqında qərb insanlarma məlumat vermiş, tar musiqi alətini icad etmişdir.Farabi həm Şərqin, həm də Qərbin böyük alimi müəllimi, pedaqoqu hesab

edilir. Onun dünya elminə gətirdiyi yeniliklər bu günə qədər yeni olduğu kimi, bundan sonra da yeni olacaqdır.

Şərqin böyük filosofu Bəhmənyarın müəllimi **Əbu İbn Sina (980-1037)**,hər bir əsəri dərin hikmət xəzinəsi olmuşdur.

İbn Sina tibb sahəsində məşhur olan Hippokrat (460-357) və Qalendən sonra dünya təbabətində də üçüncü olaraq tanmmışdır. O fəlsəfəyə, tibbə, ədəbiyyata, əxlaqa dair 450-yə yaxın elmi əsərin müəllifdir ki, onun 150-yə yaxını dövrümüzədək gəlib çıxmışdır.

Ən məşhur əsərləri "Şəfa" və "Tibb qanunları" kitabıdır. Bu kitablar Avropa və Şərq ölkələrində dəyərli dərs vəsaiti kimi istifadə edilmişdir. Tarixdə "Avissena" adı ilə şöhrət tapmış Hüseyn Əbdulla Əbu Əli İbn Sina Buxara şəhərinin yaxm-lığmda Əfşan kəndində 370 hicri ilinin Səfərində, yəni miladinin 980- cı ilinin avqustunda doğulmuş, 428-hicri ilinin ramazan ayında, yəni miladinin 1037-ci ilinin 21 iyununda Həmədanda vəfat etmişdir. Rus dilində işlənən "Medisina" (tibb) sözü Avisena sözündən götürülmüşdür.

İbn Sina 18 yaşında ikən hərtərəfli biliyə malik alim kimi şöhrət qazanmışdı. Təsadüfi deyil ki, Samani padşahlarından Nuh bn- Mənsur ağır xəstələndiyi zaman gənc Əbu Əli İbn Sinanı saraya dəvət etmiş və gənc həkim onu ölümün ağzından qurtarmış, ilk dəfə olaraq tibbdə bıçaqdan istifadə edərək hökmdarı əməliyyat edərək sağaltmışdır.

İbn Sina kamil insanm yetişməsində ilk növbədə onun biliklərə yiyələnməsini vacib sayır və əqli tərbiyəyə böyük əhəmiyyət verirdi. O yazırdı ki, elm genişdir, omm hüdudları sonsuzluq zülmətində itib- batır. Ona görə də elmi bilikləri

dərindən öyrənmək və ümumiləşdirmək lazımdır. O, orta əsrlərdə elmi idrakı yüksək dərəcədə işləmiş, elmlərin təsnifatmı vermiş, onları əməli və nəzəri elmlərə ayırmışdır. O əməli elmlərə dövləti, şəhərləri, öz evini, ailəsini, əmlakım idarə etmək və insanın özü ilə bağlı elmləri aid edirdi. Nəzəri elmlərə isə abstrakt varlıq haqqmda təlim (Ali elm), riyaziyyat, astronomiya, musiqi, (Orta elmlər) və dövrünün bütün təbii elmi biliklərmi (Fizika) daxil edirdi. O, fəlsəfə ilə dinin müstəqil mövcud olduğunu göstərmiş, fəlsəfəni insan zəkasımn əsası adlandırmışdır.

İbn Sina müəllimlik peşəsinə yüksək qiymət vermiş və millətin taleyi tapşırılmxş müəllimlər qarşısmda bir sıra tələblər qoymuşdur:

1) Müəllim uşaqlarla münasibətində təmkinli və səbrli olmalı və onlarxn aldxqları biliklərin necə tətbiq olunmasma fikir verməlidir
2) Müəllim təlim prosesində uşaqlarla işin müxtəlif metod və formalarım tətbiq etməlidir
3) Müəllim uşaqlarm fərdi xüsusiyyətiərini nəzərə almalı, onlarda təlimə maraq yaratmalıdır
4) Müəllimin fikri təlim alanlarm hamısına aydın olmalıdır.
5) Müəllim öz sözləiini mimika və jestlərlə tamamlamağı bacarmalı, uşaqlara emosional təsir göstərməlidir. Göründüyü kimi İbn Sinamn XI əsrdə dediyi sözlər XXI əsrdə də öz əhəmiyyəüni itirməmiş və bu gün də həmin fikirlər aktualdır.

İbn Sinanın didakük görüşləri, müəllim peşəsi haqqlında dediyi sözlər  orta əsr Şərqində məktəb təhsilinin inkişafma əsaslı təsir göstərmiş, təlim nəzəriyyəsini, müəllimin fəaliyyətini  xeyli zənginləşdirmişdir.

Böyük Azərbaycan mütəfəkkiri, filosofu Bəhmənyar Ibn Sinanm tələbəsi olmuş və o yazılarında müəllimini minnətdarlıqla xatırlamışdır. İbn Sinarun ideyaları onun tələbəsi Bəhmənyar, onun tələbəsi filosof Əbül Əbbas Ləvkəri, onun tələbəsi Əfzələddin Gilani, onun tələbəsi Sədrəddin Sərəhsi, onun tələbəsi Fərídəddin Damad, onun da tələbəsi Nəsirəddin Tusi tərəfindən davam etdirilmişdir.

Daha sonra Nizami Gəncəvi (1141-1209), Cəlaləddin Rumi (1207-1273) və onun müəllimi Şəms Təbrizi,  Əvhədi Marağalı (1274-1338) kimi görkəmli mütəfəkkirlər, böyük çex pedaqoqu Y.A.Komenski (1592- 1670) görkəmli İsveçrə pedaqoqu İ.H.Pestalossi (1746-1827), alman müəllimlərinin müəllimi A.Disterveq (1790-1866), rus müəllimlərinin müəllimi K.D.Uşinski (1870-1924) və bir çox başqaları böyük alim, ziyalı, müəllim və tərbiyəçi olmuş və müəllimlik peşəsi haqqında qiymətli fikirlər söyləmişlər.

## 3. KLASSİKLƏR, TARİXİ ŞƏXSİYYƏTLƏR MÜƏLLİMLİK PEŞƏSİ HAQQINDA

**Bütün tarixi dövrlərdə görkəmli şəxsiyyətlər, dövlət adamları müəllimlik peşəsinə yüksək qiymət vermiş, onu dəyərləndirmiş və müəllimliyi cəmiyyətin ən şərəfli, müqəddəs peşəsi hesab etmişlər.**

Bütün tarixi dövrlərdə və bütün ölkələrdə görkəmli tarixi şəxsiyyətlər, dövlət adamları müəlimlərə və müəllimlik peşəsinə yüksək qiymət vermiş və bu müqəddəs işi cəmiyyətin ən şərəfli peşəsi hesab etmişlər.

Dahi şairimiz **Nizami Gəncəvi** müəllimi günəşə bənzətmiş və demiş ki, günəş yer üzünə həyat bəxş etdiyi kimi, müəllim də öz yetişdirmələrini həyata hazırlayır. Nizaminin təsvir etdiyi müəllimlər aqil,zəkalı, ziyalı insanlardır. Onlar yüksək əxlaq, ədəb, dərin və hərtərəfli bilik və zəngin mənəviyyat sahibidirlər. Onlar öz hərəkətləri, davranışları ilə tərbiyə etdikləri qəhrəmanların mənəvi inkişafına, bir şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərirlər. Aristotelin yüzlərlə şagirdi ondan yalnız müxtəlif elmləri öyrənmirlər, həm də xeyir və şərin nə demək olduğunu anlamağa, dərk etməyə çalışırdılar.

Müəllimin yeri, "rütbəsi" hər yerdə ən yüksək yerdədir. Nizami Gəncəvinin dediyi kimi:

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**

Ulu Öndər Nizami Gəncəvinin və Məhəmməd Füzulinin şəxsiyyətinə və əsərlərinə böyük dəyər verirdi. Respublika Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı (21 sentyabr 1993-cü il) göstərirdi ki, —bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq.

**Xaqani Şirvani** (1126-1199) XII əsr Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsidir. Görkəmli sənətkar, şair-filosof təlim, tərbiyə, təhsil haqqında, müəllim haqqında dəyərli fikirlər söyləmişdir.

Böyük şair-filosof Xaqani elmə, elm öyrənməyə yüksək qiymət vermiş, böyüklərin ağıl və elmindən "sağ və sol əli doldurmağı", özünü həmişə elm və bilik kölgəsində saxlamağı, müəllimlərdən daim öyrənməyi zəruri hesab etmişdir. Şairin fikrincə, insan dövlətə, mal-mülkə yalnız zəhmətlə, elm və maariflə nail ola bilər. Xaqani Şirvani biliyi, etibarı kişinin şərəfi adlandırırdı. Ağıllı insanları xalq üçün qənimət hesab edən şair qeyd edirdi ki, ağıllı adamlar ziyan çəksələr də, həmişə xalq üçün çalışırlar. Xalq lovğalanmayan insanları çox sevər. Buna görə də insanlar var-dövləti ilə deyil, elmi, hikməti, ağlı ilə öyünməlidirlər

Görkəmli mütəfəkkir insanlarda sadəlik və təvazökarlığı yüksək qiymətləndirirdi. Onun fikrincə, insan mənəm-mənəm deyib özünü öyməməlidir. Çünki cahillər özünü təriflәyərlər. Bilikli insan isə nə qədər çox bilsə də, çox bilirəm deməz. Lovğa

insanları heç kim sevməz, boş sözləri heç kim dinləməz. İnsan öz zəhməti, əməli ilə ucalmalı, sadə və təvazökar olmalıdır.

**"Mənəm-mənəm" deyib, öymə özünü!**
**Həmişə müxtəsər eylə sözünü.**
**Cahildir özünü tərif edənlər,**
**Çox bilirəm demə, bilsən də əgər.**

Böyük filosof şair **Mövlana Cəlaləddin Rumi** müəllimi yanar şama bənzədərək demiş ki, bir şam o biri şamı yandırarsa atəşi azalmaz, bəlkə artar.

**Məhəmməd Füzuli** müəllimi gənc qəlbin memarı adlandırmış və müəllimlərə xitab edərək şər adamlara, pis xasiyyətli adamlara elm öyrətməməyi məsləhət görmüş, əks halda bu cəlladın əlinə qılınc verməyə bənzər:

**Ey müəllim, aləti-təzviridir əşrarə elm,**
**Qılma əhli-məkrə təlimi-məarifi, zinhar.**
**Hiylə üçün elm təlimin qılan müfsidlərə**
**Qətl-am üçün verir cəllada tiğ-i abdar.**

Füzuli insanın əxlaqi keyfiyyətlərinə yüksək qiymət vermiş, qazanılan biliyin əxlaqa, ədəbə xidmət etməsini və insanın ilk növbədə ədəbli, əxlaqlı olmasını tələb etmiş və demişdir:

**Elmlə, ədəblə tanınar şərəf,**
**Mirvari olmasa nə lazım sədəf**

Füzuli dünyəvi elmləri və dini bilikləri "elm-i əqli" və "elm-i nəqli" adlandırmış, fəlsəfə, riyaziyyat, ilahiyyat və ədəbiyyat nəzəriyyəsini bu elmlərin sırasına daxil etmişdir. Füzuli əqli tərbiyə üçün müxtəlif bilik sahələrinə yiyələnməyi

lazım bilmişdir.

Füzuli təhsilin əsası kimi müəllimin savad təliminə ciddi fikir verilməsini tələb etmişdir. O, hesab edir ki, ibtidai təhsil dövründə şagirdlər savadlı yazmağa, yaxşı nitq mədəniyyətinə və sözü "mərifət" geyimi ilə təqdim etməyə alışmalı, müvafiq bacarıq əldə etməlidirlər. Bu keyfiyyət olmadan verilən təhsil "maarifə qarşı baltaya çevrilir."

**Məhəmməd Nəsirəddin Tusi** böyük astronom, riyaziyyatçı, filosof olmaqla bərabər, həm də bir pedaqoq, müəllim və tərbiyəçi kimi gənc nəslin hərtərəfli inkişafı, tərbiyəsi və təlimi üçün dəyərli əsərlər yazmış, müəllim şəxsiyyəti, müəllim nüfuzu haqqında müdrik fikirlər söyləmişdir. Tusinin yaratdığı pedaqoji əsərlər təlim və tərbiyənin çox geniş və müxtəlif sahələrini əhatə etmiş və bu əsərlər neçə-neçə nəsillərin təlim və tərbiyəsində mühüm rol oynamış, müəllim və pedaqoqlarımız həmin əsərlərdən xeyli faydalanmış, öz əməli fəaliyyətində onlardan istifadə etmişlər. Bütün bunlar da öz növbəsində pedaqoji elmimizin, tərbiyə nəzəriyyəsinin inkişafında əhəmiyyətli rol oynamışdır. Tusinin ən məşhur əsəri isə 1235-ci ildə yazdığı "Əxlaqi-Nasiri" əsəridir ki, bu əsər əxlaq, mənəviyyat məsələlərinə həsr olunmuşdur.

Nəsirəddin Tusi yazırdı ki, Yer üzərində yaranan məxluqatın ən şərəflisi insandır. Bunu əsas götürən Tusi bütün yaradıcılığı boyu insanın tərbiyəvi keyfiyyətlərini tərənnüm etmiş və insanda əxlaqi sifətləri yüksək qiymətləndirmiş və insan əqlinin, əxlaqının formalaşdırılmasında müəllim əməyinə yüksək qiymət vermişdir.

Nəsirəddin Tusi əsərlərində göstərir ki, insan ömrü boyu öyrəndiyinin böyük bir hissəsini altı yaşına qədər mənimsəyir. Məhz bu dövrdə uşağın idraki və fiziki inkişafının təməli qoyulur. Bu təməlin nə qədər möhkəm və düşünülmüş olması şəxsiyyətin gələcək inkişafını təmin edir və onun həyat fəlsəfəsini, cəmiyyətə baxışlarını müəyyənləşdirir.

**Nəsirəddin Tusi** müəllimi elmin çırağı adlandırmış və demişdir**: "Varlıqları ən aşağı dərəcədən kainatın ən yüksək mərtəbəsinə qaldıran sənətdən daha şərəflisi nə ola bilər – Müəllimlik peşəsi".**

Dahi Nəsirəddin Tusi bunu da demişdir ki, "İnsanı kamilliyə çatdırmaq məqsədi güdən sənət dünya sənətlərinin ən şərəflisidir ki – o da müəllimlikdir".

Böyük pedaqoq, məktəbdar **Məhəmməd Tağı Sidqi** müəllimi dadlı meyvələr yetişdirən bağbana bənzətmişdir.

Sidqi "Yeni üsul" – "Üsuli- cədid" – ana dilli məktəblərin ilk əsasını qoyanlardan biridir. O 1892 – ci ildə Ordubadda "Əxtər" (Ulduz) adlı ana dilli ilk milli- dünyəvi məktəb açımış və yeni məktəblərin təməlini qoymuşdur. Naxçıvan ziyalıları Sidqini Naxçıvana dəvət etmiş və 1894 – cü ildə Naxçıvanda yeni tipli, yeni üsullu məktəb – "Tərbiyə məktəbi" açmışdır. Bu məktəblər Naxçıvan pedaqoji mühitində çox böyük hadisə hesab edilmiş, yüksək qiymətləndirilmiş və xalq tərəfindən rəğbətlə qarşılanmışdır. "Əxtər" də olduğu kimi, "Tərbiyə məktəbi"ndə də dünyəvi fənlər tədris edilirdi. Məktəbin tədris planına Ana dili, rus, ərəb və fars dilləri, tarix, coğrafiya, nəğmə və hesab kimi dünyəvi fənlər daxil edilmişdi. Ana dili, ərəb və

fars dillərini M.T.Sidqi özü tədris edirdi, rus dilini Qori Müəllimlər Seminariyasının məzunu Əkbər Süleymanov tədris edirdi. "Tərbiyə məktəbi"nin proqramından aydın olur ki, burada dərslərin əksəriyyətində əxlaqi-didaktik hekayələr, şer və təmsillərin öyrədilməsi üstünlük təşkil etmişdir.

Bu məktəbdə kollektiv sinif-dərs sistemi tətbiq edilmiş, şagirdlər həsir üstündə deyil, partalarda oturmuş, lövhədən, silgidən istifadə edilmişdir. Sinfə qalstuklu, səliqəli, müasir qaydada geyinmiş müəllimlər daxil olurdu. "Tərbiyə məktəbi"ndə fiziki cəza yox idi. Şagirdlər rahat, sərbəst və şən idilər. Bu məktəbdə pedaqoji fikir tariximizdə ilk dəfə olaraq Sidqinin özü tərəfindən işlənib hazırlanmış olduğu və bu günə qədər əhəmiyyətini itirməmiş, mühafizə edilib saxlanılan "Ədəb qaydaları" tətbiq edilirdi. Tədris planında özünə möhkəm yer tutan əxlaq dərsləri də Sidqiyə böyük şöhrət qazandırmışdı. Sidqi özünün "Nümuneyi-əxlaq" adlı dərsliyində bu dərslərin əhəmiyyətini qiymətləndirərək yazırdı: "Elm və ədəb bir xəzinəyə bənzər ki, onun kilidi məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifətə yetirən məktəbdir. Çünki insanın qədri qiyməti elm ilə bilinir, yəni elmi və mərifəti nə dərəcədə olsa, habelə dəyəri və qiyməti o qədərdir. Bəs insanın əsl qiyməti bildiyi və öyrəndiyi şeylərdən ibarət imiş ki, o da məktəb ilə hasil olur".

Sidqinin təsis etdiyi məktəbdə şagirdlər təkcə bilik və mərifət almaq baxımında deyil, həm də burada yaranan yaradıcı pedaqoji mühitin sayəsində yetişməkdə olan gənc nəsil ilk bədi yaradıcılığa sövq edilirdi. Hüseyn Cavid "Gülçin"

təxəllüsü ilə qələmə aldığı ilk şeirlərini "Tərbiyə" məktəbinin şagirdi ikən yazmışdır. Əliqulu Qəmküsarın, Məhəmmədəli Sidqinin, Məmməd Səid Ordubadinin bədii istedadı, Bəhruz Kəngərlinin rəssamlıq qabiliyyəti, Rza Təhmasibin aktyorluq, rejissorluq qabiliyyəti məhz həmin məktəbdəki təhsil illərində formalaşıb inkişaf etmişdir. Bütün bunlar Naxçıvan pedaqoji mühitinin zəngin ənənələrini nümayiş etdirir.

M.T.Sidqinin açdığı "Tərbiyə məktəbi"nin Hüseyn Cavid, böyük yazıçı Məmməd Səid Ordubadi, məşhur ədəbiyyatşünas alim Əziz Şərif, görkəmli rejissor və aktyor Rza Təhmasib, Məmmədhüseyn Təhmasib, mollanəsrəddinçi şairlər Rzaqulu Nəcəfov və Əliqulu Qəmküsar qardaşları, yazıcı-publisist Ələkbər Qərib, Əli Səbri Qasımov, şair Məhəmmədəli Sidqi (M.T.Sidqinin oğlu), məşrutəçi Ələkbər Məmmədquluzadə, adlı-sanlı maarifçilər- Əbdüləzim Rüstəmzadə, Mircəfər Mirişli, Əlirza Rasizadə (Hüseyn Cavidin qardaşı), realist rəssam Bəhruz Kəngərli, filoloji elmlər namizədi Xəlil Hacılarov, əməkdar müəllim Həsən Səfərli, Ağa Bektaşov, Əsədulla Bektaşov, Məmməd Xəlilov və Əli Xəlilov, Heydər Vəzirov, Əsəd Şeyxov, Qasım Camalbəyov, böyük diplomat, Türkiyədə Azərbaycanın ilk səfiri, M.K.Atatürkün silahdaşı İbrahim Əbilov (1882-1923) kimi böyük elm, ədəbiyyat və mədəniyyət, ictimai və dövlət xadimləri yetirmələri olmuşdur. Onlar nəinki Azərbaycanda, eləcə də ölkəmizdən çox-çox uzaqlarda tanınan məşhur şəxsiyyətlər – elm, ədəbiyyat və incəsənət xadimləri, siyasətçilər olmuşlar. Sidqi böyük pedaqoq, böyük müəllim, böyük şair, nasir, məktəbdar olmuşdur.

Görkəmli şair **Hüseyn Cavid** Sidqinin Tərbiyə məktəbində oxumuş, Sidqiyə bir müəllim kimi çox böyük rəğbət bəsləmiş, Urmiyadan, Təbrizdən, İstanbuldan Sidqiyə yazdığı məktublarında müəllimi Sidqini çox yüksək, dəyərli epitetlərlə ağırlamış, çox yüksək və hörmətli müraciətlər etmişdir.

Hüseyn Cavid bilindiyi kimi çox böyük şair, müəllim, dramaturq olmuşdur.

O dahi şair olmaqla bərabər həm də ustad bir müəllim- pedaqoq, tələbələrin sevimlisi olmuşdur. O müəllimlik peşəsinə yüksək qiymət verərək müəllimə xitabən demişdir:

**Bəxtiyarsan əgər çəkdiyin əmək**
**Versə cahan süfrəsinə bir çiçək.**

**Hüseyn Cavid ilk növbədə sülhsever, barışsevər şair olmuşdur**. O hər cür savaşların, qan tökülmələrin əleyhinə olaraq belə demişdir:

***Kəssə hər kim tökülən qan izini***
***Qurtaran dahi odur Yer üzünü.***

1990 – cı illərdə torpaqlarımız bir birinin ardınca erməni təcavüzünə məruz qalaraq işğal olunur, məsum insanlarımız qətl eilir, hər gün qan tökülürdü. 1994 cü ildə Ulu Öndərimiz Heydər Əliyev bu qan tökülməsinin qarşısını aldı, atəşkəs elan edildi. İnsanlarımızın bir nəfəs alaraq, güc toplamalraını sağladı.

2020 - ci il tariximizə qızıl hərflərlə yazıldı. Ulu Öndərimiz Heydər Əliyeviun layiqli davamçısı möhtərəm prezidentimiz, Müzəffər Ali Baş komandanımız İlham

Əliyevin rəhbərliyi altında, onun müdrik siyasəti ilə qəsb edilmiş torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi. Tökülən qanlar durduruldu. Erməni məzaliminə, erməni qəsbkarlığına son qoyuldu. Bölgədə savaş kəsildi. Düşmən təslim oldu, məğlub oldu. **Hüseyn Cavid sanki bu günləri görərərk deyirdi ki, düşmənə inanmaq olmaz, Hər zaman ayıq sayıq olmaq lazımdır:**

***Düşmən bağışlansa yolunu azar***
***Qazar məzlum üçün dərin bir məzar***

Qarabağ savaşında, Vətən müharibəsində şəhidlər verdik qələbə qazandıq. Şəhidlər canını vətən yolunda qurban verdilər. Cavid "Şəhidlər ölməz, vətən bölünməz" onlar əbədiyyətə qovuşarlar ideyasından çıxış edərək belə söyləyirdi:

***"Vətən eşqinə can nisan edən ərlər***
***Əbədi bir həyat içində gülər"***

Cavid mənalı, ölümü, həyatını vətən yolunda qurban verənlərin ölümünü həyat qədər dəyərli hesab edir:

***Ölüm var ki, həyat qədər dəyərli,***
***Həyat var ki, ölüm qədər zəhərli***

Hüseyn Cavid müasirləşməyi bir qurtuluş kimi görmüş, cəhalətdən uzaq durmağı və hər zaman yeniləmnəyi üstün bilmiş və yazmışdır:

**Bu gün gəncliyə baxsan,**
**Bir sel kimi hər an**
**Sağlam, yeni məfkurələr izlər.**
**Bizlər?**

**...Bizlər yeniləşsək belə, daim,**
**Bir əskilik az-çox bizə hakim...**
**...Onlar qoşacaq, çarpışacaqlar,**
**Bir çox uçurumlar aşacaqlar.**
**Lazımsa cəhalətlə güləşmək,**
**Bir çarə var: yalnız yeniləşmək!**

Hüseyn Cavid yenilənmək və modernləşmək dedikdə, həmçinin, milli dəyərlərdən uzaqlaşmamağı, milli və mənəvi dəyərləri hər zaman qorumağı və üstün tutmağı vurğulamışdır.

**Hüseyn Cavid 1909-cu ildə İstanbuldan vətəni Naxçıvana döndükdən sonra böyük pedaqoji fəaliyyətlə məşğul olmuş.** O həm əsərləri ilə, həm pedaqoji, maarifçilik fəaliyyəti ilə, xalqı tərəqqiyə, marif və mədəniyyətə  çağırırdı. Ümummilli lider Heydər Əliyev Hüseyn Cavid irsinin öyrənilməsi və təbliğinin əhəmiyyətini vurğuluyaraq deyirdi: ***"Bizim hamımızın borcu, xüsusən müəllimlərin məktəbliləri, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə. Məktəblərdə Hüseyn Cavidin əsərləri xüsusi yer tutmalıdır. ...Çünki onun hər bir əsərində bir dünya var və bu barədə bizim müəllimlərimizin üzərinə çox böyük vəzifə düşür".***

O 1919-cu ilin mayında keçirilən Müəllimlər İttifaqının iclasında İdarə Heyətinin üzvü, həmin ilin iyulunda isə Azərbaycan Müəllimlər konfransında Təlifat (nəşriyyat) Heyətinə seçilmişdir. Hüseyn Cavid ömrünün son on yeddi ilində Bakı Müəllimlər Seminariyasında istedadlı bir müəllim kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, fəlsəfi

müdrikliyin, bədii kamilliyin, pedaqoji fikrin ahəngdar vəhdətini dolğun təcəssüm etdirərək yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı, pedaqoji fikir tarixinə dəyərli səhifələr yazmışdır.

O özünün "Qızlar məktəbində", **“Yetim Ənvər “,” Balaca tumurcuq”,” İlk bahar “, ”Çiçək sevgisi” kimi şeirlərində; “Ağsaqqal Timur”,”İblis”.” Fəlakət”, “Şeyda”, “Uçurum”** , **“Xəyyam “,” Şeyx Sənan”,”Ana”** adlı dram əsərlərində mənəviyyat, əxlaq, insani keyfiyyətlər mövzularına toxunmuş, insanları dinc və əmin-amanlıq içində yaşamağa səsləmişdir.

Hüseyn Cavid məktəbdən, müəllimlərdən gənc nəslin təlim və tərbiyəsi qayğısına qalan ata-analar tərbiyə etməyi tələb edirdi. O, deyirdi ki, müəllimin hər sözü, hər duruşu, hər halı bütün şagirdlərə ciddi təsir göstərir. Müəllim öz sözü və nüfuzu ilə təkcə şagirdləri tərbiyə etmir. O, valideynlərə də qüvvətli tərbiyəvi təsir edir.

Valideynləri uşaqlarına ana dilini təmiz öyrətməyə çağıran, dilimizin saflığı, təmizliyi uğrunda mübarizə aparan, ana dilimizin gözəlliyini, zənginliyini biz tələbələrə təbliğ edən Hüseyn Cavid, eyni zamanda gənclərə ana dilindən əlavə digər dilləri də öyrənməyi tövsiyə edirdi:***“Vətən övladı bəzi mətbuatı oxumaq və öyrənmək üçün türk dilini bilməlidir. İkinci, bir para hadisələrin və xəbərlərin məzmununu bilmək üçün fars dilini öyrənməlidirlər, üçüncü, dini məsələlərlə məşğul olanlar ərəb dilini bilməlidirlər, dördüncü, rus dilini əsaslı bilməlidirlər. O rus dilini ki, bizim vətəndə bəzi həqiqətləri və məsələləri bilmək və dərk etməkdə ən lazımlı vəsait sayılır və o***

*dili öyrənmək və bilmək lazım və vacibdir"* .

Hüseyn Cavid deyirdi: "**Bu gün məktəbimiz, müəllimimiz, ədəbiyyatımız necədirsə, sabah millətimiz də elə olacaqdır"**

Naxçıvanda "Rüşdiyyə" məktəbində Hüseyn Cavidin tələbəsi olmuş Lətif Hüseynzadə xatirələrində yazmışdır ki, ***"1918-1919-cu illərdəNaxçıvanda "Rüşdiyyə" məktəbində oxuyarkən İstanbulda təhsil almış Hüseyn Caviddən türk dili, şairin böyük qardaşı, Tehranda, Nəcəfdə təhsil almış Şeyx Məhəmməd Rasizadədən ərəb dili və onun kiçik qardaşı, Qori Müəllimlər Seminariyasının məzunu olmuş Əlirza Rasizadədən rus dili dərsi almışdır. Lətif Hüseynzadə xatirələrində yenə yazır ki, bu insanlar müxtəlif yerlərdə, müxtəlif dillərdə təhsil almalarına baxmayaraq, öz ana dilində təmiz danışırdılar. Ailələrində onlardan biri təhsil aldığı dilin kəlmələrini təsadüfən işlədərdilərsə, anaları tez onlara xatırladardı – "Ananızın dilində danışın!".*** Deyilənə görə, "Cəlil Məmmədquluzadə "Anamın kitabı" əsərinin ideyasını bu ailənin timsalında yazmışdır.

Lətif Hüseynzadə Hüseyn Cavidlə bağlı xatirələrində yazırdı: "Mən "Rüşdiyyə" məktəbinin 9-cu sinfində oxuyurdum. Bir gün məktəbimizin müdiri Xəlil ağa Hacılarov Hüseyn Cavidlə sinfimizə gəldi. Müdirimiz Hüseyn Cavidi hörmətlə bizə təqdim etdi. Biz böyük şair və dramaturqumuz Hüseyn Cavidi qiyabi olaraq tanıyırdıq. İndi onun müəllim təyin edilməsi bizi çox sevindirdi... Hüseyn Cavid bizə dərs keçməklə bərabər, milli-mənəvi duyğularımızı inkişaf etdirir,

ətrafımızda baş verən hadisələrin mahiyyətini, səbəbini izah edir, dostumuzla düşmənimizi tanıdırdı.

Cavid Əfəndi bizə ermənilərin 1918- ci ildə Bakıda törətdikləri qanlı Mart hadisələrindən və öz başına gələn erməni məzalimindən danışırdı. O söhbətində dedi: "Bakıda ermənilər müsəlmanları amansızcasına qırır, zülm edir. Mən orada "Səfa" adlı qız məktəbində müəllimlik edirdim və "Təbriz" mehmanxanasında yaşayırdım. İstirahət günü idi. Dostum, yazıçı Sadıq Hüseyn də yanıma gəlmişdi. Bu zaman bir dəstə silahlı erməni əskəri mehmanxanaya girdi və 60 nəfərdən çox müsafiri, məni və Sadıq Hüseyni də mehmanxanadan çıxarıb apardılar. Yolda gedərkən tez-tez atəş açılır, elə yolda - küçədə insanları öldürürdülər. Sadıq Hüseynlə məni Mayılov teatrının binasına gətirdilər. (İndiki öpera və balet teatrının binası) Bir az sonra küçədə şiddətli atışmalar başlandı. Bütün əskərlər bayıra çıxdı, çaxnaşmalar oldu. Biz fürsəti itirmədən oradan çıxa bildik. Mən ordan dostum Abdulla Şaiqin yanına gəldim. Əhvalatı ona danışdım, sonra vidalaşıb İrana gedən bir gəmi ilə Ənzəliyə gəldim. Oradan Təbrizə gələrək atamın yaxın dostu, böyük alim Hacı Məhəmməd Naxçıvaniyə qonaq oldum. Orada da çox qalmadım Naxçıvana – vətənə gəldim..."

Elə o dövrdə 1918 – ci ildə ermənilər Naxçıvanda da qanlı cinayətlər törədir, kəndlərdə evləri yandırır, çobanları öldürür, mal qarasını götütüdülər.

Hüseyn Cavid Naxçıvanda türk ordusunun Şərq cəbhəsinin komandiri Kazım Qarabəkir Paşa ilə görüşmüş və

aralarında gözəl dostluq əlaqələri, yaradıcılıq münasibətləri yaranmışdır. Bu münasibətlərin çox böyük önəm daşıdığını nəzərə alaraq burada o barədə də yazmağı vacib hesab edirəm.

Azərbaycan və Türk tarixində silinməyən izlərindən biri Mustafa Kamal Paşanın şanlı türk ordusunun- Kazım Qarabəkir Paşanın komandanlığı altında 1918 – ci ilin 7 iyulunda Naxçıvana göndərməsi və Naxçıvanı erməni işğalından xilas etməsidir. O zaman Mustafa Kamal Paşa Naxçıvan haqqında ordu komandanlığına belə bir əmr vermişdir: "Naxçıvan türk qapısıdır. Bu məsələni diqqətə alaraq onun mövcudiyyətini qorumaq üçün əlinizdən gələni yapınız".

Naxçıvanda yaşamış 1903- cü ildə anadan olmuş, 106 il ömür sürmüş, "İstiqlal" ordenli, Əməkdar Müəllim Lətif Hüseynzadə özü şahid olduğu o dövrün hadisələrini "Araz şahiddir. Kazım Qarabəkir Paşa Naxçıvanda" İstanbulda və Bakıda çap olunmuş kitabında yazaraq türk ordusunun qəhrəmanlıq şücaətlərini təqdir etmişdir. Bu kitabda Hüseyn Cavid və Kazım Qarabəkir Paşa dostluğu haqqında L.Hüseynzadənin maraqlı xatirələri vardır.

Hüseyn Cavid millətin tərəqqisi, inkişafı üçün maariflənməyi, mədəniləşməyi ən vacib amillərdən sayırdı. Bu məziyyətlərinə görə, daim öz iradəsi ilə yaşamış, həm öz iradəsinə, həm də millətinə sadiq olmuş böyük sənətkarın yaradıcılığını dəyərləndirən ümummilli lider Heydər Əliyev Hüseyn Cavidin yaratdığı əsərləri "Azərbaycan xalqının milli sərvəti", "bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabı"

adlandıraraq demişdir: ***"İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır.. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".***

1982-ci ildə doğumunun 100 ilik yubileyi ərəfəsində nəşinin uzaq Sibirdən gətirdərək doğma yurdu Naxçıvanda dəfn edilməsi, məzarı üzərində möhtəşəm türbə ucaldırması, uca heykəlinin qurulması, tarixi ev muzeyinin yaradılması türk dünyasının dahi şəxsiyyəti, böyük siyasi xadim Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bütün bunlar indiki nəslimiz, gələcək nəsillərimiz üçün dəyərli mənəviyyat nümunəsi, əxlaq və vətənpərvərlik örnəyidir.

**Firudin bəy Köçərli** bəşəriyyətin müəllimsiz keçinə bilmədiyini söyləmiş və demişdir: **"Əgər bir xalqı məhv etmək, onu insan toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, o biri canını zay edəcəkdir".**

Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasının məzunu olaraq (1863-1920) hələ tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi. Sonralar Saleh bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etdilər. 35 illik müəllimlik fəaliyyətində ədəbiyyatşünaslıq üzrə ciddi axtarışlar aparmış Firudin bəy Köçərli ana dilinin tədrisinə dair çoxsaylı məqalələr yazmışdır. O, 300-dən artıq dərsliyə düzəliş etmiş, nəzəri materiallarla, hekayələrlə zənginləşdirmiş, metodik baxımdan yeniləşdirmişdir.

Azərbaycan tarixi və ədəbiyyatının vurğunu olan ədib başqa xalqların ədəbiyyatı ilə öz ədəbiyyatımızı müqayisə edir, xalqlar arasında ədəbi-mədəni əlaqələri genişləndirmək məqsədilə etdiyi tərcümələrlə ( Puşkin, Lermontov, Çexov, Tolstoy, Koltsov, Sereteli və b.) rus mətbuatında fəal iştirak edirdi. Ədib Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin (M.P.Vaqif, M.F.Axundov və b.) irsinin təbliği sahəsində də çalışır, xalqın maariflənməsində, mədəniyyətinin inkişafında qəzet və jurnalların rolunu yüksək qiymətləndirərək məqalələr dərc etdirirdi. 1897-ci ildə Çernyayevskinin ölümündən sonra o, "Vətən dili" dərsliyinin yenidən işləmiş və daha təkmil variantını nəşr etdirmişdir.

F.Köçərli 1895-ci ildə Qori Müəllimlər Seminariyasına işə dəvət olunmuşdur.

Qori Müəllimlər Seminariyasına təyina Köçərlini xeyli məmnun etmiş və o, böyük bir həvəslə özünə doğma bildiyi Qori Müəllimlər Seminariyasında işə başlamışdır. Çünki bir zamanlar dərs aldığı əziz müəllimləri ilə birgə çalışacaqdı. Həmin ildən o, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində Səfərəli bəy Vəlibəyov, Popov, Qaraqanidze, Lamauri, R.Əfəndiyev kimi zəmanəsinin mütərəqqi pedaqoqları ilə bir sırada çalışmış, millətimizin böyük ziyalısı və alimi kimi xalqının maariflənməsində, təhsil almasında böyük rol oynamışdır.

F.B.Köçərli Qori Müəllimlər Seminariyasına müəllim təyin olunan gündən bütün imkanlardan istifadə edir - elm, maarif, mədəniyyət və tərəqqi baxımından geri qalmış Azərbaycan

balalarının təlim-tərbiyəsi ilə ciddi məşğul olurdu. Elmi fəaliyyəti cəhətdən də Qori illəri Köçərlinin həyatında ən dolğun illərdir. Köçərli Qoridə işləyərkən Azərbaycan ədəbiyyatında realist demokratik cərəyanın ən böyük nümayəndəsi, milli dramaturgiyamızın banisi M.F.Axundovun yaradıcılığını ətraflı tədqiq etməklə məşğul olmuş, ədibin yüzilliyi ilə əlaqədar olaraq, xüsusi bir kitabça yazmışdır.

Köçərli Qori Müəllimlər Seminariyasında müəllimlik etdiyi illərdə gürcü inqilabçıları ilə yaxın olmuş, onların köməyi sayəsində inqilabi ədəbiyyat əldə edib oxumuşdur. 1906-cı ildə bolşevik qəzeti "Dəvət"də çıxış etməsi, zəhmətkeşləri çarizmə qarşı əlbir mübarizəyə çağırması da göstərir ki, o, dövrün inqilabi ideyalarına biganə qalmamışdır.

F.Köçərli Qori seminariyasında bir neçə il müəllim, 1910-cu ildən 1918-ci ilədək isə Azərbaycan şöbəsinin rəhbəri vəzifəsində çalışır. Bu dövrdə o, tədrisdə Azərbaycan dilinə geniş yer ayrılması məsələsinə ciddi fikir verir, ana dilimizin yad təsirlərdən qorunmasında ziyalıları köməyə çağırırdı.

F.Köçərli müəllimi durmadan öz üzərində işləməyə, biliklərini artırmağa və təcrübəsini zənginləşdirməyə çağırırdı. Müəllim şagirdlərin əqli inkişafı, görüş dairələrinin genişlənməsi üçün yalnız sinifdə dərslə kifayətlənməməli, işinə formal münasibət göstərməməlidir. F.Köçərli müəllimin fəaliyyətini yalnız məktəb və məktəbdənkənar təlim-tərbiyə işləri ilə məhdudlaşdırmır, onları daim ailə ilə əlaqə saxlamağa çağırırdı.

F.Köçərli pedaqoji mülahizələrində əsil insan və vətəndaş

yetişdirməklə bağlı olan bu nəcib xüsusiyyətlərin formalaşması yolunda əngələ çevrilən səbəbləri tənqid edərək, bir daha xatırladırdı ki, xalqın bu cür ictimai tərəqqiyə çatmamasının səbəbi heç də dini islam məfkurəsi deyil, məişətə və vətəndaşlıq cəmiyyətinə aid mülki qanunlardır.

F.Köçərli bu yönümdən vətəndaş tərbiyəsi amilləri sırasında şəxsiyyət tərbiyəsini də mühüm vəsitə sanır, bununla əlaqədar olaraq yazır ki, "...tərbiyənin amilləri çox olmaqla bərabər qayət müxtəlifdir: insanı əhatə edən bütün şeylər, yaxud ona müəyyən təsir göstərən hallar bu qəbildəndir".

F.Köçərli xalqın tarixini tədqiq, təhlil etmək, öyrətmək və öyrənmək üçün nağılların, tapmaca və bayatıların, atalar sözləri və məsəllərin, sayaçı sözlərinin əhəmiyyətini xüsusi qeyd etmiş və "Balalara hədiyyə" adlı əsərində də bu hikmətli el ədəbiyyatı nümunələrindən geniş istifadə etmişdir. Bu kitabın yazılması və tərtibi demək olar ki, gənc nəsli şifahi xalq ədəbiyyatı nümunələri ilə tanış etmək və onun tərəqqisinə kömək etmək məqsədi güdmüşdür. Bu kitab əsrimizin ilk illərində uşaq ədəbiyyatının müvəffəqiyyətli nümunələrindən biri olmuş və müəllifin bu sahəyə dair ədəbi və pedaqoji fikirlərini özündə təcəssüm etdirmişdir. F.Köçərli şifahi xalq ədəbiyyatını yazılı ədəbiyyatın bünövrəsi hesab etmiş və məhz buna görə gənc nəslin təlim tərbiyəsi işində folklor nümunələrini zəruri saymışdır. "Balalara hədiyyə" adlı əsərini də bu prinsip əsasında tərtib etmiş, folklora və folklor nümunələri ruhunda yazılmış əsərlərə üstünlük vermişdir.

F.Köçərlinin apardığı müşahidələr, verdiyi hökmlərdən və

gəldiyi nəticələrdən çıxış edərək demək olar ki, onun müxtəlif sahələrdə elmi-nəzəri, pedaqoji fikirləri olduğu kimi, dilimizin təmizliyi, saflığı uğrunda apardığı mübarizə həm ədəbiyyatşünasın öz sağlığında və həm də sonrakı illərdə böyük əhəmiyyət kəsb etmişdir.

1918-ci ilin yayında rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışmasından istifadə edən böyük ziyalı F.Köçərli Qori Müəllimlər Seminariyanı Qazaxa köçürür. Firidun bəy Köçərli seminariyanı **1918- ci ilin 1 sentyabrında çox çətinliklərlə, böyük maneələrlə Qazaxa köçürə bildi. Bu** Seminariyanın ilk direktoru kimi də özü fəaliyyətə başladı. Məşədi İbrahim ağa Kosalı özünün böyük bir mülkünü təmənnasız olaraq tədris binası kimi seminariyaya hədiyyə etdi.

Köçərli Qazax seminariyasında təkcə dərs demək, yaxud bir müdir kimi seminariaynın işini təşkil etməklə fəaliyyətini məhdudlaşdırmadı, yaşının 60 olmasına baxmayaraq, yenə də həvəslə çalışdı, özfəaliyyət dərnəkləri təşkil etdi, yaşlılar üçün savad kursları açdı, kitabxanalar təşkil etdi və Qazaxda ilk uşaq evinin yaradılmasının da təşəbbüskarı oldu.

Milli mətbuatımızn banisi, böyük pedaqoq, naşir **H.B.Zərdabi** müəllimlik peşəsinə çox yüksək qiymət vermiş və bu cəhətdən iftixar hissi duyaraq yazmışdır: Əgər məndən sorüşsalar ki, ən şərəfli peşə hansıdır, mən o zaman iftixarla deyərdim – "Müəllimlik". Zərdabiyə görə, təhsil, təlim, elm və maarif köhnə həyatı dəyişdirməyə xidmət etməlidir. Zərdabi özünün şifahi və yazılı təbliğatında gənc nəslin əxlaq,

vətənpərvərlik, vətəninə və xalqına dərin məhəbbət tərbiyəsinə böyük əhəmiyyət verirdi.

**Böyük maarifçi Həsən bəy Zərdabi bu qiymətli sözləri də demişdir: "Hər bir xalqın xoşbəxtliyi və ya bədbəxtliyi, uşaqların tərbiyəsinin necə qoyulmasından asılıdır”**. Uşaqların tərbiyəsində isə əsas yük müəllimlərin çiyninə düşür. Bütün peşələr gözəldir, gərəklidir. Lakin, müəllimin yetişdirdiyi məhsul insan olduğundan və cəmiyyətin gələcəyi bundan asılı olduğundan müəllimlik peşələrin ən şərəflisi, ən müqəddəsidir.

Böyük pedaqoq, şair, ədib **Abdulla Şaiq** müəllim şəxsiyyətini həmişə diqqət mərkəzində saxlamış, milli məktəblərin şəbəkəsinin genişləndirilməsini lazım bilirdi. O milli vicdanın məhz milli məktəblərdə doğduğunu xüsusi vurğulayırdı. Görkəmli ədibə görə, məktəb və müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir çocuğa bənzər ki, öz xeyir və şərini düşünə, dost və düşmənini fərq edə bilməz. Müəllim şəxsiyyətindən danışarkən o, aşağıdakı fikirləri xüsusilə diqqətə çatdırırdı: **“Müəllim sinfin ruhudur. Çalışqan və vicdanlı bir müəllimin sinifdə nə kimi xarüqələr yarada biləcəyi aşkardır. Bir bağban min zəhmətlə əkdiyi və becərdiyi meyvə bağının məhsulunu sevə-sevə dərdiyi kimi, bir müəllim də mənəvi qidalarla becərdiyi tələbələrinin kamala çatdığını və onların xalqa, vətənə, cəmiyyətə etdiyi xidmətləri görüncə bir bağbandan daha bəxtiyar görünür; çünki onun yetişdirdiyi məhsul daha qiymətli və səmərəlidir”.** O yazırdı: “Bir bağban min zəhmətlə

əkdiyi və biçdiyi meyvə bağınım məhsulunu sevə-sevə dərdiyi kimi, bir müəllim də mənəvi qidalarla becərdiyi tələbələrinin kamala çatdığını və onların xalqa, vətənə, cəmiyyətə etdiyi xidmətləri görüncə bir bağbandan daha bəxtiyar görünür, çünki onun yetişdirdiyi məhsul daha qiymətli və səmərəlidir. Odur ki, mən hər zaman yazıçılığımdan artıq müəllimliyimlə iftixar etmişəm... Müəllimlik nəcib və müqəddəs peşədir. Zamanəmizdə maarifin, təhsilin, müəllimin bu qədər böyük əhəmiyyət və mövqe qazandığını nəzərə alaraq xalqımızın əsas mədəniyyət ocağı olan məktəb, pedaqoji məktəblər, institutlarımıza daha çox fikir verilməlidir. Təşkilatı cəhətdən təkmilləşdirilməlidir. Mənə elə gəlir ki, artıq kəmiyyətdən çox keyfiyyətə fikir vermək lazımdır. Pedaqoji məktəb və institutların sayını artırmaqdansa, onlar müasir laboratoriyalar və kabinetlərlə, zəngin elmi-nəzəri kitablara malik kitabxanalarla, geniş, gözəl binalarla təmin edilsə, daha faydalı olar. Pedaqoji məktəblərə ən bilikli və təcrübəli müəllimlər cəlb olunmalıdır. Müəllimləri dərslə çox yormamalı, başqa məktəblərdən azad edərək yalnız bir məktəbə təhkim etməli, maddi cəhətdən mümkün qədər yaxşı təmin olunmasına çalışılmalıdır. Müəllimin öz üzərində çalışmasını təşkil etməli və izləməli, pedaqoji məktəb və texnikumların bir qismi leyli (gecə-gündüz – red) olmalıdır. Bu məktəblərin yanında isə istinad məktəbləri yaradılmalıdır. Pedaqoji məktəblərdə ana dili və ədəbiyyat dərsləri ilk plana keçirilməli, hüsnxət, rəsm, musiqi fənlərinə diqqət yetirilməlidir. Yazı işləri və sinif mürəbbiliyi üçün əməkhaqqı artırılmalıdır. Pedaqoji

məktəblərin tədris proqramlarının hərtərəfliliyi və müasirliyi nəzərə alınmalıdır. Belə tədbirlərin həyata keçirilməsi pedaqoji təhsilin keyfiyyətcə yaxşılaşmasına güclü təsir göstərə bilərdi".

Vətənini, xalqını, doğma dilini məhəbbətlə sevən Abdulla Şaiq "Xatirələrim"də yazırdı: "Milli vicdan milli məktəblərdə doğar. Məktəb və müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir cocuğa bənzər ki, öz xeyir və şərini düşünə, dost və düşmənini fərq edə bilməz.

Cocuqlara özünü tanıdan, milli hisslərini, ruhlarını yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük bir məfkurə doğuran, gələcəkdə sevgili vətəni üçün ən dəyərli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan məktəblərdir. Məktəblər millətin nur və səadət çırağıdır. Bəli, iqrar etməliyik ki, indiyədək milli məktəblərimiz olmadığından xalqımız naminə heç bir şeyimiz yox idi".

Yazıçılığından artıq müəllimliyi ilə iftixar edən maarif fədaisi Abdulla Şaiq 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin bir-birinin ardınca mədəni tədbirlər həyata keçirdiyi bir zamanda məktəblərin milliləşməsi üçün ilk addımı atdı. Onun təşəbbüsü ilə bütün fənlərin rus dilində tədris edildiyi Bakı I realnı məktəbin nəzdində Azərbaycan dili üzrə üç aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı I realnı məktəbində bütün fənlərin Azərbaycan dilində tədris edildiyi bir sinif (üçüncü sinif) açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular. Ədib öz xatirələrində yazırdı ki, Cümhuriyyət dövründə siniflərin milliləşdirilməsi

ilə bilavasitə özü məşğul olmuş, valideynləri yığaraq onların bir-bir razılığını almış, çarizm havası ilə hərəkət edən bəzi rus pedaqoqları ilə mübarizə aparmışdır.

1923-cü ildə A.Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi təntənə ilə qeyd edilərkən onun çalışdığı gimnaziya "Şaiq nümunə məktəbi" adlandırıldı. Bu məktəbdə bütün dərslər Azərbaycan -türk dilində aparılırdı. Təzə açılan siniflərdə əsas müəllimlər A.Şaiq, Q.Rəşad, C.Cəbrayılbəyli, S.Quliyev və b. ziyalılar idilər. Lakin yeni yaranmış məktəb bir çox problemlərlə üzləşmişdir. Nə dərslik, nə də proqram tapılır, müəllim kadrları çatışmırdı. Seçilmiş heyət A.Şaiqin rəhbərliyi ilə şagirdlər üçün proqram və dərslik hazırlamağa başlamışdılar.

Tədqiqatçı alim, pedaqoq, Abdulla Şaiqin tələbəsi olmuş Lətif Hüseynzadə yazmışdır: "Bir çox fənlərdən dərsləri Türkiyədən gəlmiş müəllimlər deyirdi. Məktəbdə çatışmayan dərslikləri Türkiyədən gətirirdilər. Bütün bu çətinliklərə baxmayaraq, Abdulla Şaiqin rəhbərliyi ilə gənc, həvəskar müəllimlərin səyi və çalışqanlığı sayəsində siniflərdə dərs prosesi tərəqqi tapırdı. Sovet hakimiyyətinin ilk illərində məktəb iki yerə ayrılmışdı: aşağı şöbələr və siniflər-birinci dərəcəli doqquzuncu məktəb, üçüncü sinifdən etibarən isə-ikinci dərəcəli on ikinci məktəb adlandırıldı. Məktəbin direktoru Qafur Kantemir idi. Abdulla Şaiq ədəbiyyatdan dərs deyirdi. O dərin biliyə malik, öz peşəsinin vurğunu olan hərtərəfli bir şəxs idi. Uşaqlara böyük qayğı ilə yanaşır, onlarla davranışda çox nəzakətli olurdu. Şagirdlər ona ehtiramla

yanaşır, hörmət əlaməti olaraq "Mirzə” deyirdi”. 1923-cü ildə "Nümunə məktəbi”nin ilk buraxılışı olmuşdur. Həmin buraxılış gecəsində tələbə və müəllimlərin arzusunu nəzərə alan Maarif Komissarlığı və Baş Tərbiyə İctimaiyyə Dairəsi bir çox dolanbaclı yollardan keçib fəaliyyətini müvəffəqiyyətlə davam etdirən məktəbi "Şaiq Nümunə məktəbi" kimi davam etdirdi. 1918-ci ildə yaradılmış məktəb 10 il fəaliyyət göstərdi. Bu müddət ərzində məktəbdə sivilizasiyaya doğru inkişaf perspektivləri, əsrin əvvəllərində Azərbaycanın dirçəldilmə imkanları, milli şüurun sürətlə oyanma prosesi nəzərə alınaraq müstəqil və real milli təhsil siyasəti həyata keçdi və yeni müəllim kadrları da yetişib formalaşdı”.

1924-cü ildə nümunə məktəbini bitirən şagirdlər Azərbaycan maarifi tarixində ana dilində ilk orta təhsili alan şagirdlər oldular. Onlar gələcəkdə Azərbaycanda elm, mədəniyyət, ədəbiyyat sahələrində görkəmli yeri və xidmətləri olan ziyalılar idi. Sonralar Azərbaycan xalqının tarixi təkamülündə önəmli rol oynayacaq milli təfəkkürlü ziyalılar həmin məktəbin yetirmələri idi. Şaiq Nümunə Məktəbi mədəniyyət sahəsinə T.Ş.Simurq, R.Axundov, C.Cabbarlı, M.Müşfiq, B.Talıblı, S.Rüstəm, Niyazi, Ə.Bədəlbəyli, Ş.Bədəlbəyli kimi tanınmış şəxsiyyətlər bəxş etmişdir.

10 il fəaliyyət göstərən “Şaiq Nümunə Məktəbi”nin müəllim heyəti azərbaycanlı və İstanbuldan gələn müəllimlərdən ibarət idi. “Nümunə Məktəbi”nin məzunu, hazırda EA-nın müxbir üzvü M.Salehli söyləyir ki, bir çox fənlərdən dərsləri bizə Türkiyədən gəlmiş müəllimlər deyirdi.

Süleyman Hikmət tarixi, İsmayıl Həqqi fizikanı, Durmuş Əfəndi riyaziyyatı, Xəlil Fikrət psixologiyanı tədris edirdi. Yerdə qalan fənləri isə yerli müəllimlər aparırdılar. Mirzə Abdulla Şaiq, Feyzulla Qasımzadə ədəbiyyatı, Kərim Qazıyev riyaziyyatı, Qafur Rəşad Mirzəzadə, Camo Cəbrayılbəyli coğrafiyanı tədris edirdi" (M.Mürşüdlü. "Şaiq Nümunə Məktəbi. Azərbaycan məktəbi, № 5, səh.111-112).

"Diyorlar ki, müəllimlik sənəti xüsusi bir istedad və qabiliyyət məsələsidir. Bu sənətdə müvəffəqiyyət, bilxassə ruhdakı gözəlliyə tabedir. Şaiqin iyi bir müəllim və mürəbbi olacaq nə gözəl ruhu vardır. Şaiq tam mənası ilə məsləkini məfkureyi-ruhunda canlandırmış bir şəxsiyyətdir. O həyatın hər dürlü (hər cür - red) çirkinliklərindən, ifratdan, xəyanətdən, hiyləgərlikdən, yalançılıqdan, həsədçilikdən, kibr və qürurdan, xudbinlikdən, tənbəllikdən, xülasə gərək bir fərdin ruhunu və gərək bir cəmiyyətin yaşamaq qabiliyyətini məhv edən hər dürlü fənalıqlardan kəndisini mühafizə etmişdir. Biz bütün müəllimlər ruhən Şaiqə bənzəyə bilərsək, nə mutlu!" Bu sözləri Şaiq Nümunə Məktəbinin müəllimlərindən Türkiyədən gəlmiş görkəmli pedaqoq və psixoloq Xəlil Fikrət demişdir. Abdulla Şiq özü  də xatirələrində yazmışdır. Ədib xatirələrində yazmışdır: "Mənə: "Müəllimliyə sərf etdiyin vaxtı və enerjini yaradıcılığa sərf etmiş olsaydın, bu gün sənin daha kamil bədii əsərlərin olardı" deyənlər çox olmuş. Ancaq mən bu gün yazıçılığımdan ziyadə müəllimliyimlə iftixar edirəm" (A.Şaiq. Əsərləri. Vc., Bakı, Yazıçı, 1978, səh. 361).

Üzeyir Hacıbəyovun müəllim şəxsiyyətinə, müəllimin üzərinə düşən vəzifələrə dair fikirləri çox önəmlidir. O yazırdı: "**Müəllimin vəzifəsi çox çətin və məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar" .**

Göründüyü kimi, Üzeyir Hacıbəyov bu qənaətdədir ki, müəllim öz vəzifəsini yalnız təhsilalanlara bilik verməklə məhdudlaşdıra bilməz, o, cəmiyyət, xalq üçün, Vətən və ailələr üçün ləyaqətli vətəndaşlar yetişdirrməlidir.

Bütün bu vəzifələrin öhdəsindən isə müəllim-şagird, müəllim-tələbə münasibətlərini düzgün və yüksək səviyyədə qurulması ilə mümkündür.

Görkəmli bəstəkar Üzeyir Hacıbəyovun müəllim şəxsiyyətinə, müəllimin üzərinə düşən vəzifələrə dair fikirləri çox önəmlidir. O yazırdı: **"Müəllimin vəzifəsi çox çətin və məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar".**

Türkiyə Respublikasının və müasir Türk dövlətinin yaradıcısı Mustafa Kamal Atatürk müəllimlərin əməyinə və gördükləri işlərə böyük qiymət verirdi. Bu xüsusda o, yazırdı: "Milləti azad edənlər yalnız və yalnız müəllimlərdir.

Müəllimdən, maarifçidən məhrum bir millət hələ millət adını daşımağa layiq deyildir. Ona adi bir kütlə deyilir, millət deyilmir. Bir kütlə millət ola bilmək üçün mütləq maarifçilərə, müəllimlərə möhtacdır".

Dahi Atatürkün dediyi kimi, "Əsərinin üzərində imzası olmayan yeganə sənətkar müəllimdir". "Hər könüldə yeri olan" müəllimlərimiz qəlbimizdə əzəmətli taxt qurublar. Müəllim uşaqlığımızdan qocalanadək hər birimizin təfəkküründə saf, təmiz duyğulara malik bir şəxsiyyət kimi qalmaqdadır.

**Müəllimlik peşəsi** yaranan vaxtdan müəllimin necə olması, onun hansı keyfiyyətlərə malik olması haqqında xeyli fikirlər, mülahizələr daim söylənmişdir.

Vaxtilə müəllim peşəsini kahinlər yerinə yetirmişlər. Bunun üçün xüsusi kahin məktəbləri olmuşdur. Pifaqor da belə kahin məktəbini qurtarmışdır. Sonradan bu vəzifəni, yəni uşaqların təlim-tərbiyəsilə məşğul olmaq vəzifəsini müəllimlər yerinə yetirmişlər.

Aristotel "Afina siyasəti" əsərində göstərirdi ki, Afina müəllimləri təntənəli mərasimlərdə seçilirdilər. Bu müəllimlər gəncləri fiziki cəhətdən möhkəm hazırlamalı və onları əxlaqi cəhətdən kamilləşdirərək onlarda sinfi borca sədaqət, intizamlılıq, dövləti idarə etməyə hazırlıq kimi keyfiyyətlər formalaşdırmalı idilər. Müəllim - tərbiyəçi vəzifəsinə seçilənlər dövlətin taleyinin onlara tapşırılması üçün fəxr edirdilər ki, dövlətin taleyi gənc nəslin siyasi, əxlaqi, fiziki hazırlığı onlardan asılıdır.

Böyük yunan filosofu Platondan soruşurlar: "Sən atanı,

yoxsa müəllimini çox istəyirsən?" O, "Müəllimimi", - deyə cavab verir. "Çünki atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı" - demişdir.

Roma pedaqoqları arasında çox istedadlı, savadlı qədim fəlsəfəni bilən adamlar var idi. Məşhur Roma alimi M.F.Kvintilian öz pedaqoji təcrübəsini və müəllimin tərbiyə işində yerini nəzəri cəhətdən ümumiləşdirməyə çalışmışdır. O "Natiqin tərbiyəsi haqqında" əsərində yazmışdır ki, müəllim yalnız yüksək təhsilli, bilikli olmaqla bərabər, uşaqları sevən və onları başa düşən bir adam olmalıdır.

M.F.Kvintilanın pedaqoji mülahizələri müəllim və tərbiyəçinin mənəvi aləmini əks etdirən ilk əsərlərdən biridir. Bu onu göstərir ki, ilk təlim-tərbiyə müəssisələrində belə gənc nəslin yetişməsində müəllim peşəsinə və müəllim-şagird münasibətlərinə verilən tələblər diqqət mərkəzində durmuşdur. Avropa pedaqoq və folosoflarından Roma pedaqoqu **Kvintilian** müəllimi yüksək təhsilli, təmkinli nümunəvi şəxs hesab etmişdir. O yazırdı ki, müəllim uşaqları sevməli, onları diqqətlə öyrənməli, mükafat və cəzanı düzgün tətbiq etməyi bacarmalıdır.

Qədim Yunanıstanda və Romada fəlsəfi məktəblərdə əxlaq ayrıca bir fənn kimi keçilmiş və digər fənlərin də əsasını əxlaq təşkil etmişdir. Quldarlıq dövründə pedaqoji peşə fəaliyyətini təşkil edən tərbiyəçi şəxsiyyətinə verilən tələblər araşdırılmağa başlanmışdır.

Orta əsrlərdə, yetkin feodalizm və kapitalizmə keçid dövründə iqtisadi inkişafın yeni yüksəlişi ilə əlaqədar təlim-

tərbiyə həyatın tələblərinə cavab vermirdi. Bu zaman xüsusi təlim müəssisələri yaradılırdı ki, burada müəllim kadrları hazırlamağa başlamışlar. Gələcəkdə müəllimlərə burada daha çox təlqin edilirdi ki, məktəbdə təlim-tərbiyənin uğuru ciddiyyətdir və tənbəl, sözə baxmayan uşaqları cəzalandırmaqla tərbiyələndirmək lazımdır.

Universiteti bitirən gənc müəllimlərə "Palm" adlanan, ucunda kiçik disk olan çubuq verilirdi ki, onun vasitəsilə uşaqların əllərinə vuraraq intizamı möhkəmləndirirdilər. Buraxılış imtahan komissiyasına müəllim bu tərbiyə vasitəsindən necə istifadə edəcəyini nümayiş etdirməli idi.

Pedaqogika elminin banisi XVII əsrdə yaşamış dahi çex pedaqoqu **Y.A. Komenski** müəllimə münasibətdə, müəllim haqqında söylədiyi fikirlərdə byük bir humanizm, insanpərvərlik, insan şəxsiyyətinə böyük hörmət vardır. **Y.A.Komenski müəllimi işıq saçan Günəşə, dadlı meyvələr yetişdirən bağbana, dəyərli yazılar yazan yazıçıya, qiymətli əsər yaradan rəssama bənzədir və müəllimlərin şagirdlərlə nəzakətlə davranmalarına böyük qiymət verirdi.**

Komenski göstərirdi ki, müəllimlərdə bir ata qayğısı, ata məsləhəti olmalıdır. O deyirdi, **"Sən ata kimi ola bilmirsənsə, müəllim kimi ola bilməzsən".**

Komenski yazırdı ki, müəllimlər şagirdlərin qəlbini sərt ifadələrlə sındırmasalar, onları atalıq məhəbbəti, nəvazişi və nəsihətlərlə özlərinə cəlb etsələr, keçdikləri məşğələlərin xoş və acan olduğunu onlara bildirsələr, ən çalışqan şagirdləri həvəsləndirsələr, uşaqlara şəfqətli münasibət göstərsələr

onlarda biliyə həvəs oyanar, uşaqlar məktəbə gəlməyə evdə qalmaqdan daha çox həvəs göstərərlər.

Y.A.Komenskinin pedaqoji fikirləri içərisində müəllim haqqındakı fikirləri bu gün də mühüm əhəmiyyət kəsb edir. O göstərirdi ki, öz peşəsini, tədris etdiyi fənni sevməyən müəllim cisimsiz kölgə, yağışsız bulud, işıqsız çıraqdır. Elmini, tədris etdiyi fənni sevən, daim çalışan müəllim öz kökü üzərində bitən, öz şirəsi ilə bəslənən və buna görə daim artan, yaşıllaşan, çiçəklənən, bəhrə verən ağacdır. Yaxşı müəllim uşaqların şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır. Müəllim əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə gümrahlıq və əməksevərliyin, davranışda təvazökarlıq və susmaq sənətinin nümunəsi, ictimai həyatda ağıllılığın örnəyi olmalıdır. Burada səslənən — Yaxşı müəllim uşaqların şüurunu başqa çaylardan axıdılan sularla deyil, məktəblinin şüurunda gizlənmiş idrak bulağını açıb, onun suyu ilə sulayır- cümləsinə xüsusi diqqət yetirsək görərik ki, böyük pedaqoq çox irəli gedərək məhz bu gün müəllimin qarşısında duran – şagirdlərin potensial imkanlarını üzə çıxarmaqla onların təfəkkürünü və təxəyyülünü inkişaf etdirmək tələbini irəli sürmüşdür.

Böyük alman pedaqoqu "Müəllimlər müəllimi" adını almış **Adolf Disterveq** deyirdi ki, yaxşı dərs deyən müəllim, yaxşı da tərbiyə etməlidir. O müəllimi bütün maşını hərəkətə gətiərn qüvvənin mənbəyi hesab edir və deyirdi ki, müəllim bu maşına can və hərəkət verməyi bacarmalıdır. O müəllimlərə məsləhət verirdi ki, uşaqların başını biliklə doldurmasınlar,

sobanı da ağzıan qədər  doldursan o yanmaz,  tüstüləyər, uşaqlara düşünməyi öyrətməli, fikirləri deyil fikirləşməyi öyrətmək lazımdır.

Böyük pedaqoq **Uşinski K.D**. yazırdı ki, əgər biz həkimlərə sağlamlımızı etibar ediriksə, müəllimlərə uşaq-alrımızın əxlaqını ağlını, ruhunu və  bütün bunlarla bərabər öz vətənimzin, millətimizin  gələcəyini etibar edirik.

K.D.Uşinski yazırdı ki, " müəllim şəxsiyyətinin gənc ruha təsiri elə tərbiyəvi qüvvədir ki, onu nə dərslik, nə əxlaq normaları, nə də cəza və mükafatlar sistemi əvəz edə bilməz". Bəs, müəllim kimdir? O, heç bir halda təkcə "dərsverən" deyil. O, həm də tərbiyəçi, yolgöstərən və dost, yoldaşdır. Şagirdin qabiliyyət, bacarıq və istedadının oyanmasında və inkişafında müəllim şəxsiyyətinin, onun mənəvi, daxili aləminin rolu hədsiz dərəcədə böyükdür.

K.D. Uşinski müəllimin daim oxuyub öyrənməsini tələb edir və deyirdi: "Müəllim o vaxtacan yaşayır ki, oxuyur, öyrənir, müəllim oxumağını, öyrənməyini dayandırdıqda ondakı müəllimlik ölür".

Görkəmli yazıçı **L.N.Tolstoya** görə öz işini sevən müəllim yaxşı müəllimdir, bununla yanaşı uşaqları və fənnini sevən müəllim əsil müəllimdir.

Göründüyü kimi müəllimlik peşəsi çox şərəfli və hörmətli peşədir və bu peşənin sahibləri də ən hörmətli, ən şərəfli şəxslərdir.

# IV. AZƏRBAYCAN PEDAQOJİ KADRLARININ HAZIRLIĞINDA QORİ MÜƏLLİMLƏR SEMİNARİYASININ VƏ İRƏVAN PEDAQOJİ MÜHİTİNİN ROLU

## 1. AZƏRBAYCAN PEDAQOJİ KADRLARININ HAZIRLIĞINDA QORİ MÜƏLLİMLƏR SEMİNARİYASININ ROLU

Qori Müəllimlər Seminariyası Azərbaycan müəllim kadrlarının hazırlanmasında çox böyük xidmətlər göstərmiş və Azərbaycna təhsilinin inkişafında mühüm xidmətlər göstərmişlər.

1875-ci il aprelin 8-də Qafqaz Müəllimlər Seminariyasının "Əsasnaməsi"ndəki bir qeyddə deyilirdi ki, müsəlmanlar xüsusi müsəlman müəllim məktəbi açılana kimi bu seminariyaya və onun nəzdindəki məktəbə daxil ola bilərlər.

Qori Müəllimlər Seminariyası ibtidai siniflər üçün müəllim kadrları hazırlamaq məqsədi daşımasına baxmayaraq, Qori Seminariyasının çar Rusiyası dövründə Azərbaycana verdiyi kadrları Rusiya imperiyası dövründə heç bir ali təhsil ocağı verməmişdir. Qori Seminariyasını bitirən nəsil Azərbaycan maarif və mədəniyyətinin, təhsilinin və tərəqqisinin inkişafında müstəsna rol oynamşdır. Seminariyanın məzunları millətimizin azadlıq və istiqlaliyyəti uğrunda apardığı mübarizəsinin önündə getmişlər. Ümumi təhsil rus dilində olsa da, hər millətin öz ana dilini və şəriət dərsini ayrıca keçirdilər, eyni

zamanda dünyəvi fənlər tədris edilir və buradan xalqımız üçün milli ruhlu, vətənpərvər pedaqoji kadrlar yetişmişdir.

Seminariyanın Azərbaycan şöbəsi təxminən 40 illik fəaliyyəti dövründə Azərbaycan məktəbləri üçün 300-dən artıq müəllim kadrları hazırlamışdır. Bu məzunlar Azərbaycanın müxtəlif guşələrindən buraya gələrək təhsillərini başa vurmuş, öz yurdlarına dönərək xalqın maariflənməsində, tərəqqi etməsində, təhsilin inkişafında faydalı işlər görmüşlər. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi,

**"Qori Müəllimlər Seminariyası möhtəşəm təhsil məbədi olaraq özündən sonra  böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir".**

Seminariyada 1879 – cu ildə Azərbaycan şöbəsinin açılması çətinliklə də olsa, təsdiqlənəndən sonra seminariyanın direktoru Dmitri Dmitriyeviç Semyonov Azərbaycan şöbəsinin inspektoru A.O.Çernyayevskini yanına çağıraraq ümidsizcəsinə deyir ki, şöbə açılsa da, ərizə verən çox azdı, belə getsə, şöbəni bağlayacağılq. Aleksey Osipoviç isə ümidini üzmür və şöbənin açılması üçün axtarışa çıxır. O, İrəvanda, Naxçıvanda, Gəncədə, Şuşada, Şamaxıda, Qubada, Dərbənddə olur, qapı-qapı gəzib qəza mərkəzlərində seminariyaya uşaq toplayırdı.

Xalqımızın maarif işığını yandıran böyük ziyalı Firidun bəy Köçərli sonralar yazırdı: "Qori Seminariyasının Azərbaycan şöbəsində yaxşı və diqqətəlayiq nə vardısa, hamısı Çernyayevskinin adı ilə bağlıdır. Çernyayevskinin "Vətən dili" dərsliyi bizim məktəblərdə tamam yeni bir dövr açdı". Çernyayevski "Vətən dili" dərsliyində bir pedaqoq kimi ən yararlı

materialları seçmiş, atalar sözündən, tapmacalardan, zərb-məsəllərdən istifadə etmiş və seçdiyi materialları canlı uşaq dilində düzəldib təqdim etmişdir. Bu kitab təkcə seminariyada deyil, ölkənin bütün qəzalarında ibtidai rus-Azərbaycan məktəblərində geniş tədris olunurdu. Çernyayevski kitabı tələbəsi Rəşid bəy Əfəndiyevin xətti ilə daş basmasında nəşr etdirmişdi.

Çox keçmədən Şuşadan Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Məmmədbəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Şəkidən Rəşid bəy Əfəndiyev Çernyayevskinin ümidlərini doğrultdular və onun işini davam etdirdilər. Bu gənclər özlərindən sonra gələnlərin yolunu işıqlandırmaq üçün çətin bir yola çıxdılar. Azərbaycanlı tələbələr bilikləri qavramaqları, gözəl əxlaqları və yüksək mədəniyyətləri ilə seminariyanın xristian tələbə və müəllimlərini heyrətə salmışdılar. Firudin bəy Köçərli tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi. Sonralar Saleh bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etdilər. Rus, fars və ərəb dillərini yaxşı bilən tələbə **Səfərəli bəy Vəlibəyov** isə "Xəzineyi-əxbar" adlı ensiklopedik kitab tərtib etmişdi. İlk buraxılışda təhsilini əla qiymətlərlə bitirdiyinə görə Seminariya Şurası Səfərəli bəy Vəlibəyovu 1881-ci ildə seminariyada ana dili müəllimi kimi saxlamışdı.

Seminariyadan məzun olan **Firudin bəy Köçərli** İrəvan gimnaziyasına, Teymur bəy Bayraməlibəyov Lənkərana, Cəlil

Məmmədquluzadə Uluxanlı məktəbinə, Mirzə Əli Məhəmməd isə Naxçıvana ibtidai rus-tatar məktəbinə müəllim göndərildilər. Rəşid bəy Əfəndiyev isə Şəki qəzasının Qutqaşen kəndinə məktəb müdiri kimi göndərildi.

Seminariyanın tələbələri şəriət, rus dili, hesab, tarix, ədəbiyyat, rəsm, həndəsə, Azərbaycan dili fənlərini öyrənməklə bərabər, musiqi və idmanla da məşğul olurdular. Seminaristlər bostançılığı, bağçılığı, ipəkçiliyi, əkinçiliyi və arıçılığı da öyrənirdilər. Seminariyada teatr tamaşaları, kitab müzakirələri, təntənəli gecə və səhnəciklərin təşkil edilməsi, digər məktəblərdə oxuyan qızlarla birlikdə keçirilən tədbirlər semnaristlərin formalaşmasında mühüm rol oynayırdı. Seminariyada şagirdlərin və tələbələrin səliqəli, nəzakətli, özünə və başqalarına qarşı diqqətli olmaq kimi etik qaydalara riayət etmələrinə xüsusi fikir verilirdi.

Ümumiyyətlə Qori Müəllimlər Seminariyasının məzunları Qafqazda, Azərbaycanda, o cümlədən Naxçıvanda elmin maarif və mədəniyyətin tərəqqisinə xeyli kömək etmiş, yeni məktəblər açmış, qəzet və jurnallar buraxmış, mütərəqqi ideyaları təbliğ etmiş, dərslik və dərs vəsaitləri yazmış, qadınları təhsilə cəlb etmiş, savadsızlığı ləğv etmiş, teatr tamaşaları vermiş, aktyor və rejissor kimi fəaliyyət göstərmişlər.

Qori Müəllimlər Seminariyası xüsusilə azərbaycanlıları cəlb edirdi, çünki ümumi qaydalardan fərqli olaraq, bu məktəbdə "Zaqafqaziya tatarlarından", yə'ni azərbaycanlılardan müəllimlər hazırlamaq üçün xüsusi pansionu olan

“tatar şö'bəsi” var idi. Buna görə də seminariyaya girmək istəyənlər arasında azərbaycanlı gənclər çox olurdu, onların arasında da qarabağlılar və qazaxlılar əksəriyyət təşkil edirdi.

Seminariyaya girmək istəyənlər tibbi müayinədən keçirdilər, qəbul imtahanları sonra başlayacaqdı. Hər kəsə seminariyaya girmək nəsib olmurdu: imtahanlar o qədər də asan deyildi, arzu edənlərdən bir çoxu geri, evə qayıdırdı, imtahan verənlər isə məktəbə qəbul olunurdular: azərbaycanlılar aşağı hazırlıq siniflərinə, ruslar, gürcülər və digərləri isə yuxarı hazırlıq siniflərinə daxil olurdular. Qəbul olunanlar dövlətin hesabına keçirdilər. Beş il burada oxuduqdan sonra onlar ibtidai xalq məktəblərində beş il məcburi müəllimlik etməli idilər, yə'ni hər təhsil ili üçün bir il məcburi qulluq nəzərdə tutulmuşdu.

Qori Müəllimlər Seminariyasında müəllim kadrlarının hazırlığında onların hərtərəfli inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilirdi. Burada ibtidai siniflər üçün müəllim hazırlamaqla musiqi, təbiət elmləri, riyaziyyat, rus dili, şəriət dərsləri, məişət məsələləri, davranış və intizam və s. məsələlər də ətraflı öyrədilirdi. Bu məktəbin ibtidai siniflər üçün kadrlar hazırlamaq məqsədi daşımasına baxmayaraq, Qori Seminariyasının çar Rusiyası dövründə Azərbaycana verdiyi kadrları Rusiya imperiyası dövründə heç bir ali təhsil ocağı verməmişdir. Görkəmli ədəbiyyatşünas alim, professor, Əziz Şərif yazırdı: “Çar Rusiyasında heç bir təhsil ocağı Qori Müəllimlər Seminariyası qədər Azərbaycana mədəniyyət xadimi verməmişdir”. Qori Seminariyasını bitirən nəsil

Azərbaycan mədəniyyətinin, maarifinin, təhsilinin və tərəqqisinin inkişafında müstəsna rol oynadılar, millətimizin azadlıq və istiqlaliyyəti uğrunda apardığı mübarizəsinin önündə getdilər.

Rus çarizmi bu seminariya vasitəsilə Qafqaz xalqlarında, əyalətlərdə özünə xidmət göstərən "sədaqətli şəxsiyyətlər" yetişdirmək planı yeridirdi ki, burada da yerli xalqların müqavimətinə rast gəlirdi. Qori seminariyasında təhsil alan azərbaycanlıların əksəriyyəti milli ruha sıx bağlı gənclər idilər. Seminariya rəhbərlərinin heç də xoşuna gəlməsə də buranın azərbaycanlı məzunları özlərinin milli-mənəvi dəyərlərini qorumaq və yaşatmaq qətiyyəti ilə seçilirdilər. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Cəlil Məmmədquluzadə, Səfərəli bəy Vəlibəyov kimi milli ruhlu tanınmış maarif və mədəniyyət xadimləri xalqın maariflənməsinə çalışır, ana dilində təhsil alamaları uğrunda mübarizə aparır, ana dilində dərsliklər, dərs vəsaitləri çap etdirməyi nəzərdə tuturdular. Dahi bəstəkar, ədib və pedaqoq, böyük ziyalı Qori Müəllimlər Seminariyasının məzunu Üzeyir Hacıbəyov hələ seminariyada oxuduğu vaxtlarda milli ruhlu məqalələr, bədii parçalar, esseler yazır, musiqi bəstələyirdi. O, Qori seminariyasında oxuduğu illəri xatırlayaraq yazır: "Mən seminariyanın ikinci klasında idim ki, il yarımdan sonra müəllim olacaqdım. Yazı imtahanı olmaq üzrə "Mən gələcəkdə nə iş görəcəyəm" sərlövhəsi təhtində bir məqalə yazmağı bizə əmr etdilər. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm. Bunun üçün osmanlı və rus

kitablarından istifadə edib, hesab, coğrafiya və sair elmləri öz dilimizə tərcümə edəcəyəm. Mənim bu fikrim direktorun xoşuna gəlməmişdi. Məni çağırıb dedi: "Müəllimlər sənin yazdığına üç nömrəsi qoyubdular, amma mən 2 qoyuram. Çünki qanmıram ki, sən nə deyirsən" .

Gələcəkdə ana dilində dərslik dərc etdirmək istəyən Üzeyirin bu arzusu müəllimlərə xoş təsir bağışlaya bilməzdi. Buna görə də onun yazısına "üç" qiymət vermişdilər. Hətta "Ana dilində danışdığı üçün..." ona töhmət də elan etmişdilər.

Üzeyir bəy ana dilini bilməklə yanaşı, rus, ərəb, fars, türk, tatar, gürcü, ləzgi dillərinə də yiyələnmişdir. Bunu onun şəxsi kitabxanasından da aydın görmək olar. Burada müxtəlif dillərdə nəşr edilmiş kitablara rast gəlmək mümkündür. Bu da Üzeyir bəyin bir neçə dil bilməsinin bariz sübutudur.

"...Məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm. Bunun üçün osmanlı və rus kitablarından istifadə edib, hesab, coğrafiya və sair elmləri öz dilimizə tərcümə edəcəyəm...". Üzeyir bəy verdiyi sözə əməl etdi. O, xalqın maariflənməsi üçün 1907-ci ildə "Rus-tatar və tatar-rus siyasi, hüquqi, hərbi və digər sistemlərdən olan terminlər lüğəti"ni, milli məktəblərdə dərsliklərin çatmadığına görə 1908-ci ildə Komarovun tərtib etdiyi "Hesab" dərsliyi əsasında azərbaycan dilində "Hesab məsələləri" adlı dərsliyini tərtib etmişdir. Üzeyir Hacıbəyov xalqımızın musiqi mədəniyyətinin inkişafında yeni mərhələ açmış, Azərbaycan milli operasının banisi olmaqla, dünya mədəniyyəti xəzinəsini parlaq incilərlə zənginləşdirmişdir.

Seminariaynı 40 il müddətində 300- ə qədər məzun bitirmişdir. Biz bacardıqca onların adlarını topladıq, tədqiqatçılar və maraqlananlar üçün faydalı olduğunu nəzərə alaraq onlarını adlarını burada çəkirik:

Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov, Müslüm Maqomayev, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə, Süleyman Sani Axundov, Firudin Bəy Köçərli, Rəşid Bəy Əfəndiyev, Mahmud Bəy Mahmudbəyov, Fərhad Ağazadə, Hacı Kərim Sanılı, Rəhim Qulubəyov, Həşim bəy Nərimanbəyov, Ələsgər Şeyxhəsənov, Mirzə Əbülqasım Sultanov, Rəhim Kazımbəyov, Heydər Muradhasilov, Kərimbəy İsmayılzadə, Mirzə Məhəmməd Zamanbəyli, Hüseyn Həsənzadə, Şəhriyar Qiyasbəyov, Xəlil Hacılarov, İbrahimxan Hacılarov, Hüseyn Həsənzadə, Ələkbər Abbasov (Ələkbər Qərib), Şeyx Hüseyn Ələkbərov, Teymur bəy Bayraməlibəyov, Bəhmənbəy Köçərlinski, Həşim Nərimanbəyov, Əli Cəbrayılov, Cəlil Vəzirov, Ağaəli Qasımov, Yusif Qasımov, Əsədulla Bəy Muradxanov, Feyzulla bəy Muradxanov, Əhməd ağa Mustafayev, İsa Abakarov, Musa Quliyev, Əsgər Eyvazov, Cavad Cuvarlinski, Həsənbəy Axundov, Əlişbəy Tahirov, Əhməd Seyidov, Hüseyn Xəlilov, Qəzənfər Qəniyev, Yasin Miralıyev, Hüseyn Paşayev, Həsən Mirzəyev, Məmməd Qocayev, Xosrov Şirinbəyov, Əliş Səfiyev, Lətif Şahməmmədbəyov, Hacıbala Süleymanov, Nurməmməd bəy Şahsuvarov, Əli Hüseynov, Rzaqulu Şadlinski, Səməd bəy Acalov, Azad bəy Əmirov, Müseyib İlyasov, Osman Əfəndiyev, Əli Qəmərlinski, Bədəl Bəy Bədəlbəyov, Fərəc Bəy Sultanov, İsmayıl Bəy

Şəfibəyov, Hacı Baba Zamanov, Mirzə Ələsgər Şeyxhəsənov, Məmməd Pepinov, Qasım Qasımov, Mustafa Mahmudov, Əsgər Eyvazov, Məmmədhəsən Əfəndiyev, Rəhim Qulubəyov, Musa Quliyev, Əli Mustafayev, Cavad Cuvarlinski, Zəkəriyyə Vəkilov, Ağaəli Qasımov, Rəcəb Əfəndiyev, Teymur Hüseynov, İsmayıl Qayıbov, Məmməd Qocayev, Məmmədkərim Mustafayev, Hüseyn Xəlilov, Əhməd Gülməmmədov, Şəhriyar bəy Qiyasbəyli, Nəsib bəy Qiyasbəyli, Məmməd Qarayev, Səlim Əfəndiyev, Həmzət Əfəndiyev, İsfəndiyar Əfəndiyev, Zəkəriyyə bəy Aslanov, Əlirza Rasizadə (Hüseyn Cavidin qardaşı), Məhəmmədəli Sidqi Səfərov (Məhəmməd Tağı Sidqinin oğlu), Əli Səbri Qasımov, Səməd Muradov, Əhməd ağa Gülməmmədov, Cəlil Fətəlibəyov, Hüseyn Sadıxbəyov, Müseyib bəy Quliyev, Məmməd Qocayev, Məmmədkərim Mustafayev, Səlim Əfəndiyev, Həmzət Əfəndiyev, İsfəndiyar Əfəndiyev Mustafa Mahmudov, Pənah Qasımov, Alyoşa Mustafayev, Məmməd Qarayev, Xudabaxış, Fərhad, Bala, Cəfərqulu, Abdulla, Xanbaba və Qeybəli Sultanovlar, Əli və Məiş Hüseynovlar, Əlış və Məmməd Tahirovlar, Rəcəb, Baba, Əbdüləli, Əbdülkərim, Səfərəlı bəy Vəlibəyovlar, Həmid, Yusif, Osman, Dadaş və Talıb Məmmədovlar, Şükür, Soltan, Həsən, Hüseyn, Məmmədhəsən, İsmayıl, Mustafa, Məmməd, Yusif, Əbdüləlibəy və Məmməd bəy, Osman bəy Əfəndiyevlər, Əhməd Əfəndi, Məhəmməd ağa, Zəkəriyyə, İsfəndiyar və Vəkil Vəkilovlar, Süleyman bəy və Muradxan Məlikyeqanovlar, Hüseyn və Abbas Minasazovlar, Hənəfi, İsmayıl, Əli, Adilqirey və İslam Terequlovlar, Əli, Məmmədkərim, Həmid və Əhməd

Ağa Mustafayevlər, Əhməd, Osman, Süleyman, Rəhimbəy, İsmayıl, Qayıbovlar, Şəhriyar, İbrahim, Nəsibağa, Tahir, Muxtar, Həsən, Mansur, Xəlilbəy, Ağalarbəy və Mahmudağa Qiyasbəyovlar, Rəhim bəy, Əli bəy, İbrahimağa, Mamay, Cahangir, Məmmədağa və Vəliağa Şıxlınskilər və başqa bu kimi görkəmli məzunları olmuş, onlar xalqa, vətənə layiqincə xidmət etmişlər.

Qori Müəllimlər Seminariyasının məzunlarından olan **Əhməd ağa Mustafayev, Əhməd Seyidov, Haley bəy Şıxlınski, Süleyman Qayıbov, Yusif Əfəndiyev, Əhməd ağa Gülməmmədov, Alyoşa Mustafayev, Osman Şıxlinski, Səlim Əfəndiyev, Yusif Qasımov, Əli Hüseynov, İbrahim Qayıbov** və bir çox başqaları Qazax Seminariyasında pedaqoji fəaliyyətə cəlb olunmuşdular. Bunlarla bərabər həmçinin görkəmli pedaqoq müəllimlər, tanınmış ziyalılar, şairlər pedaqoji fəaliyyət göstərmək üçün Qazax Müəllimlər Seminariyasına dəvət olunmuşdular ki, bunlardan **Səməd Vurğun, Osman Sarıvəlli, Möhsün Poladov, Hacıbala Hacıyev, Əhməd Əhmədov, Osman Cəfərov, Əhməd Qaravəliyev, Yusif Yusifov, Zülfüqar Qayıbov, Alı Aliyev, Hüseyn Çəndirli, İsmayıl Şıxlı, Əli Zeynalov** və başqalarını göstərmək olar ki onlar fədakarlıqla Azərbaycanlı pedaqoji kadrların hazırlanmasında görkəmli xidmətlər göstərmişlər.

Qazax Müəllimlər Seminariyası 1918-ci il noyabrın 10-da müstəqil seminariya kimi fəaliyyətə başlamışdır.

Firudin Bəy Köçərli öz hərtərəfli, geniş və fədakar əməyi ilə Azərbaycan maarif və mədəniyyətininin, məktəb və pedaqoji fikriinin inkişafında silinməz izlər qoymuşdur.

**Sultan Məcid Qənizadənin** fiкrincə **"Müəllimliк dünyanın ən nəcib peşələrindən biri, bəlкə də birincisidir. Bağ bağbansız кeçinə bilmədiyi кimi bəşəriyyət də müəllimsiz кeçinə bilməz".**

**Sultan Məcid Qənizadə** müəllimliyə başladığı ilk gündən həyatını və yaradıcılığını millətinin oyanışına, tərəqqisinə, təhsilinə və işıqlı gələcəyə sahib durmasına bağlamışdı. Bir çox həmkarından fərqli olaraq Sultan Məcid Qənizadə yaradıcılığında da, pedaqoji fəaliyyətində də insanları mənəviyyata, əxlaqa çağırırdı. Qənizadə dünyəvi elmləri yorulmadan təbliğ etməklə yanaşı, hər kəsi insan olmağa, insaniyyətə, milliyyətə, Vətənə xidmətə səsləyərdi. O, bütün ibrətamiz öyüdlərində vətəndaş olduğunu, Vətənə bağlılığını ifadə edirdi.

S.M.Qənizadə təkcə dərsliklər tərtib etməklə kifayətlənməmiş, həm də şagirdlər üçün sinifdənxarıc oxu kitabları da tərtib etmiş və öz dostlarını da bu işə cəlb etmişdir. Təzəcə açılmış yeni tipli məktəbdə şagirdlərin yaş səviyyəsinə uyğun, sağlam məfkurəli oxu kitabları yox idi. S.Qənizadə belə bir vəziyyətin qarşısını almaq, şagirdləri sağlam məfkurəli ədəbiyyatla qidalandırmaq, onları birinci növbədə, mütərəqqi rus mədəniyyəti ilə tanış etmək məqsədi ilə "Nübar", "Cəmi-mərifət", "Çıraq" və N.Nərimanovla birlikdə "Sovqat" adlı uşaq qəzet və curnalları nəşr etməyə təşəbbüs göstərmişdir.

Lakin S.M.Qənizadənin bu nəcib səyi çar senzurasına xoş gəlməmiş, onun bu təşəbbüsləri rədd edilmişdir .

S.M.Qənizadənin pedaqoji fikirlərində mərkəzi yerlərdən birini müəllim məsələsi tutur. Bu fikirlər onun bir sıra bədii əsərlərində, xüsusilə "Müəllimlər iftixarı"nda öz əksini tapmışdır. S.M.Qənizadə tərbiyə işinin müvəffəqiyyətlə aparılmasında müəllimin bacarığını, istedadını yüksək qiymətləndirirdi. O, deyirdi ki, "Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilirsə, yaxşı müəllim kəctab millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər".

S.Qənizadə parta arxasında oturan körpə uşaqların arasında sabahın yaradıcılarını görür və onların düzgün tərbiyə olunmasını tələb edirdi. Onun fikrincə, müəllimin nəsihəti, tərbiyəsi hər cür bahalı şeylərdən, məsələn, qızıl həmayildən və mirvari kəlübənddən qiymətlidir. Çünki onlar sinə və gərdən zinəti ikən, bu, ruh və can nicatı üçündür.

**Çünкi millətin tərəqqisi məкtəblə, məкtəbin tərəqisi isə müəllimlə bağlıdır (N.Nərimanov).**

Nəriman Nərimanovun pedaqoji irsində mərkəzi yerlərdən birini müəllim, onun şəxsiyyəti, müəllim kadrlarının hazırlığı məsələsi tutur. N.Nərimanov xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirmişdi. O, müəllim sözünü geniş mənada başa düşür, müəllimin geniş xalq kütlələri arasında işinə, ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi. N.Nərimanov xalqın mədəni tərəqqisinə çalışan müəllimlərin işini yüksək qiymətləndirdiyi kimi, xalqın ictimai və mədəni yüksəlişi üçün

çalışmayan müəllimləri tənqid edir və onları "çinovnik" adlandırırdı. Onun müəllimdən tələb etdiyi keyfiyyətlərdən biri, pedaqogikanı, təlim və tərbiyənin prinsip və üsullarını, psixologiyanı bilməsi və ona istinad etməsidir. O deyirdi: **Müəllim "Universitet nişanı" ilə deyil, əməli-pedaqoji fəaliyyəti ilə özünü göstərməli və fərqlənməlidir – görüşündə olan Nərimanov yazır ki, hər bir müəllim pedaqogikanı, təlim və tərbiyənin prinsip və üsullarını, psixologiyanı yaxşı bilməlidir.** Müəllim əgər bunları bilərsə o, şagirdlərin fərdi xüsusiyyətlərinə istinad etməyi bacarar, həmçinin, təlim və tərbiyə işində uğur əldə edə bilər.Çünki "...hər uşağın özünə görə bir qeyri xasiyyəti, təbiəti olmağı binaən hamıya bir qayda və qanun ilə dərs vermək, hamıya bir dildə bəyan etmək olmaz.Hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası zehinli, bir parası zehinsiz, fəhmsiz, bir parasının qüvveyi-hafizəsi qüvvətli, bir parasınınki naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mühafızə edər, hər kəsin öz biliyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eyibinə görə çarə taparsa, əlbəttə, təlim və tərbiyə düz yol ilə gedib, tərəqqi əla dərəcəsinə çatar".

Məlum olduğu kimi, Sovet hakimiyyətinə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi məktəb yox idi. Bütün Zaqafqaziya üzrə müəllim kadrları hazırlayan yalnız Qori Müəllimlər Seminariyası idi. Bu seminariyanın Azərbaycan şöbəsinin müəllim kadrı hazırlığında xüsusi rolu

olmasına baxmayaraq, xalqın daim artan tələbini ödəmirdi. Qori seminariyasının Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsini məqsədəmüvafiq hesab edən N.Nərimanov çox düzgün və əməli əhəmiyyəti olan təkliflər irəli sürdü. O yazırdı: "Açıq deməli, Qori darülmüəllimin Bakıda, ya Gəncədə və ya qeyri-müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində olarkən seminariyada elm təhsil etməyə mümkünləri olacaqdır. Yəni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub axşamlar öz evlərinə gedərlər...". 1919-cu ildə Həştərxan Quberniya Xalq Maarif Şöbəsinin müdiri vəzifəsində işləyərkən mövcud şəraiti nəzərə alan N.Nərimanov qısamüddətli pedaqoji kurslar vasitəsilə yüzlərlə müəllim hazırlanmasını təşkil etmişdir. Azərbaycanda ilk pedaqoji institut yaradılması və təsis edilməsi N.Nərimanovun adı ilə bağlıdır.

N.Nərimanov belə hesab edirdi ki, müəllimlərdən təlim alan gənclər, ilk növbədə, əməksevər olmalıdırlar. 1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibətilə yazdığı "Elmlərini yeni tamam etmiş müəllimlərə" açıq məktubunda bu məsələni ön planda qoyan N.Nərimanov demişdi: - **"Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər çətin, ağır və məsuliyyətli bir vəzifədirsə, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan çox şey varsa, onun ən birincisi zəhmətdir. Ona görə də, sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevən**

**olsunlar. Yəni başqasının yox, öz zəhmətinin qüvvəsinə ehtiyaclarını rəfedici olsunlar".**

N.Nərimanovun müəllimlər qarşısında qoyduğu vəzifələrdən biri də dövlət və hökumət quruculuğu üçün ləyaqətli adamlar, cəsur, cürətli və dəyanətli, doğruçu və vicdanlı adamlar yetişdirməkdən ibarətdir. Həmin məktubda bir məsələyə xüsusi əhəmiyyət verən N.Nərimanov yazmışdı: "Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. O, böyük və fədakar pedaqoqların-müəllimlərin həyat və fəaliyyətindən gətirdiyi ibrətli misallarla göstərirdi ki, xalqını, zəhmət adamını, yoxsulları və məzlumları sevən müəllimlər onların xoşbəxtliyi və tərəqqisi üçün hər cür cəfalara və məşəqqətlərə dözməyə razı olmuşlar. Onlar yalnız sözlə deyil, əməli işlərində xalqa xeyirxah olduqlarını sübut etmişlər. N.Nərimanov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus orijinal fikirlərə malik bir sima olmuşdur. O, zəhmətsevər xalqın içərisindən çıxmış, zəhmətkeşlər adından çıxış etmiş, zəhmətkeşlərdən bəhs etmiş və ömrünün sonunadək onların azadlığı, xalq maarifi və mədəniyyətinin tərəqqisi naminə çalışmışdır.

**Qori Müəllimlər Seminariyasına uzaq Naxçıvan diyarından təhsil almağa gedənlər və bu seminariyanı bitirib Naxçıvanda işləyənlər də çox olmuşdur.**

Seminariyanın ilk yarandığı vaxtdan Azərbaycan şöbəsinin inspektoru olmuş A.O.Çernyayevski (sonralar 1905-1908-ci illərdə S.M.Qənizadə, 1917-ci ildən isə F.Köçərli şöbəyə rəhbərlik etmişdir) müdavim toplamaq üçün Naxçıvan şəhərinə

hələ 1879- cu ilin yazında, elə seminariyanın Azərbaycan şöbəsinin açıldığı ilk ildə gəlmiş və Seminariya üçün tələbə toplamışdır.

A.O.Çernyayevskinin seminariyanın direktoruna yazdığı 9 iyul 1879-cu il tarixli hesabatında deyilir: "Naxçıvan qəza məktəbinin şagirdlərindən 10 nəfəri valideynlərinin razılığı ilə seminariyaya daxil olmaq arzusunda olduqlarını bildirdilər. Ancaq onlardan üç nəfərini qəbul etməyə imkan tapdım. Belə ki, əksəriyyətinin azyaşlılığı məlum oldu". Qeyd edilən həmin üç nəfər – Mirzə Əliməmməd Xəlilov (1862-1896), Mirzə Ələkbər Süleymanov (1862-1921), Ələsgər Şeyxhəsənov (1862-?) olmuşlar.

Qori Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarından **Mirzə Əliməmməd Xəlilov** Naxçıvanın mötəbər ziyalılarından olmuşdur. O, 1862-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Mirzə Əliməmməd Xəlilov şəhər ikisinifli məktəbini bitirdikdən sonra 1879-cu ildə Qori Seminariyasının ilk müdavimlərindən olmuş və xüsusi istedadı sayəsində beş illik seminariya təhsilini iki ilə başa vurmuş, yalnız "əla" qiymətlərlə oxumuş, 1881-ci ildə buranı bitirmişdir ki, seminariyanın ilk azərbaycanlı məzunlarından biri olmuşdur. Mirzə Əliməmməd Xəlilov 1881-1885-ci illərdə Naxçıvan şəhər üç sinifli məktəbində müəllim və inspektor köməkçisi kimi çalışmış, 1881-1882-ci tədris ilində isə yeniyetmə Cəlil Məmmədquluyevə dərs demişdir. M.Ə.Xəlilovun Qori Müəllimlər Seminariyasının ənənələri haqqında, oradakı təhsil sistemi haqqında öz şagirdlərinə, gənclərə danışması heç

şübhəsiz onların da bu seminariyaya üz tutmasında az rol oynamamışdır. M.Ə.Xəlilov 1885-ci ilin 20 sentyabrında açılmış Baş Noraşen (İndiki Cəlilkənd) ikisinifli kənd məktəbinin ilk müdir–nəzarətçisi təyin olunmuşdur. M.Ə. Xəlilov məktəb-darlıqla, mətbuat və teatr işləri ilə fəal məşğul olmuşdur. O Naxçıvan teatrının inkişafında böyük xidmətlər göstərmiş, bir çox teatr tamaşaları M.Ə. Xəlilovun evində təşkil olunmuş və özü də aktyor və ya rejissor kimi fəaliyyət göstərmişdir. M. Ə. Xəlilov rus dilli qəzet və jurnalların fəal oxucusu olmuş, mətbuat orqanları ilə sıx əməkdaşlıq etmiş, şərq və qərb cərəyanlarının, yeniliklərin Naxçıvanda yayılmasına şərait yaratmışdır. Naxçıvanda "Qafqaz" qəzetinin təmsilçisi funksiyasını yerinə yetirmişdir.

M.Ə.Xəlilov 1881-1882-ci illərdə tanınmış alim-pedaqoq Simferopol Gimnaziyasını bitirmiş (1852-ci il) Naxçıvan Şəhər Məktəbinə müəllim-inspektor vəzifəsinə təyin olunmuş (1879 - 1883-cü illər) K.A.Nikitin (1832-1894) və 1875-ci ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitirmiş mükəmməl biliyə, demokratik dünyagörüşə, malik gürcü ziyalısı 1881-1884-cü illərdə Naxçıvan Şəhər Məktəbində coğrafiya müəllimi kimi çalışmış G.Uturqauri hər üçü birlikdə "Naxçıvan şəhərinin meteoroloji gündəliyi"ni hazırlamışlar.

Naxçıvandan Qori Müəllimlər Seminariyasına yollanan-lardan və oranın Azərbaycan şöbəsinin ilk məzunlarından biri də **Mirzə Ələkbər Süleymanov** (1862-1921) olmuşdur. O Seminariyada Rəşid bəy Əfəndiyevlə 3 il bir sinifdə oxumuş, birinci buraxılış ilində - 1882-ci ildə Seminariyanı bitirərək

Naxçıvana qayıtmış, Şərur rayonunun Yengicə kənd məktəbinə müdir təyin edilmiş, 1890 - 1894-cü illərdə Baş Noraşen 2 sinifli zemstvo məktəbində müəllimlik etmiş, 1894-cü ildən isə elə ilk açılış ilindən M.T.Sidqinin Naxçıvanda təşkil və təsis etdiyi məşhur "Tərbiyə" məktəbində rus dili dərsi demişdir (1894-1906). Qeyd edək ki, M.T.Sidqinin bu məktəbi 1896-cı ildə Rus-tatar (Rus–Azərbaycan) məktəbinə çevrilərkən məktəbinin fəxri nəzarətçisi Bəhram xan Naxçıvanski olmuş, sonra o yerini istefada olan rotmeyster Cəfərqulu xan Naxçıvanskiyə vermiş, daha sonra isə Mirzə Ələkbər Süleymanov özünün yazdığına görə 1897-ci ildə məktəbin müdiri təyin edilmişdir. Seminariya məzunu M.Ə.Süleymanov Naxçıvanın ictimai-siyasi, elmi-pedaqoji və ədəbi həyatında fəal iştirak etmiş, xalqı, tərəqqiyə, elmə, maarifə çağırmışdır.

M.Ə.Süleymanov Naxçıvanın ictimai-siyasi, elmi-pedaqoji və ədəbi həyatında fəal iştirak etmiş, xalqı, tərəqqiyə, elmə, maarifə çağırmışdır. O 1882-ci ildə yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, pedaqoq, teatr xadimi, teatr tənqidçisi Eynəlibəy Sultanovun (1866-1935) Naxçıvanda ilk dəfə evində yaratdığı "Ziyalı cəmiyyəti"nin fəal üzvü olmuşdur. Onunla bərabər şəhərin bütün tərəqqipərvər, açıq fikirli adamlarından Paşa ağa Sultanov (1849-1902), Mirzə Cəlil Mirzəyev (Şürbi) (1874-1915), Mirzə Ələkbər Xəlilov(1862-1896), Əsəd ağa Kəngərlin, Qurbanəli Şərifov (1854-1917), Baxşəli ağa Şahtaxtlını, Nəsrulla Şeyxov (1863-1921) və başqaları bu cəmiyyətin işində fəal iştirak etmiş, dövrün ictimai-siyasi məsələlərini, qadın azadlığı, qadın təhsili məsələlərini müzakirə

etmiş, yeni məktəblər, kitabxanalar açmış, elmi-ədəbi müzakirə və mübahisələr, şeir məclisləri keçirmişlər. Burada Puşkin, Tolstoy, Belinski, Dobrolyubov kimi görkəmli rus yazıçı və şairlərinin də əsərləri oxunur, tərcümə edilir və fikirlər üzərində elmi müzakirələr aparılır, xalqı qəflət yuxusundan oyatmaq üçün hər cür səy göstərilirdi. Dövrün tərəqqipərvər, açıq fikirli ziyalılarından Məhəmməd ağa Şahtaxtlı (1846-1931), Məhəmməd Tağı Sidqi (1854-1903), Cəlil Məmmədquluzadə (1869-1932), Eynəlibəy Sultanov (1866-1935), Mirzə Əliməmməd Xəlilov (1862-1896), Mirzə Ələkbər Bəyalı oğlu Süleymanov (1862-1921), Mirzə Məmməd Zamanbəyov və başqalarının təşəbbüsü və səyi nəticəsində 1883-cü ildə Naxçıvanda ilk dəfə olaraq "Müsəlman incəsənəti və dram cəmiyyəti" yaradıldı. Məhz "Müsəlman incəsənəti dram cəmiyyəti"nin təşəbbüsü ilə 1883-cü ildə Naxçıvanda "Zaviyyə" məhəlləsində dövrün mütərəqqi ziyalılarından biri olan Hacı Nəcəf Zeynalovun evində Mirzə Fətəli Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah cadukün" komediyası tamaşaya qoyulmuşdur ki, bu komediya ilə Naxçıvan teatrının yaranma tarixi başlayır. Bu komediyanın tamaşaya qoyulmasında, rolların ifa edilməsində yenə də Eynəlibəy Sultanov, Mirzə Sadıq Qulubəyov, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Mirzə Cəlil Şurbi, Paşa ağa Sultanov, Nəsrullah və Fərəcullah Şeyxov qardaşları, Mirzə Ələkbər Məmmədqulu oğlu və başqa ziyalılar əsl fədakarlıqlar göstərərək tamaşanı göstərmişlər. Tamaşadan toplanan pul isə yoxsul məktəb şagirdlərinin ehtiyaclarına sərf edilmişdi".

O 1882-ci ildə yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, pedaqoq, teatr xadimi, teatr tənqidçisi Eynəlibəy Sultanovun (1866-1935) Naxçıvanda ilk dəfə evində yaratdığı "Ziyalı cəmiyyəti"nin fəal üzvü olmuşdur.

M.Ə. Süleymanov Naxçıvan şəhər üçsinifli məktəbində ana dili və ilahiyyat müəllimi (1906-1909), daha sonra da həmin məktəbdə inspektor köməkçisi kimi də çalışmış (1910-1914), 1837-ci il 15 martda isə Naxçıvanda ilk dünyəvi elmlər öyrədən qəza məktəbinin, 1854-cü il 24 noyabrda Ordubadda açılan ilk ibtidai məktəbin təşkilində, inkişafında, yeni nəsillərin yetişdirilməsində M.Ə. Süleymanovun böyük xidmətləri olmuşdur.

Qori seminaristi **Mirzə Ələsgər Şeyxhəsənov** (1862-?) C.Məmmədquluzadənin elmi, dünyəvi dünyagörüşünün formalaşmasında xalası oğlu Əhmədin və yaxın qohumlarından olan Ələsgər Şeyxhəsənovun ilkin və müstəsna rolu olmuşdur. Mirzə Cəlil onlara "binəmazlar" demişdir. Ölülər əsərində Ələsgərin "Kefli İsgəndər" obrazı İsgəndərin prototipidir. Ələsgər Şeyxhəsənov oxumuş, savadlı, çox bilikli olduğundan ona "Mirzə Ələsgər" demişlər. Rus təhsili görmüş Mirzə Ələsgər Şeyxhəsənov 1883-cü ildə Qori Seminariyasını bitirərək İrəvan Quberniyasının Böyük Vedi  kənd məktəbində pedaqoji fəaliyyətə başlamış, sonralar Şərurda və Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmuş, Naxçıvanda teatr tamaşalarında aktyor kimi fəaliyyət göstərmişdir.

Böyük demokrat yazıçı, dramaturq, böyük müəllim və pedaqoq **Cəlil Məmmədquluzadə** (1869-1932) Qori Müəllimlər Seminariyasına daxil olmaq arzusunda olanların ən fəalı, ən səbatlısı və ən inadcılı olmuşdur.

C.Məmmədquluzadənin Qori Müəllimlər Seminariyasına müdavim kimi yazılması hələ 1879-cu ildə - A.O.Çernyayevski Naxçıvana müdavim toplamağa gələrkən qeydə alınmışdır. Lakin o zaman gələcək böyük insanın yaşının az olması (10 yaş) buna imkan verməmişdi. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu övladının seminariyaya daxil olması haqqında arzusunu yerinə yetirmək üçün üç dəfə -1880, 1881, 1882-ci illərdə ərizə ilə seminariyanın rəhbərliyinə müraciət etmişdir. Lakin, hər dəfə "yaşı azdır" – deyə onu seminariyaya qəbul etməmişlər. Nəhayət sonuncu dəfə 1882-ci ilin 02 iyulunda onun imtahanlara buraxılmasına icazə verilmiş və C.Məmmədquluzadə qəbul imtahanları verərək seminariyaya qəbul olunmuşdur. Seminariya dövrü Mirzə Cəlilin ümumi inkişafında, yazıçılıq taleyində, mənəvi zənginliyində mühüm rol oynamışdır.

Cəlil Məmmədquluzadə 1882-1887-ci illərdə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında oxuduğu illərdə rus və Avropa ədəbiyyatının qüdrətli simaları ilə o cümlədən – alman yazıçısı Şillerin, rus şairlərindən İ.A.Krılovun, A.S.Puşkinin, M.Y.Lermantovun, Nekrasovun, L.N.Tolstoyun əsərləri ilə yaxından tanış olmuşdur. O A.S.Puşkinin vəfatının 50 illiyi ilə əlaqədar 29 fevral 1887-ci ildə seminariyada keçirilən yubiley tədbirində böyük sənətkar haqqında çıxış etmişdir.

Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori seminariyasını bitirdikdən sonra İrəvan və Yelizavetpol xalq məktəbləri direktorluğunda yerləşən Uluxanlı məktəbinə müəllim təyin edilmiş və ilk dərsini də elə həmin məktəbdə demişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında 2006-cı il dekabrın 29-da verdiyi sərəncamında qeyd edildiyi kimi: "...Bünövrəsi 1881-ci ildə qoyulan Uluxanlı məktəbi də həmin vaxtlar əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan İrəvan mahalında maarifçilik ideyalarının yayılması sahəsində mühüm rol oynamışdır. Dövrün görkəmli maarifçiləri məktəbin zəngin ənənələr zəminində inkişaf etdirilməsi işində mühüm xidmətlər göstərmişlər. Böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin ilk müəllimlik fəaliyyətinə başladığı bu məktəb ədibin təşəbbüsü sayəsində qabaqcıl maarif və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir".

C.Məmmədquluzadə daha sonra Baş Noraşen (indiki Cəlilkənd) iki sinifli zemstvo məktəbində, Naxçıvan və Nehrəm məktəblərində müəllimlik etmiş, ədəbi, bədii, pedaqoji yaradıcılıqla məşğul olmuş, dəyərli hekayələr, ölməz dram əsərləri yazmış, maarifçilik ideyalarını yaymış, mədəni - maarif tədbirlərində iştirak etmiş, fəal ictimai-ədəbi, pedaqoji mühit yaratmış, xalqın maariflənməsi, tərəqqi etməsi üçün Tiflisdə bütün Şərqdə tanınan və məşhur olan, ətrafına yaradıcı qüvvələri birləşdirən "Molla Nəsrəddin" jurnalı nəşr etdirmiş (1906, 20 aprel), ömrünü xalqın maarifinə, mədəniyyətinə və

tərəqqisinə həsr etmişdir.

C.Məmmədquluzadə seminariyada oxuduğu illərdə mmüxtəlif siniflərdə təhsil alan, Əbülqasım Sultanov, Heydər Muradhasilov, Ələkbər Məmmədxanov, İsmayılbəy Şəfibəyov, Əsədulla Muradxanov, gürcü Vaca Pşavela, abxaz Məhəmməd Abaşidze və başqaları ilə yaxın dostluq münasibətində olmuşdur.

Bir çox mənbələrdə göstərilir ki, Cəlil Məmmədquluzadə Naxçıvandan Qori Müəllimlər Seminariyasına özü ilə bərabər üç həmşəhərlisi ilə bərabər getmişdir. Bəs, Mirzə Cəlildən başqa o üç nəfər müdavim kim olmuşdur? O müdavimlərin kimliyi uzun müddət qaranlıq olmuşdur. "Tərcüman" qəzetinin 12 iyul, 1887-ci il nömrəsindəki kiçik məlumata əsasən deyə bilərik ki, həmin müdavimlərdən biri **Heydər Muradhasilov** (1863-1896) olmuşdur ki, sonralar o Naxçıvan məktəblərində 1930-cu illərədək rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1887-ci ildə seminariyanı bitirən Heydər Muradhasilov dövrünün maarifpərvər, ziyalı şəxslərindən biri olmuşdur. Professor Əziz Şərifin (1895-1988) də qeyd etdiyi kimi atası Qurbanəli Şərifzadənin tez-tez görüşdüyü, ictimai, fəlsəfi fikirləri bölüşdüyü və yaxın dostlarından biri Heydər Muradhasilov olmuşdur.

Cəlil Məmmədquluzadənin digər ikinci bir yoldaşı Mirzə Əbülqasım Sultanov (1866-1916), üçüncü yoldaşı isə Mirzə Ələkbər Məmmədxanov (1875-1920) olmuşdur. Cəlil Məmməd-quluzadə bu üç yoldaşla Naxçıvandan Qoriyə birlikdə getmiş və birlikdə təhsil almışlar.

**Mirzə Əbülqasım Sultanov** Mirzə Cəlillə eyni illərdə Naxçıvan şəhər üçsinifli məktəbində, daha sonra da Qori Müəllimlər Seminariyasında bir yerdə təhsil almışdır. Seminariyada təhsil illərində ədəbiyayta, musiqiyə dərin marağı olmuş, skripka çalmış, xorda oxumuş, ədəbi tədbirlərdə iştirak etmiş gözəl kolliqrafik xətti ilə seçilmişdir.

Mirzə Əbülqasım Sultanov 1885-ci ildə xəstələndiyi üçün bir il sinifdə saxlanılmış və 1888-ci ildə seminariyanı bitirərək Şərur qəzasının Şahtaxtı kənd məktəbinə təyinat almışdır. O Seminariyada oxuduğu dövrdə "Ədəbiyyatşünaslıq dəftəri" adlı dərs vəsaiti yazmışdır ki, bu gün o vəsait Naxçıvan MR Tarix- Diyarşünaslıq muzeyində saxlanılır ( fond KP, № 2320). Onun "Ədəbi nümunələr müntəxəbatı" adlı yenə bir dərs vəsaiti də vardır ki, orada S.Ə.Şirvani, M.Ə. Sabir, Hüseyn Cavid, A.Şaiq, M.T. Sidqi və başqaları haqıqnda dəyərli məlumatlar vermiş, onların əsərlərindən parçalar təqdim etmişdir.

Mirzə Əbülqasım Sultanov əhali arasında pedaqoji təbliğat aparmış, geniş maarifləndirici işlər görmüş, şeirlər yazmış, tərcümələr etmiş, məktəbdarlıqla məşğul olmuş, doğma Şahtaxtı kəndində 8 il (1888-1896), Cəlil Məmmədquluzadənin işlədiyi Baş Noraşen məktəbində isə 12 il (1896-1908) rus dili müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Ə.Sultanov "Baş Noraşen ikisinifli zemstvo məktəbinə daxil olan və oranı bitirənlərin siyahısı"nı tərtib etmişdir ki, bu da məktəb tarixi araşdırıcıları üçün dəyərli bir pedaqoji sənəddir. Bu siyahıda 63 nəfərin adı vardır. Məktəbin məzunlarından 13 nəfəri İrəvan

Gimnaziyasında təhsil aldığı, bir nəfərin Aleksandropol şəhər məktəbində təhsilini davam etdirdiyi, bir nəfərin də - Rəhim Kazımbəyovun isə Qori Müəllimlər Seminariyasında oxuduğu qeyd edilmişdir.

Mirzə Əbülqasım Sultanov ömrünün sonlarını Qəzvində keçirmiş, Nobel qardaşlarının neft şirkətində çalışmış 1916-cı ildə dünyasını dəyişmişdir. Qəzvindən yazdığı məktublarından onun xalqın maariflənməsi üçün nə qədər qayğı göstərdiyi görünür: "İnsanın cövhəri, qədr və qiyməti elm təhsil etməsidir. Hərgah müsəlman milləti sair millətlər kimi elmi vacib bilib oxusaydı, bu gün başına cürbəcür bəlalar gəlib, vadiyi-zülmətdə qalmazdı, abu-xak və müqəddəs Vətən əldən getməzdi. Nə deyim, nə yazım, qoy qalsın. Ancaq suznak ah çəkməkdən başqa özgə bir əlac əldən gəlmir. Lənət gəlsin o atalara ki, elm, fənn və sənətdən kənar düşüb, bəzi bimənа sözlərə inanıb öz övladlarının təhsili haqqında düşünməyib, onlara zülm ediblər. Yan, qəlbim, yan! Şölə çək!".

**Mirzə Ələkbər Məmmədxanov** (1865-1920) Ordubad şəhər məktəbində təhsil almışdır. Oğlu Əli Naxçıvaninin yazdığına görə şagird ikən məktəbdə təlimin rus dilində deyil ana dilindö olmasını tələb etmiş, bununla əlaqədar, məktəb rəhbərliyi onu təhsildən kənarlaşdırmışdır. Bundan sonra ailəsi Bakıya köçdüyündən Ələkbər Məmmədxanov təhsilini Bakıda davam etdirərək tamamlamışdır. Nəhayət o qəbul imtahanlarını müvəffəqiyyətlə verərək 1884- cü il 1 sentyabrda Qori Müəllimlər Seminariyasının hazırlıq sinfinə qəbul olunmuşdur.

Seminariya həyatı haqqında məlumatlardan məlum olur ki, Ələkbər Məmmədxanov Qori Seminariyasının azərbaycanlı tələbələrindən Aslanov, Əbülqasım Sultanov, Əfəndiyev, İsmayılov, və başqaları ilə birlikdə seminariyanın özfəaliyyət musiqiçilər kollektivinin tərkibində fəal çıxış etmişdir. Bununla belə seminariya rejiminin əksinə olaraq ana dilində danışdığına görə bir neçə dəfə cəzalandırılmışdır. Ə Məmmədxanova təhsil haqqını ödəyə bilməməsi haqqında da ona dəfələrlə irad tutulmuşdur. Nəhayət Ə.Məmmədxanov Seminariyadan çıxmaq haqqında 14 noyabr, 1885 – ci il tarixli ərizə ilə direktora müraciət etmiş və 23 noyabrda seminariyadan xaric edilmişdir. O şəxsi işini geri alaraq, Xarkov Universitetində təhsil almış, mühəndislik ixtisasına yiyələnmişidr. Sonra uzun müddət Bakıda məşhur neft sahibkarlarından olan Musa Nağıyevin şirkətində çalışmışdır. Bundan başqa O Bahailik təriqətinin tarixini, fəlsəfəsini öyrənməklə məşğul olmuşdur. O Bahai təriqətinin yaradıcısı Şeyx Bəhaullahın və digər Bahai üzvlərinin dini-fəlsəfi əsərlərini rus dilinə tərcümə etmişdir. 1912-1913 cü illərdə Şeyxin Avropa və Amerikaya səyahəti zamanı Ə.Məmmədxanov da onunla birlikdə səyahətə çıxmışdır. Onun əlyazma halında mühafizə edilən "Səyahətnamə" əsəri böyük səfərin təəssüratlarını və təfərrüatlarını əks etdirir. Ə. Məmmədxanov daha sonralar Şərq ölkələrinə səyahətə çıxmış, özünəməxsus, fərqli dini-fəlsəfi düşüncələrini təbliğ etmiş, görkəmli rus yazıçısı L.N.Tolstoyun ədəbi, fəlsəfi irsinə böyük rəğbət göstərmiş, L.Tolstoyla şəxsi əlaqələr yaratmış və onunla məktublaşmışdır.

Ənənəvi olmayan, fərqli ideyalı dini- fəlsəfi əsər və risalələri rus dilinə tərcümə edərək Yasna-Polyanaya-Tolstoya göndərmiş və ondan da 1908, 1909-cu illərdə bir neçə dəfə təşəkkür və minnətdarlıq cavab məktubları almışdır. Lev Tolstoy 28 noyabr 1910-cu ildə vəfat etdikdə böyük ədibin dəfnində iştirak etmək üçün nümayəndə heyətinə Ələkbər Məmmədxanov rəhbərlik etmişdir. Ələkbər Məmmədxanov 1920-ci ildə Bakıda vəfat etmişdir.

XIX əsrin 90-cı illərində C.Məmmədquluzadənin 1890-1897- ci illərdə müdir olduğu Nehrəm kənd məktəbində daha bir seminariya məzununu görürük. Bu Kərimbəy İsmayılzadədir ki, 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. Həmin il **Nəriman Nərimanov və daha başqa Seminaristlər - Hüseyn Həsənzadə, Şəhriyar Qiyasbəyov, Əhməd Qaibov, Həsənbəy Axundov seminariyanı bitirmişlər.** Seminariyada onların ana dili və şəriət müəllimi Salyanlı Axund Əbdüssəlam Axundzadə olmuşdur.

**İsmayıl bəy Məşədi Məmməd bəy oğlu Şəfibəyov** 1859-cu ildə Şuşa şəhərində dünyaya göz açmışdır. O, Şuşa real məktəbini bitirmiş, 1882- ci ildə Zaqafqaziya (Qori) Müəllimlər seminariyasına daxil olmuş, burada Cəlil Məmmədquluzadə ilə bir yerdə oxumuşdur.

İsmayıl bəy Şəfibəyov 1887-ci ildə seminariyanı bitirmiş, Şuşa qəzasının Gülablı kəndində və İrəvan kişi gimnaziyasında nümunəvi pedaqoji xidmət göstərmişdir (İ.Şəfibəyovun fəaliyyətinə dair formulyar siyahı. Ermənistan MDTA, fond 19, siyahı 2, Q-14-56, vərəq 1-12). İsmayıl bəy Şuşa şəhərində teatrın yaranmasında və inkişafında fəal iştirak etmişdir. 1876-

cı ildən M.F.Axundovun əsərlərindən ibarət tamaşalar verildiyi bəllidir. Şuşada qabaqcıl ziyalılardan bir sıra komediya və vodevillərin müəllifi Nəcəf bəy Vəzirov, Bədəl bəy Bədəlbəyli, Əbdüləli bəy Vəlibəyov, Firudin bəy Köçərli, H.Sarıcalinski, Muxtar bəy Muradov, İsmayıl bəy Şəfibəyov, məşhur xanəndə Cabbar Qaryağdıoğlunun və başqalarının fəaliyyəti özəlliklə qeyd olunmalıdır. İsmayıl bəy Şəfibəyov 1918-ci ildə vəfat etmişidr.(s.79). (Əməkdar jurnalist Rəşad Nəsirov. Azərbaycan Milli mətbuatının inkişafında şuşalı ziyalıların rolu (1875-1935). – Bakı. Mütərcim, 2018. – 216 səh.) http://anl.az/el/Kitab /2018/07/cd/Azf-302074.pdf

İsmayıl bəy  İrəvanda Rus-Azərbaycan qız məktəbində bir neçə il dərs  demişdir.

Şəfibəyov İsmayıl bəy (1863-1918) – C.Məmmədquluzadənin Qori seminariyasındakı tələbəlik dostlarından biri olmuşdur.1887 ildə seminariyanı bitirdikdən sonra o, Məmmədquluzadəni Şuşaya qonaq aparmış, onun Xan qızı Xurşidbanu Natəvan ilə və Əbdürrəhim bəy Haqverdiyevlə tanışlığını yaratmışdır. Sonralar İrəvan kişi gimnaziyasında və Şuşa qəzasının Gülablı məktəbində dərs demişdir.

C.Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalının birinci nömrəsində dərc olunan materiallar haqqında məlumat verərək yazır: “İrəvanda cənab İsmayıl bəy Şəfibəyova. Məcmuəmizi təbrik etmək xüsusunda artıq dərəcədə məmnun olduq. Və lakin göndərdiyiniz şeirləri əvvəlinci nüsxəmizdə çap edə bilməyib, gələn həftə çap etməyi vəd edirik. Amma şeiriniz o qədər gözəldir ki, bir bəndini bərayi-xali-nəbudi[qaralama, əlyazma şəklində] lazım gördük yazaq:

**Bir gün küçə ilə əlimdə səbət gedirdim,**
**Çıxdı birdən qarşıma yoldaşım.**
**Dedim: yoldaş, söylə, hara gedirsən?**
**Dedi: Xəbər alma, sən Allah, kefim xarabdır mənim..."**

(Məmmədquluzadə C. Xatiratım. B., Gənclik, 1971, 112 səh.) http://azerlit.info/?article=1075

Onu da əlavə edək ki, İsmayıl bəylə Fatma xanımın 4 övladı olmuşdur. Məryəm adlı qızı Mərkəzi Komitədə şöbə müdiri, Çiçək məktəbəqədər üzrə pedaqoji təhsil almış, bağçada tərbiyəçi işləmişdir, Dilşad xanım tibb elmləri namizədi, cərrah olmuş, Mustafa və İbrahim Topçubaşovla cərrahiyyə əməliyyatları aparmışıdr. Oğlu Asəf bəy Sankt-Peterburqda mühəndislik oxumuşdur.

**Mirzə Məhəmməd Zamanbəyli** 1 avqust 1860-cı il tarixdə Naxçıvanda Şahbuz kəndində məşhur sərgərdə Rus-İran müharibələrinin iştirakçısı Zaman-Xan Kəngərlinin oğlu Hacı Fərzəli Sultan Kəngərlinin ailəsində anadan olub. Hacı Fərzəlibəy naxçıvanlıların xeyriyyəçisi və maarifçisi kimi də tanınmışdır. Yoxsul və kimsəsiz uşaqların təhsil almasına qayğı göstərmişidr. Daha sonra təhsilini davam etdirmək üçün Qori Müəllimlər Seminariyasına getmiş və bu seminariyanın ilk məzunlarından olmuşdur.

M.M.Zamanbəyli fəaliyyətinin bütün dövrlərini xalqın maariflənməsinə həsr etmişdir. O hələ seminariyada təhsil alarkən tanınmış maarifçi və pedaqoq A.O.Çerniyayevskinin siyasi və elmi düşüncələri ilə yaxından tanış olmuşdur.

**O, özü də xeyriyyəçiliklə məşğul olmuş, bir çox aztəminatlı ailənin övladlarını öz hesabna oxutdurub.** O "Xeyriyyə" cəmiyyətini yaratmaqla mülklərindən əldə etdiyi

bütün gəlirləri kimsəsiz və yoxsul ailələrə, uşaqlara paylayıb. Öz vəsaiti hesabına onlarla yeniyetmələri Qori Seminariyasına təhsil almağa göndərmişdir. Mirzə Məhəmməd Zamanbəyli Şahbuzda məktəb tikdirib, məktəbin maliyyə məsələlərini də öz vəsaiti hesabına həll etmişidr.

Mirzə Məhəmməd Zamanbəyli kimi ziyalıların işıqlı təfəkkürü və təşəbbüsü sayəsində Naxçıvanda "Müsəlman dram və sənət cəmiyyəti"yaradıldı.Cəmiyyətin məramı, ilk növbədə, kitabxana açmaq,sonra tamaşa yaratmaq idi. Maarifçi ziyalılardan Eynəli bəy Sultanov, Qurbanəli Şərifzadə, Məmmədtağı Sidqi, Mirzə Əliməmməd Xəlilov, Nəsrulla Şeyxov,Cümşüd Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov,Mirzə Məhəmməd Zamanbəyli, Baxşəli ağa Şahtaxtı, Nəcəfqulu Nəcəfov bir yerdə fəaliyyət göstərmişlər.

Mirzə Məhmməd Zamanbəyli 1913 - 1915 ci illərdə İrəvan Müəllimlər Seminariyasında müəllim kimi marifçilik işini davam etdirmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasında da böyük xidmətləri olmuş və Cümhuriyyət dövründə Maarif şurasının üzvü olmuşdur.  O, Paris sülh konfransının iştirakçısı olmuş, Bakı Dövlət Universitetinin təsis edilməsində yaxından iştirak etmişdir Onun portretini 1907-ci ildə məşhur rəssam Bəhruz Kəngərli qələmə almış və o portret hal-hazırda Rüstəmov adına Dövlət İncəsənət tarixi Muzeyində saxlanılır. Portret 1968-ci ildə Mirzə Məhəmməd bəyin oğlu Qafar Zamanov tərəfindən Azərbaycan Dovlət İncəsənət Muzeyinə bağışlanılanmışıdr.

Mirzə Məhəmməd Zamanbəyliyə müxtəlif vəzifələr təklif

olunsa da, lakin o bütün vəzifələrdən imtina edərək, yalnız təhsil sahəsində fəaliyyət göstərmişdir. Görkəmli maarifçi 1923-cü ildə vəfat etmişdir.

**Kərimbəy İsmayılzadə** əvvəlcə Vedi məktəbində müəllim - nəzarətçi, daha sonra Qafqaz Təhsil dairəsinin 15 centyabr 1892-ci il tarixli sərəncamı ilə Nehrəm kənd məktəbinə müəllim göndərilmişdir ki, bu məktəb 11 dekabr 1885-ci ildə iki sinifli məktəb kimi açılmışdır. Kərimbəy İsmayılzadə bu məktəbdə 1892-1894-cü illərdə müəllim kimi pedaqoji fəaliyyət göstərmişdir. Nehrəm məktəbindəki yaradıcılıq şəraiti, sağlam pedaqoji mühit Kərimbəy İsmayılzadə elmi pedaqogikaya, metodik əsərlərin yazılmasına sövq etmişdir. O qısa müddətdə dəyərli metodik əsərlər yazmış və 1893-cü ildə "Nehrəm kəndi" adlı iri həcmli tarixi, etnoqrafik əsər meydana gətirmiş və bu əsər sonralar çap olunmuşdur. Kərimbəy publisistik məqalələr yazmış, "Hesab məcmuəsi", "Nağıllar" kitablarını da nəşr etdirmiş, "Molla Nəsrəddin", "Maarif" jurnalında elmi-pedaqoji və publisistik məqalələrlə çıxış etmişdir. Onun Əshaf-Kəhflə bağlı "Ölən şəhər" məqaləsi geniş yayılmış və çox oxunmuşdur.

Əziz Şərifin "Keçmiş günlərdən" əsərində yazdığı bir qeydi daha bir seminaristin təsbit olunmasına imkan verir. Bu böyük pedaqoq, məktəbdar Məhəmməd Tağı Sidqinin (1854-1903) böyük oğlu **Məmmədəli Sidqi Səfərovdur** (1888-1956). Əziz Şərif bu barədə belə yazır: "Sidqinin ən yaxın dostlarından Cəlil Məmmədquluzadə onun oğlanlarından Məmmədhəsəni Tiflisdə təzəcə açdığı pansiona aparmışdı. Sidqinin Qoridəki

Müəllimlər Seminariyasını qurtarmış böyük oğlu Məmmədəli isə "Tərbiyə" məktəbinə müəllim təyin edilmişdi, qızı Dostuxanım Bakıda Hacı Zeynalabdın Tağıyevin qız məktəbinə qəbul edilmişdir". Bu qeyddən həm M.T. Sidqinin ailə üzvləri haqqında, həm Qori seminariyasının daha bir naxçıvanlı məzunu barəsində dəyərli məlumat alırıq, həm də C.Məmmədquluzadənin yeniyetmə və gənclərimizi gimnaziyaya hazırlamaq məqsədilə Tiflisdə xüsusi pansion açmasından xəbərdar oluruq. C.Məmmədquluzadə 09 iyun 1910-cu ildə məktubla Məmmədəli Sidqini Tiflisə dəvət etmiş və bir müddət "Molla Nəsrəddin"in idarəçiliyini ona tapşırmışdı.

Məmmədəli Sidqi qardaşının da Qori Müəllimlər Seminariyasına daxil olması üçün Firudinbəy Köçərliyə (1863-1920) müraciətdə bulunmuşdur ki, Firudinbəyin Məmmədəliyə məktubu da maraqlıdır: *"Mehribanım Məmmədəli!*...O ki qaldı qardaşınızın seminariyaya girməyinə, indidən o barədə vədə verə bilmənəm. Amma əlimdən gələn kömərkliyi müzayiqə etmənəm... O gərəkdir ki, çox yaxşı hazırlaşsın ki, əvvəlinci klasa imtahan verə bilsin...İmtahan avqust ayının 25-də başlanır...Sizdən artıq xoşhal olaram ki, mərhum Sidqinin övladlarından birisinə bacarıb təlim və tərbiyə verə biləm...*Firudin Köçərli.Qori 14 noyabr, 1913-cü il"*

Məmmədəli Sidqi bir müddət "Şeypur" satirik jurnalın redaktoru kimi çalışmışdır. "Şeypur" jurnalının cəmi 14 sayı çıxmışdır, onlardan 11-i 1918-ci ilə, 3-ü isə 1919-cu ilə aiddir. Jurnalın ilk sayı 5 oktyabr 1918-ci ildə, son sayı isə 18 yanvar 1919-cu ildə işıq üzü görmüşdür. Həftədə bir dəfə çıxan bu

jurnal Bakıda elektrik "Turan" mətbəəsində nəşr olunurdu. "Şeypur" jurnalının səhifələrində Məmmədəli Sidqi, Səməd Mənsur, Salman Mümtaz, Cəfər Cabbarlı və digər tanınmış qələm sahiblərinin ideya-bədii mükəmməlliyə malik yazıları mühüm yer tuturdu. Vaxtilə atası Sidqinin ona –

***Nə qədər ki, əlində var fürsət,***
***Dərsinə eylə hər zaman diqqət.***
***Yetişibdir zamani-elmü ədəb,***
***Mənzilin eylə guşeyi – məktəb.***

nəsihətnaməsini yerinə yetirərək, atasının ümidlərini doğruldaraq daim təhsilini artırmış, onun yolunu davam etdirmiş, bir sıra əsərlərini ("Kəblə Nəsir", Heykəli-insana bir nəzər", "Puşkin") Bakıda nəşr etdirmişdir.

Məmmədəli Sidqi özü də publisistik yazılar, dəyərli şerlər yazmış, tərcümələr etmişdir. Onun bir şeiri 2008-ci ildə 106 yaşında dünyasını dəyişmiş "İstiqlal" ordenli, Əməkdar Müəllim Lətif Hüseynzadənin şəxsi arxivində qorunub saxlanmışdır. Şeirdə 1918-ci ildə ermənilərin Naxçıvanda törətdikləri qırğınlar və Naxçıvan gənclərinin mübarizəsi, döyüş səhnələri əks etdirilir.

Qori Seminariyasının daha bir naxçıvanlı müdavimi **Rəhim Kazımbəyov** olmuşdur (1883-1958). Rəhim Kazımbəyov 1897-ci ildə Baş Noraşen ikisinifli məktəbini bitirdikdən sonra əvvəlcə İrəvan gimnaziyasında, daha sonra da 1903-1908-ci illərdə Qori Seminariyasında təhsil almışdır. Rəhim Kazımbəyov Qoridə oxuduğu illərə dair yazdığı "Xatirələr"-ində qeyd edir ki, mən seminariyada 5 il oxudum...Bütün fənlər rus dilində tədris olunurdu. Yalnız həftədə bir saat şəriət

dərsi keçirilirdi... Rəhim Kazımbəyovun xatirəsində həmçinin Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Azad Əmirovun seminariyada təhsil aldıqlarından Üzeyirin və Müslümün mahir skripka çaldıqlarından danışılır. R.Kazımbəyov Qoridən qayıtdıqdan sonra 1908-ci ildə indiki Şərur rayonunun Qıvraq kəndində, daha sonra Şərurda, Naxçıvanda orta məktəblərdə və pedaqoji texnikumda rus dili müəllimi kimi fəaliyyət göstərmiş və "Azərbaycan məktəblərində rus dilinin tədrisi" adlı metodik kitabça da yazmışdır. R.Kazımbəyov, Naxçıvan maarif və mədəniyyətinin, təhsilinin inkişafında xidmətlərinə görə 1944-cü ildə ona Əməkdar müəllim adı verilmiş, 1957-ci ildə isə Naxçıvan MR Ali Sovetinin Fəxri Fərmanı verilmişdir.

Qori Müəllimlər Seminariyasının məzunlarından biri də **Əlirza Rasizadə** olmuşdur. O Naxçıvanda tanınmış, məşhur ruhani, mərsiyəxan Abdulla Rasizadənın (1843-?) ailəsində doğulmuşdur. Abdullanın üç oğlu – Şeyx Məhəmməd Rasizadə, Hüseyn Cavid Rasizadə və Əlirza Rasizadə yüksək təhsil almış dövrünün mütərəqqi, ziyalı, yaradıcı şəxsiyyət-lərindən olmuşdur.

Şeyx Məhəmməd Rasizadə (1878-1939)- Hüseyn Cavidin böyük qardaşı tanınmış maarif xadimi, müəllim və şair olmuşdur. Təbrizdə, Urmiyada, Tehranda ruhani təhsil almış, ərəb və fars dillərini, şəriət elmlərini mükəmməl öyrənmişdir. Sonra İrəvan maarif idarəsində xüsusi kurs bitirmişdir(1917).Şeyx Məhəmməd həmçinin istedadlı şair olmuş, XX əsrin əvvəllərindən "Şərqi-Rus", "Həyat", "Irşad", "Tazə Həyat", "Təkamül", "İqbal", "Füyuzat", "Açıq söz",

“Hürriiyət” kimi qəzet və jurnallarda, sonralar isə Sovet mətbuatında, xüsusilə “Şərq qapısı” qəzetində xalqı maarif, elm və mədəniyyətə səsləyən şeirlər dərc etdirmişdir.

Hüseyn Cavid (1882-1941) İstanbul Universitetini bitirmiş, böyük filosof şair, dramaturq, müəllim və pedaqoq olmuşdur. Əlirza Rasizadə isə (?-1923) - Hüseyn Cavidin kiçik qardaşı Qoridə Qafqaz Müəllimlər Seminariyasını bitirmiş, rus dilində təhsil almış, dünyəvi elmlərə dərindən yiyələnmiş, mütərəqqi müəllim, ziyalı olmuşdur.

Seminariyanın naxçıvanlı məzunlarından biri də **Məmmədhüseyn Xəlilovdur**. M.Xəlilov Naxçıvanda C.Məmmədquluzadənin təhsil aldığı şəhər məktəbini bitirmiş və oradan da onların böyük dostluğu başlamışdır. Məmmədhüseyn Xəlilov seminariyanı bitirərkən “Qafqazlı yetirmələrin Rusiya taxt – tacına və Vətəninə xidmətləri” mövzusunda yazdığı buraxılış işində sərkərdə Lazarevin, knyaz Baqrationun və Kalbalı xan Naxçıvanskinin hərbi və maarifçilik fəaliyyətini geniş işıqlandırmışdı. Əsər dünya seminariyalarının məşhur Paris sərgisində nümayiş etdirilmişdir. Müasirləri Məmmədhüseyn Xəlilovu “Xalq müəllimi” kimi yüksək ada layiq görmüşlər. Məmmədhüseyn Xəlilov Naxçıvan teatrında aktyorluq və suflyorluq etmişdir.

Qori Müəllimlər Seminariyanın daha bir naxçıvanlı məzunu **Xəlil Hacılarov** (1895-1970) olmuşdur. Xəlil Hacılarov Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Tiflisdə Müəllimlər İnstitutunu da bitirmişdir. O bütün ömrünü müəllimliyə həsr etmişdi. Əvvəlcə, Naxçıvan mahalında, sonra

isə Gürcüstanda və Tiflisdə maarif sahəsində çalışmışdır.

Xəlil Hacılarov 1922-ci ildən fəaliyyətə başlayan Naxçıvan Müəllimlər Seminariyasının ilk direktoru olmuşdur ki, bu seminariya sonralar pedaqoji texnikuma çevrilmişdi. Xəlil Hacılarov pedaqogika və didaktika dərslərini, onun köməkçisi Əbdüləzim Rüstəmov (1887-1953) coğrafiya dərslərini, Həsən Səfərli riyaziyyat, Həsən Qazıyev təbiət, İbrahimxəlil Axundov bədən tərbiyə, Lətif Hüseynzadə ədəbiyyat dərslərini  demişdir.

Xəlil Hacılarov qısa müddətli pedaqoji kursların, Naxçıvan darülməlliminin və bir sıra məktəblərin təşkilində xüsusi xidmət göstərmişdir. O, istər kurslarda, istərsə də "Ünas" və "Zükur" pedaqoji texnikumlarında "Pedaqogika" və "Didaktika" fənlərini xüsusi məharətlə tədris etmişdir.

Xəlil Hacılarov Naxçıvanı Öyrənən Elmi Cəmiyyətin (buna "Naxçıvan Tədqiq və Tətəbbo Cəmiyyəti" deyilmişdi. 1925-ci il 21 mayda yaranmışdır) ən fəal üzvlərindən olmuşdur. Cəmiyyətin protokollarında adları tez-tez çəkilən ən fəal üzvlər - Məhəmməd Rasizadə, Əbdüləzim Rüstəmov, Lətif Hüseynzadə, Xəlil Hacılarov və başqaları olmuşdur.

Qori Müəllimlər Seminariyasının daha bir məzunu **Ələkbər Abbasov**dur. O müxtəlif imzalarla mərbuatda çıxışlar etmişdir:  Ələkbər Qərib, Ələkbər Rahib, Ələkbər Naxçıvanlı.

Ələkbər Abbasov 1893-1894-cü ildə Naxçıvanda xırda sənətkarlıqla məşğul olan Kərbəlayi Tağının ailəsində dünyaya gəlmişdir. Məmmədhüseyn və Rza Təhmasiblə, Nəsrulla Şeyxovla yaxın qohumluqları olmuşdur. M.T.Sidqinin "Tərbiyə" məktəbində təhsil almışdır.

Ələkbər Abbasov bədii, publisistik və tərcüməçilik fəaliyyətinə Qori Müəllimlər Seminariyasında 1909-1913-cü illərdə təhsil alarkən başlamışdır. Ədibin həmyerlisi və Qori Müəllimlər Seminariyasında tələbə yoldaşı, yazıçı-publisist Əli Səbri Qasımov sonralar təhsil illərini xatırlayarkən müəllimləri, məşhur pedaqoq və ədəbiyyatşünas Firudin bəy Köçərlinin bir çox tələbələri, o cümlədən Ələkbəri ədəbi yaradıcılığa həvəsləndirdiyini vurğulayaraq yazmışdı: "Firidun bəy bizdə ədəbiyyata böyük maraq oyatdığının nəticəsi olaraq Rəcəb Əfəndiyev, Ələkbər Abbasov (Qərib), Zülfüqar Ağakişibəyov və mən rus ədiblərindən Azərbaycan dilinə bir sıra əsərlər tərcümə etməyə və əsər yazmağa başladıq".

Ələkbər Abbasov 1913-cü ildə Qori Müəllimlər Seminariyasını bitirtdikdən sonra o bir müddət Tiflisdə, Bakıda yaradıcılıqla məşğul olmuş  hekayə və povestlər yazmış, rus dilindən tərcümələr etmişdir.

Onun 1912-ci ildə, hələ tələbə ikən yazdığı "Qəlbimin sultanı" povesti və 1914-cü ildə yazdığı "Haqq divanı" hekayələr kitabı Bakıda "Orucov qardaşları" mətbəəsində çap edilmişdir.

O 1913-cü ildə N.M.Karamzinin "Bədbəxt Liza" povestini ruscadan azərbaycancaya tərcümə etmişdir. Ə. Abbasovun tərcüməçilik fəaliyyəti 1920-1930-cu illərdə daha ardıcıl və əhatəli xarakter daşımışdır. 1927-ci ilin sonlarından etibarən Bakıda nəşriyyat sistemində çalışan ədib həm müxtəlif bədii nümunələri məharətlə Azərbaycan dilinə çevirərək nəşr

etdirmiş, həm də bir çox tərcümə kitablarının redaktoru olmuşdur.

Ə.Abbasovun diqqətəlayiq bədii tərcümələrindən biri məşhur rus ədibi M.Y.Lermontovun (1814-1841) "Zəmanəmizin qəhrəmanı" romanıdır. Həmin tərcümə 1929-cu ildə Bakıda Azərnəşr tərəfindən nəşr olunmuşdur. Kitabın redaktoru tanınmış şair-tərcüməçi Əhməd Cavad olmuşdur.

Ələkbər Abbasov 1915-1916-cı illərdə Doktor Xosrov bəy Sultanovun rəhbərliyi altında "Cəmiyyəti xeyriyyə" xətti ilə Ərdəhan, Batum və başqa şəhərlərdə olaraq türk qaçqınlarına, "Hərb-zədə"lərinə yardım hərəkatında iştirak etmişdir.Bu hərəkatda Hüseyn Cavid, Əhməd Cavad, Əli Səbri və başqa ziyalılarla birlikdə səfərbəredici, xeyriyyəçi kimi əməli işlər görmüşdür.

Ələkbər Abbasov tarixi-etnoqrafik, ədəbi-bədii yazılarla da mətbuatda çıxışlar etmiş, dəyərli elmi-pedaqoji, ədəbi əsərlər yazaraq unudulmaz izlər qoyub getmişdir. Xüsusilə 1928-1929-cu illərdə Ruhulla Axundovun redaktəsi və rəhbərliyi altında 50 minə qədər sözün tərcüməsi verilən ikicildlık "Rusca-türkcə (azərbaycanca) lüğət"in hazırlanmasında Ələkbər Abbasovun xüsusi payı və zəhməti olmuşdur (Rus-türk lüğəti. Tərtibçiləri: Əhməd Pepinov, Ələkbər Qərib,Ələkbər Heydərli. Bkı, AzQİZ, 1928).

Qori Müəllimlər Seminariyasının bir naxçıvanlı məzunu da, Sidqinin "Tərbiyə" məktəbinin yetirməsi, yazıçı, jurnalist, tərcüməçi **Əli Səbri Qasımov** (15.04.1892-19.02.1983) olmuşdur. Babək rayonunun Nehrəm kəndində doğulmuşdur.

1909-cu ildə Qori seminariyasına daxil olmuş və 1913-cü ildə bu seminariyanı bitirdikdən sonra bir müddət Bakıda rus-tatar məktəbində müəllimlik etmişdir. Burada C.Məmməd-quluzadə, Ü.Hacıbəyov, M.Maqomayev, M.Mahmudbəyov, N.Nərimanov və başqalarının mühitinə düşmüş və onun mütərəqqi pedaqoji və ədəbi görüşləri burada da geniş formalaşmışdır. Əli Səbrinin Qori Müəllimlər Seminariyası "Xatirələr"indən məlum olur ki, o seminariyada dərs deyən *Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev və başqa ziyalılarla həmişə yaxın əlaqə və münasibətdə olmuş, F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları"nın üzünü köçürmüş, bədii yazılarını, başqa dillərdən etdiyi tərcümələrini də Firudin bəyə oxumuş, ondan məsləhətlər almışdır.* Əli Səbri Qasımov müəllimi Firudin bəy Köçərli haqqında xatirəsində yazır: "F.Köçərli bizə təkcə elmli olmağı deyil, həm də səliqəli, qənaətcil, təmizkar olmağı öyrədirdi. F.Köçərlinin ciblərində hər şeyin öz yeri var idi. O, bir cibinə əlini iki dəfə salıb pencəyi sürtməzdi. O bu keyfiyyəti biz şagirdlərdə də tərbiyə edə bilmişdi. Və yaxud, pulumuzu saxlamaq üçün F.Köçərliyə verərdik. Ondan xərclik üçün pul istədikdə o, bu pulların nəyə xərcləndiyi barədə bizdən hesabat alar və israfçılığa yol verməzdi. F.Köçərli bizim vaxtında yuyunmağımıza, dırnaqlarımızı kəsməyə, xüsusən, ayaqlarımızı yumağa diqqət yetirərdi. Həmişə deyərdi "İnsanın dırnağı ilə ayaqqabısının təmizliyi onun mədəniyyətini göstərir". Bu xatirələrdən aydın olur ki, F.Köçərli hələ Qori seminariyasında təhsil alan azərbaycanlı balalarına bir ata qayğısı ilə yanaşmış, onlara arxa, kömək olmuşdur.

Əli Səbri Qasımov, Naxçıvanda qurulan Araz - Türk hökumətinin sədri Əmir bəy Əkbərzadə, Hüseyn Cavid, Fətulla Hüseynov, Kəblə Muxtar və digər nüfuzlu naxçıvanlıların köməyilə erməni təcavüzünə qarşı  könüllü xalq dəstələrinin yaradılmasına təşəbbüs göstərib, onların əlaqələndirilməsində xüsusi rol oynamışdır. Bu səylər nəticəsində yaranmış Nehrəm taboru (başçısı Kəblə Muxtar), Cəhri taboru (Kəblə Kərim), Baş Noraşen, Düdəngə və Zeyvə taboru (Fətulla bəy Hüseynov), Ordubad taboru (İbrahim Xəlil Axundov), Vedibasar müqavimət hərəkatının başçısı Abbasqulu bəy Şadlinskinin və Civə kənd könüllülərinin komandiri Bala Bəy Vəkilovla birlikdə erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq nümunələri göstərərək mahalın erməni silahlarından təmizlənməsində xüsusi rol oynayıblar.

Əli Səbri Qasımovdur ki, ordubadlı Ələsgərov, Şərurdan və Sürməlidən hərəsindən bir nəfər nümayəndə ilə birlikdə 1919 - cu il sentyabr 9-da Tiflisdə olmuş, Naxçıvanın neytral zona elan olunmasına etirazını bildirərək 17 maddədən ibarət tələbləri polkovnik Haskelə təqdim etmidir.. Bildirib ki, "Əgər bu tələblər qəbul olunmasa, naxçıvanlılar öz istiqlaliyyətlərini əldə silah qoruyacaqlar. Öldü var – döndü yox!"

1919-cu ilin yayında ingilis-daşnak birləşmələri Naxçıvanda kütləvi həbslərə və repressiyalara başlayarkən Əli Səbri Qasımov da həbs olunaraq Aleksandropola (Gümrüyə) sürgün edilmişdir. Daha sonralar sovetləşmədən sonra da repressiya illərində Ə.Səbri bir neçə dəfə həbs olunmuşdur. Bütün bu əzablı, mürəkkəb həyat yoluna baxmayaraq o bədii,

publisistik yaradıcılığını həmişə davam etdirmişdir. Əli Səbri "Molla Nəsrəddin" jurnalında "Tağyanuszadə" imzası ilə çıxışlar etmiş, "Solğun çiçək" romanını, "Balaca və Xallı" povestini yazmışdır. Əli Səbri Qasımov 1925-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. "Maarif işçisi" jurnalının redaktoru, "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində redaktor, Azərbaycan yazıçılar İttifaqı ədəbi fondunun sədri olmuş, bir çox povest və hekayələr yazmış, rus və dünya ədəbiyyatından Azərbaycan dilinə tərcümələr etmişdir. Əli Səbri bir-birindən maraqlı nəsr əsərlərinin müəllifidir. Onu ədəbiyyatımızda tanıtmış və ona şöhrət qazandırmış ilk əsəri "Solğun çiçək" romanı olmuşdur. Bu əsərdə iki gəncin sevgi məhəbbəti canlandırılsa da əsərin əsas mahiyyətini mövcud dövrdəki hakimiyyətə qarşı etirazlar təşkil etmişdi. Onun bu əsəri Bakıda Orucovların mətbəsində 1913-cü ildə nəşr olunmuşdur. Əli Səbri "Hümayə", "Qaraçı", "Balaca xallı", "Firuzun kədəri" və "Şəbi-hicran" kimi qiymətli əsərlər də yazmışdır. Onun bu əsərlərinin ideya mərkəzində pak sevgi və mənəvi saflıq dururdu. Bununla yanaşı Əli Səbri 1918-1920-ci illərdə Naxçıvanın ictimai-siyasi həyatında fəal iştirak etmiş, Naxçıvan bölgəsinin erməni təcavüzündən qorunmasında fədakarlıqlar göstərmişdir.

Əli Səbri Qasımov Seminariyada təhsil illəri dövründə Laçından olan 1912-ci ildə seminariyanı bitirmiş ictimai və maarif xadimi, pedaqoq **Müseyib İbrahim oğlu İlyasovla** (1884-1944) yaxın dostluq münasibətlərində olmuş və daha

sonralar bu dostluq münasibətləri haqqında o "Xatirələr"ində də geniş yazmışdır.

Müseyib İbrahim oğlu İlyasov 1884-cü ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olmüşdur. Onun atası Kərbəlayı İbrahim az savadlı olmasına baxmayaraq, dövrünün mütərəqqi fikirli adamlarından olmuş, öz hesabına kənddə məktəb açmış, xüsusi müəllim tutaraq, əvvəlcə öz uşaqlarının, sonra isə kənd uşaqlarının bir neçəsinin savad öyrənmələrinə nail olmuşdur. Müseyib İlyasov burada oxu-yazı öyrəndikdən sonra əvvəlcə Minkənd kəndində olan rus-tatar məktəbində, sonra isə təxminən 1906-1907-ci illərdə Şuşada Həşim bəy Vəzirovun müdir olduğu ikisinifli rus-tatar məktəbində təhsil almışdır. Burada təhsilini tamamladıqdan sonra Qori Müəllimlər Seminariyasına daxil olmuş, 1912-ci ildə seminariyanı bitirmişdir. M.İlyasov seminariyanı bitirdikdən sonra Bakıda S.Ə.Şirvaninin nəvəsi Mir Fazilin müdir olduğu məktəbə müəllim təyin edilmiş və 1920-ci ilə kimi

Bakıda, Qubada müxtəlif məktəblərdə və gimnaziyalarda müəllim işləmişdir. 1918-1920-ci illərdə Xosrov bəy Sultanovla birlikdə Azərbaycan Demokratik Respublikasının tapşırığı ilə Türkiyəyə gedərək, orada əhalinin yoxsul təbəqələrinə yardımlar etmişlər.

M.İlyasov 1920-ci ildə Şuşada açılan Müəllimlər Seminariyasının – Darülmüəllimin ilk yaradıcısı və təşkilatçısı olmuş və özü də 1925-ci ilədək bu seminariyanın direktoru vəzifəsində çalışmışdır.(Əsası 1907-ci ildə qoyulmuş gimnaziyanın bazasında yaradılmış bu seminariya 1931-ci

ilədək Müəllimlər Seminariyası adlanmış, sonralar isə pedaqoji texnikuma çevrilmişdir. Bu gün bu tarixi müəssisə Şuşa Mədəni-Maarif Texnikumu kimi uğurla fəaliyyətini davam etdirir).

1926-cı ildə Bakıda çağırılan birinci türkoloji qurultayın iştirakçısı olmuşdur. M.İlyasov el arasında aqil, müdrik bir şəxsiyyət kimi tanınmışdır. Azərbaycan, türk, ərəb, fars, rus dillərini mükəmməl bilən Müseyib İlyasov xalq təhsilini son dərəcə çətin ərazi və sosial mühitdə yaymağa çalışan bir fədai, camaat üçün düşünən zəka, xalq üçün döyünən ürəyə malik bir fədakar olmuşdur. Zəngəzur Qəza Xalq Maarif şöbəsinə rəhbərlik etdiyi illərdə o zamankı ucqar obalarda ilk maarif-təhsil məşəlini yandıran M.İlyasov qəzanın bir çox yerlərində - Laçın şəhərində, Minkənd, Kürdhacı, Qorçu, Vağazin, Şamkənd, Hoçaz və onlarca başqa dağ kəndlərində yaraşıqlı məktəb binaları tikdirmiş və onların tezliklə istifadəyə verilməsinə şəxsən özü rəhbərlik etmişdir.

Müseyib İlyasov 1931-ci ildən sonra Bakıya gəlmiş və 1939-cu ilə kimi Azərbaycan Xalq Maarif Komissarlığında bir çox məsul vəzifələrdə -kadrlar şöbəsində pedaqoji kadrlar üzrə məsul icrası, metodist və inspektor. APİ-nin rus dili kafedrasında assistent və sair vəzifələrdə çalışmışdır. O, harada işləməsindən asılı olmayaraq, hər zaman müəllim kadrlarının yetişdirilməsinə mənəvi atalıq qayğısı ilə yanaşmışdır.

M.İIyasovun fəaliyyətinin son dövrü Bakıdakı 17 saylı məktəblə bağlı olmuşdur. O, 1940-cı ilin sentyabr ayından 1941-ci ilin sentyabr ayına kimi həmin məktəbdə müəllim işləmişdir.

Şəxsiyyətə pərəstiş dövrünün acı havası xalqımızın minlərlə zəkalı və istedadlı oğulları kimi, maarif fədaisi olan Müseyib İlyasovu da ədalətsizlik məngənəsinə salmışdır. O, 1941-ci ilin sentyabr aymda saxta ittihamlar əsasında həbs edilmiş və 8 il həbs cəzası ilə azadlıqdan məhrum edilmişdir. 1944-cü ildə 60 yaşında Karakanda şəhərində həbsdə vəfat etmişdir. 1956-cı ildə M.İlyasova ölümündən sonra bəraət verilmişdir.

Qori Seminariyasının məzunlarından biri də **Qurban Abdulla oğlu Həsənovdur**. Noraşen (İndiki Şərur) rayonunun Zeyvə kəndindəndir. Pedaqogikadan "Azərbaycanda ikinci beşillik dövründə pedaqoji kadr problemi" mövzusunda pedaqogika üzrə namizədlik dissertasiyası yazmış və 1933 –cü ildə müdafiə etmişdir. O, 1932-cı ilin əvvəllərində "Təhsil sahəsində Elmi-Tədqiqat Pedalogiya İnstitutu"nda (İndiki "Azərbyacan Respublikasının Təhsil İnstitutu") pedaqogika bölməsinin rəhbəri vəzifəsində çalışmışdır. Onun həmin dövr üçün xarakterik olan "Xalq maarifinin planlaşdırılması və təşkili" adlı tədqiqat işi diqqəti cəlb etmiş və yüksək qiymətləndirilmişdir.

1937-ci ildə əqidəsinə görə həbs edilmişdir. Günahsız olaraq həbs olunduğunu və azad olması üçün RSFSR-in Krasnoyarsk ölkəsinin Şimali Yenisey rayonundakı Novaya Eruda qəsəbəsində həbsxanadan Mircəfər Bağırova məktub yazmışdır. Məktubunda ixtisarla belə yazılır: "Hörmətli Bağırov yoldaş! ... Mən 1917-ci ildə Qori Müəllimlər Seminariyasında təhsil almışam. 1929-cu ildə Krupskaya adına Kommunist Tərbiyəsi Akademiyasını bitirmiş, 1932-ci ildə

həmin akademiyanın pedaqoji üzrə aspiranturasını qurtarmışam. 1933-cü ildə "Azərbaycanda ikinci beşillik dövründə pedaqoji kadr problemi" mövzusunda dissertasiya müdafiə etmişəm. Pedaqoji fəaliyyətə 1918-ci ildən başlamışam, bu sahədə bir çox məqalələr müəllifiyəm. 1935-ci ildə Moskvanın "Revolyutsiya nasionalnostey" jurnalında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında xalq maarifinin vəziyyəti və perspektivləri" adlı məqaləm dərc olunmuşdur.

"Yoldaş Bağırov! Mən özüm Noraşen rayonunun Zeyvə kəndindənəm. Atam ömrünün sonunadək bərbər olmuşdur. Qardaşlarım sovet hakimiyyəti qurulanadək muzdur idilər. Yalnız mən elmi qabiliyyətimə görə dövlət hesabına Müəllimlər Seminariyasına qəbul olunmuşam. 1937-ci il oktyabr ayının 3-də Bakı şəhərində həbs edilmişəm... Sizə müraciət etməklə, yoldaş Bağırov, artıq dərəcədə xahiş edirəm ki, düşdüyüm ağır vəziyyətdən çıxmaqda mənə kömək əlinizi uzadasınız". Məktubdan göründüyü kimi Bir ziyalı, alim, müəllim-pedaqoq 37-cu ilin repressiya qurbanı olmuş və əfv edilmək üçün müraciət etmiş və əfv edilmişdir.

**Hüseyn bəy Baxşəli oğlu Minasazov** (1881-1932) - Qori Müəllimlər Seminariyasının məzunu (1889-1894) uzun müddət Naxçıvanda yaşamış, Naxçıvanda çalışmış və Naxçıvan pedaqoji mühiti ilə sıx bağlı olmuşdur. 1899-cu ildə seminariyanı bitirdikdən sonra H.Minasazov bir müddət Borçalıda, Salyanda, Bakıda müəllimlik etmiş, sonra isə Naxçıvana köçmüş və burada arxivlər idarəsində elmi işçi kimi çalışmış və

elmi-pedaqoji fəaliyyətlə, naşirliklə, qəzetçiliklə və jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, publisistik yazılar yazmışdır. Hüseyn Minasazovun mübariz publisist kimi yetişməsində dövrunün görkəmli ədib və ziyalılarının - xüsusilə M.Şahtaxtılı, C.Məmmədquluzadə, M.T.Sidqi, Ə.Qəmküsar, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, A.Sereteli, İ.Çavçavadze və başqalarının mühüm rolu olmuşdur. 1902-ci ildə ildə Hüseyn Minasazov Bakıda "Kaspi" qəzetinin korrektoru olmuş, və bu qəzetdə "İnsan", "Oğul" və başqa kiçik hekayələrini çap etdirmişdir. 1906-cı ilin ortalarında Hüseyn Minasazov Tiflisdə "Zaqafqaziye" qəzetində əməkdaşlığa başlamışdır. Hüseyn Minasazov burada məşhur Cəlil Məmmədquluzadə və inqilabçı-demokratik hərəkatın banilərilə yaxından tanış olmuşdur.

1907-ci ilin axırlarında Hüseyn Minasazov "Zakafkaziye" qəzetinin müxbiri kimi Təbrizə yola düşmüş, orada-Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının gedişini qəzet vasitəsilə işıqlandırmışdır. Hüseyn Minasazov 1909-cu ildə Peterburqa getmişdir. Onun mahir bir jurnalist-publisist kimi yetişməsində Peterburq mühitinin də çox böyük təsiri olmuşdur.1908-1910-cu illərdə Hüseyn Minasazov bir xeyriyyəçi kimi xarici şəhər və dövlətlərdə oxuyan müsəlman ali məktəb tələbələrindən yüzlərlə minnətdarlıq məktubu almışdır. H.Minasazov teatrın inkişafı, qadın azadlığı məsələlərinə xüsusi diqqət yetirmiş və ciddi münasibət göstərmişdir. H.Minasazovun məqalələrində təhsilin ana dilində aparılması məsələsinə toxunmuş, məktəblilər üçün dərsliklərin yaradılması və başqa vacib

məsələlər haqqında dəyərli fikirlər söyləmişdir. Bütün bunlar da onun maarif fədaisi olduğunu, fəal bir ziyalı, istedadlı pedaqoq olduğunu deməyə əsas verir. H.Minasazovun ədəbiyyat və incəsənətə dair xeyli məqalələr yazmışdır. Onun M.F.Axundzadə, M.T.Sidqi, S.M.Qənizadə, H.Mahmudbəyov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, H.Ərəblinski, Şövkət Məmmədova haqqında yazdığı məqalələr ədibin yaradıcılığında xüsusi yer tutur. H.Minasazov məqalələrində C.Məmmədquluzadənin uğurlarını xüsusi vurğulamış, 1909-cu ildə məşhur "Ölülər" əsəri haqqında da ilk söz deyən, onun "Poçt qutusu" nu 1915-ci ildə İ. Aşurbəyovun mətbəəsində çap etdirən H.Minasazov olmuşdur. Mirzə Cəlilin "Əsarət" məqaləsini rus dilinə tərcümə edərək "ОГНИ" jurnalında dərc etdirmişdir.

**Məmmədəli Sidqi və Hüseyn Minasazov tanışlığı** Qori Müəllimlər Seminariyasından başlamış və onların daim bir birilə xoş müansibətləri və əlaqələri olmuşdur. Məmmədəli Sidqiqnin şəxsi fondunda Hüseyn Minasazovun ona ünvanladığı 8 məktubu saxlanılır. Dövrünün sayılıb – seçilən şəxsiyyətlərindən olan H.Minasazov yazışı, jurnalist, naşir, tənqidçi, mütərcim kimi fəaliyyət göstərirdi, C.Məmməd-quluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar və başqa mollanəsrəddinçi yazıçıların, şairlərin həyat və yaradıcılığı haqqında əsərlər yazıb nəşr etdirirdi. O, "ana dili uğrunda o zaman gedən mübarizənin ön cərgəsində duranlardan idi. O, bu problemlə əlaqədar mətbuat səhifələrində indi də əhəmiyyətini itirməyən bir sıra məzmunlu məqalələrlə çıxış etmişdir. Bu məqalələrin

əsas mövzusu ana dilini ərəb, fars... dillərinin təsirindən qorumaq, mətbuatımızın dilini səlisləşdirmək, ədəbi dilimizi zənginləşdirmək, Azərbaycan məktəbləri üçün ana dilində savadlı müəllimlər hazırlamaq, məktəbləri ana dilindən savadsız müəllim mollalarından təmizləmək, çar hökumətinin qeyri-rus xalqlarının dilinə olan təhqiramiz hərəkətlərini pisləmək və s. dövrün ən aktual məsələləri olmuşdur.

Uzun illər ailə arxivimizdə saxlanılan və bu gün əlimizdə olan görkəmli pedaqoq M.T. Sidqinin uşaqlar üçün yazdığı "Kəblə Nəsir" mənzum hekayəsini 1912-ci ildə "Oliqetrik" mətbəəsində çap etdirən də məhz Hüseyn Minasazov olmuşdur. Əsərin üzqabığında yazılmışdır: "Yazanı mərhum Məhəmməd Tağı Sidqi. Naşiri Hüseyn Bəy Minasazov. Bakı, "Oliqetrik" 1912. "Bu kitabın mənfəəti mərhumun külfətinindir" sözləri yazılmışdır.

**Beləliklə, Qori Müəllimlər Seminariyasının məzunları maarif və mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərmişlər. Onlar yeni, dünyəvi, müasir təhsilin, mütərəqqi elmin carçıları olmuş və onu inkişaf etdirmişlər.**

## 2. AZƏRBAYCAN PEDAQOJİ KADRLARINLN HAZIRLIĞINDA İRƏVAN MAARİFÇİLİK MÜHİTİ: MÜƏLLİMLƏR SEMİNARİYASI, GİMNAZİYA VƏ PROGİMNAZİYALAR, İNSTİTUTLAR.

**XIX əsrin 1880-ci illərinin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir.**

**Onlardan biri 1881-ci ildə açılmış İrəvan Müəllimlər Seminariyası, ikincisi 1881- ci ildə fəaliyyətə başlamış İrəvan Kişi Gimnaziyası, üçüncüsü isə 1884-cü ildə yaranmış İrəvan qız progimnaziyasıdır.**

İrəvan maarifçilik mühiti milli təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında xüsusi yeri və əhəmiyyəti vardır. İrəvan maarifçilik mühitinin öyrənilməsi pedaqoji fikir tariximizi, təhsil tariximizi yeni bilik və məlumatlarla xeyli zənginləşdirir və dəyərli ensiklopedik mənbəyə çevrilir. **İrəvan Müəllimlər Seminariyasi məktəb və pedaqoji fikir tariximizin mühüm bir parçasıdır.** Onun öyrənilməsi, araşdırılması, tədqiq edilməsi bizim doğma işimizdir. Son dövrlərdə İrəvan maarifçilik mühiti, İrəvan pedaqoji mühiti ciddi şəkildə öyrənilməyə başlanmış, dəyərli əsərlər yazılmış, tədqiqatlar aparılmış və bu iş çox böyük aktuallıqla davam etməkdədir.

Bu gün İrəvan maarifçilik mühiti ilə tanış olan müasir oxucu, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqalrımızın Qərbi Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan

torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev 29 dekabr 2021–ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 3094 nömrəli sərəncam imzalamışdır. Sərəncamda deyilir: ***"İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.***

***1881-ci ilin noyabrında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksək ixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında***

*ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan şərəfli, tarixi səhifələr yazmışdır.*

***Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır".*** Bu tarixi əhəmiyyətli sərəncamın mühüm elmi-pedaqoji, siyasi-ideoloji və mədəni-mənəvi əhəmiyyəti vardır.

Möhtərəm Prezident çıxışlarında, nitqlərində bu məsələyə həmişə xüsusi diqqətlə yanaşmış və demişidir: ***"Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".***

Möhtərəm Prezidentimiz daha başqa çıxışlarında bu barədə danışaraq qərbi Azərbaycan və o yurdun insanları haqqında deyir: ***"Əminəm ki, gün gələcək və Qərbi***

***Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar... Qərbi Azərbaycan tarixən Aəzrbaycan torpaqları olmuş və bizim ata-babalarımız bu torpaqalarda yaşayıb yaratmışlıar : Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır…Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, bunu tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var".***

Mənbələrdən məlum olur ki, İrəvanda dünyəvi məktəblər açılana qədər hələ XIII, XIV əsrlərdə Novruzəli bəy məscidi, Abbas Mirzə məscidi, Şah Abbas məscidi və digər adlarla məscidlər inşa edilmişdir ki, bu məscidlərin nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmriylə 1766 -cı ildə burada möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmriylə 1766 -cı ildə

burada möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

İrəvan quberniyasında məskunlaşan soydaşlarımız Bakı və Gəncə quberniyalarından sonra  sayca üçüncü yeri tuturdu. Burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud idi. Təpəbaşı, Zal xan, Sərtib xan, Hacı Novruzəli bəy, Qala, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib, Hacı İmam  və Göy məscidin (yaxud Hüseynqulu xan) məscidlərinin nəzdində yüksək tipli  mədrəsələr fəaliyyət göstərirdi. Yalnız Hüseynqulu xan məscidində 200 şagirdin oxuması  yerli əhalinin təhsilə böyük diqqət göstərməsinin bariz ifadəsidir. 1830-cu ildə Cənubi Qafqazda 1134 məscid mövcud idi ki, onların da əksəriyyətinin nəzdində ya mollaxana, ya da mədrəsə fəaliyyət göstərirdi.

Məscidlər  islamın hələ ilk dövrlərində ortaya çıxan təlim-tərbiyə mərkəzləri idilər. Məscid və camelərdə təlim bir qədər təkmil formada aparılırdı. (“cami” “cəm” olunan yer deməkdir.Orta əsrlərdə  İrəvanda məscidlər  və orada təşkil edilən məktəblərə,  mollaxana  deyilirdi.

1878-ci ilin məlumatına görə, İrəvan quberniyasında 60 məscid məktəbi fəaliyyət göstərirdi.

Daha sonralar xanlıqlar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvanda Qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, realni məktəblər və s. məktəblər yaranmışdır.

XIX əsrin birinci yarısında Tiflisdə və Bakıda rus qəza

məktəbləri açıldı. İrəvanda Azərbaycan türklərinin sayca çox olduğunu nəzərə alaraq, bu məktəblərdə - İrəvan qəza məktəbində azərbaycanlı şöbəsi yaradılmışdır. İrəvan şəhərində dünyəvi məktəb sisteminin yaradılması Zaqafqaziya məktəblərinin 1829- cu ildə qəbul edilmiş ilk nizamnaməsi ilə bağlı **olaraq 14 yanvar 1832-ci ildə burada 2 sinifli qəza məktəbi yaradılmışdır**. Həmin məktəb 1839-cu ildə 3 sinifli qəza məktəbinə, 1869-cu ildə progimnaziyaya (4 sinifli), 1881-ci ildə gimnaziyaya çevrilmişdir. Bu məktəblər uşaqlara dünyəvi, elmi biliklər verir və burada müxtəlif millətlərin uşaqları oxuyurdu.

Sonralar Azərbaycanda üsuli-cədid məktəbləri – dünyəvi məktəblər açıldığı kimi, İrəvanda da bu tipli məktəblər açıldı.

Bu illərdə Tiflisdə Gimnaziya, İrəvanda (14 may, 1832 –ci il), Bakıda, Şuşada, Şamaxıda, Naxçıvanda qəza məktəbləri açıldı. 1882-ci ildə İrəvanda Rus-tatar (Rus-Azərbaycan) məktəbləri açıldı. Bu illərdən başlayaraq dünyəvi biliklər verən məktəblər genişləndi və həmin məktəblərdə Azərbaycan dili tədris olunmağa başladı. XIX əsrin ortalarından başlayaraq, İrəvanda azərbaycanlılar üçün xüsusi ümumi orta təhsil verən məktəblər açıldı ki, **burada Məhəmməd Tağı Mahmud oğlu, Mirzə Ələkbər Elxanov** kimi təcrübəli müəllimlər dərs deyiridi.

İrəvanda açılan "Rus-Azərbaycan" qız məktəbləri əhalinin rəğbətini qazanmışdı. Məktəbin müdiri **Haşım bəy Nərimanbəyov,** İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının

Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları bu məktəblərdə dərs deyirdilər.

**İrəvanda yeni üsullu ("Üsuli-cədid" məktəbləri) ana dili məktəbinin yaradıcısı Məşədi Molla İsmayıl Hacı Kazımov idi.**

Kazımovun "Yeni üsul" məktəbi 1882-ci il martın 28-də açıldı. Məktəbə ilk dəfə 14 şagird qəbul olunmuşdu. Onlardan 12-si azərbaycanlı, 2-si erməni idi. məktəbdə ana dili ilə bərabər rus dili, hesab tədris edilirdi. Ana dilini Kazmov, rus dili və hesabı isə şəhər məhəllə məktəbinin bir müəllimi tədris edirdi. Kazımovun ana dili məktəbi bütün İrəvan quberniyasında böyük şöhrət qazanmışdı. Onun bu qabaqcıl təcrübəsi hətta Cənubi Azərbaycanda da yayılmışdı. İrəvan məktəbləri və ümumiyyətlə İrəvan əhlinin elmi – pedaqoji və mədəni həyatına aid, xüssuilə İərvandakı məktəblər haqqında "Üsuli-cədid" məktəbi haqqında daha ətraflı məlumatları Firudin bəy Köçərlinin (1863-1920) əsərlərindən, müxtəlif məqalaələrindən almaq olur. F.B.Köçərli İrəvanda pedaqoji fəaliyyətlə məşğul olduğu vaxtlarda "Kəşkül" qəzetinə yazdığı bir məqalə bu cəhətdən səciyyəvidir. O "İrəvandan məktub" adlı məqaləsində yazırdı: "Bu axır vaxtlardan bəri, demək olar ki, İrəvan müsəlmanları da hərəkətə gəlmiş, gözlərəini qəflət yuxusundan açıb, insanlıq, elmi tərbiyə, təqəddümə hümmət etməkdədirlər. Belə ki, 2-3 sənə var ki, şəhərimizdə 1-2 qaydalı və səliqəli məktəb açılmışdır, müsəlman balaları da sair, mədəni millətlər kimi təzə üsul ilə elm və ədəb təhsil edirlər. Onlar da köhnə

məktəblərin adətinə münəakis quru həsirin və tozlu, yamaqlı palazın üstə oturmayıb, taxtalar (isqələlər) üstə əyləşirlər. Səhərdən axşamatəki ağır havalı məktəbdə toz-torpağın içində təzə və cavan ömürlərini çürütməyib hər saatda 5-10 dəqiqə təsfiyyəli - hava üçün dışarı çıxıb, oynayıb şad olurlar... Əlbəttə, bu məktəblərin bu halda qüsurları da çoxdur; amma ümid var ki, Irəvan əhli hümmət edib az zamanda məktəblərin hər bir ehtiyacını düzəldələr. Burada bizim dövlət tərəfindən açılan mədrəsələrdə ülum və fünun kəsb edən müsəlman şagirdləri başqalarına nisbətən çox azdır. Və lakin az olsa da cümləsi qeyrətli, təəssüblü cavanlardır ki, öz işlərində olub aralarında ziyadə mehribançılıq və ittifaq vardır".

**İrəvan "Üsuli-cədid" məktəbində .Nərimanbəyov, F.Köçərli, C.Məmmədquluzadə, M. Əliyev, T.Sultanova, M.V.Qəmərlinski, M. Qazıyev və başqaları dərs demiş** və onlar bu bölgənin ilk müəllimləri olmuşlar.

Mirzə Həsən Rüşdiyyə 1883-cü ildə Təbrizdən İrəvana gələrək orada daha bir yeni üsullu məktəb açmışıdr. İrəvan quberniyasında ildən-ilə qəza məktəblərinin və ibtidai kənd məktəblərinin yaradılması xalq müəllimlərinə zəruri ehtiyac yaratmışdı. O dövrdə ibtidai məktəblər üçün xalq müəllimləri seminariyalarda və müəllimlər institutlarında hazırlanırdı.

XIX əsrin 60-cı illərində Azərbaycan ədəbiyyatının inkişafı tarixində ən səmərəli və ən uğurlu bir dövr olmuşdur. O zamanlar Cənubi Qafqazın bir çox şəhərlərində müxtəlif poetik adlar altında ədəbiyyat dərnəklərinin fəaliyyət göstərməsi məlumdur. İrəvanda mövcud olan belə dərnəyin öndə gedən

nümayəndələrindən biri **Məşədi Mirzə İsmayıl Bəzmi olmuşdur.** O, 1846-cı ildə anadan olmuş, kamillik dövrünə çatınca ev tərbiyəsini almış, sonralar Firudin bəy Köçərlinin "Ədibi kamil" adlandırdığı məşhur pedaqoq Mirzə Məhəmməd Tağı Sidqinin (1854-1904) məktəbində təlim almağa başlayıb və "Öz istedadı, fitrisi sayəsində az vaxtda fars və türk lisanını təkmilən öyrənibdir".

Gənc vaxtlarında ticarət işi ilə məşğul olmuş, müasirləri arasında xoşxasiyyət, mülayim, şirindilliliyi ilə seçilmiş, şüura silki içərisində əziz və möhtərəm bir vücud olmuşdur.

Ömrünün axırına 20 il qalmış ticarət işindən əl çəkərək müəllimliklə məşğul olmuşdur. O, İrəvan şəhər məktəbində elmi - ilahi və lisani – türki müəllimi təyin olunmuşdur. Bundan əlavə özü dəxi məktəb açmışdır. F.Köçərli Mirzə İsmayılın şəxsiyyəti və onun məktəbi barəsində verdiyi məlumatın əhəmiyyətini nəzərə alaraq onu olduğu kimi oxuculara təqdim edirik. F.Köçərli yazırdı:

"Bu həqir bəndə İrəvan gimnaziyasına yeni müəllim təyin olunan vaxtlarda (F.Köçərli İrəvan gimnaziyasına 1885-ci ildə Azərbaycan dili müəllimi təyin olunmuşdur.) Mirzə İsmayıl ilə tanış olub və bəzi vaxtlar onun üsuli – tədrisi ilə aşina olmaq üçün məktəbinə gedərdim və onu artıq şövq ilə təlimi – ətfalə məşğul olmağını görüb dəxi də artıq onunla yaxınlanmağa və dostluq əlaqəsini bağlamağa səy edərdim. Çi fayda, əcəl, fürsət verməyib, ol cənabın dostluğundan bizi məhrum qıldı və hicrətin 1305-ci ildə (miladi təqvimlə – 1888-ci ildə) sənəsində şərbəti – mərci (ölüm şərbəti) içirtdi. Məşədi İsmayıl bizim

məktəblərdə babadan bəri işlənən köhnə qayda üzrə dərs verməyin qüsurunu anlayıb, üsuli – sövti ilə təlim vermək üçün özü təzə bir əlifba tərtib etmişdir. Amma mərhumun bu işi nə qədər əhəmiyyətli və xeyirli idisə də, köhnə qaydanı sevən və işıqdan bixəbər olan avamlara o, xoş gəlmədi. Mərhumun təzə əlifbasını avam və əhli – qərəz lisanında gülünc və istehza üçün bir alət oldu. Amma möhtərəm müəllim bu istehza və kinayələrə əsla mültəfit olmayıb öz işində sabitqədəm və möhkəm dururdu Məşədi İsmayıl Hacı Kazımzadə «Bəzmi» şeirlərini əsasən farsca və türkcə yazmışdır. Bunların cəmi bir jurnal qədərində olmuşdur. Lakin onları bir yerə toplayıb nəşr etdirən olmadığından çoxu itib batıb. Şeirlərindən çoxu qəzəl, rübai və müxəmməs formasında olub F.Köçərli onlardan nümunə üçün bir neçə qəzəli və bir müxəmməsi öz əsərinə daxil etmişdir.

İlk mənbələr göstərir ki, İrəvanda yeni üsullu (sövtü – üsulla) məktəb açaraq bu sahədə böyük uğurlar qazanan məktəbdarların bir qismi məhz Cənubi Azərbaycandan gələnlər olmuşlar. Bu ilk növbədə onunla izah olunur ki, o vaxtlar Rusiyada geniş yayılan pedaqoji hərəkat təlimin səs üsulu ilə aparılması, K.D.Uşinskinin dərslikləri və xəlqilik ideyası, Qori Müəllimlər Seminariyası onun direktoru D.D.Semyonov və digər mütərəqqi maarifçilər, o cümlədən ZMS-nın Azərbaycanlı şöbəsinin məzunları tərəfindən Cənubi Qafqaza yayılırdı. Bu ideyalar Irəvanda da özünə tərəfdarlar tapırdı. Təbrizdən və başqa yerlərdən buraya gələnlər də yeni təlim üsullarını mənimsəmək üçün məhz Irəvana üz tuturdular. Cənubi

Azərbaycandan İrəvana gələnlər barəsində müfəssəl məlumata, yenə də Azərbaycanın görkəmli maarif xadimi F.Köçərlinin əsərlərində rast gəlirik. Onun iki cilddən ibarət olan «Azərbaycan ədəbiyyatı» adlı monumental əsərlərində ayrı – ayrı şair və yazıçıların yaradıcılığına aid məlumat verilməklə yanaşı həm də onların bir çoxunu məktəb açmasından, müəllimlik etməsindən bəhs edilirdi. Bu mənada həmin əsərin II cildinə daxil olmuş Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov «Müttəli» (Müttəli ərəb sözüıdür. Bilən, xəbəri olan mənasındadır.) adlı məqalə xarakterikdir. Bu yazıda Mirzə Kazımın Irəvanda məktəb açmasına aid çox yığcam, lakin müfəssəl məlumat verilir.

Mirzə Kazım kimdir? Mirzə Kazım əslən İrandan gələn gəlmədir. Onun vətəni Təbriz mahalından Səraba yaxın Bərəğuş adlı qəsəbədir. O, hicri 1248-ci ildə (Miladi 1832) anadan olmuşdur. Ilk təhsilini Təbrizdə almışdır.

Mirzə Kazım çox gənc ikən İrəvana gəlib, əvvəlcə Iran dövlətinin vis konsulluğunda münşilik işlərinə baxarmış.

Sonralar təlim – tərbiyəyə meyilli olduğuna görə bu işdən çıxmış və Irəvanda xüsusi məktəb açaraq müəllimlik etmişdir. F.Köçərli yazır ki, Məktəb işlərini artıq səliqə və qayda üzrə aparıb mübtədilərə üsuli – sövti ilə təlim edərdi.

Mirzə Kazımın məktəbi cümlə Iravən əhlinin rəğbətini qazanmışdı. Onun belə müvəffəqiyyəti öz peşəsini cani – dildən sevməsi və bütün varlığını körpə uşaqların təlim və tərbiyəsinə həsr etməsi ilə izah edilir.

F.Köçərli yazır: Mirzə Kazım cənabları ilə biz yaxın aşina idik və tez – tez onunla görüşüb, təlim və tədris məsələlərindən bəhs və söhbət edərdik. Məhrumun təlim – tərbiyə məsələlərindən səva fikrü zikri yox idi» (yenə orada).

F.Köçərlinin yazdığına görə Mirzə Kazım təlimin üsullarına aid daha çox bilik və məharət kəsb etmək üçün Irəvan gimnaziyasının müdiri cənab Brajnikovun icazəsi ilə hazırlıq sinfinin müəllimi, tanınmış metodist, «xeyli qabil və mahir bir müəllim» olan Çiştyakovun dərslərinə qulaq asardı.

Mirzə Kazım bütün ömrünü Irəvanda yaşamış və orada da vəfat etmişdir.

XIX əsrdə Irəvanda məktəb açanlardan biri də Axund Mirzə Əli olmuşdur.

Axund Mirzə Əli də əslən Iranlı olmuşdur. O, Mirzə Həsən Rüşdiyyənin qardaşı idi. F.Köçərlinin yazdıqlarından:

"Mirzə Kazım ilə bərabər Axund Mirzə Əli cənabları dəxi ol vaxtlarda Irəvanda məktəb açmışdı. Bu cənab artıq qeyrətmənd və çalışqan cavan bir müəllim idi".

Üsuli – cədid aşina olmaq üçün müntəvəffa (yəni rəhmətlik) Çiştyakovun gah evinə və gah klasına tez - tez gəlib, lazım olan məlumatı ondan əxz edərdi. Çiştyakov isə hər iki müəllimlərə artıq mehribançılıq və iltifat göstərib, əldən gələn köməyi müzayiqə etməzdi və özü məktəbdarlarının məktəblərini ziyarət edib, nəzərə gələn qüsurların islahına bəzli – himmət edərdi» (yəni səy göstərirdi).

O dövrdə İrəvanda yeni üsullu məktəb açanlardan biri də Mirzə Abbas Məhəmmədov olmuşdur. F.Köçərli bu məktəbdar

haqda çox qısa məlumat verir. O yazır ki, "…sabiqdə o da İrəvanda məktəbdar idi və əhli mərifətlərdən biri hesab olunur".

F.Köçərli bu şəxsin əsasən Irəvanlı olmasına və ya onun da Cənubi Azərbaycandan gəlməsinə aid heç bir məlumat vermir.

F.Köçərli öz əsərlərində diqqəti Mirzə Abbas Məhəmmədovun pedaqoji fəaliyyətindən daha çox, onun, yəni M.A.Məhəmmədovun yuxarıda adı çəkilən Mirzə Kazımın dərsliklər yazmasına şahidlik etməsinə diqqəti yönəldir. F.Köçərli deyir ki, Mirzə Abbas Məhəmmədovun yazmağına görə, mərhum Mirzə Kazımın beş cildlik kitabı qalıbdır ki, onlardan dördünü təlim – ətfal üçün (yəni uşaqların təlimi üçün) tərtib etmişdir. Görünür bu kitabblar dərslik və ya dərs vəsaiti olmuşdur. Əlbəttə o zamanlar məktəb açmaqla bərabər şagirdlər üçün dərslik və ya tədris vəsaiti hazırlamaq da kitab müəllifinin yüksək pedaqoji biliyə malik olmasından, onun ustad pedaqoq olmasından xəbər verir.

Lakin F.Köçərli çox məyusluqla onu da xəbər verir ki, təəssüf ki, onlardan yəni kitablardan biri bu hala kimi çap olunmayıblar. F.Köçərli Mirzə Kazımın kitablarının adlarını da qeyd edir. Bunlar aşağıdakılardır:

1) Elmi – hesab, 2)Sərfü – nəhvi – farsi («fars dilin qrammatikası), 3) Elmi – bəlağət (natiqlik elmi), 4)Vacibati – şəriyyə (şəriətin vacib qanunları), 5) Teatr hekayəsi.

F.Köçərli Mirzə Kazımın ədəbi irsi barəsində də xeyli məlumat verir. Bundan məlum olur ki, Mirzə Kazımın nə qədər əşarı varsa tamamilə fars dilində yazılmışdır. F.Köçərli bu

şeirlərdən bir neçəsini öz əsərinə daxil etmişdir. F.Köçərlinin yazdığına görə Mirzə Kazım yuxarıda göstərilən əsərlərdən əlavə şagirdlərə türk (Azərbaycan) dilində təlim etmək üçün nəsrdən və nəzmdən bir kitabça dəxi tərtib etmişdir. Bu kitabçanın mündəricəsi, yəni məzmunu xırda-para hekayələrdən, nağıllardan və düzgülərdən (ağız ədəbiy-yatından ) ibarət olmuşdur. Düzgülərin çoxusunu Mirzə Kazım özü yazmışdı. Bu düzgülər uşaqların ağızda söylədiyi «üşüdüm ha üşüdüm, dağdan alma daşıdım» vəzn və bəhrində tərtib olunmuş mənaca bir – birilə əlaqəsi olmayan sözlərə bənzəyir.

F.Köçərli yazır: Mirzə Kazım bu düzgüləri yazmaqdan qəsdi uşaqları oxumağa həvəsləndirmək idi. Əzbəs ki, belə yüngül vəzndə yazılan şeirlərə uşaqların meyli və həvəsi artıq olur və bunları oxumaq da asandır. Necə ki, sabiqdə zikr olundu, mərhum Əhməd bəy Cavanşir (Əhməd bəy Cavanşir (1828-1903) Azərbaycan tarixçisi, Qarabağ xanları nəslindəndir. Bədii yaradıcılıqla məşğul olmuş, uşaqlar üçün mənzum «Asar-i Əhməd bəy Cavanşir» (Tiflis, 1906) və Azərbaycan zərb – məsəllərindən ibarət dördcildlilik əsərlərin müəllifidir. Çox təəssüf ki, bu nadir əsərlər bizə gəlib çatmamışdır) dəxi öz övladını oxuyub yazmağa həvəsləndirmək üçün bu vəzndə qisim – qisim hekayətlər tərtib etmişdir.

Mirzə Kazımın çox mühüm xidmətlərindən biri də mövcud əlifbada islahat aparmaq, yeni yazı qaydaları (hürüfat) icad etməsidir. Müəllifin fikrincə islam millətin xətt və kitabəti və yazı aləti o qədər dolaşıq və çətindir ki, uşaq üçün onu

öyrənməkdən ağır bir şey yoxdur. Mirzə Kazım demək istəyir ki, Quran mütailəsində ömürlər çürüdən kəsrlər yenə də onu avazla dürüst və qələtsiz oxumaqda acizdirlər və buna da səbəb hürüfatımızın qüsurudur. F.Köçərli yazır:

Mirzə Kazım əlifbamızın dəyişdirmək məsələsini çox əhəmmü əlzəm məsələlərdən birisi hesab edib mərhum Mirzə Fətəli Axundov kimi tərəqqi yolunda geridə qalmağımızı əlifbamızın qüsurundan görürdü. Mərhum təzəməslək adamlardan olduğuna görə, məişətimizin hansı bir tərəfi köhnəlib, çürüyüb, işə və vecə yaratmadığını gördükdə onu kəsib atmağı və reformanın hər işdə lazım olmağını əhib-baları məsləkində daim söyləyirdi.

Mirzə Kazım vəfat edibdir hicrətin 1310-cu (miladi 1892) ilində vəba naxoşluğundan ki, Irəvanda haman ilin yay fəslində artıq şiddət edib, çox adam tələf eləmişdi».

Yuxarıda deyilənlərdən məlum olur ki, XIX əsrin ikinci yarısından etibarən və bütün Cənubi Qafqazda meydana gələn yeni tipli məktəb hərəkatı tezliklə Qərbi Azərbaycana da nüfuz etmişdir.

Yeri gəlmişkən qeyd edək ki, Cənubi Qafqazda başlanan yeni məktəb hərakatının Iran, Cənubi Azərbaycan maarifinin inkişafına təsiri mətbuatda kölgədə buraxılır və ya inkar edilir. Lakin, o dövrün mətbuatından və son zamanlar aparılan tədqiqatların nəticəsindən aşkar olur ki, Cənubi Qafqazda başlanan yeni məktəb hərakatının Iran və Cənubi Azərbaycan xalq maarifinin tərəqqisinə əsaslı təsir göstərmişdir.

Araşdırmalar göstərir ki, o zamanlar yəni XIX əsrdə və XX əsrin əvvəllərində ölkələr, xalqlar və dövlət arasında ölkəyə sərbəst gedib – gəlirdi. Bu mənada bəhs etdiyimiz dövrdə İrəvandan və ya Naxçıvandan Təbrizə və Təbrizdən İrəvana, Naxçıvan və ya başqa bir şəhərə getmək, orada sakin olub fəaliyyət göstərmək sahəsində elə bir maneçilik yox idi.

Yuxarıda qeyd etdiyimiz kimi Təbrizdən gəlib Irəvanda məktəb açmaq, yeni təlim üsullarını öyrənib Vətənə qayıdanlar olduğu kimi Irəvandan Təbrizə və ya Cənubi Azərbaycanın digər şəhərlərinə gedib orada pedaqoji fəaliyyət göstərənlər də olmuşdur. Onlardan biri də Cabbar Baxçaban Irəvanidir.

Mənbələrdə deyildiyinə görə C.Baxçabaninin əslən Irəvanlı olan atası Əsgər kişi tanınmış memar olub. C.Baxçabani şəmsi qəməri təqvimlə 1264, miladi təqvimlə 1886-cı ildə anadan olmuşdur. O, ilk təhsilini Irəvandakı Şah Abbas məscidində alıb. Ailə vəziyyəti çətin olduğundan təhsilini yarımçıq qoymağa məcbur olmuş və atasının yanında peşəsini öyrənməyə başlamışdır.

Gənclik dövründə Irəvanda gizli yollarla evlərdə müsəlman qızlarına dərs demişdir.

Bir müddətdən sonra o, «Qafqaz» qəzeti və «Molla Nəsrəddin» yumoristik jurnalında çalışan satirik şairlərdən biri olmuşdur. 1913-cü ildə Irəvan şəhərində nəşr olunan və geniş yayılan "Lək-lək" yumaristik jurnalında redaktor vəzifəsində çalışmışdır.

Baxçabani birinci dünya müharibəsinin son ilində Türkiyəyə gndib Iğdır şəhər idarəsinin təhvildarı olmuşdur bir

az sonra həmin şəhərin qubernatoru vəzifəsinə keçmiş və osmanlılar məğlub olduqdan sonra Irəvana qayıtmışdır. O vaxtlar Iəvanda azərbaycanlılara qarşı keçirilən soyqırımı ilə əlaqədər 1919-cu ildə Cənubi Azərbaycana getməyə məcbur olmuşdur.

Cabbar Baxçabani Irəvandakı maarifçilik fəaliyyəti ilə bərabər Cənubi Azərbaycan maarifçilik tarixində də özünə məxsus yer tapmışdır.

O, əvvəllər Iranın Mərəd şəhərindəki «Əhmədiyyə» mədrəsəsində müəllimlik etdikdən sonra, Iran maarifçilik tarixində ilk dəfə olaraq lal-karlar üçün xüsusi məktəb açmışdır. Cabbar Baxçabani görmə və eşitmə nemətlərindən məhrum olmuş uşaqlara yenidən həyat bəxş etmişdir. O, bu sahədə Iran məktəb tarixində geniş iz qoymuşdur.

Hacı Məhəmməd Naxçıvani adlı bir maarifçinin fəaliyyəti də maraqlıdır. **Hacı Məhəmməd Naxçıvaninin** adı bütün İranda kitab və mədəniyyət sevənlər arasında xüsusi bir sevgi və ehtiramla çəkilir. Bu şəxs Iran mədəniyyəti tarixində nadir şəxsiyyətlərdəndir ki, həm şair, həm tədqiqatçı alim, həm mütərcim, həm də maarifpərvər kimi məşhurdur.

Onun İran maarifçilik tarixində ən ümdə xidmətlərindən biri, Təbriz Milli Kitabxanasının təməlini qoyması olmuşdur.

Onun atası Hacı Əli Abbas Naxçıvani dövrünün tanınmış ticarətçilərindən olmaqla yanaşı, həm də Qurani – Kərimin təçvid üsulu ilə oxunması üzrə müəllim olmuşdur.

Hacı Məhəmməd Naxçıvani qəməri 1297-ci ildə, miladi 1919-cu ildə anadan olmuşdur. Ilk təhsilini Təbriz

mədrəsələrindən birində almışdır. Sonralar onda kitablara, o cümlədən əlyazmalara maraq oyanmışdır. O, fəaliyyəti dövründə, bir sıra şərq ölkələrini (Pakistan, Misir, Əfqanıstan və s.) gəzməklə külli miqdarda nadir əlyazmalar toplamışdır. Avropa ölkələrinə səyahət edərkən öz sevdiyi peşəsinə sadiq olduğunu bildirərək, Avropanın ən qədim kitabxanalarında olmuş və oradan Şərq, Azərbaycan, Iran tarixinə, ədəbiyyatına dair olan xeyli əlyazmasının üzünü köçürərək Təbriz Milli Kitabxanasına gətirmişdir. Həmin əlyazmalar bütövlükdə bütün Azərbaycanın, Iran tarixinin, ədəbiyyatının öyrənilməsində müstəsna rol oynamışdır.

**Əsası 1747-ci ildə Mir Mehdi xan tərəfindən qoyulan İrəvan xanlığı** Ağrıdağ ovasını, Göyçə gölünün sahillərini, Araz çayını əhatə edirdi. Xanlıq Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı İmperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları və

Qarabağ xanlığı ilə həmsərhəd olmuşdur. Xanlığın mərkəzi İrəvan şəhəri olmuşdur.

İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması faktları Qafqazın ali baş komandanı general Paskeviçin rəsmi məlumatlarında da qeyd edilmişdir.

ABŞ-dan olan professor Kastin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin yerli türklər olduğunu göstərmişdir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə

(81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi.

Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bu bölgə böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq elmi tarixində xeyli "İrəvani" təxəllüslü məşhur şəxslərə rast gəlmək olur.

**Mirzə Qədim İrəvani (1825-1875**) məşhur rəssam və nəqqaş olmuş, bir çox əsərləri Sankt-Peteburqda-Ermitajda saxlanılır. Onun atası Məhəmməd Hüseyn məşhur sənətkar, taxta üzərində oyma sənətinin mahir ustalarından olmuşdur. Mirzə Qədim İrəvanda ibtidai təhsil aldıqdan sonra elə burada da "Üsuli-cədid" məktəbini bitirmiş, Tiflisə gedərək orada progimnaziyanı qurtarmışdır. 1840-cı ildə İrəvana qayıtmış Mirzə Qədim ömrünün sonunadək burada yaşamış və yaratmışdır. Yaradıcılığının ilk illərində rəssam kağız, şüşə və güzgü üzərində portretlər işləmişdir. Bu portretlər arasında "Süvari", "Rəqqasə", "Dərviş" xüsusi olaraq seçilmişdir. Onun əsərlərində Fətəli şah Qacar, onun oğlu şahzadə Abbas Mirzə, sonuncu İrəvan xanı Hüseynqulu xanın portretləri də xüsusi maraq kəsb edir. İrəvandakı Sərdar sarayının içərisindəki son divar rəsmlərini və portretlərini də 1850-ci ildə Mirzə Qədim

İrəvani işləmişdi.

Mirzə Qədim İrəvani eyni zamanda xalq sənətini dərindən bilən, əsərlərində bu tükənməz sərvətin gözəl ənənələrindən bacarıqla istifadə edən mahir ornamentalist rəssam olmuşdur. Onun əsərlərində xalça, mürəkkəb naxışlı şəbəkə, adamların geyimi və ev əşyasının üzərində çəkdiyi müxtəlif biçimli ornament bəzəkləri bunu sübut edir. Onun Sankt-Peterburqda Ermitaj muzeyində saxlanılan güzgünün qapıları üzərində çəkdiyi gül və çiçək təsvirləri də xüsusilə yüksək bədii zövq və böyük sənətkarlıqla işlənmişdir. Görkəmli rəssam Mirzə Qədim İrəvani 1875-ci ildə vəfat etmişdir.

**Hacı Süleyman ibn Salman Qacar İrəvani** - XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi olmuşdur. 600-dən artıq dərman bitki növünün müalicəvi əəhəmiyyətini yazmış Hacı Süleyman Qacar İrəvani Azərbaycan siyasət və mədəniyyət tarixində mühümm rol oynamış və İrəvan xanlığını idarə edən Qacar nəslinin nümayəndəsi olmuşdur.

**Şeyxülislam Fazil İrəvani (1782)** - XIX əsrdə Qafqazın Şeyxülislamı olmuşdur.İlk təhsilini İrəvanda, mədrəsədə almışdı. 20 yaşında ikən ali dini təhsil almaq üçün Misirə gedərək dünyada məşhir olan "Əl-Əzhər" ali təhsil verən mədrəsəsində təhsil almışdır. O fiqh və üsuli-fiqh elmlərinin incəliklərinə yiyələnmiş, sonra elm paytaxtı sayılan Nəcəfi-əşrəfdə yaşamış burada böyük alimlərdən dərs almışdır. Dərin dini biliyi ilə yanaşı, iman, əxlaq, mənəviyyat və təqva (ruh və nəfsin hifz edilməsi) baxımından da çox yüksək səviyyədə olan Fazil İrəvaniyə "Hindistan, Türkiyə, Qafqaz, İran və Rusiyadan

şəriət vergiləri (xüms, zəkat) göndərilirdi" (Rəhimov). Dünya malından çox elmə, əxlaqa, mənəviyyata önəm verən, zahidanə həyat tərzi yaşayan bu imanlı ziyalı ona göndərilən xüms-zəkat pullarını da son qəpiyinə kimi dini elmləri öyrənən tələbələrə və digər lazımlı işlərə sərf etmişdir. Fazil İrəvanini öz müasirləri, xüsusilə, müctəhidlər arasında böyük nüfuza malik olmuşdur. Misirin Əl-Əhzər universitetinin məzunu, uzun müddət İraqda (Nəcəf), İranda (İsfahan və Təbriz) axundluq etmiş dah sonra Qafqazın II Şeyxülislamı olmuş şərəfli ömrünü İslam maarifini, islam fəlsəfəsini öyrənməyə və öyrətməyə həsr etmiş, Şərq tarixi və dini elmlərə aid bir neçə risalənin, həmçinin "İrəvan tarixi" kitabının müəllifi kimi Şərqdə böyük şöhrət qazanmışdır.

Elə böyük alimlər də olmuşdur ki, onlar İrəvani nisbəsi ilə deyil, öz dövrü üçün mühüm olan başqa bir şəhərin (və ya əyalətin) adını özünə nisbə götürmüşdür. Bu adamlar da öz vətənlərinin əzəli Azərbaycan torpaqları olmasını sübut edən bir fakt kimi özlərinə nisbə, "təxəllüs" seçmişlər. Belə şəxslərdən biri qədim zamanlarda yaşamış Əbül-Fədl İsmayıl ibn Əli ibn İbrahim əl-Gəncəvi kimi böyük alim fiqh və hədis elmlərini Əli əl Masisi kimi mötəbər alimdən dərs almışdır. Əli əl-Masisi on birinci yüzillikdə yaşamış böyük alim olmuşdur.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

***1881-ci il, 8 noyabrda fəaliyyətə başalayan İrəvan Müəllimlər Seminariyası 37 il fəaliyyət göstərmiş və bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.***

İrəvan Müəllimlər Seminariyası Rusiya İmperiyasının Dövlət Şurasının 20 oktyabr 1880–cı il tarixli qərarına uyğun olaraq yaradılmışdır. Rusiya İmperiyası Dövlət Şurasının üç maddə və qətnamədən ibarət olan 20 oktyabr 1880–cı il tarixli qərarında qeyd edilirdi: "İmperiyada Müəllimlər Seminariyası və Zaqafqaziya Müəllimlər Seminariyası haqqında Əsasnamələr əsasında Kutaisi və İrəvan quberniyalarının hər birində bir Müəllimlər Seminariyası açılsın. Ştatların layihələri üzrə Seminariyaların saxlanması üçün Kutaisi Seminariyasına 27.800 rubl, İrəvan Seminariyasına 28.350 rubl keçirilsin**"**.

İrəvan Müəllimlər **S**eminariyası Qafqaz məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında müstəsna rol oynamışdır. Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü İrəvan Müəllimlər Seminariyası məzunlarının fəaliyyəti ilə bağlıdır. Bu məzunlar xalq kütlələri arasında savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər. Görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərli bu təhsil ocağında 10 il çalışmışdır.

Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42

şagird cəlb edilmişdi.

Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən bura təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır.

**Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur.** Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

İnqilabdan əvvəlki Qafqazın ən qiymətli sorğu nəşrlərindən biri olan və Tiflisdə, Qafqaz Canişinin Baş İdarəsinin nəzdində dərc edilmiş və Qafqaza aid statistik, sorğu və adres məlumatları toplanmış “Кавказский Календарь”da dərc olunmuş məlumatlara görə, Axund Məmməd Bağır Qazızadə 1883–cü ildən başlayaraq uzun illər ərzində İrəvan müəllimlər seminariyasında Azərbaycan dili fənnini və şəriət dərslərini tədris etmişdir. İrəvan müəllimlər seminariyasında Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsi təsadüfi deyildi. Çünki bu seminariya xalqımızın tarixən qədim

torpaqlarından sayılan İrəvan mahalında yaradılmışdı. Həmin mahalda yaşayan əhalinin əksəriyyətini Azərbaycan türkləri, müsəlmanlar təşkil edirdi. Seminariyada Azərbaycan dilinin və şəriətin tədris edilməsi dövrün tələbi idi. Təhsil almaq üçün seminariyaya gəlmiş azərbaycanlı gənclər ilk pedaqoji təhsillərini aldıqdan sonra həyat fəaliyyətlərini azərbaycanlıların yaşadığı kəndlərdə ibtidai məktəblərin yaradılması işinə və yaxud mövcud ibtidai kənd məktəblərində müəllimlik peşəsinə həsr edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər.

İrəvan Müəllimlər Seminariyası fəaliyyətə iki qrupla başlamışdır: böyük hazırlıq qrupu və birinci sinif. Sonrakı dərs ilində ikinci sinif, 1883-cü ildə isə üçüncü sinif təşkil edilmişdi. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət olmuşdur. Hər il müəllimlər seminariyasının hazırlıq qrupuna və I sinfə qəbul elan edilirdi. II və III siniflərə birbaşa qəbul olunmağa icazə verilmirdi. Əsasnaməyə görə seminariyaya yalnız oğlanlar qəbul oluna bilərdi. Qəbul imtahanları ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən aparılırdı.

1883-1884-cü tədris ilində hazırlıq qrupunda həftəlik dərs saatlarının miqdarı 36 saat, I sinifdə 38 saat, II sinifdə 39 saat, IV sinifdə isə 40 saat olmuşdu. Sonrakı illərdə şagirdlərin və müəllimlərin sayı artmışdı.

İrəvan Müəllimlər Seminariyasının ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur. Belə ki, həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdi. Bu məzunlar İrəvan və Yelizavetpol quberniyalarında, Bakıda, Dağıstanda, Kutaisidə və Stavropolda pedaqoji fəaliyyətlə məşğul olmuşlar. İrəvan Müəllimlər Seminariyasının məzunlarından bir çoxları təyinatlarına uyğun işlə təmin oluna bilmədikləri üçün müəllimlik sənətini ataraq qeyri-pedaqoji peşələrdə də işləmişlər. Bu haqda görkəmli pedaqoq Firidun bəy Köçərli yazırdı: "1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhimbəy Qayıbova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu. O da bir-iki sənə kənd müəllimliyi edib özü üçün tərəqqi yolu görməyib, okrujnoy sud (dairə məhkəməsi) məhkəməsində qulluğa girdi". Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənəddən məlum olur ki, 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasının tərkibində xəzinə hesabına 6 ibtidai məktəb də fəaliyyət göstərmişdir. Həmin məktəblərin 2-si şəhər, 4-ü isə kənd məktəbi olmuşdur.

Seminariyanın nəzdində nümunə təcrübə məktəbi-ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər öz pedaqoji təcrübələrini bu məktəbdə keçirir, ibtidai məktəbin tədbirlərində iştirak edir, şagirdlərlə müxtəlif oyunlar təşkil edir, müəllimin ən yaxın köməkçisi rolunda çıxış edirdilər. 1882-1883-cü tədris ilində ibtidai məktəbdə 61 şagird təhsil alırdı ki, onlardan da 13- ü azərbaycanlı, 38-i erməni, 10-u rus millətinin nümayəndələri idi. 1889-1900-cü illərdə şagirdlərin sayı 82 nəfərə çatmışdı. Nümunə məktəbinin müdiri ayrı-ayrı vaxtlarda V.A.Muxin, A.Suvorov, ilk azərbaycanlı müəllimi isə

Məşədi Bağır Qazızadə olmuşdu. Aşağı hazırlıq sinfində azərbaycanlı uşaqları həftədə 5 saat rus dili, 5 saat riyaziyyat, 4 saat ilahiyyat, 2 saat tarix, 2 saat coğrafiya, 2 saat fizika, 2 saat təbiətşünaslıq, 2 saat nəğmə, 2 saat hüsnxət, 2 saat rəsm, 2 saat rəsmxət (həftədə cəmi 30 saat) öyrənirdilər. Azərbaycanlı uşaqlar rus dilini, rus adət-ənənəsini, tarixini və coğrafiyasını öyrəndikdən sonra xristian uşaqları ilə birlikdə oxuya bilərdilər. Aşağı hazırlıq sinfinə rus dilini bilməyən uşaqlar qəbul olunurdu. Azərbaycanlı şagirdlərin aşağı hazırlıq siniflərinə daxil olması və seminariyada 5 il oxuması məcburi deyildi. Siniflər komplektləşdirilərkən şagirdlərin hazırlıq səviyyələri nəzərə alınırdı. Rus dilində danışmağı bacaran, müəyyən hazırlıq səviyyəsi olan şagirdlər yuxarı hazırlıq siniflərinə, yaxud birinci sinfə qəbul edilirdi. Seminaristlər 2-ci sinifdə 4 saat, 3-cü sinifdə 8 saat ibtidai məktəbdə təcrübədə olurdular.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da xeyli var idi.

Seminariyada tədris ili 38 tədris həftəsindən, təxminən 210-215 gündən ibarət (bayram günləri istisnasız) olurdu. Seminaristlər üç il müddətində Azərbaycan dili ilə bərabər, ilahiyyat, rus dili, riyaziyyat, tarix, coğrafiya, fizika, təbiətşünaslıq, pedaqogika, nəğmə, hüsnxət, rəsmxət, rəsm, gimnastika fənlərini öyrənirdilər. Rusiyada digər tədris

müəssisələri kimi, seminariyaların da tədris planları tez-tez dəyişdirilirdi. Məsələn, 1890-cı ildə təsdiq edilən Müəllimlər Seminariyalarının tədris planında 1 və 2-ci siniflərdə həftədə 24, 3-cü sinifdə 20 saat tədris yükü nəzərdə tutulmuşdu.

Gimnastika və əl işləri yerli dillər (Azərbaycan dili, erməni dili) kimi fakültativ məşğələlərdə öyrədilirdi. Tədris planının xeyli zəngin olmasına baxmayaraq, seminariyanı bitirənlər həmin dövrdə təhsillərini yalnız o qədər də yüksək statusu olmayan müəllimlər institutlarında davam etdirə bilərdilər. Yarandığı gündən funksiyası ibtidai məktəblər üçün müəllim hazırlamaq olan seminariyalar statusuna görə, ibtidai məktəbdən yuxarı, orta məktəbdən aşağı idi. Ona görə də hələ 1908-ci ildə dövlətin bu siyasətini kəskin tənqid edən P.Klunnıy müəllimlər institutlarının məzunlarını *"universitetlərin bağlı qapılarını döyənlər"* adlandırırdı. 14 may 1917-ci ildə müəllimlər seminariyalarının və müəllimlər institutlarının statusları müzakirə edilərək hər iki təhsil müəssisəsinə orta məktəb statusu verildi. Həmin dövrdə İrəvan Müəllimlər Seminariyası Armavirdə fəaliyyət göstərirdi. Həmin dövrdə Rusiyada kənd məktəbləri üçün müəllim kadrları hazırlığında müəllimlər seminariyaları mühüm rol oynayırdı. Bu səbəbdən də müəllim seminariyalarının sayı ildən-ilə artırdı. **İrəvan Müəllimlər Seminariyasının ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur**. Belə ki, həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdi. Bu məzunlar İrəvan və Yelizavetpol quberniyalarında, Bakıda, Dağıstanda, Kutaisidə və Stavropolda pedaqoji fəaliyyətlə məşğul olmuşlar. İrəvan

Müəllimlər Seminariyasının məzunlarından bir çoxları təyinatlarına uyğun işlə təmin oluna bilmədikləri üçün müəllimlik sənətini ataraq qeyri-pedaqoji peşələrdə də işləmişlər. Bu haqda görkəmli pedaqoq Firidun bəy Köçərli yazırdı: "1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhimbəy Qayıbova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu. O da bir-iki sənə kənd müəllimliyi edib özü üçün tərəqqi yolu görməyib, okrujnoy sud (dairə məhkəməsi) məhkəməsində qulluğa girdi". **Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur.** Məzunlar içərisində 25 nəfər azərbaycanlı var idi ki, bu məzunlar İrəvan qəza məktəblərində, Naxçıvanda, Uluxanlıda dərs deməyə başlamışlar. **Seminariyanın ikinci buraxılışı beş ildən sonra -1890-cı ildə olmuşdur.** Bu buraxılışda 69 nəfər azərbaycanlı məzun olmuşdur.

**İrəvan Müəllimlər Seminariaysının müsəlman şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur: İrəvan Müəllimlər Seminariyasının məzunları** Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərirdilər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli

Qəmərlinski, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda həm də III dərəcəli xüsusi məktəb açmağa nail olmuş və eyni zamanda açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir.

1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmağa nail olmuşdur. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fərəməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər.

**İrəvan Müəllimlər Seminariyasının müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Məmmədbağır Qazızadə**

**və Axund Məmmədbağır Kazımzadə Qasım Qənbərov Azərbaycan dili və ədəbiyyat müəllimi, Firidun bəy Köçərli 1885-1895 ana dili və şəriət müəllimi, Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərli, Axund Məmmədbağır Tağızadə, Məmməd Axundov, K.Şulgin, Mirzə Abbas Məhəmmədzadə, İsmayıl bəy Şəfibəyov, Cabbar Məmmədzadə hüquq fənnindən, Mixail Klopov rus dili fənnindən və başqaları dərs demişlər.**

İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili müəllimi vəzifəsində Axund Məmmədbağır Qazızadə (1881-1897), Rəhim Xəlilov (1898-1903), Həmid bəy Şahtaxtinski (1904 -1917), şəriət müəllimi vəzifəsində isə Axund Məmmədbağır Qazızadə (1881-1911) və Axund Əbülhəsən Qazızadə (1912-1917) işləyiblər. İrəvan Müəllimlər Seminariyasının məzunu olan Həbib bəy Səlimov (Azərbaycan Xalq Cümhuriyyətinin generalı) az bir müddətdə seminariyada gimnastika (fiziki tərbiyə) müəllimi olub.

Görkəmli maarifpərvər, pedaqoq **Firudin bəy Köçərli** İrəvanda çalışarkən İrəvan şəhər mədəni mühitinin köhnə ənənələrdən uzaqlaşması, yeni müasir elmi dünyagörüşünün formalaşması uğrunda geniş fəalikyyət göstəriridi. Yeni dünyagörüşünün yayılması qarşısında xüsusilə cəhalətpərəst din xadimləri dururdular. İrəvana gəldikdə mühitlə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvan 202 üləmaları çox geridə qalmış, onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta "Tərcüman" qəzetini oxumağı, mühəriri sünni olduğu üçün qadağan edirlər. Bunlar başa düşmürlər ki,

inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir".

**Mirzə Məmmədvəli Qəmərli**1901-1911 -ci illərdə İrəvan Müəllimlər Seminariyasında dərs demişdir.

Mirzə Məmmədvəli Qəmərli 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirib, 1900-cü il martın 13-də İrəvan quberniya məclisində imtahan verərək müəllim adı almış, 1901-1911-ci illərdə İrəvan rus-tatar seminariyasında müəllim işləmişdir. Son vaxtlar aparılmış axtarış və araşdırmalardan bəlli olur ki, Məmmədvəli Qəmərlinin atası Əli Qəmərli çar ordusunun generalı olmuşdur. Babasının yolunu davam etdirən Məmmədvəlinin oğlu Hüseyn Qəmərli də türk ordusunun generalı rütbəsinə yüksəlmişdir. İkinci oğlu Əli Qori Müəllimlər Seminariyasını, digər oğlanları Paşa, Adil, Mahmud isə gimnaziya bitirib müəllim işləmişlər

Qəmərlinskilər İrəvan xanlığının mahallarından olan və İrəvan şəhərinə yaxın ərazidə yerləşən Qəmərli (Gərnibasar) mahalının adını özlərinə soyad kimi qəbul etmişlər. "Atalar sözü" kitabının titul səhifəsindən bəlli olur ki, bu toplu İrəvan məktəbi-islamiyyəsinin türk dili müəllimi Məmmədvəli Qəmərlinin əsəridir və 1899-cu ildə İrəvanın "Edelson" mətbəəxanasında çap olunub. 1907, 1908 və 1911-ci illərdə dəfələrlə dərc edilmiş "Ana dili" kitablarının müəllifləri sırasında Məmmədvəli Qəmərlinin də adı vardır. 1926-cı ildən nəşrə başlayan "Zəngi" qəzetinin (sonralar "Sovet Ermə-nistanı") 12 və 19 yanvar 1926-cı il tarixli 5 və 6-cı saylarında "o vaxtın adamı" imzalı bir müəllifin "Ermənistan türklərinin

mədəniyyəti barəsində" məqaləsindən məlum olur ki, Məmmədvəli Qəmərli həm də 1900-cü ildə dərc edilmiş "Vətən dili" kitabının müəllifi olmuşdur. Məqalədə çar üsul-idarəsi dönəmində Azərbaycan türkcəsinin (dilinin) təqiblərə məruz qalmasından, yerli sakinlərin acınacaqlı durumundan, Məmmədəli Qəmərlinin vəziyyətinin ağırlığından, o cümlədən maarif sahəsində çalışan ziyalıların müxtəlif təzyiqlərlə üzləşmələrindən söz açılmışdır. "Kavkazskiy kalendar"ın 1900-cü il məcmuəsinin 335-ci səhifəsində Rəhim Xəlilovun həm Uluxanlı məktəbinə, həm də özünü layiqli müəllim kimi təqdim etdikdən sonra İrəvan Müəllimlər Seminariyasına türk dili (Azərbaycan dili)dərslərini demək üçün dəvət olunduğu göstərilmişdir.

**İrəvan Müəllimlər Seminariyasının məzunlarından aşağıdakıların adlarını çəkə bilərik:**

**Həbib bəy Səlimov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, İbadulla bəy Muğanlinski, Vahid Musabəyov, Həmid bəy Şahtaxtinski, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Mirzə Cəlil Şürbi, Sadıq Xəlilov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbrahim Səfiyev, Məmmədqulubəy Kəngərli, Rəhim Xəlilov, Axund Məmmədbağır Kazımzadə, Məmməd Axundov, Hacı Məmmədəli oğlu, Məmmədbəy Qazıyev, Qasım bəy Camalbəyov, Haşım bəy Nərimanbəyov** və başqaları olmuşdur.

Təəssüf hissi ilə qeyd edək ki, 37 ilə qədər fəaliyyət gös-

tərən İrəvan Müəllimlər Seminariyası 1918-ci ilin avqust ayının 6-da İrəvan gimnaziyası isə Uluxanlı məktəbi ilə eyni vaxtda fəaliyyətini dayandırmışdır. Uluxanlı məktəbi 1920-ci ildə yenidən fəaliyyət göstərmişdir.

Beləliklə, XIX sonu XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının rolu böyük olmuşdur. Burada dərs deyən müəllimlər təkcə tədrislə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində o, cümlədən Naxçıvan bölgəsində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm xidmətlər göstərmişlər. İrəvan Müəllimlər Seminariyası Cənubi Qafqazda pedaqoji hərəkatın inkişafında və müəllim kadrlarının hazırlanmasında xüsusi xidmət göstərmiş, pedaqoji fikrin əsas mərkəzlərindən biri kimi tanınmış və ictimai mühitin formalaşmasına güclü təkan vermişdir.

## İRƏVAN KİŞİ GİMNAZİYASI

**1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyası pedaqoji kadr hazırlığında mühüm rol oynamışdır.**

İrəvan Kişi Gimnaziyasının direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915- ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı.

Gimnaziyanın çox görkəmli tanınmış müəllimləri olmuşdur.

**Firudin bəy Köçərli** 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif

məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə"Təlimi-lisani-türki" adlı dərslik tərtib etmiş, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı "Balalara hədiyyə" kitabı uşaq ədəbiyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

**İsmayıl bəy Şəfibəyov** F.Köçərlidən sonra 1895-ci ildən İrəvan Kişi Gimnaziyasının həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın nəzdində pansionun müdir müavini kimi fəaliyyət göstərmişdir.

**Mirzə Abbas Məhəmmədzadə** XIX əsrin sonları və XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, xüsusən də İrəvanda ictimai-siyasi, mədəni və ədəbi mühitdə barmaqla göstərilən məşhur ziyalılardan biri kimi tanınırdı. Başqa ziyalılardan onu fərqləndirən ən üstün cəhəti zamanının ensiklopedik biliyə malik fars dili mütəxəssisi olması idi. O həm pansionda, həm də İrəvan Kişi Gimnaziyasında fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şeirlər yazması onu daha məşhur etmişdir.

**Molla Tağı Mahmud oğlu** İrəvan Kişi Gimnaziyasında 1836-1856 -cı ilədək, **Mirzə Ələkbər Elixanov** isə 1856-1885-ci ilədək burada dərs demişdir.

Mirzə Ələkbər Elxanov əslən Uluxanlıdandır. Şəhərdəki

Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdır. Onun səs üsulu Həm pansionda, həm də gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şeirlər yazması onu daha məşhur etmişdir.

Onun tərtib etdiyi "Vətən dili" dərsliyi XIX yüzilliyin 80- ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. Sözü gedən əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdilər. "Rus-Azərbaycan" qız məktəbləri əhalinin rəğbətini qazanmışdı.

**İrəvan Kişi Gimnaziyasının görkəmli məzunları olmuşdur:**

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunlarından biri **Eynəli bəy Sultanov** olmuşdu. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-cı ildə İrəvan Kişi Gimnaziyasına daxil olmuş, 1886-cı ildə oradan məzun olmuşdur. Eynəli bəy Sultanova 1886-cı il, 5 iyun gimnaziyanın pedaqoji şurasını qərarı ilə 538 saylı müəllimlik hüququ verən Şəhadətnamə təqdim edilmişdir. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, Qarsda "Mühüm işlər üzrə məmur" vəzifəsində çalışmışdır. Eynəli bəy Sultanov Gimnaziyada oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, habelə

riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat, ədəbiyyat kimi fənnləri də mükəmməl öyrənmişdir.

Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir. Görkəmli ədib folklor toplayıcısı kimi 1886-1890-cı illərdə - 4 il müddətində İrəvan quberniyasını və Naxçıvan diyarını dolaşaraq 3 mindən çox atalar sözü və zərbül -məsəllər, əfsanə və rəvayətlər, Şəbeh xalq tamaşaları, aşıq yaradıcılığı nümunələri toplamışdır. Topladığı folklor materiallarının bir çoxunu 20 məktub vasitəsilə Firudin bəy Köçərliyə göndərmişdir.

E.Sultanov 1882-ci ildə öz evində "Ziyalılar cəmiyyəti", 1883- cü ildə "Müsəlman incəsənəti və dram cəmiyyəti" yaratmış və öz evində ilk teatr tamaşaları təşkil etmiş və özünün yazdığı "Tatarka" ("Azərbaycan qadını". Əsər bəzi mənbələrdə "Sənəm" adı ilə də işlədilmişdir) adlı tamaşa ilə ev şəraitində ilk tamaşa göstərmiş, əsərin baş qəhrəmanı Sənəm obrazını da gənc müəllifin özü oynamışdır. Bu tamaşa qadının ictimai mövqeyi, hüquqları, ailə - məişət həyatı məsələlərinə həsr olunmuşdu ki, o dövr üçün bu çox mühüm və mütərəqqi hadisə idi. C.Məmmədquluzadə "Xatirələr"ində yazırdı ki, ilk dəfə qadın hüquqlarını müdafiə edən Eynəli yoldaşımız olmuşdur. O, ziyalı dostları Cəlil Məmmədquluzadə, Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Mirzə Cəlil Mirzəyev(Şürbi), Əsəd ağa Kəngərli, Qurbanəli Şərifzadə və başqaları ilə birlikdə "Naxçıvanda "Üsuli-cədid" məktəbi və

kitabxana açdırmağa nail olmuşdur. 1892-ci ildə Naxçıvanda yaxın dostu Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edərək burada müxtəlif məzmunlu bəyannamələr də çap etdirmişidr.

İrəvan kişi gimnaziyasının məzunu **Əsədulla bəy Kəngərlinski** İrəvan kişi gimnaziyasının 1887-ci ildə bitirib. Xarkov Universitetinin Hüquq fakültəsinə daxil olub. Əsəd (sənədlərdə Əsədulla) ağa Paşa ağa oğlu Kəngərli nəslinin məşhur Bilici qolundandır. Babası Hüseyn Sultan Rusiya ordusunda xidmət edib, Naxçıvanın çox hörmətli və varlı şəxslərindən biri olmuşdur.

**Mustafa bəy Topçubaşov (1895-1981**)- Akademik. İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur (1904-1914). Daha sonra Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi olmuşdur.

**Əziz Əliyev (1897-1962 ) Akademik.** - İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışmış, Tibb İnstitutunun rektoru olmuş, professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

1918-ci ildə ermənilərin İrəvanda törətdikləri qırğınlarla bağlı o, ailəsini əvvəlcə Naxçıvanın Şahtaxtı kəndinə, oradan isə İrana aparmağa məcbur olmuşdur. 1921-ci ildə yenidən Şahtaxtiya qayıdaraq iki il orada həkim köməkçisi işləmişdir. 1923-cü ilin mayında Bakıya köçmüş və Xalq Komissarları

Şurasında işləmişdir. Bununla yanaşı Tibb İnstitutunda təhsil almış və oranı 1927-ci ildə bitirmişdir.1928-1930-cu illərdə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri və Klinik İnstitutun direktoru vəzifəsində çalışmışdır.1932-1934-cü illərdə Tibb İnstitutunun direktoru, sonra isə Bakı şəhər səhiyyə şöbəsinin rəisi işləmişdir. 1936-1937-ci illərdə Tibb İnstitutunun direktoru və ADU-nun rektoru vəzifələrində çalışmış, həmin ildə doktorluq işini müdafiə etmişdir. 1938-1939-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, 1939-1941-ci illərdə xalq səhiyyə komissarı, 1941-ci ilin martından 1942-ci ilin sentyabrınadək Azərbaycan KP MK-nın katibi, 1948-ci ilin dekabrınadək isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmişdir. 1949-1950-ci illərdə İctimai Elmlər Akademiyasında dinləyici, sonra isə ÜİK(b)P MK-nın inspektoru olmuşdur. 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır. Ə.Əliyev 1952-1956-cı illər ərzində Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun müdiri və Sabunçu rayon xəstəxanasında baş həkimin köməkçisi, 1956-cı ildən ömrünün sonunadək Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru işləmişdir. O, 1962-ci ilin iyul ayının 27-də vəfat etmiş Fəxri xiyabanda basdırılmışdır.

**Əhməd Rəcəbli (1898-1963) Əhməd Rəcəbli** (1898-1963) Akademik. 1907- ci ildə Gimnaziyaya daxil olmuş 8 illik tam kursu 1916-cı ildə gümüş medalla bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur. O, 1923-cü ılı

İtaliyanın Peruçi şəhərində Ali Kral Eksperimental Aqrar İnstitutunu bitirmiş, Bakıya qayıtnış 1924- cü ildə Zaqatala mahalına aqronom təyin olunmuşdur. Həmin il Zaqatala Kənd Təsərrüfatı Texnikumunu təşkil etmiş və 1937-ci ilə qədər ora özü rəhbərlik etmişdir. 1930–1936 – cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri vəzifəsində çalışmışdır. 1935- ci ildə elmi-praktiki fəaliyyətində görkəmli xidmətlərinə görə Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi adı verilmişdir. 1937- ci il həbslər dalğası ona təsir etmiş və həbs edilərək Maqadana sürgün edilmişdir. 1965 – ci ildə vəfat etmişdir.

**Heydər Hüseynov (1908-1950)** - Akademik. Əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji texnikumun kitabxanasında işləmişdir. 1931-ci ildə ADPİ -nin ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1931-1932-ci illərdə Azərbaycan Elmi -Tədqiqat İnstitutunun aspirantı olmuşdur. 1939-cu ildə "M.F.Axundovun fəlsəfi görüşləri" mövzusunda namizədlik, 1944 -cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. 1939- 1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse prezidenti olmuşdur. 1943- 1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan Partiya Tarixi İnstitunun direktoru olmuşdur. O, Bəhmənyar, Nizami Gəncəvi, Bakıxanov, Mirzə

Kazım Bəy, Həsən Bəy Zərdabi və başqaları haqqında 100- dən artıq dəyərli elmi - tədqiqat işləri aparmışdır.

**Mehdi Kazımov - (1890-1954)** İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında rus dili dərsi dərs demiş, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumunun açılmasının təşəbbüskarı və ilk direktoru olmuşdur.

**Miryusif Mirbabayev (1889-1951)** Miryusif Mirbabayev ilk təhsilini İrəvan rus-tatar məktəbində, daha sonra İrəvan Kişi gimnaziyasında almışdır. O, 1916-cı ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra M. Mirbabayev Azərbaycan İrəvandakı diplomatik nümayəndəliyində katib işləmişdir.

Akademik Heydər Hüseynovun rəhbərliyi altında hazırlanmış (1940-1946) 4 cildlik "Rusca-azərbaycanca lüğət"ə görə 1948-ci ildə yüksək dövlət mükafatı verilmişdir. Miryusif Mirbabayev 1951-ci ildə Bakıda vəfat etmişdir.

**Maqsud Məmmədov**- ictimai xadim, 1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru, maarif naziri olmuşdur.

Maqsud Məmməd oğlu Məmmədov 1897-ci ildə İrəvan şəhərində kəndli ailəsində doğulmuşdur. Maqsud Məmmədovu 1920-ci ildən rəhbər partiya işlərinə irəli çəkməyə başlamışlar. O, rektor təyin olunana qədər Azərbaycan SSR-in Ərzaq Nazirliyində, Naxçıvanda Fövqəladə Maliyyə Komissarlığında və s. yerlərdə yüksək vəzifələrdə işləmişdir.1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru təyin olunmuş və bir il bu vəzifədə çalışmışdır. M.Məmmədov

1930-1931-ci illərdə Azərbaycan xalq maarif komissarı, 1931-1933-cü illərdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi kimi yüksək vəzifələrdə çalışmışdı. O, dialektik və tarixi materializmə, SSRİ-də milli məsələlərin həllinə və s. aid xeyli sayda marksizm-leninizm metodologiyası mövqeyindən məqalə yazmışdı.1937-ci ildə M.Məmmədov günahsız yerə həbs edilib güllələndikdən sonra həmin məqalələr də məhv edilmiş və itirilmişdir. O, yalnız 1957-ci ildə ölümündən sonra bəraət almışdır.

**Səid Rüstəmov (1907-1983) -** Görkəmli bəstəkar, dirijor, pedaqoq. Azərbaycanın xalq artisti. 1921-ci ildə o, Bakıya köçərək müəllimlər seminariyasını, 1929-cu ildə Musiqi Texnikumunu və 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakultəsini bitirmişdir.

Səid Rüstəmov musiqi sənətinə ilk dəfə tarzən kimi gəlmiş, bu sənətin sirlərini Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan və tarzən Mansur Mansurovdan mənimsəmişdir. S.Rüstəmov 1931-ci ildə Ü. Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin yarandığı gündən əvvəl konsertmeyster, daha sonra isə həmin orkestrin bədii rəhbəri və baş dirijoru kimi uzun illər fəaliyyət göstərmişdir. 1930-cu illərdə bəstəkarlığa başlayan S.Rüstəmovun ilk əsəri "Bayatı-kürd" muğamı əsasında fantaziya məhz xalq çalğı alətləri orkestri üçün yazılmışdı. Sonralar o, həmin orkestr üçün "Cəngi" və "Qəhrəmani" pyeslərini, üç süita, tar konserti və bir sıra kantatalar bəstələmişdir.

**Daha başqa görkəmli tanınmış şəxsiyyətlər: Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə, Əsədula Bəy Kəngərlinski, Abbasqulu Bəy Şadlinski, Rza Bəy Səfərbəyov, Abbas Ağa Fərəcov, Qulam Fərhadov, Əjdər bəy Hacıbəylinski, Əbdülhəmid Qənizadə, Hüseyn Şahtaxtinski, Rza Ağayev, Əkbər bəy Qazıyev, Həbib bəy Səlimov və başqaları İrəvan Kişi Gimanziyasını bitirmişlər.**

1918-ci il avqustun 6-da İrəvanda erməni daşnaklarının törətdiyi fəlakətlər nəticəsində həm İrəvan Kişi Gimnaziyası, həm də İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayandırmışdır.

## İRƏVAN QIZ PROGİMNAZİYASI

**1884-cü ildə İrəvan Qız Progimnaziyası açılmışdır**. Təhsil rus dilində aparılmışdır. 91 şagirdlik İrəvan qız progimnaziyasında (natamam gimnaziya, 4 və 6 sinifli progimnaziya) Xeyriyyə Cəmiyyəti və pedaqoji Şura yaradılmışdır. İrəvan Qız Progimnaziyanın direktoru Vladimir İosifoviç Brajnikov, gecə dayəsi Varvara Ağayeva olmuşdur.

Qız progimnaziyasında Pansion yaradılmış və burada 8 yaşından 12 yaşınadək olan qız şagirdlər xeyriyyə vəsaiti hesabına, yuxarı yaşlılar isə öz vəsaitləri hesabına məktəbdə təhsil almışdır. Progimnaziyada təhsil alan pansioner qızlar cəmi 150 manat təhsil haqqı ödəyirmişlər, ilk əvvəl qəbul üçün 36 manat, ilin sonunda isə sinifdən-sinfə keçəndə bir qayda olaraq 30 manat vəsait daxil edirmişlər.

**Qız progimnaziyanın məzunları - Tacıxanım Bağırbəyova, Kübra Bağırbəyova, Bülbül Kazımova, Fatma Əlizadə, Leyla Fərəcova, Nuşi Əlixanova, Firuzə Qazıyeva, Fərəh Axundova, Rübabə İbrahimova, Münəvvər Əlixanova, Gülruh Qədimbəyova, Gövhər İsmayılova, Siddiqə Abbasova, Sona Qocayeva və başqaları regionda qadın təhsilinin inkişafında mühüm rol oynamış və onlar özləri də yeni qız məktəbləri açmışlar.** Məhz onların sayəsində 1905 -ci ildə İrəvan Müsəlman Qız Məktəbi yaradılmışdır. Buranın müdiri Fatma xanım Qədimova (Qədimbəyova) olmuş və o burada Məmmədəli Qəmərlinski, Tərlan Sultanova və başqaları ilə birlikdə çalışaraq qızların təhsilində mühüm xidmətlər göstərmişlər.

**Fatma xanım Qədimova** 1920 -ci illərdə öz evində də qız məktəbi açmış, savad kursları yaratmış, soydaşlarının təlim - tərbiyəsi ilə məşğul olmuşdur.

Beləliklə, deyə bilərik ki, pedaqoji kadrların hazırlanmasında İrəvan pedaqoji mühitinin rolu və xidmətləri böyük olmuşdur. Bu mühitin müəllimləri, tələbələri yalnız tədris işləri ilə məşğul olmamış, həm də böyük ictimai- siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmiş, teatr tamaşaları yaratmış, xalqın maariflənməsində fədakarcasına çalışmışlar.

## İRƏVAN TÜRK PEDAQOJİ TEXNİKUMU

**XX əsrin ilk illərindən başlayaraq İrəvanda müxtəlif tipli məktəblər yaradılıb fəaliyyət göstərmişdir.**

1922 -ci ildə İrəvanda 7 illik Azərbaycan orta məktəbi təşkil olundu ki, bu məktəbin direktoru İsmayıl Babayev idi. Bu məktəb 1929 cu ildə 9 illik məktəbə, 1935-ci ildə M.F.Axundov adına 10 illik tam orta məktəbə çevrilmişdir.

1922- ci ildə İrəvanda Puşkin adına 7 illik orta məktəbi də yaradılmışdı ki, bu məktəbin direktoru Məmməd Əliyev idi. Daha sonralar bu məktəb M.Əzizbəyov adına tam Azərbaycan orta məktəbinə çevrildi ki, direktoru Adil Süleymanov, dərs hissə müdiri Təvəkkül Kərimov oldu.

**1924-cü il oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açılmlş, 1925-ci ildən isə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandırılmış, 1935-ci ildə isə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi adlanmışdır.**

**1924-cü il, 15 oktyabrda İrəvan Türk Pedaqoji Texnikumu açılmışdır.** Texnikum 1949 - cu ilə qədər fəaliyyət göstərmişdir. Bu texnikumun yaradılmasının ilk təşəbbüskarı **Mehdi Kazımov** (1890-1954) olmuş və özü də buranın ilk direktoru olmuşdur. O İrəvan Kişi Gimnaziyasını bitirmişdir. Mehdi Kazımov ömrünün 50 ilini İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin inkişafına sərf etmişdi. **İrəvan Türk Pedaqoji Texnikumunda pedaqoji fəaliyyətə başlayan Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə,**

**İsmayıl Babayev və digər ziyalılar çalışmışlar.**

**Məktəbin tanınmış müəllimlərindən Əsəd Məmmədov, Əjdər Kazımov, Qadir Məmmədov, Məmmədəli Məhərrəmov, Əli Həsənov, Tağı Məhərrəmov, İsmayıl İsmayılov, Qulam Namazov və başqaları isə İrəvan Pedaqoji Texnikumun məzunları olmuşdur.**

**Azərbaycanın bir çox görkəmli ziyalıları - Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal Paşayev, Yusif Məmmədəliyev və başqaları bu pedaqoji məktəbdə olmuş, tələbələrlə görüşmüş və müəyyən dövrlərdə dərs demişlər .**

1934-cü illərdə isə pedaqoji texnikumda Azərbaycan dili və ədəbiyyatından **Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən - Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, fızika və riyaziyyatdan Məmməd Həsənov və Kərəm Abbasov kimi işıqlı simalar dərs demişlər.**

Azərbaycanın bir çox görkəmli ziyalıları - **Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşlar.**

Texnikumda yüksək səviyyəli alitəhsilli pedaqoqların olması tədrisin keyfiyyətinin daha da yüksəlməsinə səbəb olmuşdu. Bu texnikum Cənubi Qafqazda ali məktəb səviyyəsində böyük uğur qazana bilmişdi. İrəvan Türk Pedaqoji Texnikumu 1934-cü ildə Ümumittifaq texnikumları yarışında birincilik qazanaraq 7000 manat məbləğində pul mükafatına layiq görülmüşdü

Texnikumun məzunu olmuş görkəmli alim, akademik **Budaq Budaqov** milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş bu təhsil ocağı haqqında yazır: "İrəvan Pedaqoji məktəbi oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinədək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi. İrəvan Pedaqoji məktəbinə daxil olmaq ən yüksək müsabiqəli ali məktəbə qəbuldan çətin idi. Məktəbdə olan daxili intizam, yığcamlıq, yüksək təhsil vermək ənənəsi, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq bizi valeh edirdi".

Tərcüməçi-publisist Zahid Əhmədov pedaqoji texnikum haqqında yazırdı: "O vaxtlar bu məktəbə qəbul olmaq istəyənlərin sayı qədərindən çox idi. Odur ki, burada ancaq yaxşıların yaxşısı oxuya bilərdi. Məktəb mahalda öz ənənələri, müəllim kollektivi və yetişdirmələri ilə sayılıb-seçilən təhsil ocaqlarından biri idi".

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfıq, Mehdi Hüseyn və başqa-larından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən Pedaqoji Texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq".

İrəvanda Azərbaycan əbədi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında Türk pedaqoji texnikumunun müəllim və tələbə kollektivi-nin müstəsna xidmətləri olmuşdur. Belə ki, İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" (1924) qəzetinin azərbaycanlılar arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük rol oynamışdı. "Zəngi" qəzetinin ən fəal müxbirləri və təbliğatçıları da məhz bu təhsil ocağının müəllim və tələbələri idi. **Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbilfət İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Əbülfət Rəhimov, Adil Axundov, Musa Qafarov, Nurəli Qurbanov, Şamo Hətəmov, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi.**

İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi yarandığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta ixtisas təhsilli pedaqoji kadr hazırlamışdı.

Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə aydın olur ki, müxtəlif vaxtlarda bu təhsil ocağına rəhbərlik etmiş **Mehdi Kazımovun, Bəhlul Yusifovun, Həbib Məhəmmədzadənin, Əsgər Cəfərovun və məktəbin müəllimlərindən Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, Şura Fərhadovanın, Surə Babayevanın, Raziyə Abdul-**

**layevanın** və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilmişdir.

1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı olmuşdur. 1926-cı ildə qəbul olunmuş 32 nəfər tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdi ki, onlardan da 18 nəfəri oğlan, 2 nəfəri isə gənc qızlar idi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır və yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdu.

Texnikumun ilk məzunları arasında **Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, Əbülfət İbrahimi, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə Bağırbəyovanı, Nəsir Əliyevi, Musa Qafarovu, Əbülfət Rəhimovu, Tağı Bağırovu, Nəzər Paşayevi, Mirzə Bəşirovu göstərmək olar.**

1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda, Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı sə-hifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qoyularaq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir.

Pedaqoji Texnikumda "Mədəniyyət ocağı", "Mədəni hücum", "İrəli" adlı divar qəzetləri çap olunmuşdur. Texnikumun ilk məzunlarından - Əmir Abasquliyev, Budaq Budaqov, Adil Axundov, Nəriman Əliyev, Rübabə Bağırbəyova, Nəsir Əliyev, Nəzər Paşayev və başqaları olmuşdur. 1936-cı ildən bu Pedaqoji Texnikum Pedaqoji Məktəb kimi fəaliyyət göstərmişdir.

Qeyd edim ki, **"İstiqlal" ordenli, Əməkdar müəllim, dosent Lətif Hüseynzadə 1930 -cu ildə Azərbaycan Dövlət Universitetinin məzunu kimi təyinatla İrəvan pedaqoji məktəbinə göndərilmişdir**. Lətif Hüseynzadə daha sonralar isə İrəvan Pedaqoji İnstitunun Azərbaycan şöbəsində dərs demiş, pedaqoji kadrların hazırlığında dəyərli xidmətlər göstərmiş və İrəvan yazıçı və şairlərinin ədəbi orqanı olan, iki ayda bir kitab şəklində nəşr olunan "Ədəbi Ermənistan" almanaxının bir müddət redaktoru da olmuşdur.

İrəvan Pedaqoji Məktəbinin məzunları olmuş sonralar yüksək elmi dərəcələrə nail olmuş, uzun illər elm və təhsil sahəsində çalışmış, akademik **Budaq Budaqov, akademik Zərifə Budaqova, prof. Əli Fərəcov, prof. Yusif Yusifov, prof. Cəfər Cəfərov, prof. Həsən Mirzəyev, prof. Süleyman Məmmədov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof. Qasım Mustafayev, prof. Tapdıq Əmiraslanov, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəcəf Nəcəfov, ictimai xadim Qəşəm Aslanov, dosent Zəhra Əliyeva, şair Abbas Tahir Əməkdar rəssam Cabbar Quliyev, hüquq elmləri namizədi Nəriman Yusifov, ADPU-nun**

**professoru olmuş Kövsər Tarıverdieva, Əməkdar müəllim Həsən Şəkərəliyev, ictimai xadim Həbib Həsənov, ictimai xadim Qəşəm Aslanov, qabaqcıl təhsil işçiləri Cumayıl Mərdanov, Məmmədəli Məhərrəmov Əməkdar müəllim Şəfiqə Məhərrəmova və başqaları da bu məktəbin məzunları olmuş,** xalqımızın fədakar, peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri kimi xalqa, vətənə ləyaqətlə xidmət etmişlər.

İrəvan Pedaqoji Məktəbinin 1948-ci ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülməsi və 1972-ci ilə qədər fəaliyyət göstərməsi bir daha təsdiq edir ki, bu təhsil müəssisəsi Azərbaycan təhsilinin tarixində, pedaqoji kadr hazırlığında silinməz izlər qoymuşdur.

## İRƏVAN PEDAQOJİ İNSTİTUTU

1925-ci ildə İrəvanda müəllim kadrlarının hazırlanması məqsədilə iki illik kurslar təşkil edildi. Bu təhsil ocağı 15 il fəaliyyət göstərdi. Bu təhsil ocağında Rza Vəlibəyov, Mehdi Kazımov, Əli Yüzbaşıyev, Abbas Azəri, Ağa Seyidov və başqaları dərs deyirdi.

**1936 -cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937 -ci ildə iki illik Müəllimlər İnstitutu daha sonra isə 1945-1988 -ci illərdə isə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.** Azərbaycan şöbəsində İbtidai təhsilin metodikası, Azərbaycan dili və ədəbiyyat, Tarix, Coğrafiya, Fizika-Riyaziyyat fakültələri yaradılmış və bunlara uyğun ixtisaslı pedaqoji kadrlar hazırlanırdı.

İnstitutda Azərbaycan dili və ədəbiyyatı ixtisasından başqa ,bütün ixtisaslar müvafiq erməni kafedralarında təmsil olunmuşdu. Kafedraya əvvəllər görkəmli yazıçı, ədəbiyyat-şünas alim Əkbər Yerevanlı rəhbərlik etmişdir. İrəvan Dövlət İnstitutunun 1954-cü ildə yenidən bərpa edilən Azərbaycan şöbəsində dərs demək üçün ilk dəvət edilən müəllimlərdən biri görkəmli tədqiqatçı-alim, pedaqoq-filoloq, dosent, Əməkdar müəllim **Lətif Talıb oğlu Hüseynzadə** olmuşdur. O 1954-cü ildən 1970-ci illərə qədər burada dərs demiş, elmi –pedaqoji fəaliyyətlə məşğul olmuşdur. İnstitutun kadr potensialının formalaşmasında, tədris prosesinin yüksək səviyyədə təşkil olunmasında Azərbaycan şöbəsinin müdiri işləmiş **Əkbər Yerevanlının** da xidmətləri olmuşdur. Azərbaycan dili və ədəbiyyatı kafedrasında müxtəlif vaxtlarda dos. **Lətif Hüseynzadə, Məsim Məmmədov, Hüseyn İsmayılov, Aidə Salahova, Mehdi Həsənov, Məhərrəm Bayramov, Şövkət Kərimov, Vilayət Əliyev, baş müəllimlər Zoya Səfərova, Cahangir Hüseynov, Kifayət Qasımova, Azər Bayramov, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Dos. Fərrux Rzayev, Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Sabir Əsədov, Arzuman Qənbərov, Adil Süleymanov** və başqaları fəaliyyət göstərmişdilər.

İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin səmərəli fəaliyyət göstərməsində, tədris prosesinin təşkilində, milli pedaqoji kadrların hazırlanmasında Azərbaycandan,

xüsusən Bakıdan dəvət olunmuş bir sıra görkəmli alimlərin-akademik **Məmməd Cəfər Cəfərov, akademik Əli Sultanlı, AMEA-nın müxbir üzvləri Əbdüləzəl Dəmirçizadə, Əziz Mirəhmədov, Maqsud Cavadov, filologiya elmləri doktorları, professorlar Xalid Əlimirzəyev, Yəhya Seyidov, Abbas Zamanov, İnayət Bektaşi, Aydın Hacıyev, Mürsəl Həkimov, Alməmməd Alməmmədov, Firudin Hüseynov, Zeynal Tağızadə, Müseyib Məmmədov, Vaqif Arzumanlı, prof. Cəfər Cəfərov, prof. Abbas Zamanov, prof. Mürsəl Həkmov, prof. Nizami Xudiyev, prof. Cəlil Nağıyev, Bəxtiyar Vahabzadə və başqalarının xalqa, millətə fədakar xidməti unudulmazdır.**

İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində elm, ədəbiyyat və mədəniyyət xadimləri ilə keçirilən görüşlər tələbələrə xoş təsir bağışlamaqla yanaşı, onların dünya görüşünün formalaşmasında böyük rol oynayırdı. 1967-ci ildə Azərbaycanın müxtəlif elm və təhsil müəssisələrində çalışan alimlərin tarix elmləri doktoru, professor İosif Striqunov, AMEA-nın Nizami adına Dil və Ədəbiyyat institutunun şöbə müdiri, filologiya elmləri namizədi Mirəli Seyidov, tarix elmləri namizədləri Süleyman Məmmədov, Oktay Əfəndiyev və başqalarının İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin müəllim və tələbələri ilə görüşləri çox maraqlı keçmiş,kollektivə böyük təsir bağışlamışdı. Mirəli Seyidov çalışdığı institutun fəaliyyəti və üzərində işlədiyi "Əxilik", Oktay Əfəndiyev uzun illər Şah İsmayıl Xətai haqqında apardığı tədqiqatlar, Süleyman Məmmədov Böyük Oktyabra həsr edilmiş əsərlər və qarşıdakı yaradıcılıq fəaliyyəti barədə çıxışlar etmişlər.

İnstitutun Azərbaycan şöbəsinin tədrisin təşkilindəki uğurları, eyni zamanda, elmi işlərin də daha yüksək səviyyədə qurulmasına real imkan yaradırdı. Bunun da nəticəsində institutun Azərbaycan şöbəsində aparılan elmi tədqiqat işləri tədricən genişlənirdi. 1966-cı ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasının ilk dəfə hazırladığı "Elmi əsərlər" adlı məqalələr toplusu nəşr olunmuşdur ki, burada da filologiya elmləri namizədləri, dosentlər, **Lətif Hüseynzadənin, Əkbər Yerevanlının və Əli Dalqılıcovun** məqalələri dərc olunmuşdur.

1970-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin elmi-pedaqoji fəaliyyətinin ən ahəngdar və məhsuldar illəri olmuşdur. Belə ki, bir sıra kafedralarda azərbaycanlı müəllimlərin elmi-tədqiqat əsərləri nəşr edilmiş, bir neçə dissertasiyalar müdafiə edilmişdir. 1969-cu ildə Mehdi Həsənov, 1972-ci ildə İsrafil Məmmədov, 1974-cü ildə Məsim Məmmədov və Sabir Səfərov, 1982-ci ildə Məhərrəm Hüseynov uğurla müdafiə etmişdilər.

İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin fəaliyyət göstərdiyi 28 il ərzində yüzlərlə məzun təhsil sahəsində fədakarcasına çalışmış, elmin, mədəniyyətin inkişafına öz önəmli töhfələrini vermişlər. Pedaqoji institutun Azərbaycan şöbəsinin adlı-sanlı məzunları arasında **AMEA-nın müxbir üzvü Zərifə Budaqovanın, filologiya elmləri doktorları Bağır Bağırovun, İsrafil Abbasovun, İbrahim Bayramovun, Rüfət Hüseynzadənin, tarix elmləri doktoru, professor Hüseyn Əmirovun, filologiya elmləri namizədləri dosent Mehdi Həsənov, dosent Aidə Salahova, dosent Zəhra Əliyeva, uzun müddət İrəvanda azərbaycanlı qızlar**

**məktəbinin direktoru işləmiş, keçmiş SSRİ Ali Sovetinin deputatı olmuş, maarif xadimi Rəziyə Abdullayeva, şair Əli Vəkil, Xalq artistləri Mübariz Tağıyev, Elmira İsmayılova, jurnalis-şair Nəsib Qaramanlı, tanınmış yazar Kamil Məmmədov, Əməkdar müəllim Mənzərə Cəfərova** və başqalarının adları vardır. Uzun müddət Ermənistanda Maarif Nazirliyində azərbaycanlı məktəblər üzrə inspektor vəzifəsində çalışmış əməkdar müəllim Nurəddin İbrahimov da İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin yetirmələrindəndir.

**Burada çalışan azərbaycanlı professor – müəllim heyəti pedaqoji fəaliyyətlə bərabər ciddi elmi-tədqiqat işləri də aparmış, yaradıcı işlər görmüşlər.**

**Prof. Fərhad Fərhadov** 1942-43 -cü illərdə İrəvan Pedaqoji Texnikumnda və sonra İrəvan Pedaqoji İnstitutnda dərs demiş və 1945 -ci ildə İrəvanda "Qədim və orta əsrlər ədəbiyyatına dair oçerklər" kitabını nəşr etdirməyə nail olmuşdur.

İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinin müəllimləri İrəvan arxivlərində axtarışlar aparır, Azərbaycan ədəbiyyatının nadir nümunələrini üzə çıxarır və onları ədəbi ictimaiyyətin nəzərinə çatdırırdılar.

**Dos. Lətif Hüseynzadə İrəvan Pedaqoji İnstitutnda pedaqoji fəaliyyət göstərməklə bərabər, geniş elmi- tədqiqat işləri aparmış, elmi, bədii jurnal, qəzet və xüsusi ardıcıllıqla buraxılan kitabların, xüsusilə "Ədəbi Ermənistan" kitabının bir müddət redaktoru olmuşdur.**

1436-1467-ci illərdə Azərbaycan Qaraqoyunlu dövlətinin başçısı olmuş Müzəffərəddin Cahanşah "Həqiqi" təxəllüsü ilə

doğma Azərbaycan türkcəsində gözəl şeirlər yazmışdır. Həqiqinin "Divan"ını ilk dəfə olaraq İrəvan pedaqoji İnstitutunun müəllimi, filologiya elmləri namizədi, dosent Lətif Hüseynzadə üzə çıxarmış, filoloji elmimizi, ədəbi – bədii irsimzi xeyli zənginləşdirmişdir. Uzun illər Həqiqinin "Divan"ının harada saxlanması haqqında dəqiq məlumat olmamışdır.

Həqiqinin şəxsiyyətini, düşüncə və dünyagörüşünü bədii yaradıcılıq simasını müəyyənləşdirməyə imкan verən "Divan" əsrlər boyu itmiş və ədəbiyyat aləminə gizli qalmışdır. Yalnız 1954-ci ildə məşhur şərqşünas V.Minorsкi London universitetinin "Xəbərlər"ində Cahanşah Həqiqi haqqında yazdığı bir məqaləsində ilк dəfə olaraq onun "Divan"ı haqqında məlumat vermişdir. Bu əlyazma Divanın London universitetinin кitabxanasında olduğunu və sonradan naməlum səbəblərə görə əsərin buradan yoxa çıxdığını göstərmişdir. Əsərin axtarışına başlanmışdır. Hətta İngiltərənin "Tayms" qəzetində dərc edilmiş bir məqalədə onu tapıb universitetə göndərən şəxsə böyüк müкafat veriləcəyi də vəd edilmişdir. Laкin, əsərdən xəbər verən olmamışdır. Araşdırmalardan mə'lum olmuşdur кi, Cahanşah "Divan"ın bir nüsxəsini dostu türк sultanı II Sultan Məhəmməd Fatehə hədiyyə olaraq İstanbula göndərmişdir. Bu кitab Sultan Əbdülhəmidin zamanına qədər osmanlı-türк sultanlarının saray кitabxanalarında saxlanmışdır. Bu faкtı bir müddət bu кitabxanada işləmiş və qədim əlyazma кitablar haqqında əsər yazmış alim Edvardes öz əsərində göstərmişdir. Laкin, əsər

Sultan Əbdülhəmidin zamanında buradan da yox olmuşdur. Axtarışlar nəticəsində məlum olmuşdur кi, əsər Misirə aparılaraq orada İsкəndəriyyə кitabxanasına satılmışdır. Laкin, o burada da çox qalmamış, oradan, Böyüк Britaniyaya aparılmış və London universitetinin кitabxanasına verilmişdir. Laкin, əsər burada da çox qalmamış Ameriкaya aparılmış və Nyu-Yorkda yaşayan bir erməni kolleksiyaçısının şəxsi arxivinə daxil olmuşdur. O, Həqiqinin Divanını və əlavə olaraq 270 ədəd Şərq əlyazmalarını İrəvan Mətndaranına göndərmişdir. Lətif Hüseynzadə Həqiqinin əlyazma "Divan"ını burada aşkar etmiş, Divanın farsca və türkcə mikrofilmini buradan çıxarmağa müvəffəq olmuş, şairin farsca qəzəllərini Azərbaycan dilinə tərcümə etmiş və Həqiqinin

bütövlükdə "Divan"ını 1966-cı ildə İrəvanda çox böyük tirajla - 12500 tirajla nəşr etdirərək onu həqiqi varislərinə çatdırmışdır.

Daha sonralar isə müəllif Həqiqinin farsca Divanını tərcümə edərək Bakıda 2000-ci ildə nəşr etdirmişdir.

1975-ci ildə Azərbaycan folklorşünası **Sədnik Paşayev** isə İrəvanda çap etdirdiyi "Erməni aşıqlarının azərbaycanca şeirləri" kitabı Azərbaycan aşıq mühitinin erməni ədəbi mühitinə təsirini öyrənmək baxımından qiymətli mənbədir.

İrəvan elmi, mədəni və pedaqoji mühitinin formalaşmasında, inkişafında Azərbaycanın görkəmli şəxsiyyətlərinin o cümlədən- M.S.Ordubadinin, M.Müşfiqin, Mehdi Hüseynin, Cəlil Məmmədquluzadənin, Mir Cəlal Paşayevin, Əziz Əliyevin, Yusif Vəzir Çəmənzəminlinin, Əziz Şərifin, Hacı

Kərim Sanılının, Mirzə Ələkbər Elxanovun və başqalarının böyük xidmətləri olmuşdur.

İrəvanda "Sovet Ermənistanı" qəzeti nəşr olunurdu ki, bu mətbuat orqanı da İrəvanda maarif və mədəniyyətin, əverişli pedaqoji mühitin yaranmasında böyük rol oynamışdır ki, bu qəzetin redaktoru o zaman professor Teymur Əhmədov olmuşdur.

"Sovet Ermənistanı" qəzeti 1950- ci illərədək çətin şəraitdə fəaliyyət göstərmişdir. 1950- ci ilin ikinci yarısından etibarən qəzetdə bir sıra sahələrdə yeniləşmə sahələrinə ciddi diqqət yetirilmişdir. Qəzetin ilk dəfə olaraq 1954-cü il yanvarın 17-dən 12-ci nömrəsindən etibarən gündəlik böyük formatda nəşri təmin edilmişdir. Bir müddətdən sonra qəzet həftədə dörd dəfə böyük formatda 4 səhifə həcmində öz fəaliyyətini davam etdirmişdir.

Həmin illərdə - 1950 ci i9llərdə İrəvanda "Ədəbi Ermənistan" adlı Azərbaycan dilində ayda bir ədəbi- bədii almanax nəşr edilirdi. Burada İrəvan və onun digər bölgələrində yaşayan azərbaycanlı yazarların bədii əsərləri çap edilirdi.

İrəvan elm və təhsil mühtinin yetişdiridiyi akademiklər var ki, onların da adlarını çəkmək yerinə düşər: **Faiq Bağırzadə, Budaq Budaqov, Zərifə Budaqova, Hüseyn Həsənov, Heydər Hüseynov, Tağı Paşayev, Əhməd Rəcəbli, Mustafabəy Topşubaşov, Misir Mərdanov, Yəhya Məmmədov, Surxay Əkbərov, Bəhmən Axundov, Rafiq Qasımov, Abel Məhərrəmov və başqaları olmuşdur.**

Qərbi Azərbaycanda azərbaycanlı məktəblərinin ali təhsilli pedaqoji kadrlarla təmin edilməsində mühüm rol oynamış və orada yaşayan azərbaycanlıların ali təhsil aldığı-**İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi 1988-ci ildə Ermənistandan azərbaycanlıların kütləvi şəkildə köçürülməsi zamanı məcburi olaraq öz fəaliyyətini dayandırdı**

# V. MÜƏLLİMLİK PEŞƏSİNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

## 1. MÜƏLLİMLİK PEŞƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Müəllim kimdir sualına aşağıdakı kimi cavqb verə bilərik. Müəllim sözünün dar mənada "Müəllim" ərəbcədən dilimizə tərcümədə
"dərs keçən, tədris edən" deməkdir (Ərəb və fars sözləri lüğti, B akı, 1966.səh. 409),

Geniş mənada Azərbaycan dilinin izahlı lüğətində
Müəllim -

1. Məktəbdə hər hansı bir fəndən dərs deyən
şəxs. Nəsihət verən, öyüd verən, öyrədən, ağıl verən, yol göstərən hörmətli şəxs.

2. Hörmət üçün adlara qoşularaq deyilə bilir və ya hörmətli insanlara " Müəllim" deyə müraciət edilə bilir.

3. Hər hansı sahədə nüfuz sahibi olan, başqalarına təsir edən, nümunə ola bilən, öyrədən şəxs, ustad.

"Müəllimlik - müəllim vəzifəsi, müəllim sənəti, işi" kimi şərh edilir. (Azərbaycan dilinin izahlı lüğəti, III c.səh.408, Bakı-2006).

"Müəllim - geniş ictimai mənada mütəfəkkir, ictimai xadim, insanların dünyagörüşünü və inamını formalaşdıran, onlara həyatda öz yolunu tapmaqda kömək edən" insandır. (Pedaqoqiçeskiy slovar, II c. səh. 546, Moskva, 1960).

"Müəllim - ərəbcə öyrədən, "elm verən" mənalarını verir.

"Müəllim" anlayışı müxtəlif mənbələrdə müxtəlif ifadə ilə şərh edilməsinə baxmayaraq mahiyyətcə eyni mənanı bildirir

Müəllim ilk növbədə insandır, bilikli, savadlı, tərbiyəli, uşa qları və peşəsini sevən insandır, uşaqları, gəncləri xalqın, vətəni

n gələcəyi üçün hazırlayan vətənpərvər insandır, vətəndaşdır, i ctimai xadimdir...

Müəllim gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini - uşaqları, öz ümidini, öz gələcəyini müəllimə etibar edir. Bununla sanki məktəbin, müəllimin məqsədi, vəzifəsi müəyyənləşdirilir - xalqın, dövlətin gələcəyini formalaşdırmaq, "Təhsil Haqqında " qanunda təsbit olunduğu kimi, "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".

Bəli, müəllimlik çox şərəfli peşədir - vəzifədir, şərəfli olduğu qədər də mürəkkəb, məsuliyyətli vəzifədir.

Ona görə də hər bir müəllim bilməlidir ki, hər bir uşaq - fikirləri, görüşləri, hissləri, duyğuları, maraqları, sevincləri, həyəcanları, kədərləri və qayğıları ilə özünəməxsus xüsusi bir dünyadır. Müəllim şagirdlərin bu mənəvi dünyasını görməli və bilməlidir.

Müəllim məktəbin mənəvi həyatına hissiyyatlılıq, qayğıkeşlik, dostluq, mehribanlıq xüsusiyyətlərini gətirməlidir. Təlim və təhsilin çətin məqamlarında müəllim şagirdlərini hədələməklə, əsəbi hərəkətlərlə, imtahan qiymətləri ilə qorxutmamalı, əksinə onlarda gözəl arzu və ümid qığılcımları oyatmalıdır.

Müəllim elə bir insan - mütəxəssis olmalıdır ki, uşaqlar, gənclər ondan öyrənməyə can atsınlar. Təsadüfü deyildir ki, xalq belə bir deyim formalaşdırıb, "müəllim o kəs deyil ki, öyrədir, o kəsdir ki, ondan öyrənirlər". Əlbəttə, o müəllimdən öyrənirlər ki, o yaxşı öyrədilib, yaxşı hazırlanıb. Macar

bəstəkarı Z.Koday deyirdi ki, "O kəs yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər".

Bu məsələyə İ.Hötenin münasibəti belə idi: "Kimlərdən biz öyrəniriksə düzgün olaraq bizim müəllimlərimiz adlandırılırlar, lakin hər öyrədən bu ada layiq deyil". Bu ada layiq olmaq üçün "...təhsildə kamilliyə çatmaq lazımdır" (Konfusi).

İngilis filosofu H.Spenserə görə, "Bəşəriyyət həmişə ancaq şəxsi təhsil yolu ilə müvəffəqiyyətlə inkişaf etmişdir". O.Süleymenov deyir ki, "ancaq şəxsi təhsil yolu ilə mütəxəssis olmaq olur". **"Müəllimlərin müstəqil təhsili... onların elmi-siyasi cəhətdən inkişafına kömək edir" (M.Mehdizadə).**

Müəllim sənəti humanist sənətdir, insan mənəviyyatını formalaşdıran sənətdir. Uşaqlara olan sevgi müəllim fəaliyyətinin humanist istiqamətinin əsasıdır.

Müəllim bütün hallarda, xüsusən "müəllim-şagird", "müəllim-pedaqoji kollektiv", "müəllim-məktəb rəhbərliyi", "müəllim-valideyn" münasibətlərinin qurulmasında pedaqoji taktı-nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəb və əxlaqla davranmalıdır. O şəxslər bilməlidirlər ki, "Heç bir şəxs əxlaq qaydalarına əməl etmədən yüksələ bilməz". (M.K.Atatürk).

Müəllim vicdanlı, insaflı, ədalətli olmalıdır. Bunları o sözdə yox, əməldə həyata keçirməlidir, insanlara şəxsi nümunə göstərməlidir. O İnsanlara, faktlara, hadisələrə obyektiv, ədalətli qiymət verməyi bacarmalı, düzlüyü təlqin etməlidir.

Müəllimlik peşəsi bəşəri peşədir, əbədi peşədir. 100, 300, 500 və s. ildən sonra hansı peşələrin sıradan çıxacağını, yeni hansı peşələrin yaranacağını demək çətindir. Lakin bir həqiqəti

inamla demək olar, nə qədər ki, insanlıq mövcuddur, o qədər də müəllimlik peşəsi mövcud olacaqdır.

Əsrimiz elmi-texniki tərəqqi əsri, informasiya və kommunikasiya texnologiyaları əsridir. Lakin canlı müəllim sözünü, nəfəsini, ünsiyyətini, şagirdlərlə qarşılıqlı münasibətlərini, mənəvi keyfiyyətlərin formalaşmasındakı təsirini və s. heç bir maşın, texnika, mexanizm, İKT əvəz edə bilməz.

Ölkəmizin, xalqımızın gələcəyi naminə müəllimlik peşəsinə və bu peşə sahiblərinə dövlət səviyyəsində daimi layiqli qayğı göstərilir.

**Müəllimlik peşəsinin səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi şərh edə bilərik:**

Müəllimlik peşəsi cəmiyyətimizdə ***kütləvi peşədir***. Çünki nəsilləri öyrətmək, tərbiyə etmək çox gərəkdir. Buna görə də müəllimlik peşəsinə həmişə ehtiyac duyulmaqdadır. Müəllimlik peşəsi kütləvi peşə olduğuna görə də bəlkə də bəzən bu peşə gənclərin diqqətindən kənarda qalır, başqa peşələrə daha çox üz tuturlar.

Müəllimlik peşəsi ***nadir peşədir.*** Bu peşə kütləvi olmaqla bərabər, həm də nadir peşədir. Çünki müəllim çox olsa da, yadda qalan bir-iki nəfər olur. Onlar da həyatımızda böyük rol oynayırlar. Məhz müəllimin sayəsində insanlar əsaslı elm və biliklər qazanır, həyatda özünə doğru yol seçə bilirlər. Müəllim elə bir elm, bilik daşıyıcısıdır ki, onsuz heç bir tərəqqi, inkişaf da ola bilməz.

Müəllimlik ***məsyliyyətli peşədir***. Çünki müəllim insan üzərində işləyir və burada səhvə yol vermək olmaz. Bu işdə buraxılmış səhv, nöqsan öz nəticəsini dərhal olmasa da, bir

müddətdən sonra hökmən göstərəcəkdir.

Müəllimlik ***mürəkkəb peşədir.*** Bu mürəkkəblik onun yaradıcı olması ilə bağlıdır. Müəllim bir anda müxtəlif rollarda çıxış etməli olur. O, müxtəlif intonasiyalarla, müxtəlif jest və hərəkətlərlə işləyir. Hər bir uşağın "öz dili ilə" danışır. O müxtəlif xarakterli uşaqlarla ünsiyyət və münasibətdə olur. Müəllim hazır reseptlərlə deyil, yalnız özü yaratdığı modellə işləyir. Müəllim uzun müddət eyni sinifdə dərs desə də, dediyi dərslər bir-birinə bənzəməz. Müəllim ona çalışır ki, tərbiyə etdiyi şəxs məcburiyyətə görə deyil, məhəbbətə görə, qorxuya görə deyil, ünsiyyətə əsasən işləsin. Müəllim şagirdlərlə mehriban ünsiyyət qurub şagirdlərin məhəbbətini qazanaraq onların gözündə liderə çevrilirsə bu təlim prosesinin səmərəliliyini daha da artırır, öyrənənlərdə yeni biliklərin əldə edilməsinə stimul yaradır.

Müəllim əməyinin nəticəsi başqa peşələrdən fərqli olaraq gec görünür. Təlimdə bu nəticəni yoxlayıb aşkar etmək mümkündürsə, tərbiyə işində bu sahədəki əməyi qiymətləndirmək çox çətindir.

***Müəllimlik şərəfli peşədir***, çünki o, öz həyatını xalqın gələcəyinə həsr edir. Cəmiyyətimiz üçün yararlı adamlar hazırlamaq, onların kamillik zirvəsinə qalxmasına, əxlaqca təkmilləşməsinə, mənəviyyatca zənginləşməsinə çalışmaq əlbəttə ki, nəcib və şərəfli işdir. Müəllimin şərəfli əməyi böyük sərkərdələr, dahi şəxsiyyətlər, xadimlər, sənətkarlar və s. hazırlamışdır. Elə buna görədir ki, elmin, həyatın hansı zirvəsində durmasından asılı olmayaraq müəllim əməyi həmişə

uca tutulur. Müəllim isə öz növbəsində həyata hazırladığı hər bir övladının yaxşı, ürəkaçan xəbərini eşitdikcə mənəvi qida alır, ruhlanır. Müəllimin nəcib, şərəfli peşəsi ona həmişə şərəf və hörmət gətirir.

***Müəllimlik yaradıcı peşədir,*** çünki o, hazır göstərişlərlə, reseptlərlə, şablonlarla işləyə bilməz. Hər bir konkret halda vəziyyəti düzgün təhlil edib, uğurlu çıxış yolu tapmaq, məsələlərə müstəqil və yaradıcı yanaşmaq, qeyri-standart qərarlar qəbul etmək tələb olunur. Bunun üçün pedaqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə yiyələnmək vacibdir. Yaradıcılıq müəllimdən bütöv pedaqoji prosesi müşahidə və təhlil etməyi, onun qanunauyğunluqlarını nəzərə almağı, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi nəzərdə tutur. Bu cəhətdən deyirlər ki, müəllim bir fotoqraf kimi deyil, bir rəssam kimi fəaliyyət göstərməlidir.

***Müəllim əməyi özü öz əməyini qiymətləndirir.*** Yəni uşaqlara verdiyi biliyin nəticəsini özü yoxlayır. Müəllim şagirdlərə bilikləri hazır, mexaniki şəkildə ötürməməlidir. Bu prosesdə münasibətlər ön planda durmalıdır. Yeni məktəb quruculuğunun mühüm şərtlərindən biri müəllimin şagirdə bir şəxsiyyət kimi yanaşması, ona gələcəyin böyük adamı kimi baxmasıdır.

Müəllim öz işinin öhdəsindən uğurla gəlməsi üçün özü də şəxsiyyət olmalı, özündə ən yaxşı, müsbət keyfiyyətləri formalaşdırmalıdır. Müəllimin başlıca şəxsi keyfiyyətləri sırasında aşağıdakıları qeyd etmək olar:

1) Müəllim yüksək əqidə, məslək sahibi, müəllim -

Vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir.

2) Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və s.) cəmləşdirməlidir.

3) Müəllim dərin biliyə, erudisiyaya malik olmalıdır. Bilik müəllimin əsas silahıdır.

4) Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. Pedaqoji fikir tarixində uşaqları öz övladı kimi sevən, onlara ürəyini verən müəllimlər az olmamışdır.

5) Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Beləliklə, yeni, müasir məktəbin yaranmasında müəllimin rolu çox böyükdür. Bu işdə müəllimlərimizdən yüksək səriştəlilik və peşəkarlıq tələb olunur.

## 2.MÜƏLLİMLİK PEŞƏSİNİN PEDAQOJİ PRİNSİPLƏRİ

Bu gün müəllimin mənəvi siması hər dövrdə olduğundan daha böyük əhəmiyyət kəsb edir. Yəni dövlət quruculuğu bir çox cəhətdən yeni məktəb quruculuğundan, yeni müəllim kadrlarının hazırlığından başlayır. Elə bir müəllim ki, cəmiyyəti daha işıqlı, daha xoşbəxt günlərə apara bilən nəsillər yetişdirib, tərbiyə edə bilir. Bu cəhətdən hər bir peşənin özünəməxsus prinsipləri olduğu kimi müəllim peşəsinin də özünəməxsus prinsipləri vardır. Hər bir müəllim öz pedaqoji fəaliyyətində həmin prinsiplərə əsaslanmalıdır.

***Vətənpərvərlik prinsipi*** - müəllimin pedaqoji fəaliyyətinin ən mühüm prinsipi hesab olunur. O, bütün pedaqoji fəaliyyətini, əməyini vətənin qüdrətlənməsi və inkişafına sərf etməlidir.

Müəllim öz yetişdirmələrində vətənə böyük məhəbbət və dərin vətən sevgisi aşılamalıdır. Bətəni sevmək, onu yaxşı öyrətməkdən başladığından, müəllim ixtisasından asılı olmayaraq vətən torpağının hər qarışını uşaqlara tanıtmalı, bu barədə onlara yetərincə bilgilər verməlidir. Müəllim vətən torpağını yağı düşmənlərdən qorumağı öyrətdiyi kimi, vətənin düşmənlərini də uşaqlara tanıtmalıdır.

Müəllim bir vətəndaş qeyrəti ilə daim xalqın yanında olmalı, öz millətinə yaxın olmalıdır. O öz daxilində, kiçik bir qrupunda şəxsi qayğıları ilə məşğul ola bilməz. Onun həyatı, yaşadığı kəndlə, şəhərlə, torpaqla sıx bağlı olmalıdır. O təkcə uşaqların deyil, bütün kənd camaatının maariflənməsi

qayğısına qalmalıdır. Xalqının, millətinin ağır günlərində o kənardan seyirçi olmamalıdır.

Xalqın müəllim sözünə, ziyalı sözünə həmişə ehtiyacı olmuşdur. O öz sözünü deməli, xalqı düz yola istiqamətləndirməlidir. Onun xalqı necə yaşayırsa, o da elə yaşamalıdır. Çətinliklər, problemlər onu başqa fikirlərə salmamalıdır. Vətənpərvərlik elə o deməkdir ki, müəllim öz biliyini, bacarığını vətənin inkişafına sərf etsin, özü daim vətənə xitmət etisn. M.K.Atatürkün təbirincə desək, vətənin xidmətçisi olanlar vətənin əfəndisi olurlar.

***Peşə fədakarlığı*** müəllim peşəsinin mühüm bir prinsipidir. Yəni müəllim öz peşəsi yolunda canını, qanını qoymalı, yetişdirmələrinin səadəti naminə fədakar olmağı bacarmalıdır. O oxumağa, öyrənməyə itirilən vaxta heç vaxt heyfslənməməli, buna qənimət kimi baxmalıdr.

Müəllim əməyi çox ağır və mürəkkəb bir işdir. Bu iş formalizmi, şablon- çuluğu sevmir. Bu iş adamdan möhkəm sağlamlıq, gümrahlıq, işgüzarlıq tələb edir. Müəllimin yorulmadan gecədən xeyli keçənədək dəftər yoxlaması, daim mütaliə etməsi, ardıcıl olaraq şagirdlərin evlərinə baş çəkməsi, valideynlərlə söhbəti, dərslərə hazırlaşması müəllimdən xeyli vaxt və ən başlıcası isə fədakarlıq tələb edir. Əlbəttə lazım gələrsə, müəllim öz şagirdləri yolunda canından da keçməyə hazır olmalıdır. Müəllimin fədakarlığı bir nümunə olaraq öz şagirdlərində də olmalıdır. Onlar da öz müəllimlərinin yolunda canlarından keçməyi bacarmalıdırlar.

Müəllimin peşə fədakarlığının bariz nümunəsini böyüK

polyak pedaqoqu Yanuş Korçakın fədakarlığında görmək olar. Hitlerçilər Varşavada Y.Korçakın rəhbərlik etdiyi uşaq evindən uşaqları sıraya düzüb qaz kamerasına - ölümə göndərəndə alman zabitlərindən biri Y.Korçaka yaxınılaşır və deyir: "Kral Matiuş" kitabının müəllifi sizsiniz? Mən o kitabı oxumuşam. Siz azad ola bilərsiniz". Amma, pedaqoq uşaqlarla birlikdə ölməyi seçir və o alman zabitinin üzünə nifrətlə baxaraq deyir: "Mən istəmirəm ki, uşaqlar əvvəlcədən ölüm vahiməsini duysunlar". O, ölüm düşərgəsində "Yetimlər evi"ndəki uşaqlarla birlikdə qaz kamerasına daxil olur. Ölümə gedən yolda iki uşağın əlindən tutan pedaqoq heç nədən xəbəri olmayan uşaqlarla söhbət edirdi...

Qarabağda erməni işğalçıları ilə gedən döyüşlərdə öz kəndini, torpağını, məktəbini, şagirdlərini qoruyan fədakar müəllimlərimiz çox olmuşdur, bu yolda onlar öz canlarını da fəda etmişlər.

***Həmrəylik prinsipi.*** Yəni müəllimlər ilk növbədə uşaqlara münasibətində həmrəy olmalı, onlara hörmət və tələbkarlıqla yanaşmalıdırlar. Müəllim kollektivində yaranan həmrəylik və kollektivçilik şagird kollektivinə də təsir göstərəcəkdir. Müəllimlər öz müəllim yoldaşlarını həmişə müdafiə etməli, şagirdlər arasında bir-birinin hörmətini, nüfuzunu yüksəltməlidirlər. Yalnız öz fənnini tərifləyib başqa fənlərə aşağı nəzərlərlə baxmaq müəllim peşəsinə yaraşmaz.

Həmrəylik prinsipi tələb edir ki, müəllim pedaqoji kollektivdə səmimi və xoş rəftar olmalıdır. Kollektivçilik və həmrəylik prinsipi müəllimin daha çox kollektivə münasi-

bətində öz əksini tapır. Əgər müəllim öz fəaliyyəti ilə kollektivi hörmətdən salırsa, bu zaman onun həmkarları onu davranışına görə məsuliyyətə çağırmalıdırlar.

Həmrəylik və kollektivçiliyin yaranması üçün kollektivdə düzgün mənəvi iqlim olmalıdır. Belə olan halda kollektivdə həmrəylik və kollektivçilik yaranır, tənqid və özünü tənqid də müəllimlər tərəfindən ağrılı qarşılanmaz və tənqidi qəbul edib nöqsanlarını aradan qaldırmaq üçün özünütərbiyə ilə məşğul olarlar.

***Humanizm prinsipi.*** Əsas pedaqoji prinsiplərdən biri humanizmdir. Müəllim insanları o cümlədən öz yetişdirmələrini dərin məhəbbətlə sevib hörmət etməlidir. Humanizm müəllimin uşaqlara diqqət və qayğısı, həssaslığıdır. Humanizm prinsipi tələb edir ki, müəllimlər məktəbdə uşaqların rahatlığı qayğısına qalsın, onlara hörmət və qayğı ilə yanşsınlar. Uşağın ləyaqətinə hörmət etmək müəllimin öz ləyaqətini qat-qat yüksəldir.

Müəllim uşaqlarla münasibətini elə qurmalıdır ki, uşaqlar onun ciddi nəzarətini görməsinlər. Ev tapşırıqlarının yoxlanması, edilən hər hansı iradlar elə olmalıdır ki, uşaq bu iradlardan həvəsdən düşməsin. Müəllim kollektivin rəyinə arxalanmalı, həmişə kollektivlə məsləhətləşməli, uşaqların inam və istəyini müdafiə etməli, xırda qəyyumçuluqdan qaçmalıdır. "Şagird şəxsiyyətinə böyük hörmət etməli və bir o qədər də tələb etməli" fikri məhz humanizm prinsiplərindən irəli gəlir.

***Demokratizm prinsipi*** — müəllimin ən mühüm keyfiy-

yətidir. Demokratiya müəllimin işində əməlində, fikrində, sözündə olmalıdır. Demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir ki, müəllim də yetişdirmələrinin azadlığını, hüquqlarını, bərabərlikləri-ni təmin etməlidir. Uşaqlara söz, fikir azadlığı verməlidir, onların hüquqlarına hörmət etməlidir.

***Pedaqoji nikbinlik*** prinsipi müəllim peşəsinin ayrılmaz tərkib hissəsidir. Bu prinsip tələb edir ki, müəllim öz şagirdlərinə yüksək nəzərlərlə, onun gələcəyinə böyük ümidlə baxsın. “Nik” - ərəbcə yaxşı, “bin” görmək” deməkdir. Yəni insana yaxşı nəzərlərlə baxmaq lazımdır. Nikbinlik insanın daxili aləmini ifadə edən bir keyfiyyətdir ki, bu insanın xeyirxahlığını başqası haqqında yüksək və yaxşı fikirdə olmasını, gələcəyə müsbət fikirlərlə yanaşmasını göstərir. Nikbin insan həmişə xoş əhval-ruhiyyədədir. O ünsiyyətli və mehribandır. Bütün bu keyfiyyətlər isə müəllimin peşə xüsusiyyətinin ayrılmaz bir tərkib hissəsidir. Bu prinsip müəllimin şagirdlərlə münasibətini düzgün tənzimləyir.

Nikbin müəllim öz əməyinin bəhrəsinə inanır. O inanır ki, yetişdirdiyi şagirdlər cəmiyyət üçün faydalı, xeyirli insanlar olacaqlar. Bunun üçün o öz peşəsindən razıdır və o özünü xoşbəxt hiss edir.

Beləliklə, müəlimlik peşəsinin prinsipləri onun uğurlu fəaliyyətinin, səriştəlilik və peşəkarlığının əsasını təşkil edir.

## 3. MÜƏLLİMLİK PEŞƏSİNƏ VERİLƏN PEDAQOJİ TƏLƏBLƏR

Müəllimin uğurlu fəaliyyəti üçün müəyyən edilmiş pedaqoji tələblər vardır ki onlar aşağıdakılardır:

**1. Müəllimin peşəsinə sevgisi.** Hər peşədə olduğu kimi müvəffəqiyyətin əsas şərti peşəyə sevgisindən başlayır. Müəllim öz peşəsini böyük məhəbbətlə sevməli, onun başqa peşələrdə gözü olmamalıdır. Müəllim təkcə dərsliklə deyil, həm də bütün maddi və mənəvi varlığı ilə öyrədici, inandırıcı, tərbiyəedici olmalıdır. Hər işin başında sevgi durur. Öyrədilən materialın böyük sevgi və məhəbbətlə öyrədilməsi biliyin uzun müddət yadda qalması-na səbəb olar.

Müəllim öz peşəsinə sevgisini uşaqların sevgisi ilə bağlamalıdır**. L.Tolstoy yazmışdır: "Əgər müəllim yalnız işini sevirsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim ata-anası kimi yalnız uşaqları sevirsə, o əvvəlkindən də yaxşı müəllim olacaqdır.Əgər müəllim həm peşəsini, həm də şagirdləri sevirsə o əsil müəllimdir".** Qəbul etməliyik ki, müəllimlik sənəti peşəyə sevgi tələb edir. Bu peşəni sevmədən bu işdə çalışmaq olmaz. Yaxşı bir müəllim olmaq üçün bu peşənin bütün incəlikləri, bütün çətinlikləri bu sevgi içərisində əridilməlidir.

Müəllimlik çətin və mürəkkəb bir peşədir. Bu peşədə uğur qazananlar yalnız onun hər cür əzabına, əziyyətinə, yuxusuz gecələrinə dözən, sənətini sevənlərdir.

**2. Müəllimin ixtisasına uyğun biliklər sisteminə**

**yiyələnməsi.** Bu tələb müəllimin ixtisasını yaxşı bilməsidir. Müəllim üçün qaranlıq olan bir məsələ uşaq üçün zülmətə çevriləcəkdir. Şagirdə bir damcı öyrətmək üçün müəllimin bir dərya qədər biliyi olmalıdır. Müəllim öz ixtisası ilə bərabər digər elmlərdən də xəbərdar olmalıdır. O, fəlsəfə, pedaqogika, psixologiya, fiziologiya, sosiologiya kimi elmləri də mütaliə edib öyrənməlidir. İşin müvəffəqiyyəti üçün bu sahədəki biliklər onun ixtisas biliyinin yaxşı öyrənilməsinə kömək edəcəkdir.

3. **Müəllimin pedaqoji, psixoloji biliklkərə sahib olması.** Bu tələb müəllimin peşə faıliyyətinin ayrılmaz tərkib hissəsidir. Pedaqoji, psixoloji biliklərə sahib olmadan müəllim pedaqoji fəaliyyətini qura bilməz və daim uğursuzluğa məruz qalar.

4. **Müəllimin öyrətmə metodikası.** Müəllim həm bilən bilən, həm də öyrədən şəxsdir. Müəllim ixtisasını yaxşı bilməklə bərabər, həm də yaxşı öyrətmə metodikasına malik olmalıdır. Ona görə belə bir misal demişlər: "Bilən insan öyrədən insan deyildir, öyrədən insan bilən insandır". Müəllim şagirdlərə öyrənməyi öyrətdiyi kimi, özü də öyrətməyi öyrənməlidir.

## 4.MÜƏLLİMİN YARADICI PEDAQOJİ FƏALİYYƏTİ

Pedaqoji fəaliyyət prosesində həmişə olduğu kimi, bu gün də əsas sima müəllimdir. Pedaqoji prosesdə nə qədər yaxşı texnologiyalar olsa da, təlim-tərbiyə işində nə qədər yaxşı texniki təlim vasitələri, nə qədər səmərəli kompüter texnikası tətbiq edilsə də yenə də pedaqoji prosesdə əsas sima, başlıca şəxs müəllimdir. Müəllimin bacarığı, səriştəsi, pedaqoji ustalığı olmazsa heç bir texnika, texnologiya, innovasiya tətbiq edilə bilməz. Müəllimlər yetişən gənc nəsli təhsilləndirən, tərbiyə və inkişaf etdirən, böyük həyata hazırlayan, onların şüurunu formalaşdıran müqəddəs peşə sahibləridirlər.

Pedaqoji fəaliyyət cəmiyyətin tələbatından yaranır və tələbatların ödənilməsi ilə pedaqoji fəaliyyət inkişaf edir, təkmilləşir. Beləliklə, pedaqoji fəaliyyət prosesində müəllimin şəxsiyyəti, bacarıq və qabiliyyətləri formalaşır, daxili aləmi zənginləşir və bilik və dünyagörüşü inkişaf edir, peşə və ixtisas hazırlığı təkmilləşir.

**Pedaqoji fəaliyyət insanların, xüsusilə gənc nəslin təliminə, tərbiyəsinə və inkişafına yönələn fasiləsiz fəaliyyət prosesi başa düşülür.** Başqa sözlə desək, təlim, tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasına yönələn peşə fəallığı anlaşılır. Pedaqoji fəaliyyətin strukturunu aşağıdakı cəhətlər təşkil edir:

**1.** Pedaqoji fəaliyyətin məqsədi cəmiyyət üçün yararlı, hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət, layiqli vətəndaş, xeyirxah insan yetişdirməkdir.

**2.** Pedaqoji fəaliyyətin əsas siması bilik verən, tərbiyə edən, inkişaf etdirən, istiqamət verən müəllimdir.

**3.** Pedaqoji fəaliyyətin həm obyekti, həm subyekti həvəslə bilik və bacarıqlara yiyələnən, daim araşdıran, tədqiqat aparan, oxuyub-öyrənən - uşaq, yeniyetmə və gənclərdir.

**4.** Pedaqoji fəaliyyətin vasitələri təlim-tərbiyənin formaları, istifadə olunan metodlar, əyani vasitələri, texnologiyalar, metodik qaydalar, pedaqoji yanaşmalardır.

**5.** Pedaqoji fəaliyyətin şərtləri böyüyən nəslin tərbiyəsinə cəmiyyətin qayğısı, təlim-tərbiyə prosesini həyata keçirmək üçün əlvereşli şəraitin yaradılması *(məktəbin vaxtlı-vaxtında təmir olunması, avadanlıqların, laboratoriyaların, kompüter texnilkasının olması və s.),* kollektivin həmrəyliyi, müəllimlərin səriştəliliyi və peşəkarlığı, məktəbdə bilik, elm qazanmaq atmosferinin olması daxildir.

**6.** Pedaqoji fəaliyyətin nəticələri nisbətən gec görünən proses olduğundan, ardıcıl olaraq monitorinq və qiymətləndirmələrin təşkili, yoxlamaların aparılması, müqayisələrin keçirilməsi nəticələrin öyrənilməsinə imkan yaradar.

Pedaqoji fəaliyyətin əsas istiqamətlərini aşağıdakı kimi göstərmək olar:

- Şagirdlərin elmlərin əsasları ilə silahlandırılması, onlarda elmi dünyagörüşün formalaşdırılması;

- cəmiyyətin müəyyənləşdirdiyi əxlaq normaları ilə şagirdlərin tanış edilməsi, onlarda əxlaq, mədəni davranış qaydalarının tərbiyə edilməsi;

- şagirdlərin gələcək müstəqil həyata hazırlanması məqsədilə onlarda bacarıq və vərdişlərin formalaşdırılması;

- gənc nəsildə mənəvi əqidə və inamın formalaşdırılması;

- şagirdlərin intellektual səviyyəsinin, istedad və qabiliyyətlərinin, psixi xüsusiyyətlərinin inkişaf etdirilməsi;

Bu istiqamətlərdə fəaliyyətin məzmunlu və məqsədyönlü təşkili müəllimdən yüksək pedaqoji ustalıq tələb edir.

Pedaqoji fəaliyyət mürəkkəb və çoxsahəlidir. Qarşıda duran vəzifələrdən asılı olaraq pedaqoji fəaliyyətin öyrətmə, tərbiyə etmə, təşkilatçılıq, təşviqatçılıq, özünü- təhsil və s. növləri mövcuddur. Bunların hər biri müəyyən quruluşa malikdir. Pedaqoji fəaliyyətin subyekti öyrədən, bilik verən, istiqamət verən, məsləhət verən, yol göstərən, tərbiyə edən, inkişaf etdirən müəllimdir.

Müəllim peşəsinə bir çox təriflər verilmişdir. Müəllimə ümumi və xüsusi pedaqoji mənada aşağıdakı kimi tərif verilir:

Ümumi mənada - ***kiməsə nəyisə öyrədən, məsləhət verən, istiqımət göstərən şəxs müəllimdir.*** *Yaxud:* ***Kimdənsə, nəyisə öyrənirsənsə o müəllimdir.***

Xüsusi pedaqoji mənada - ***pedaqoji, psixoloji biliklərə sahib, mükəmməl ixtisas biliyinə yiyələnmiş, dövlət tərəfindən səlahiyyətlənniş, insanları bilik, bacarıq və vərdişlərlə silahlandıran, onlara düzgün yol göstərən, istiqamət verən savadlı, bilikli, mədəni, əxlaqlı geniş və hərtərəfli dünya-görüşlü ziyalı şəxs müəllimdir.***

Görkəmli çex pedaqoqu Y.A.Komenski göstərirdi ki, uşaqların mənəvi tərbiyəsi müəllimin müsbət nümunəsindən

başlayır. Böyük pedaqoq özünəməxsus tərzdə məktəbin nizamnaməsini və müəllimin pedaqoji kodeksini işləyib hazırlamışdı. O göstərirdi ki, uşaqları tərbiyə edən müəllim özü düz, doğru olmalı, qarşısına qoyduğu məqsədə çatmaqda səbatlı olmalı, sinifdə intizam yaratmalı, ciddi və inamlı olmalı, özünə hörmət qazanmalıdır. J.J.Russo, İ.H.Pestalotsi, A.Disterveq və başqaları yeni nəslin formalaşmasında müəllimin mənəvi aləminə, peşə hazırlığına, dərin biliyinə böyük qiymət verirdilər.

Müəllimin əməyi öz hörmət və peşəsinə görə, məsuliyyət və mürəkkəbliyinə görə bütün peşələrdən fərqlənir. Müəllimin əməyi çoxcəhətlidir. Müəllim, şagirdlə işləyərkən, həm təbiət hadisələrindən, həm texnikadan, həm də bədii obraz, işarə sistemlərindən istifadə edir. Deməli, müəllim sənəti insanın fiziki, intellektual- emosional inkişafına, mənəvi keyfiyyətlərinə, ümumiyyətlə şəxsiyyətinin bütün sahələrinə müəyyən tələblərlə yanaşır.

Hər şeydən əvvəl yüksək iş qabiliyyəti, gərgin əmək, dərin bilik tələb edən bu sənət müəllimin tam sağlamlığını, rahatlığını, əsəb sisteminin sakitliyini tələb edir.

**Müəllimin mühüm peşə keyfiyyətlərinə aşağıdakılar daxildir:** əməksevərlik, intizamlılıq, məsuliyyətlilik, qarşıya məqsəd qoymaq və ona nail olmaq, mütə- şəkkillik, səliqəlilik, qətiyyətlilik, əzmkarlıq, fədakarlıq, öz peşə səviyyəsini, ixtisasını, əməyinin keyfiyyətini daim yüksəltmək, peşəsinə və yetişdirmələrinə sevgi, dözümlülük, səbr və təmkinlilik, mürəkkəb şəraitdə özünü ələ ala bilmək, ədalətlilik,

mənəviyyat, səriştəlilik - müəllim peşəsi üçün ən zəruri olan keyfiyyətlərdəndir.

Müəllim əməyinin başlıca xüsusiyyətlərindən biri onun uşaq, yeniyetmə və gənclərlə apardığı işdir. Müəllim əməyinin məhsulu başqasının davranışında, biliyində, əxlaqında, bacarıq və vərdişində maddiləşir. Müəllim əməyinin xüsusiyyəti eyni zamanda vaxt və məkanla bağlıdır: Saatla tənzim olunan vaxt və tənzim olunmayan vaxt. Müəllimin sinifdəki fəaliyyəti saatla tənzim olunur, sinifdənxaric işləri, dərsdənkənar fəaliyyəti isə vaxtla tənzim olunmur.

Müəllimin səmərəli fəaliyyəti üçün başlıca amillərdən biri onun ixtisasa uyğun və ümumi biliklər sisteminə yiyələnməsidir. Bura ixtisas biliyi ilə bərabər pedaqoji, psixoloji, fəlsəfi, metodiki biliklər daxildir. Fəaliyyət prosesində həmin biliklər vəhdətdə bir-birilə əlaqəli şəkildə istifadə olunur. Bununla bərabər müəllimin sənəti yüksək şüurluluq, əxlaqi saflıq, ümumi mədəniyyət, intellektual səviyyə tələb edir.

Müəllimin pedaqoji fəaliyyəti əsasən məktəbdə, tərbiyə və təhsil müəssisələrində və evdədir Müəllim əməyinin məzmunu tədris plan və proqramlarında, kurikulumlar, dərslik və dərs vəsaitlərində öz əksini tapmışdır. Pedaqoji fəaliyyətin təşkilində isə pedaqoji iş forma və metodlarını, tədris üsulunu müəllim özü seçir.

## 5. MÜƏLLİMİN SƏRİŞTƏLİLİYİ VƏ PEŞƏKARLIĞI

Müəllim ilk növbədə, öz şəxsiyyəti, hərtərəfli hazırlığı ilə gənc nəslə təlim və tərbiyə verərək onları həyata hazırlayır. Bu cəhətdən bu gün yeni pedaqoji təfəkkürə malik, səriştəli müəllim kadrlarının hazırlığı, təkmilləşdirilməsi və yeniləşdirilməsi mühüm vəzifələrdən biridir.

Ölkədə maddi kapitalın insan kapitalına çevrilməsi, davamlı insan inkişafını təmin etmək, insan resurslarını inkişaf etdirmək və ondan səmərəli istifadə etmək, mövcud təhsil infrastrukturunun yeniləşdirilməsi, yeni təlim və tərbiyə texnologiyalarının, innovasiyaların tətbiqi, müasir idarəetmə mexanizminin təkmilləşdirilməsi, təlimin məzmununun, kurikulumların yeniləşdirilməsi və təkmilləşdirilməsi müəllimin yüksək mənəvi, əxlaqi keyfiyyətlərə sahiblənməsi, öz üzərində daim çalışması, yüksək peşə və ixtisas hazırlığına malik olması üçün səriştəli müəllim kadrlarının hazırlığı dövrün zəruri tələbinə çevrilmiş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Bu mühüm dövlət sənədində səriştəli müəllim kadrlarının hazırlığı birinci dərəcəli vəzifə kimi önə çəkilmiş və və strategiyanın birinci istiqamətində göstərilmişdir:

**"...təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları**

**praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir".**

Göründüyü kimi bu mühüm dövlət sənədində ölkədə səriştəli müəllim kadrlarının hazırlığına xüsusi diqqət verilmiş və bunun tədris prosesində effektivliyi göstərilmişdir.

Dahi şəxsiyyət, böyük siyasi xadim Heydər Əliyev hələ 1980-ci illərdə ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində yeni bir pedaqoji anlayış kimi səriştəli müəllim problemini irəli sürür və yeni müəllim kadrlarının yetişdirilməsini bir vəzifə olaraq təhsil işçilərinin qarşına qoyurdu. O, müəllimin peşəkarlıq səviyyəsinə, səriştəliliyinə yüksək qiymət verərək, səriştəli müəllim obrazının səciyyəsini belə göstərirdi: **"...hər bir ali məktəb müəllimi gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, pedaqoji qabiliyyət və yaxşı vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək ali məktəb müəllimi elmi biliklərdən əlavə, yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin".**

**"Səriştə"** kəlməsi beynəlxalq aləmdə **- "Kompetensiya"** (latın sözü - com- petens) kəlməsi kimi işlədilir. Bunun qarşılığı

**“peşəyə uyğun”, “peşəyə yararlı”, “məqbul sayılma” mənalarını verir.**

**“Sərıştə”** sözü farsca **“Səriş”** sözündən yaranmış və “**Səreştən” məsdəri** ilə “Yararlı”, “Yaratmaq” mənasını verir.

Müəllimin səriştəliliyi və müəllimin səriştələri anlayışları da vardır ki, onlar müxtəlif məna daşıyırlar. Səriştəlilik müəllimin yerinə yetirdiyi ümumi funksiyanı tələb olunan səviyyədə yerinə yetirməsi deməkdir. Səriştələr isə müəllimin müxtəlif pedaqoji qabiliyyətlərə, müxtəlif müsbət keyfiyyətlərə sahib olması, müxtəlif pedaqoji sahələrdə xüsusi bacarıq və qabiliyyətlərini, istedadını bildirir.

**Səriştəlilik** elə bir qabiliyyət və bacarıqdır ki, o insanın səmərəli və yaradıcı işləməsinə imkan verir və nəticədə tələb olunan nəticə hasil olur.

**Səriştəlilik -** insanın xarakterik xüsusiyyətidir ki, onun gördüyü işin keyfiyyəti səriştəliliyi ilə ölçülür.

**Səriştəlilik -** müəllimin nəzəri hazırlığını, onun analitik, proqnostik, plan- laşdırıcı, layihələşdirici, habelə refleks bacarıqlarının olmasını tələb edir.

**Səriştəlilik -** müəllimin praktik hazırlığı, onun təşkilatçılıq, səfərbər etmə, informasiya vermə, inkişaf etdirmə, maarifləndirmə, perseptiv, kommunikativ, didaktik, akademik bacarıq və qabiliyyətlərinin olmasını tələb edir.

**Səriştəlilik -** müəllimin fəaliyyətini uğurla yerinə yetirmək qabiliyyəti, məhsuldar əməyə hazır olması, peşə fəaliyyətini və pedaqoji ustalığını yaradıcı şəkildə tətbiq etməsidir.

**Səriştəlilik -** bilmək, nə etmək, nə üçün və necə etmək, qeyri-standart şəraitdə necə qərarlar qəbul etmək və onların icrasına hazır olmaq deməkdir.

**Səriştəlilik** - pedaqoji prosesdə pedaqoji texnologiylardan, kompüter texnikasından, innovasiyalardan səmərəli istifadə etmək və onları tətbiq etmək bacarığıdır.

**Səriştəli müəllim:**

- Daim öz bilik və dünyagörüşünü, ixtisasını inkişaf etdirir və təkmilləşdirir;
- Pedaqoji vəziyyəti düzgün anlayır, öz imkanlarını dəyərləndirir və düzgün qərarlar çıxarmağı bacarır;
- Dəyişən və mürəkkəb şəraitə uyğunlaşır, pedaqoji kollektivlə həmrəy olur;
- yenilikçidir, yaradıcıdır, fənnini lazımi səviyyədə tədris etməyi bacarır və mükəmməl didaktik qabiliyyətlərə malikdir;
- İxtisasının yaxşı bilicisi və tədqiqatçısıdır.
- Təhsilin məqsədi və nəticələrini müəyyən etmək qabiliyyət və bacarığına malikdir.
- Şagirdlərin meylini, fərdi xüsusiyyətləri və maraqlarını nəzərə almaqla onları müxtəlif növ fəaliyyətə cəlb etməyi bacarır.
- Şagirdlərin imkanlarına uyğun tələb olunan bacarıqları yerinə yetirmələri üçün müxtəlif pedaqoji forma metodlaradan istifadə etmək bacarığına malikdir.
- Şagirdlərin meylini müşahidə etmək, onların inkişafının istiqamətini müəyyən etmək bacarığına malikdir.
- Şagirdlərin fəali və interaktiv təlim metodları ilə, düzgün

motivasiya yaratmaq, onların qrup və layihə fəaliyyətini təşkil etmək bacarığına malikdir.

-Müəllim-şagird münasibətlərini pedaqoji əsaslar üzərində, "Əməkdaşlıq pedaqogikası" şəraitində qurmağı bacarır.

Səriştəlilik həmçinin fərdi pedaqoji yaradıcılığı inkişaf etdirmək, öz üzərində daim çalışmaq, pedaqoji innovasiyalara yiyələnmək, öz pedaqoji məharətini, mərifətini, peşə ustalığını inkişaf etdirmək, öz yetişdirmələri ilə işgüzar münasibətləri təkmilləşdirmək və dəyişən, mürəkkəbləşən pedaqoji mühitə uyğunlaşa bilməkdir.

Müəllimin zəruri pedaqoji bacarıq və qabiliyyətlərə yiyə lənməsi nə qədər vacib məsələdirsə, onu daim inkişaf etdirməsi, artırması və zənginləşdirməsi də bir o qədər vacib məsələdir. Özünütəhsil və özünüinkişafetdirmə müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsidir. Müəllim demək olar ki, hər gün öz bilik və bacarıqlarını artırmalı, təkmilləşdirməli, yeniləşən cəmiyyətin tələbləri ilə nəinki ayaqlaşmalı, hətta bir çox məsələlərdə öndə getməlidir.

Səriştəli müəllim yalnız ixtisasını yaxı bilən diplomlu mütəxəssis deyil. O həm də yaxşı əməkdaşdır, qayğıkeş valideyndir, təcrübəli yoldaşdır, tərbiyəçidir, yol göstərəndir, istiqamət verəndir, məsləhətçidir, bələdçidir.

Beləliklə, ümumiləşmiş şəkildə deyə bilərik: **Müəllimin səriştəliliyi onun yüksək əxlaqi keyfiyyətlərində, milli və bəşəri dəyərlərə sahib olmasında, dərin biliyində, ixtisasını mükəmməl bilməsində və öyrətməsində, yüksək pedaqoji**

**qabiliyyətlərində, innovativ idarəçiliyində, pedaqoji, psixoloji biliklərə vaqif olmasında, yeni texnika və texnologiyaları, innovasiyaları tətbiq etməsində, öz yetişdirmələrinə dərin hörmət və qayğıkeşliklə yanaşmasında, tədqiqatçılıq və natiqlik qabiliyyətində, yüksək mədəni davranışında, sağlam, xoş görünüşündə, mehriban ünsiyyətində, səliqəli geyimində, mehriban rəftarında özünü göstərir.**

Müəllimin peşə səriştəliliyinin inkişaf etdirilməsinin aşağıdakı mərhələlərini ayırmaq olar:

1. Müəllimin öz fəaliyyətini müntəzəm təhlil etməsi, davranış və fəaliyyətinə nəzarət etməsi, uğurlu və uğursuz səbəbləri ayırd etməsi.

2. Müəllimin özünü inkişafını, özünü təkmilləşdirməsini planlaşdırması (məqsəd, vəzifələr, həlli yolları)

3. Özünə nəzarət, özünütəhlil və özünü korrektə etmək bacarığını malik olması.

4. Müəllimin öz üzərində çalışması, kommunikativ, akademik, didaktik və digər pedaqoji qabiliyyətlərini inkişaf etdirməsi və elmi-metodik fəaliyyətini təkmilləşdirməsi.

**Müəllimin səriştəliyinin inkişaf etdirilməsi yolları isə əsasən aşağıdakı yollarla həyata keçirilir:**

1. Müəllimin metodik birləşmələrdə, yaradıcı qruplarda fəaliyyət göstərməsi, təcrübi, praktik olaraq yaradıcı çalışmalarını inkişaf etdirməsi

2. Müəllimin tədqiqatçılıq bacarıq və qabiliyyətlərini, yaradıcı fəaliyyətini inkişaf etdirməsi

3. Müəllimin yetişdirmələrində yaradıcı işləmək, düşünmək, müstəqil çalışmaq keyfiyyətlərini aşılaması.

4. Müəllimin innovasiya fəaliyyəti, yeni pedaqoji texnologiyaları tətbiq etməsi, İKT-ni mənimsəməsi və onlardan səmərəli istifadə etməsi.

5. Müəllimin öz iş təcrübəsini ümumiləşdirmə və bölüşdürmə bacarığı, çətinlikləri, problemləri, nöqsanları görməsi və aradan qaldırması.

6. Müəllimin məqalələr yazması, konfranslarda çıxış etməsi, yaradıcı elmi fəaliyyətlə məşğul olması, dövrü pedaqoji mətbuatı izləməsi, elmi-metodik və elmi - praktik məzmunlu nəşrlərlə tanış olması.

7. Müəllimin müxtəlif pedaqoji cəmiyyətlərdə, elmi seminarlarda, pedaqoji mühazirələrdə "İlin müəllimi" müsabiqələrində, pedaqoji forum və konfranslarda, simpoziumlarda, elmi-metodik şuralarda iştirak etməsi.

8. Müəllimin ixtisasartırma kurslarında, pedaqoji seminarlarda iştirak etməsi, özünütəhsil və özünü təkmilləşdirmə ilə məşğul olması.

Bu göstərilən yolların səmərəli olması üçün müəllim öz fəallıq, təşəbbüskarlığını müntəzəm artırmalı, öz üzərində daim çalışmalı, pedaqoji səriştəsini davamlı olaraq yüksəltməlidir.

**Müasir müəllimin səriştəliliyi pedaqoji fəaliyyətin aşağıda göstərilən bir çox sahələrini əhatə edir:**

1. Müəllimin ümumi pedaqoji səriştəliliyi; 2 Müəllimin ümummədəni səriştəliliyi; 3. Müəllimin sosial-psixoloji səriştəliliyi; 4. Müəllimin tərbiyəçilik səriştəliliyi; 5. Müəllimin

ixtisas biliyi səriştəliliyi; 6. Müəllimin didaktik səriştəliliyi; 7. Müəllimin idarəçilik səriştəliliyi; 8. Müəllimin refleksiya - özünənəzarət, özünütəhlil, özü- nütəkmilləşdirmə səriştəliliyi; 9. Müəllimin informasiya-kommunikasiya, ünsiyyət mədəniyyəti səriştəliliyi; 10. Müəllimin innovasiya fəaliyyətində, yeni pedaqoji texnologiyalardan istifadə etmə səriştəliliyi; 11. Müəllimin yaradıcı fəaliyyət səriştəliliyi; 12. Müəllimin tədqiqatçılıq səriştəliliyi; 13. Müəllimin nitq qabiliyyəti, natiqlik səriştəliliyi; 14. Müəllimin şəxsi səriştəliliyi; 15. Müəllimin təşkilatçılıq səriştəliliyi.

Bu sahələrin hər birinin özünün də peşə səriştəliliyi, bacarıqları vardır ki, bu xüsusi tədqiqat sahələridir.

**Səriştəli müəllimin şəxsi keyfiyyətlərini belə qruplaşdıra bilərik:**

1. Müəllim yüksək əqidə, məslək sahibi olmalı, peşəsini sevməlidir. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Müəllimlik-vətənpərvərlik peşəsidir. Məhz müəllim uşaqları, gəncləri vətənə məhəbbət ruhunda tərbiyə edir, onları vətənin müdafiəsinə hazırlayır.

2. Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və b.) cəmləşdirməlidir. Müəllim tərbiyə işinə özündən başlamalıdır, çünki özündə olmayan keyfiyyəti başqalarına vermək olmaz.

3. Müəllim dərin biliyə, erudisiyaya malik olmalıdır. Bilik müəllimin əsas silahıdır. Y.A.Komenski biliksiz müəllimi işıqsız

çırağa, susuz bulağa bənzədirdi.

4. Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. L.N.Tolstoya görə, öz işini sevən müəllim yaxşı müəllimdir, uşaqları və fənnini sevən müəllim isə əsil, səriştəli müəllimdir.

5. Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

**Səriştəli müəllimin fəaliyyətində aşağıdakı fərqli, cəhətlər, səciyyəvi xüsusiyyətlər özünü göstərir:**

1. **Səriştəli müəllimin peşə fəaliyyəti** onun ixtisasına dair dərin biliyə sahib olması və praktik fəaliyyətdə onu yaradıcılıqla tətbiq etmək bacarığıdır.

2. **Refleksiv səriştəlilik** - müəllimin peşə keyfiyyətinin bir göstəricisidir ki, bunun sayəsində yaradıcı iş, səriştəli fəaliyyət, səmərəlilik və məhsuldarlıq meydana gəlir. Refleksiya latın sözü olub "reflexio"dan gəlmədir, "Geriyə baxmaq" mənasını verir. Yəni müəllim görülmüş işin nəticəsini görməli, onu təhlil etməli, dəyərləndirməli və qiymətləndirməlidir. Refleksiya - özünə yönələn idrak prosesi, görülən işin təhlili, ağlın və daxili aləmin vəziyyətini müşahidə etmək və şəxsi mövcudluğa əsaslanan tədqiqatçılıq aktıdır. Refleksiyanın layihələşdiricilik, təşkilatçılıq, tədqiqatçılıq kommunikativlik, yaradıcı fikir, korrektə etmək funksiyaları vardır.

3. **Sosial peşə səriştəliliyi** müəllimin kollektivlə həmrəyliyi, şagirdlərlə "Pedaqoji əməkdaşlığı", onlarla düzgün ünsiyyət və münasibəti, ziddiyyətləri aradan qaldırma bacarığı, ictimaiyyət arasında hörmət və nüfuza malik olması, pedaqoji mədəniyyət və mərifətidir.

4. **Müəllimin şəxsi peşə səriştəliliyi** onun özünü ifadə etmə, özünü inkişaf etdirmə və özünü təkmilləşdirmə bacarığıdır. Şəxsi peşə səriştəliliyi müəllimin öz işini planlaşdırmağı, layihələşdirməyi bacarması, müstəqil qərarlar çıxara bilməsi deməkdir.

5. **Fərdi peşə səriştəliliyi** müəllimin özünüidarəetmə, özünənəzarət özü- nütəkmilləşdirmə bacarığına malik olmasıdır.

Səriştəlilik və peşəkarlıq ömür boyu davam etməli, peşə şərəfi qocalmamalı, daim müəllimlik peşəsi uca tutulmalıdır.

**Müəllim səriştəliliyini, pedaqoji ustalığını inkişaf etdirərək, təkmilləşdirərək, təcrübələr toplayaraq peşəkarlığa yetişir. Peşəkarlıq səriştəliliyin üst mərhələsidir. Peşəkalrlığa yol səriştəlilikdən başlayır.**

**Peşəkarlıq insana öz peşəsi çərçivəsində mürəkkəb fəaliyyətləri sistemli, səmərəli və etibarlı şəkildə yerinə yetirməyə imkan verən keyfiyyət və bacarıqların məcmusudur. Bu, təkcə yüksək bacarıq səviyyəsi deyil, həm də müəyyən mənəvi və əxlaqi prinsiplərə uyğunluq, eləcə də daim inkişaf və təkmilləşmə arzusudur.**

Peşəkarlıq təkcə işçinin yüksək istehsal göstəricilərinə nail olması deyil. Bu, insanın istəkləri, dəyərləri, motivasiya sistemi,

həmçinin onun üçün işin mənasının məcmusudur. İşlə bağlı hər şeyin fərd üçün xüsusi mənası var. Yüksək nəticələr əldə etmək peşəkarlığın xarakteridir.

***Peşəkarlıq bir çox hallarda "Usta", "Ustad" sözləri ilə də əvəzlənə bilir. Məsələn, filankəs filan işin ustasıdır. Ustad müəllim – peşəkar müəllimdir. Əlbəttə, "peşəkarlıq", "usta" "Ustad" adlarını almaq yalnız çalışmaqla, zəhmət çəkməklə əldə olunur.***

***"Professor" anlayışı da "Professional" sözündən əmələr gəlmişdir ki, bu da ən yüksək tituldur.***

***Peşəkarlıq*** **-** pedaqoji təcrübələr, çalışmalar, praktik işlər vasitəsilə, daim bilik və dünyagörüşü inkişaf etdirməklə meydana gələrək inkişaf edir. **Ali məktəbi bitirən məzunun müəllimlik diplomu alması, "Gənc mütəxəssis" adını qazanması, hələ onun peşəkar pedaqoji fəaliyyəti deyildir.** O peşəkarlığı pedaqoji fəaliyyətdə, pedaqoji təcrübədə, pedaqoji ünsiyyət və münasibətlərdə illərlə çalışaraq, zəhmət çəkərək qazanacaqdır.

***Peşəkarlıq*** **-** səriştəliliyin yüksək mərhələsi olaraq, müəllimin uğurlu fəaliyyəti üçün şəxsi müsbət keyfiyyətləri, geniş elmi dünyafgörüşü, xüsusi bacarıq və istedadı, yaradıcı fəaliyyəti, yüksək peşə mədəniyyəti, pedaqoji etikası, çalışqanlığı və məhsuldar əməyidir.

***Peşəkarlıq*** **-** müəllimin peşəsini və ixtisasını həm nəzəri, həm praktik cəhətdən dərindən bilməsi, pedaqoji situasiyanı əvvəlcədən görə bilməsi və dəyərləndirməsi, hadisələrə diaqnostik və proqnostik yanaşması, pedaqoji prosesdə öz

mövqeyini dəqiq müəyyənləşdirməsi, inamlı davranması və uyğun fəaliyyət göstərməsidir.

***Peşəkarlıq* -** müəllimin pedaqoji fakt və hadisələrin öyrənilməsinə, tədqiqinə qnostik yanaşması, pedaqoji prosesi layihələşdirməyi, planlalaşdırmağı, təşkil etməyi bacarmasıdır.

***Peşəkarlıq*** — müəllimin ixtisasını dərindən bilməklə bərabər, mükəmməl özünəməxsus öyrətmə metodikasına malik olması, pedaqoji texnologiyalardan, innovasiyalardan səmərəli istifadə etməsi və tətbiq etmə bacarığıdır.

***Peşəkarlıq*** - peşə mədəniyyətini, şəxsi bacarıq və qabiliyyətlərini daim inkişaf etdirmək, cəmiyyətdə öz peşəsinin nüfuzunu, şərəfini həmişə yüksəltmək, yetişdirdiyi tələbə və şagirdlərin bir şəxsiyyət, bir vətəndaş, ləyaqətli insan kimi formalaşdırmaqda fədakarlıq göstərməkdir.

***Peşəkarlıq* -** müəllimin pedaqoji fəaliyyətini, tədris prosesini stabil olaraq yüksək səviyyədə qurması, öz yetişdirmələrinin təlim və tərbiyə işində daim uğurlu fəaliyyəti deməkdir.

***Peşəkarlıq* -** fərdi pedaqoji yaradıcılıq, yeni pedaqoji təfəkkür və təxəyyül, dəyişən pedaqoji mühitə alışmaq və pedaqoji ictimaiyyət arasında fəal və üstün mövqe tutmaq, hörmət və şərəf qazanmaqdır.

***Peşəkarlıq*** — müəllimin elə bir xarakterik xüsusiyyətidir ki, o özünəməxsus pedaqoji dünyagörüşə sahibdir, pedaqoji situasiyalara yeri gələndə qeyri standart yanaşır və hər cür çətin pedaqoji situasiyalardan uğurla çıxa bilir, yaradıcı və inamlı fəaliyyət göstərir.

***Peşəkar müəllim yenilikçidir,*** o öz peşə fəaliyyətini və pedaqoji ustalığını müntəzəm olaraq təkmilləşdirir, özünütəhsil və öünütəkmilləşdirmə ilə məşğul olur, peşə qabiliyyətini inkişaf etdirir, yüksək motivasiya və özünütənzim səviyyəsinə malik olur, öz fəaliyyətini düzgün idarə etməyi bacarır.

***Peşəkarlıq* -** müəllimin işgüzarlığı, pedaqoji prosesə kreativ yanaşması, məntiqi düşüncəsi, tənqidi təfəkkürü, müstəqil qərarlar çıxarması, özünə inamlı olması, insanlara nikbin və humanist yanaşmasıdır.

***Peşəkar müəllim*** elə mütəxəssisdir ki, o peşə normalarını, hüquq və vəzifələrini yaxşı bilir, qarşısına müstəqil məqsəd qoyur, öz təşəbbüsü ilə pedaqoji prosesi təkmilləşdirir.

**Peşəkarlığın mərhələləri və inkişaf səviyyələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:**

1. Peşəkarlığa qədər olan mərhələ. Bu gənc müəllimin pedaqoji fəaliyyətə başladığı mərhələdir. Onun pedaqoji göstəriciləri, məhsuldarlığı hələ kifayət edici deyildir.

2. Pedaqoji fəaliyyətə peşəkar yiyələnmə prosesi. Bu mərhələdə müəllimin pedaqoji fəaliyyəti müsbət qarşılanır.

3. Peşəkarlığın yüksək mərhələsi. Buna pedaqoji ustalıq da demək olar. Bəzi pedaqoji ədəbiyyatımızda "Ustad pedaqoq", "Ustad müəllim" ifadəsi də işlənmişdir.

4. Peşəkarlığın sonrakı mərhələsi. Burada müəllim-pedaqoq məsləhətçi, təcrübəli bir şəxs olaraq öz həmkarlarına, müəllim yoldaşlarına məsləhətlər verir, düzgün yol göstərir, istiqamətlər verir. Bu müasir pedaqoji yanaşmada "Fasilitator" yanaşmasıdır.

Peşə bacarıqlarının inkişfının, peşəkarlığın yüksəldilməsinin əsas amilləri müəllimin reflektiv mövqeyidir; onun fasiləsiz təhsil sisteminə bağlılığıdır. Müəllimin reflektiv mövqeyi bütövlükdə təhsil prosesinin keyfiyyətinə təsir edən mühüm amildir.

Beləliklə, öz peşəsinin tələblərinə cavab vermək və təlim-tərbiyə prosesinin keyfiyyətinə zəmanət vermək üçün müəllim-pedaqoq səriştəli və peşəkar olmağa, öz peşəsinin ustası və ustadı olmağa çalışmalı, pedaqoji peşəkarlığın zirvəsini fəth etməyə nail olmalıdır.

Müəllimin səriştəliliyi və peşəkarlığı onun üçün mühüm olan bir çox keyfiyyətlərin birliyindən yaranaraq formalaşır və təkmilləşir. Bu keyfiyyətlərə yiyələnməyin yolu isə ilk növbədə pedaqoji peşənin düzgün seçimindən, ona yiyələnmə prosesinin səmərəli təşkilindən başlayır.

Sərişətlilik və peşəkarlığln əsas meyarları müəllimin peşə fəaliyyəti və onun əsas komponentləri-dərs prosesi, onun səmərəlilik göstəriciləri, müəllim-şagird münasibətlərinin düzgün qurulması, şagirdlərin dərsə münasibəti, təlim motivasi- yası, müəllimin öyrətmə bacarıqları, müəllimin pedaqoji qabiliyyətləri, pedaqoji texnika və texnologiyadan istifadə qabiliyyəti, müəllimin yaradıcı fəaliyyəti, pedaqoji prosesə innovativ yanaşması, şagirdlərlə humanist münasibətdə və xoş ünsiyyətdə olmasından ibarətdir.

# 6. MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN SƏCİYYƏVİ XÜSYSİYYƏTLƏRİ

Şagird şəxsiyyətinin formalaşmasında müəllim nümunəsinin, müəllim nüfuzunun və xüsusilə müəllim-şagird münasibətlərinin böyüK rolu vardır. BöyüK pedaqoq UşinsKi demişdir: "Müəllimin, tərbiyəçinin cavan ruha olan təsiri elə bir tərbiyə qüvvəsidir ki, müəllimin canlı nümunəsi görünəndir, görünən isə yaddan çıxmır.

Müəllim gənc nəslin mənəvi tərbiyəsində sükançı rol oynayır, onun bu sahədəki fəaliyyəti pedaqoji ustalıqdan öz işinə vicdanla yanaşmaqdan irəli gəlir. Müəllimin pedaqoji ustalığı təkcə öz fənnini dərindən bilmək deyil, onun ən böyük ustalığı odur ki, şagird mənəviyyatını düzgün qura bilsin, onun nöqsanlarını aradan qaldırmaqda, yollar axtarmasına sərbəst hərəkəti aşılaya bilsin.

Bəzi müəllimlər pedaqoji işdə şagirdlərə yalnız bilik verməyi əsas götürürlər. Lakin pedaqoji işi canlı təşkil edən ən başlıca yollardan biri tərbiyə işinin düzgün qurulmasıdır.

Pedaqoji prosesdə təlim prosesinin müvəffəqiyyətlə həyata keçməsi üçün müəllimin böyük rolu vardır. Müəllim təlimə, fənnə məhəbbət yaratmaq üçün ilk növbədə şagirdlərlə ünsiyyəti düzgün qurmalıdır. Müəllim təlim müvəffəqiyyətini daha çox ünsiyyətlə həyata keçirə bilir.

Ünsiyyət təkcə müəllimlə şagird arasında mövcud olmur. Bütün pedaqoji kollektivlə ünsiyyət yaratmaq gərəkdir. Müəllimin şagirdlərlə düzgün ünsiyyət yaratmasının pedaqoji

cəhətdən əhəmiyyəti ondan ibarətdir ki, şagird özünü məktəb-də tənha hiss etmir, onda qayğı hiss edir və fənnə maraq yaranır, onun dünyagörüşü dəyişir, inkişaf edir.

Müəllim-şagird münasibətlərinin müvəffəqiyyətlə qurulmasında müəllimin rəhbərlik mövqeyi çox əhəmiyyətlidir. Müəllimin rəhbərlik mövqeyi aşağıdakı formalarda özünü göstərir:

**1.** ***Lokator mövqeyi.*** Belə müəllimlər şagirdlərə seçici münasibət bəsləyir. Yəni müəllim ya şagirdin imkanları, ya təlimə münasibəti, ya ailə imkanları və ya sinifdə tutduğu mövqe baxımından şagirdlə ünsiyyət yaradır. Demək, müəllim bütün şagirdlərlə eyni formada ünsiyyət yaratmır.

**2.** ***Çin səddi mövqeyi.*** Bu mövqeyə malik olan müəllim, şagirdlə və ya tələbə ilə öz arasında böyük və keçilməz bir sədd yaradır. O sədd şagirdin müəllimlə ünsiyyətinə mane olur və onu çətinləşdirir. Belə mövqedə müəllimlər, şagirdlərə müəllimə yaxın olmağa, ona sual verməyə, ondan məsləhət almağa imkan vermir.

Belə mövqeyə malik olan müəllim yalnız dərsi deməklə öz vəzifəsini bitmiş hesab edir, halbuki müəllimin işinə verilən tələblərdən biri onun qayğıkeş olması və şagirdlərlə düzgün ünsiyyət yaratması təmin edilməlidir.

**3.** ***Robot mövqeyi.*** Bu o deməkdir ki, şəraitin, vəziyyətin dəyişməsinə baxmayaraq müəllim ünsiyyət və münasibətini də dəyişmir. Əvvəlki qayda-da, yəni əvvəllər planlaşdırdığı formada aparır.

**4.** ***Dostluq mövqeyi.*** Belə müəllim ürəyini uşaqlara

verməyi bacarır. Təlimin gediş prosesində, heç bir əsəb gərginliyinə yol vermədən, ünsiyyəti elə qurur ki, şagirdlər müəlliminə hörmət edir, onun bütün planlarını ürəklə yerinə yetirirlər. Müəllimin dostluq mövqeyi o demək deyil ki, müəllim öz ürək sözünü, sirrini şagirdlərə deyir. Müəllim yalnız səmimi münasibətlə, onların qayğısına qalmaqla bu mövqedə dayanır, onlarla həmrəy olur.

**5.** ***Hamlet mövqeyi***. "Hamlet mövqeyi" oradan irəli gəlmişdir ki, Şekspirin "Hamlet" əsərində bütün əsər boyu Hamlet əsəbidir. Belə münasibətlərdə dərsin gedişi prosesində uşaqlar üzülür, gərgin vəziyyətdə olurlar. Dərs prosesində müəllim özü də əsəbi, gərgin, öz hisslərini saxlamağı və ya gizlətməyi bacarmadan şagirdlərlə ünsiyyətə girir, əsəbi hərəkətlər edir. Belə halda müəllimin şagirdlərlə ünsiyyət və münasibəti çətinləşir. Müəllimin ünsiyyət zamanı mövqeyi şagirdlərin mənəvi cəhətdən formalaşmasına böyük təsir göstərir.

Belə ki, müəllimin səmimi münasibəti şagirdlərdə humanistlik, müəllimin düzgün ünsiyyəti şagirdlərdə inam, öz hərəkətlərində məsuliyyət, müəllimin qayğekeşliyi şagirddə mərhəmət, müəllimin cəfakeş- liyi şagirdlərdə işgüzarlıq kimi mənəvi keyfiyyətlər yaradır.

Müəllimin şagirdlərlə ünsiyyət və münasibətində əsas iki yanaşma üsulu vardır:1) Neqativ yanaşma üsulu; 2) Pozitiv yanaşma üsulu.

***Neqativ*** yanaşma üsulu deyəndə, müəllimin şagirdi öz münasibətləri baxımından qruplaşdırmasıdır. Yəni müəllimlər

özünə nəzərən bir qisim şagirdə yaxşı, bir qisminə isə pis münasibət bəsləməsidir. Onda belə bir əqidə vardır ki, pis şagird onsuz da dərsini bilmir. Belə şagirdlər dərsi öyrənsələr də, müəllim onların cavablarından heç vaxt razı qalmayacaq. Əgər belə şagirdlər bir yerdə, yəni izahda çətinlik çəksə də müəllim onlara köməklik etmir. Ona görə də belə şagirdlərdən əl götürərək yaxşı oxuyan şagirdi ayağa qaldırır. Pis cavab verən şagirdi danlayır, lakin belə şagirdlər yaxşı cavab verəndə də onlara heç nə demir.

***Pozitiv*** yanaşma üsulu dedikdə, müəllimin şagirdin qavrayışından asılı olaraq yaxşı uşaqları liberallıq göstərərək həmişə tərif-ləyir. Həmin şagirdlər bir söz deyərlərsə, müəllim onların üzlərinə gülümsəyir, tez-tez onlara müraciət edir. Sanki, belə müəllimlər üçün sinifdə başqa şagirdlər yoxdur. Pozitiv yanaşma üsuluna malik olan müəllimlər şagirdləri yaxşı və pis deyə qruplaşdırırlar. Müəllimin pedaqoji ünsiyyəti düzgün qurması üçün onun ümumi pedaqoji fəaliyyətinin düzgün qurulması vacibdir.

Bu baxımdan müəllimin pedaqoji ünsiyyəti zamanı aşağıdakı *vəzifələrin* yerinə yetirilməsi vacib sayılmalıdır:

1. Bütün müəllimlər üçün eyni olan vəzifələr;
2. Cəmiyyətin tələbindən irəli gələn vəzifələr;
3. Hər hansı bir sinfin, hər hansı tədris fənni ilə və ya şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqədar yerinə yetirilən vəzifələr.

Bütün müəllimlər üçün eyni olan vəzifələr dedikdə, şagirdlərin sağlamlığı qayğısına qalması, onların dərslərini

oxumasına cavabdeh olması, ailə ilə əlaqə saxlaması, pedaqoji tələblərin vahidliyini gözləməsi və s. başa düşülür.

Cəmiyyətin tələbindən doğan vəzifələrə, şagirdlərin imkanını nəzərə alıb onların istirahətini və maddi vəziyyətini düzəltmək üçün direktorluq qarşısında məsələ qaldırmaq, dərsini müasir həyatla əlaqələndirmək, şagirdlərdə yaranan gərginliyi aradan qaldırmaq və s. aid edilir.

Hər hansı bir sinfin, hər hansı tədris fənni ilə və ya şagirdlərin fərdi xüsusiyyətləri ilə əlaqədar yerinə yetirilən vəzifələr dedikdə isə müəllimin hər bir şagirdi yaxşı tanıması üçün onu müxtəlif üsullar vasitəsilə öyrənməsidir.

Pedaqoji fikirlərdən də aydın olmuşdur ki, uşaqları tanlmadan, onları yaxşı öyrənmədən onların təlimini və tərbiyəsini uğurla təşkil etmək olmaz.

## 7. MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNDƏ PEDAQOJİ ƏMƏKDAŞLIQ

Müəllim-şagird münasibətlərində əməkdaşlığın pedaqoji əsasları şagirdlərə humanist münasibətdə öz əksini tapır. Müəllimin şagirdlərlə əməkdaşlığını bir pedaqoji prinsip və ya üsulu kimi, yaxud da yanaşma kimi başa düşmək olar.

Uşaq başqa adamlarla ünsiyyət və münasibətdə olmasa, o insan kimi formalaşa bilməz. Elə bioloji varlıq kimi insan hələ uşaq yaşlarında belə başqa insanlarla ünsiyyət və münasibətə tələbatı vardır. İnsan özü ictimai münasibətlərin məhsulu olub, onun xarakter və qabiliyyəti, digər keyfiyyətləri ictimai münasibətlərdə formalaşır. Beləliklə də müəllim-şagird əməkdaşlığını cəmiyyətin müasir inkişafının tələblərinə cavab verən tərbiyənin konsepsiyası kimi də qəbul etmək olar.

Əməkdaşlıq pedaqogikasının mahiyyəti belədir ki, müəllim təlim-tərbiyə prosesinin idarə edilməsində şagirdlərə arxalanır, onları özünə köməkçi hesab edir, təlim-tərbiyə prosesinin təşkilində onların fikirərini, rəy, arzu və təkliflərini nəzərə alır, onlarla hesablaşır.

Bu prosesdə müəllim çalışır ki, uşaqlar da təlim prosesinə cəlb olunsunlar, onlar da pedaqoji prosesin müəllimlərlə bərabər tam hüquqlu iştirakçısı və təşkilatçısı olsunlar. Təlim-tərbiyə prosesində müəllimin, tərbiyəçinin köməkçisi olsunlar.

Təcrübə və müşahidələrdən məlum olmuşdur ki, müəllimlərin bir çoxları əməkdaşlıqda, ünsiyyət və münasibətlərdə də seçiciliyə yer verirlər. Belə ki, bu da məlum olmuşdur ki,

müəllimlər o uşaqlarla daha tez-tez ünsiyyət və münasibətdə olurlar ki, onlar uşaqlara qarşı müəyyən emosional münasibətlərə malikdirlər. Təəssüf ki, onlar diqqəti cəlb etməyən uşaqlarla az ünsiyyətdə olur və onlar diqqətdən kənarda qalırlar.

Bunu da qeyd edək ki, müəllim daha çox intellektual, intizamlı, sözə baxan uşaqlarla ünsiyyətdə olur, onlarla əməkdaşlıq edirlər. Birinci cərgədə, xüsusilə qarşısında oturan şagirdlərə müəllim daha tez-tez ünsiyyət və münasibətdə olurlar. İkinci yerdə sakit, asılı olan həmişə "bəli-bəli" deyən uşaqlarla ünsiyyət, üçüncü yerdə çətin idarə olunan, şuluqçu, dələduz uşaqlarla ünsiyyət və nəhayət dördüncü yerdə isə özünə inamlı, asılılığı sevməyən, müstəqil düşünən faəl uşaqlarla ünsiyyət və münasibət tutur.

Müəllim-şagird münasibətlərində tədqiqatçılar əsasən bunun üç növünü ayırırlar:

a) dəyişməz - müsbət ünsiyyət,
b) passiv - müsbət ünsiyyət,
c) dəyişən ünsiyyət.

Bəzən də dəyişən və dəyişməz mənfi ünsiyyət növlərinə də rast gəlmək olur. Belə ünsiyyət zamanı müəllim özünə qarşı neqativ münasibət yaratmış olur. Bu isə o deməkdir ki, həmin müəllimlər məktəbdə cəmiyyətə qarşı işləyirlər.

Müəllim-şagird münasibətlərində müxtəlif ünsiyyət tərzləri də vardır:

1. Birgə həvəs və yaradıcılıqla əsaslanan ünsiyyət.
2. Dostluğa əsaslanan mehriban ünsiyyət.

3. Şagirdlərlə müəyyən "məsafə", pərdə saxlamaqla ünsiyyət.

4. Qorxudularaq hökmlü ünsiyyət.

5. Ələ salınaraq rişxəndli ünsiyyət.

6. Qılığa girərək ünsiyyət.

Birgə həvəs və yaradıcılığa əsaslanan ünsiyyət müəllim və şagirdlərin mənəvi yaxınlığı əsasında qurulur. Bununla bərabər ünsiyyət dostluq, mehribanlıq, qarşılıqlı hörmət əsasında qurulmalıdır. Lakin bu o demək deyildir ki, müəllim- şagird arasında "pərdə" götürülməli hər ikisi "qardaşcasına" hərəkət etməlidirlər.

Məsafəli ünsiyyətdə müəllim-şagird ünsiyəti məhdudlaşdırılır. Bu zaman belə sözlərə daha çox üstünlük verilrir: "Mənə qulaq asın, mən sizdən böyüyəm", "Siz heç nə bilmirsiniz, mən hər şeyi bilirəm" və s. Belə ünsiyyət və yanaşma tərzi qarşılıqlı əməkdaşlığı, yaradıcılığı pozur və nəticədə pedaqoji uğursuzluğa gətirib çıxarır. Qorxu üzərində qurulan ünsiyyət zamanı isə müəllimin belə müraciəti vardır. "Mənə qulaq asın, yoxsa çağıraram lövhəyə...", "İmtahanda baxarıq necə cavab verəcəksən, sənin üçün çox çətin olacaq", "Siz məni hələ yaxşı tanımırsınız... görəcəksiniz... və s.".

Ələ salınaraq, rişxəndli ünsiyyət şagird şəxsiyyətini alçaldır. Müəllim uşaqlara çox yuxarıdan baxır, onların şəxsiyyətinə məhəl qoymadan şit zarafatlar və rişxənd edir.

Bir çox müəllimlər də var ki, özünü yaxşı göstərmək üçün kollektivin qılığına girir, maraqlı söhbətlər edir, lətifələr söyləyir, ucuz hörmət qazanmaq istəyir. Əlbəttə, belələrinin də

gec-tez üstü açılır. Yadda saxlamaq lazımdır ki, ünsiyyətdə bərabərlik yoxdursa, o heç vaxt səmərəli ola bilməz. Pedaqoq alimlərin fikrincə, müəllim şagirdlərlə ünsiyyət və münasibətini daha uğurlu və optimal qurması üçün aşağıdakı şərtlərə də əməl etməlidir:

*1)* **Müəllim ünsiyyət və münasibətində diqqətli və həssas olmalıdır. Müsahibinin vəziyyətini, əhval ruhiyyəsini "üzündən oxumalı", lazım gələrsə, bir söhbətdən başqa bir söhbətə keçməyi bacarmalıdır.**

*2)* **Müəllim ünsiyyət və münasibətində davranışını, hərəkətlərini idarə etməyi bacarmalıdır.**

*3)* **Şagirdlər ünsiyyət zamanı çətinliyə düşərsə və ya cavab verə bilməzsə onlara kömək etməlidir.**

*4)* **Müəllim həm nitqli, həm də nitqsiz ünsiyyətini mənalı aparmalıdır.**

*5)* **Müəllim şagirdlərlə ünsiyyəti və münasibətini ardıcıl təhlil etməli və müvafiq natiəcələr çıxarmalıdır.**

Deyilənlərdən məlum olur ki, müəllim-şagird əməkdaşlığı bütövlüklə məktəbin humanistləşməsinin və demokratikləşməsinin əsasını təşkil edir. Çünki o mahiyyət etibarı ilə insanı sevmək, ona dərin hörmət və məhəbbət ideyası üzərində qurulmuşdur.

Əməkdaşlığın təyini humanizm və demokratiya iqlimində azad, hərtərəfli, bütöv, həmçinin təkrarolunmaz şəxsiyyətlər yetişdirməkdir. Belə məktəbi uşaqlar sevir. Məktəb də uşaqları sevir. Müəllimlərin mövqeyi uşaqlar üzərində deyil, uşaqlarla birlikdədir. Onlar eyni bir kollektivin üzvləridir.

Əməkdaşlıq uşaqların daxili aləminə çox diqqətlə və həssaslıqla yanaşmağı tələb edir. Onların arzu və maraqları, fərdi xüsusiyyətləri, qabiliyyət və bacarıqları daim müəllimlərin diqqət mərkəzində olmalıdır.

Şagirdlərlə əməkdaşlıq öz mahiyyəti ilə məcbur etmə, qadağalar və cəzalar sistemini rədd edir, ümumiyyətlə, əməkdaşlıq məktəbdə güc, zor işlətməyin əleyhinədir.

Müəllimin şagirdlərlə əməkdaşlığı məqsədə çatmağın, ətraf aləmi yaxşılaşdırmağın ən səmərəli yolu hesab edilir. Onlar dərsdə, dərsdən kənar vaxtlarda öz həyatlarını və işlərini birgə təşkil edirlər, birgə düşünüb-daşınırlar. Əməklaşlıq prosesində bu və ya digər biliyin məktəblilərə verilməsi deyil, əksinə şəxsiyyətin hərtərəfli inkişafına, uşaqların özünü tam ifadə etməsinə, şüurlu həyata, onların öz həyat yolunu özləri müəyyənləşdirməyə hazır olmağa istiqamətlənməsi üçün geniş şərait yaratmasıdır. Bir sözlə, əməkdaşlıq pedaqogikası məktəbin ruhudur. Bəs müəllim-şagird əməkdaşlığı necə qurulur? O, hansı formalarda özünü göstərir. Məktəb təcrübələrindən, pedaqoji müşahidələrdən məlum olur ki, müəllim şagirdlərlə müxtəlif formalarda ünsiyyət və münasibətdə olur, müxtəlif cür əməkdaşlıq edir ki, onları aşagıdakı kimi qruplaşdırmaq olar:

**1. Avtokratik əməkdaşlıq.** "Avto" latın sözü olub "Mən", "Özüm" deməkdir. "Kratos" isə hakimiyyət deməkdir. Bu əməkdaşlıq növündə müəllim şagirdlərlə münasibətində həmişə hakim mövqedə dayanır. O uşaqlarla əmr və sərəncamlarla, göstərişlərlə danışır. Heç kimin rəyi, fikri ilə

hesablaşmır. Özü bildiyi kimi hərəkət edir, təkbaşına qərarlar çıxarır, uşaqların və bütövlükdə kollektivin fəallıq və təşəbbüskarlığını boğur. Müəllim fiziki cəzaya, təhqirlərə əl atmaqdan çəkinmir. O, uşaqlara rişxəndlə yanaşır, onların şəxsiyyətlərinə hörmətlə yanaşmır, uşaqları kollektiv içində də pərt edir. Avtokratik yanaşmada uşaqların yaradıcılığı, müstəqilliyi, fəallıq və təşəbbüskarlığı boğulur. Uşaqlar daha çox müti, itaətkar və qorxaq böyüyürlər.

Avtokratik müəllim yalnız öz hakimiyyətinə arxalanır. O, şagird kollektivinə etibar etmir. Öz qərarlarını şagirdlərlə birgə müzakirə etməyi, onlarla hesablaşmağı lazım bilmir. Uşaqların heç bir rəyini və təklifini qəbul etmir. Onlara belə rəhbərlik hədə və cəzalardan başqa heç nə verə bilməz.

Belə yanaşma üslubuna malik olan müəllimlərin başlıca nöqsanı, şagird şəxsiyyətinin formalaşması prosesinə dərindən və hərtərəfli nüfuz etməkdən məhrum olmasıdır. Burada tərbiyə olunan tərbiyə edəndən uzaqdır və hər cür tərbiyəvi təsirdən kənardadır. Belə vəziyyətdə məktəbli öz fikirlərini müəllimlə bölüşə bilmir. Əlbəttə, belə yanaşma tərzi nəinki, yeni pedaqoji təfəkkürdən, ümumi pedaqoji təfəkkürdən də uzaqdır. Buna avtokratik pedaqoji təfəkkür deyə bilərik.

**2. Avtoritar əməkdaşlıq.** Belə yanaşma və belə əməkdaşlıqda müəllim yenə də hakim mövqeyə malikdir. Fərq yalnız ondan ibarətdir ki, o uşaqların çıxış etməsinə, fikir yürütməsinə imkan verir, lakin son məqamda yenə öz bildiyini edir. Ürəyində nə kimi məsələlər nəzərdə tutsa, onu da hökmən yerinə yetirir. Təlimat və göstərişlər əsasında işləyir. Belə

müəllim nadir hallarda uşaqlara xoş, tərifli sözlər deyə bilir. O şagirdlərin səhv cavablarına gülür, səhvi böyüdür və çox hallarda səhvi düzəltmir. Avtoritar yanaşmada müəllim yalançı avtoritetə, nüfuza malikdir. Belə nüfuz gücə, zora əsaslanır. Belə yanaşma həm tərbiyəçinin, həm də tərbiyə olunanların yaradıcılığını öldürür. Belə müəllimlər yalnız müvəqqəti müvəffəqiyyət və hörmət qazanmağa nail ola bilərlər.

Avtoritar tipli müəllimlər əsasən iki tipə bölünürlər:

Birinci tipə məxsus olanlar özlərinə möhkəm inam bəsləyirlər. Onlar belə hesab eldirlər ki, hər hansı bir çətin işin öhdəsindən gələ bilərlər. Onlar heç vaxt həvəsdən düşmür, həmişə özünü haqlı və lazımlı hesab edirlər. Belələri həmişə özlərinə qarşı yüksək fikirdə olurlar.

İkinci tipə məxsus olan avtoritar müəllimlər isə yuxarıda deyilənlərin tam əksi olurlar. Belə müəllimlər həmişə həyacanlıdırlar, sanki buxovlanmış, əl qolları bağlanmışdır. Onlar nədənsə daim narazıdır, özlərinə qarşı inamsızdırlar. Uşaqların hər hansı bir hərəkətinə şübhə ilə yanaşır. Şübhələr isə həmişə onun özünü narahat edir.

Hər iki tipə məxsus avtoritar müəllimin ümumi cəhətləri də vardır. Belə ki, hər ikisi başqasını sıxır, şagirdləri özündən asılı vəziyyətə salmağa çalışır. Onların daxili aləmi müəllimlik peşəsinin tələblərinin, yeni pedaqoji təfəkkürün tam tərsinədir.

Məsələn, müəllimlik peşəsi, habelə yeni pedaqoji düşüncə tələb edir ki, müəllim uşaqları sevməli, onların şəxsiyyətinə hörmət etməlidir. Avtoritar müəllim isə yalnız özünü sevir,

uşaqlara “yuxarıdan aşağı” baxır.

Yeni pedaqoji təfəkkür tələb edir ki, müəllim uşaqların fəallığını, təşəbbüskarlığını inkişaf etdirsin, onlara nikbin nəzərlərlə baxsın. Avtoritar müəllim isə uşaqların təşəbbüskarlığını boğur, onlara şübhə ilə yanaşır və özü də pessimist və bədbindir.

Avtoritar müəllimin səciyyəvi xüsusiyyətlərindən biri də budur ki, o kitabda yazılan pedaqoji tələbləri “ağına-bozuna” baxmadan, heç kimə güzəştə getmədən, uşaqları “Boğaza yığanadək” yerinə yetirir. Məsələn, o bilir ki, pedaqoji fəaliyyətdə tələbkarlıq olmalıdır. Lakin, o bu tələbkarlığı heç bir hörmət və mərhəmət hissi olmadan son həddə çatdıranadək həyata keçirir. Şəxsiyyətə hörmət, ehtiram isə yaddan çıxarılır və tələbkarlığın humanist ideyası müəllim üçün lazımsız hesab edilir.

Əlbəttə, şagirdlərə hörmət olmadan, yeri gələndə müəyyən güzəştlər göstərilmədən edilən tələbkarlıq istənilən nəticəni verməz və uşaqların tərbiyəsinə mənfi təsir göstərər.

Pedaqoqlar avtoritar yanaşmanın aşağıdakı növlərini də ayırmışlar:

***Kobud avtoritarlıq*** açıq-aydın şəkildə ayrı-ayrı şagirdlərə, bəzən də bütöv bir kollektivə mənfi münasiəbət bəsləyir. Bu tipə məxsus müəllimin fikri belədir ki, hər bir şagird ona tabe olmalı, onun istəyi ilə hərəkət etməli, haqlı və ya haqsız hər bir tələbini qeyd-şərtsiz yerinə yetirmədlidir. Əks təqdirdə şagirdləri təhqir edir, “2” qiymət verir və s.

***Gizli və dolayı yolla avtoritarlıq*** güc, qüvvə sanki elə

şagirdlərin arzusu ilə həyata keçirilir. Məsələn, şagird ümumi məktəb qaydasını yüngülcə pozmuşsa, bu zaman müəllim siniflə tez "məsləhətləşir" və qərar çıxarılır: "Gəlin sinif iclası keçirək və orada müza-ki-rə edək, şagirdi cəzalandıraq və birdəfələlik bu məsələlərə son qoyaq". Beləliklə, cəza şagirdlərin əli ilə, şagirdlərin arzusu ilə həyata keçirilir.

***Demaqoq avtoritarlıq*** zamanı müəllim öz xoşagəlməz əməllərini müxtəlif əxlaqi söhbətlərlə, nəsihətamiz sözlərlə ört-basdır edir. Uşaqlara uzun-uzadı "əxlaq dərsləri" keçir, amma, özü bunlara əməl etmir. Demaqoq avtoritarlıq çox təhlükəlidir. Çünki uşaq və yeniyetmələrin şüuru yaşca formalaşan vaxtda, onun şüurunda sözlə əməli işin ayrılığı özünə yer tapır.

***İnzibati avtoritarlıqda*** müəllim şagirdlərlə rəsmi qaydada danışır və hərəkət edir, inzibatçılıq edir. Hətta kiçik məktəblilərlə də danışanda rəsmiyyətçiliyə, xırdaçılığa yol verir. Onun təbiətində heç bir güzəşt yoxdur, mərhəmət hisslərini çətin görmək olar. Belə müəllim də düzgün pedaqoji təfəkkürdən uzaqdır.

**3. Liberal əməkdaşlıq** da düzgün yanaşma deyilidr. Belə yanaşmada müəllim verdiyi tapşırıqların yerinə yetirilməsinə nəzarət etmir, tez-tez uşaqlara güzəştə gedir, bəzən də dediyi sözlərin əleyhinə gedir, verdiyi tələblərin əksinə hərəkət edir, sözlərində və fikirlərində səmimiyyət yoxdur, öz iradəsindən çıxış etmir. Özünün şəxsi fikri, düşüncəsi də yoxdur, bir növ "külək hansı tərəfə qüvvətli əsirsə, o tərəf də meyil göstərir".

Əlbəttə, uşaqlarda əqidə formalaşdırmaq üçün müəllimin özünün əqidəsi olmalıdır. Liberal müəllimin sözlərində qeyri-

səmimilik, yalan hiss olunur. Ürəksiz danışır, bəzən də qəzəbli olur. Onun fəaliyyətində yaradıcılıq, yeni fikir, düşüncə yoxdur, əksinə ətalət və gerilik vardır.

4. **Etinasız əməkdaşlıq**. Belə əməkdaşlıq növündə müəllim şagirdlərin fəaliyyəti, onların "dərdi-səri" ilə maraqlanmır, kollektivin ətrafdakı həyatına la- qeyid münasibət bəsləyir.

Belələri bəzən cəmiyyətdə baş verən hadisələrə, respublikamızın ictimai-siyasi həyatına biganədir. Ətrafda baş verən hadisələrə heç bir maraq göstərmir. Belə müəllimləri uşaqlar sevmir, onların dərslərinə də laqeyd münasibət göstərirlər.

5. **Qeyri-müəyyən əməkdaşlıq.** Belə əməkdaşlıq növündə müəllim şagirdlərlə həmişə eyni cür münasibətdə olmur. Bir müddət həlim, xoş ünsiyyət münasibətində olur, sonra isə dəyişələrək sərt, inzibatçı bir müəllimə çevrilir. Yaxud müəllim əhval-ruhiyyəsindən asılı olaraq uşaqlarla ünsiyyət və münasibəti dəyişir. Belə ki, əhvalı yaxşı olanda uşaqlarla yaxşı münasibətdə olur, əhvalı pis olanda isə uşaqlarla pis münasibətdə olur. Belə əməkdaşlıq da hər cür yeni fikirdən uzaqdır.

6. **Demokratik əməkdaşlıq.** Belə əməkdaşlıq yeni pedaqoji təfəkkürün məhsuludur. Bu ən düzgün, ən humanist əməkdaşlıq hesab edilir. Belə əməkdaşlıqda müəllim şagirdlərlə işgüzar münasibətdədir. Müəllim uşaqların arzu və maraqlarını, fərdi psixoloji xüsusiyyətlərini ciddi nəzərə alır. O, uşaqların səviyyəsinə enməyi bacarır, "onların dilində" danışa

bilir. Belə müəllim, öz fəaliyyətində kollektivə arxalanır, onlarla məsləhətləşərək, uşaqların tənqidi qeydlərinə qulaq asır, onların fəallıq və təşəbbüskarlığını inkişaf etdirir.

Belə əməkdaşlığa malik olan müəllimin hörmət və nüfuzu yüksəkdir. O uşaqların təlim və tərbiyəsini daha yaxşı təşkil edə bilir. Belə müəllim qəyyum- luqla, xırdaçılıqla məşğul olmur, o həmişə uşaqların inkişafına fikir verir, onu lazımi səmtə istiqamətləndirir ki, onlar yaradıcı fəaliyyətə qoşulsunlar. Demokratik ruhlu müəllimin sinfində daha çox intizam və yüksək təlim-tərbiyə nəticələri müşahidə edilir.

Demokratik əməkdaşlığa malik müəllim hər bir şagirdə böyük hörmət və ehtiramla yanaşır. O öz fəaliyyəti ilə uşaqlarda azadfikirlilik, yaradıcılıq, təşəbbüskarlıq, tənqidi təfəkkür, qeyri-standart düşüncə formalaşdırır. Belə müəllim, müasir məktəbin müəllimidir. Belə müəllim yeni düşüncəyə, yeni pedaqoji təfəkkürə malik müəllimdir. Məktəbimiz yalnız belə məüllimlərin sayəsində inkişaf edir və yüksəlir.

# 8.MÜƏLLİMLİK PEŞƏSİNDƏ PEDAQOJİ BACARIQ VƏ VƏRDİŞLƏR

Pedaqoji fəaliyyətin düzgün qurulması müəllimin pedaqoji bacarıq və vərdişlərə sahib olmasından çox asılıdır. Belə ki, müəllim dərin biliyə, yaradıcılığa, geniş təfəkkürə malik olmaqla bəra-bər, həm də öz biliyini şagirdlərin malı etməyi bacarmalıdır.

Pedaqoji ədəbiyyatların bir qismində müəllimin ümumi pedaqoji bacarıq və vərdişləri fərqləndirilir.

Məsələn, pedaqoji bacarıq və qabiliyyətlər belə qruplaşdırılır:

1) Məlumatverici bacarıq və vərdişlər;
2) Səfərbəredici bacarıq və vərdişlər;
3) İnkişafetdirici bacarıq və vərdişlər;
4) İstiqamətləndirici bacarıq və vərdişlər.
5) Nəzarətetmə, qiymətləndirmə və korreksiya etmə bacarıq və vərdişləri.
6) Analitik t əhliletmə bacarıq və vərdişləri

***Məlumatverici bacarıq və vərdişlər*** dedikdə, müəllimin ilk növbədə hər hansı bir elmi materialı didaktik yolla şagirdlərə çatdıra bilməsi başa düşülür. Bunun üçün müəllim həmin materialı şagirdlərin başa düşəcəyi səviyyədə qurmalı, didaktik məsələləri seçməli, onların tətbiq olunma və aşılanma yollarını hazırlamalı və şagirdlərə çatdırmalıdır.

Müəllim tədris materialını şagirdlərə çatdırmaq üçün müvafiq metodlar seçib müəyyənləşdirməli, təlimin texniki

vasitələrindən və əyanilikdən istifadə etməlidir. Həmçinin onların inkişaf sistemini hazırlamalıdır.

Bunlarla birlikdə proqramlaşdırılmış, alqoritmləşdirilmiş, interaktiv və başqa formalardan, təlim ünsürlərindən istifadə etməklə bərabər, dərsdə əks-əlaqəni yaratmağı da unutmamalıdır.

Müəllimin danışığı şagirdlər üçün aydın olmalıdır. O, məntiqi, qısa və ifadəli danışmağı bacarmalıdır. Müəllim ekskursiyanın növlərindən istifadə etməklə onların təşkilini həyata keçirməyi, tədris emalaxanalarında şagirdlərin işini təşkil etməyi bacarmalıdır.

Müəllimin pedaqoji bacarıq və vərdişlərindən biri də ***səfərbəredici bacarıq və vərdişlər****dir.* Şagirdlərin diqqətini səfərbər edib əsas obyektə-təlimə yönəltmək, onlara öyrənməyi öyrətmək, aldıqları biliyi praktikaya tətbiq etmək bacarığı aşılamaq, öz işini planlaşdırmağı bacarmaq və s. səfərbəredici bacarıq və vərdişlərə aiddir. Onu da bilmək lazımdır ki, bu fəaliyyət formaları ilk növbədə müəllim tərəfindən icra edilməli, şagirdlər isə onun iştirakçısına çevrilməlidirlər.

Müəllimin ***inkişafetdirici bacarıq və vərdişləri*** dedikdə isə, ilk növbədə şagirdlərdə təfəkkürün inkişafına kömək edən metodlardan, formalardan istifadə etməyi bacarmaq başa düşülür. Şagirdlərin əqli fəaliyyətini inkişaf etdirmək məqsədilə problem - situasiyalar yaratmaq, onlara qazanmış olduqları bilikləri tətbiq etməyi öyrətmək, əqli nəticə çıxarmağa, müqayisə aparmağa kömək edən sual və tapşırıqların icrasına istiqamətləndirmək bu qəbildəndir.

***İstiqamətləndirici bacarıq və vərdişlər*** dedikdə isə, müəllimin şagirdlərə düzgün məsləhətlər verməsi, müdrik istiqamətlər verməsidir. Xüsusilə uşaq və yeniyetmələr müəllimin istiqamətverici məsləhətlərinə ehtiyac duyurlar.

***Nəzarətetmə, qiymətləndirmə və korreksiya etmə bacarıq və vərdişləri.*** Bu, pedaqoji prosesi inkişaf etdirmək üçün təsirli stimullar, motivasiya yaradarkən müəllimə lazımdır. Nəzarəti həyata keçirən, bilikləri qiymətləndirən zaman şagirdlərin təkcə nailiyyətinin yox, həm də uğursuzluğunun səbəbləri aydın olur. Toplanılan informasiya prosesə düzəliş etməyə ona təsirli stimullar daxil etməyə, səmərəli vasitələrdən istifadə etməyə imkan verir.

***Analitik təhliletmə bacarıq və vərdişləri*** hər hansı bir pedaqoji fəaliyyətin, pedaqoji layih ənin son mərhələsində analitik təhlil mühüm əhəmiyyət kəsb edir. Müəllim başa çatan işi təhlil edərkən, onun səmərəliliyini, müsbət və mənfi cəhətlərini, uğurlu və uğursuz tərəflərini müəyyənləşdirir. Əgər göstərici nəzərdə tutulduğundan azdırsa, gələcəkdə bu geriliyi doğuran səbəbləri aradan qaldırmaq üçün yollar axtarılır. Müəllimin pedaqoji bacarıq və vərdişlərinə ş**agirdlərin elmi dünyagörüşünü formalaşdırmaq, onlarda tədris fəaliyyətinə, əməyə, peşəyə maraq yaratmaq, şagirdlərin ahəngdar inkişafına nail olmaq** və s. aiddir. Ümumiyyətlə, qeyd olunan pedaqoji bacarıq və vərdişlər düzgün yerinə yetirilərsə, şagirdlərin intellektual səviyyəsinin artmasına səbəb olar.

## 9. PEDAQOJİ PROSESDƏ MÜƏLLİMİN PEDAQOJİ MƏRİFƏTİ

Pedaqoji prosesdə müəllimin pedaqoji mərifəti daha çox müəllim-şagird münasibətlərində, onun şagirdlərlə rəftarında özünü göstərir. Pedaqoji prosesdə müəllim-şagird münasibətlərində müəllimin pedaqoji mərifəti təlim-tərbiyə prosesinin Keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət Kəsb edir. Müəllimin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir Kİ, müəllim-şagird münasibətlərinin uğuru bir çox cəhətdən bundan asılıdır. Bu baxımdan müəllimin pedaqoji mərifətinin bəzi cəhətlərini aşağıdaKı Kimi şərh edə bilərik:

***Müşahidəçilik -*** müəllimin pedaqoji mərifətində çox vacib məsələdir. Müşahidəçilik sadəcə olaraq baxmaq deyildir. Bu şagirdin daxili aləmini öyrənmək, onu başa düşmək, onun daxili əhval-ruhiyyəsini düzgün müəyyənləşdirmək, fərdi - psixoloji xüsusiyyətlərini ayırmaq deməkdir. Bütün bunlar isə hər bir şagirdə fərdi yanaşmağa imkan verir. Müəllim şagirdləri yaxşı tanımadan onlarla heç bir ünsiyyət və münasibət qura bilməz. Müşahidəçi müəllim, uşaqları yaxşı tanıyan müəllim dəqiq bilir ki, onun tapşırığını, tələbini şagird nə dərəcədə yerinə yetirəcəkdir. Bu və ya nə dərəcədə müqavimət göstərə bilər, yaxud da tam yerinə yetirməz. Müəllim şagird-münasibətləri bir çox cəhətdən ondan irəli gəlir ki, müəllim şagirdi yaxşı tanımadan, öyrənmədən tələblər verir, iradlar tutur. Nəticədə bəzən əks reaksiyalar alınır və ziddiyyətlər,

münaqişələr meydana gəlir.

Müşahidəçi müəllim çox asanlıqla bilir ki, kim dərsə nə dərəcədə hazırdır, kim hazır deyil, kim tapşırığı yerinə yetirimiş, kim etməmişdir. Kim dərsə qulaq asır, kim də müəllimin üzünə baxsa da, fikri uzaqlardadır. Belə müəllim heç də çətinlik çəkmədən sinfi ələ ala bilər, şagirdlərlə asanlıqla ünsiyyət və münasibətə girə bilər.

***Diqqətlilik*** - müəllimin pedaqoji mərifətinin ayrılmaz hissəsidir. Şagirdlər sevimli müəllimlərindən diqqət, ehtiram gözləyirlər. Bunu görməyəndə, duymayanda şagirdlərdə müəllimə qarşı inam, sevgi, hörmət uzaqlaşmağa başlayır. Şagirdə göstərilən diqqətsizlik, biganəlik və ya dərs danışarkən ona diqqət verməmək şagirdin dərsə qarşı inamı, sevgisi itir, tədricən dərsdən uzaqlaşmağa başlayır.

Şagirdə göstərilən diqqətsizlik, biganəlik və ya dərs danışarkən ona diqqət verməmək şagirdin dərsə qarşı inam və həvəsini də öldürür. Bəzən elə olur ki, şagird müəllimdən diqqət və ehtiram görmədikdə şuluqluq salır, intizamsızlıq edir ki, müəllimlin diqqətini özünə cəlb etsin.

***İnam*** - pedaqoji mərifətdə müəllim-şagird münasibətlərində mühüm keyfiyyətdir. Müəllim hər bir şagirdin gücünə, qüvvəsinə inanmalıdır. Müəllim hər bir şagirdə inam göstərməlidir. İnam şagirdi inkişaf etdirir və təkmilləşdirir. Ona yeni güc, qüvvə gətirir. İnam nəticəsində hətta çətin işlər belə asanlaşır. Uşaqlar kiçik yaşlarında hələ öz imkan və gücələrini düzgün qiymətləndirə bilmirlər. Öz imkanları haqqında onlar böyüklərin, xüsusilə müəllimlərin fikrini yüksək qiymətləndi-

rirlər. Buna görə də müəllimlər şagirdlərin bu imkan və qabliyyətlərinə ehtiyatla yanaşmalı, onlarda öz qabiliyyətlərini ifadə etməyə inam yaratmalıdır.

Şagird var ki, heç vaxt şeir əzbərləmir. Çünki müəllim bir dəfə ona demiş ki, sənin şeir əzbərləməyə qabiliyyətin, yaddaşın yoxdur. Şagird də müəllimin bu sözünü qəbul etmiş, iananmış və hətta sevimli uşaq şeirləri olsa belə, onları əzbərləmir. Əslində isə uşağın şeir əzbərləməyə səyi yox idi. Hətta uşağın şeir əzbərləməyə yaddaşı olmasaydı belə, müəllim şagirdin inamını qırmamalı idi.

***Ədalətlilik*** - "Müəllimdə hansı keyfiyyətlərə üstünlük verirsən?" - sualına şagirdlərin əksəriyyəti "Ədalətlilik", - deyə cavab verirlər.

Ədalətli müəllim üstəlik taktlıdırsa, ünsiyyətlidirsə, onun hörmət və nüfuzu məktəbdə daha yüksək olacaqdır. Müəllim şagirdlərin biliklərini qiymətləndirərkən və yaxud müəyyən bir münaqişəni aradan qaldırarkən ədalətlə hərəkət etməlidir. Müəllim hamı ilə bərabər səviyyədə davranmalı, birini digərindən üstün tutmamalıdır. Uşaqlar elə hesab etməlidir ki, müəllim hamıdan çox onu sevir.

Keçmişdə demişlər ki, ciddi olmaq yaxşıdır, amma xoş təbiətli müəllim olmaq daha yaxşıdır. Ədalətli olmaq isə hər ikisindən daha yaxşıdır. Müəllim istər tənqidi qeydlərində, iradlarında, istərsə də ünsiyyət və münasibətində şagirdlərə qarşı hörmət və məhəbbətlə yanaşmalıdır. Şagirdlər də ədalətli müəllimin qərarlarına etiraz etməzlər. Ədalətsiz müəllimin dərsində intizam olmaz.

Ədalətlilik müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsi olmalıdır. Ədalətlilik yaxşılıq anlayışı ilə yaxın olsa da, bunların fərqli cəhətləri vardır. Yaxşılıq daha geniş məna daşıyır. Ədalətli hərəkət etmək də yaxşılıq etmək deməkdir. Əda- lətliliyin həddi var, yaxşılığın isə həddi, ölçüsü yoxdur. Ədalətli hərəkət pedaqoji prosesin normallığı üçün mühüm şərtdir.

Ədalətlilik daha çox uşaqların biliyinin qiymətləndirilməsində özünü göstərir. Təkcə biliyin qiymətləndirilməsi deyil, uşaqların davranışlarının da qiymətləndirilməsində müəllim ədalətli hərəkət etməlidir. Davranışların qiymətləndirilməsində hərəkətin motivi əsas yer tutmalıdır.

Ədalətli müəllim hər cür tərifdən yüksəkdədir. O, hər bir işdə ədalətli hərəkət edərək şagirdlərinə də nümunə olmalıdır.

***Səbirlilik*** - müəllimin pedaqoji mərifətində mühüm keyfiyyətdir. Səbirsiz şəxs müəllim ola bilməz. Uşaqların hər hansı bir səhv davranışında, qaba hərəkətində və yaxud asta danışığında, suala gec cavab verməsinə səbirsizliklə yanaşmaq, tələsik qərarlar çıxarmaq və ya əsəbiləşmək müəllim xarakterindən uzaq olmalıdır. Uşaqlar elə bu nöqsanları aradan qaldırmaq üçün məktəbə gəlmişlər. Müəllim istəmədiyi bir durumla qarşılaşırsa, səbirli olaraq "hər şeydə bir xeyir vardır" - deməyi də bacarmalıdır. Səbir etmək, bağışlamaq, arzu edilən amma hər kəsin bacarmadığı, yalnız ağıllı adamların edə biləcəyi bir davranış, əxlaqi keyfiyyətdir.

Bəzən müəllim şagirdin asta dərs danışmasına qulaq asmağı səbri çatmır, onu tələsdirir, bəzən də özü onun

əvəzindən danışır. Şagirdlər də evdə deyirlər: "Mən dərsi yaxşı bilirdim, müəllim qoymadı ki, danışım. Özü məni qabaqladı... və s." Şagirdə diqqət və səbr göstərən müəllimi yetimələri çox sevir və ona hörmət göstərirlər.

***Təmkin, özünü ələ ala bilmək*** — müəllimin pedaqoji mərifətində xüsusi yer tutur. Müəllim ağır təbiətli olmalı, söylədiyi sözləri, "ölçüb biçməli", davranışlarına nəzarət etməli, çətin məqamlarda, mürəkkəb situasiyalarda təmkinli olmalı, özünü ələ almağı bacarmalıdır.

Əlbəttə, səbir və təmkin o demək deyildir ki, müəllim həmişə sakit olmalı, heç kimlə işi olmamalı, intizamsızlıqlara göz yummalı, şagird özbaşı-nalıqlarına təmkinli olmalı, həddini aşanlara biganə qalmalıdır. Belə hallarda, əlbəttə, müəllim şagirdə həddini, yerini göstərməli, o qəzəblənə də bilər, hirslənə də bilər, Makarenkonun dili ilə desək, yeri gələndə, lap "partlaya" da bilər. Bununla bərabər, əlbəttə, yenə də o öz daxili vəziyyətinə nəzarət etməyi bacarmalı, özünü heç vaxt itirməməlidir. Hirsli, qəzəbli vaxtlarda düzgün qərar qəbul etmək çətin olur. Bu zaman səhv addımlar da atıla bilər. Belə vəziyyətdə yenə də müəllimə təmkinli davranış lazım olacaqdır.

***Pedaqoji texnikanın*** tərkib hissələrindən biri kimi müəllimin özünün və şagirdlərin diqqətini psixoloji cəhətdən idarə etmək bacanğıdır. Müəllim müxtəlif uşaq qrupları ilə işləyir, uşaqlar xeyli tədris əməliyyatı yerinə yetirirlər ki, bütün bunlar müəllimin diqqətindən kənarda qala bilməz. Müəllimin vəzifəsi öyrənmə prosesinin özündə müsbət emosiyalar

aşılamaq üçün yollar, metodlar axtarıb tapmaqdır. Bunlar pedaqoji texnika və priyomlardır: iş metodlarını dəyişmək, müəllimin emosionallığı, müəllimin fəallığı, maraqlı misallar göztərməsi, yerinə düşən maraqlı ifadələr, bəzən də bir yumor və s. Bu pedaqoji texnikalar təkcə müvəffəqiyyətlərə səbəb olmur, həm də onlar müəllimə rəğbətin artmasına kömək edir, fənnə sabit, daimi maraq və məhəbbət aşılanır.

Pedaqoji hərəkət və davranışlarda **temp hissi** pedaqoji texnikanın tərkib hissəsidir. Müəllimlərin bir çox səhvlərinin səbəblərindən biri budur ki, onlar tədris əməliyyatlarının tempini, sürətini gözləmir, məsələlərin həllini pedaqoji cəhətdən düzgün ölçüb-biçmirlər. Bəzən müəllimlər tələsir, sürətlə danışır, cümləni bitirmir, analşılmaz cümlələr işlədir, bəzən də çox yavaş danışr, gecikir, bu isə hər hansı bir halda pedaqoji təsirin səmərəsini aşağı salır.

Müəllimin **şagirdlərə müraciət forması** da pedaqoji texnikaya və pedaqoji mərifətə aiddir. Müraciət həm xahiş, həm tənbeh, həm təqdir, həm də əmr formasında ola bilər. Bütün bu hallarda müəllim həmişə öz "rolunu" düzgün oynamalı, səsinin tonuna, ahənginə fikir verməlidir.

Müəllim-pedaqoq öz səs tonunu məqamına görə özü idarə etməyi öyrənməli, pauzanı, duruşu, mimikanı, jestləri yerinə görə düzgün işlətməyi bacarmalıdır. A.S.Makarenko bir qədər obrazlı şəkildə deyirdi: "Mən "Bura gəl" sözünü 15-20 çalarda deməyi öyrənəndən sonra, üzümün quruluşunda, səsimin tonunda, ahəngində 20 incəliyi biləndən sonra pedaqoq oldum".

Bəzi Amerika pedaqoqları "Müəllim-şagird münasibətləri"ndə müəllimin "subyektiv" ünsiyyətinin xüsusiyyətlərini təhlil etmişlər. Müəyyən olunmuşdur ki, müəllimlər rəğbət göstərdikləri şagirdlərlə daha çox ünsiyyət və münasibətdə olurlar. Biganə qaldıqları şagirdlər isə müəllimin diqqətindən kənarda qalır. Müəllimlər "intellektuallara", daha intizamlı, sözə baxan, icraçı şagirdlərə daha yaxşı münasibət bəsləyirlər. Passiv şagirdlər ikinci yerdə durur. Müstəqil, fəal və özünə güvənən, tənqidi fikirlər söyləyən şagirdlər isə müəllimin hüsn-rəğbətindən demək olar ki, məhrumdurlar.

***Pedaqoji ünsiyyət pedaqoji mərifətin tərkib hissəsi kimi*** üslubundan asılı olaraq üç tipə bölünür: "proaktiv" (fəal), "reaktiv" (az fəal), "overactive" (çox fəal).

**"Fəal" müəllim** ünsiyyətin təşkilində təşəbbüskardır, şagirdlərlə əlaqələrini fərdiləşdirir, onun mövqeyi, xətti topladığı təcrübəyə uyğun olaraq dəyişir. O, nə istədiyini bilir və öz hərəkətində nəyin məqsədə nail omlağa kömək göstərdiyini başa düşür.

**"Az fəal" müəllim** öz xəttində, mövqeyində çevikdir, amma o, daxi-lən zəifdir. Onun siniflə ünsiyyətinin xarakterini özü yox, şagirdlər diktə edirlər.

**"Çox fəal" müəllim** öz şagirdlərini yüksək qiymətləndirməyə və qeyri-real ünsiyyət modelləri qurmağa, yaradıcı fəaliyyət göstərməyə meyllidir.

**Pedaqoji ünsiyyətdə** müəllimin başlıca silahı sözdür. Bundan başqa, onun ehtiyatında xeyli qeyri-verbal (nitqsiz) ünsiyyət vasitələri də vardır.

X **Ekspressiv - mənalı hərəkətlər**. Ekspressiv-mənalı hərəkətlər müəllimin davranışının özünün görmə orqanı vasitəsilə özünü müşaiyət etməsidir. Burada duruş, mimika, əl-qol hərəkəti, baxış, yeriş xüsusi rol oynayır. Tədqiqatçılar göstərirlər ki, məsələn, müəllimin hərəkətsiz duruşu, yaxud müəllimin üzü görünməzsə, ya az görünərsə, şagirdlərə verilən informasiyanın 10-15 faizə qədəri itir. Şagirdlər Müəllimin gözünə, baxışına çox həssasdırlar. Gözlərin vasitəsilə vəziyyət haqqında ən düzgün məlumatlar verilir, ona görə ki, göz bəbəklərinin daralması və genişlənməsi şüurlu nəzarətə tabe olmur.

Müəllimin əsəbi, bədbin vəziyyəti bəbəkləri daralmağa məcbur edir. Onun üzü mehriban, səmimi olmur, şagirdlər özlərini diskomfort hiss edirlər, işin səmərəsi aşağı düşür.

Müəyyən olunmuşdur ki, müəllimin "**qapalı" duruşu** (bədəninin ön hissəsini kürsü vasitəsilə, masa vasitəsilə örtməyə və məkanda mümkün qədər az yer tutmağa çalışması və ya qollarını qoy-nuna qoyması, yaxud da oturaraq iki əlini çənəsinin altına dayaması) inamsızlıq, etibarsızhq, razılaşmamaq, əks təsir göstərmək, tənqid kimi başa düşülür.

**"Sərbəst" duruş**, təbii danışıq, jestlərdən, mimikalardan istifadə etmək, şagirdlərlə göz təması yaratmaq etibar, inam, razılıq, xeyirxahlıq, psixoloji komfort kimi başa düşülür. Bütün bunları şagirdlər mexaniki olaraq qavrayırlar.

X **Prosodika və ekstralinqvistika** (intonasiya, səsin ucalığı, tembri, nəfəsalma, gülüş, öskürək). Səsin xarakteristikaları prosodik (nitqdə vurğulu və vurğusuz, uzun və qısa

hecaların tələffüzü sistemi) və ekstralinqvistik (linqvistikadan kənar) hadisələrə daxildir. Şövq, ruh yüksəkliyi, sevinc hissləri adətən yüksək səslə deyilir. Narazılıq adətən yumşaq və batıq səslə deyilir. Nitqin sürəti də müəllimin hisslərini əks etdirir. Həyəcanlılıq və ya rahatlıq sürətli nitqdə özünü əks etdirir. Aramla, yavaş-yavaş danışmaq yorğunluq və ya təkəbbürlülük əlamətidir.

**xTakesik ünsiyyət vasitələri**. Başı sığallama, toxunma, əl-ələ verib görüşmə, tərifləmə takesik ünsiyyət vasitələrinə aiddir. Sübut olunmuşdur ki, onlar xüsusi ilə tam olmayan ailələrdən olan uşaqlar üçün bioloji cəhətdən zəruri stimulyator formalarıdır. Şıltaq və ya inciyən uşağın başını sığallamaqla çox şeyə nail olmaq olur. Hər pedaqoqun buna ixtiyarı yoxdur. Bunu ancaq uşaqların etibarını qazanmış müəllimlər edə bilərlər.

**x Proksemik vasitələr.** Bunlara təlim zamanı müəllim və şagirdlərin oriyentasiyası və onlar arasında distansiya aiddir. Pedaqoji distansiyanın normaları aşağıdakı məsafələr kimi müəyyən olunmuşdur:

1) Müəllimin şagirdlərlə fərdi ünsiyyəti - 50 sm-dən 120 sm-dək; 2) sinifdə şagirdlərlə rəsmi ünsiyyət - 120-400 sm; 3) auditoriya qarşısında çıxış edən zaman açıq ünsiyyət 400-750 sm.Ünsiyyət distansiyasının müntəzəm dəyişməsi pedaqoji əməyin xüsusiyyətidir. Bu, müəllimdən dəyişən şəraitə dəfələrlə uyğunlaşmağı tələb edir.

Müəllimin göstərilən əsas keyfiyyətləri onun peşə mərifətinin, peşə mədəniyyətinin ayrılmaz tərkib hissələridir.

## 10. MÜƏLLİMİN PEDAQOJİ QABİLİYYƏTLƏRİ

Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyəti olub müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasında ifadə olunur. İnsan müəyyən qabiliyyət keyfiyyətlərinə malik olmaqla bu və ya digər fəaliyyəti uğurla yerinə yetirir, səmərəli nəticələr əldə edir. Deməli, qabiliyyətli adamlar iş sahəsində nə dərəcədə yararlı olub olmadıqlarını təmin edir.

**Sərişətli, peşəkar müəllimin də pedaqoji prosesdə yaradıcı fəaliyyəti onun xüsusi pedaqoji qabiliyyətlərə malik olmasını tələb edir.** Pedaqoji qabiliyyətlər müəllmi-şagird münasibətlərində müəllimin əqli, emosional - iradi cəhətlərini xarakterizə edir.Pedaqoji qabiliyyətlərə malik olmadan uğurlu pedaqoji fəaliyyət göstərmək olmaz.

Pedaqoji qabiliyyətləri şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. ***Şəxsi qabiliyyətlər;***
2. ***Akademik qabiliyyətlər;***
3. ***Didaktik qabiliyyətlər;***
4. ***Təşkilatçılıq qabiliyyəti;***
5. ***Kommunikativ qabiliyyətlər;***
6. ***Konstruktiv qabiliyyət;***
7. ***Perseptiv qabiliyyətlər;***
8. ***Suqqestiv qabiliyyət;***
9. ***Pedaqoji təxəyyül;***

***10. Diqqəti paylaya bilmək qabiliyyəti;***

***11. Pedaqoji refleksiya qabiliyyəti;***

***12. Müəllimin aktyorluq qabiliyyəti;***

***13. Müəllimin tədqiqatçılıq qabiliyyəti;***

***14. Müəllimin intellektual qabiliyyətləri.***

***15. Pedaqoji təsəvvür, təxəyyül (yaxud proqnozlaşdırma) qabiliyyəti.***

***16. Diqqətin bölüşdürülməsi qabiliyyəti.***

***I. Şəxsi pedaqoji qabiliyyətlər*** dedikdə, adətən, şəxsiyyətin xarakterik əlamət və keyfiyyətləri ilə bağlı olan qabiliyyətlər nəzərdə tutulur. Burada uşaqlara hüsn-rəğbət bəsləmək, hörmət və ehtiyatla yanaşmaq, təmkinlilik, özünə sahib olmaq (özünü ələ ala bilmək) və həmişə dərs zamanı şagirdlərlə iş aparmaq üçün optimal psixi vəziyyət yarada bilmək qabiliyyətlərini aid etmək olar.

Təmkinlilik və səbirlilik qabiliyyəti müəllim-şagird münasibətlərinin özəyini təşkil edir. Ünsiyyət və münasibətlər zamanı müəllim səbir və təmkinlə şagirdinə qulaq asmalıdır. Münaqişə və narazılıq olarsa, yenə də müəllim səbir və təmkinlə şagirdi dinləməli və tələsmədən qərar və nəticələr çıxarmalıdır. Müəllim öz münasibətlərini şagirdə xeyirxah tərzdə qurmalıdır.

Uşaqlar həqiqi və süni münasibətləri bir-birindən seçirlər. Onlar müəllimin özlərinə qarşı həqiqi münasibətlərini hiss etdikdə eyni münasibətlə də cavab verirlər.

Müəllimin şəxsi pedaqoji qabliyyətlirindən biri də özünə sahib olmaq, özünü ələ almaq qabiliyyətidir. Müəllim həmişə,

hər cür, hətta gözlənilməyən şəraitdə özünü ələ almağı, özünə sahib olmağı, öz hisslərini cilovlamağı bacarmalı, öz davranışına nəzarəti itirməməlidir. Lakin bu heç də o demək deyil ki, müəllim öz hisslərini daim süni şəkildə boğmalıdır. O, şagirdlərlə birlikdə şadlana da, sevinə də bilər, kədərlənə də bilər. Lazım gəldikdə tərbiyəvi məqsədlə narazılığını da bildirə bilər.

Müəllimin digər şəxsi qabiliyyəti müəllim-şagird münasibətlərində lazımi psixi vəziyyət yarada bilməsidir. Bu cür qabiliyyətə malik olan müəllimlər özlərinin gümrahlığı, həyatsevərliyi ilə fərqlənirlər. Nə olursa-olsun, müəllim şagirdlərlə öz münasibətində nikbin olmalıdır. Buna görə də o öz əhval ruhiyyəsini idarə etməyi, tənzimləməyi bacarmalıdır. Müəllim həm yaxşı, həm də pis əhval-ruhiyyədə sinfə girə bilər. Amma, dərsini də, pedaqoji fəaliyyətini də tələb olunan səviyyədə qurmalı, əhval-ruhiyyədən asılı olaraq hərəkət etməməlidir.

***II. Akademik qabiliyyətlər*** müəllimin öz üzərində çalışması, özünütəhsil, bilik və dünyagörüşün genişləndirməsi, ixtisas biliyini təkmilləşdirməsidir. Akademik qabiliyyət müəllimin ixtisas biliyinin dərinliyi, mükəmməlliyi, onun ümumi bilik və dünyagörüşü, pedaqoji, psixoloji səriştəsidir.

Akademik qabiliyyət müəllimin seçdiyi sahə üzrə elmi bilikləri mənimsəmə qabiliyyəti, kitab və kitabxanalardan, kompüter texnikasından, İKT-dən, müxtəlif informasiya mənbələrindən istifadə etmək qabiliyyətidirdir. Müəllimin praktik fəaliyyəti üçün bu keyfiyyətlərə malik olması pedaqoji fəaliyyətin uğuru üçün mühüm şərtdir. Daim oxuyub

öyrənmək müəllimin əsas keyfiyyəti olmalıdır. Bu baxımdan rus pedaqoqu Anton Rubinşteynin fikirləri çox maraqlıdır: "Əgər bir gün öyrənmirəmsə – bunu özüm hiss edirəm, əgər iki gün öyrənmirəmsə, bunu mənə yaxın olanlar hiss edirlər, əgər üç gün öyrənmirəmsə – bunu hamı hiss edir".

Müəllimin əlində digər peşə sahiblərindən heç birində olmayan bir imkan vardır, həyatın dərk edilməsi və biliklərin əldə olunması yolunda öz şagirdi ilə yanaşı getmək, onunla bərabər öyrənmək və kamilləşmək.

Müəllim unutmamalıdır ki, onun qarşısında ətrafdakı hadisələri öyrənməyə çalışan və bütün bunları öz prizmasından keçirib dərk etmək istəyən, geniş açılmış, alışıb – yanan gözlərini müəllimə dikən balaca bir varlıq dayanmışdır. Onun gələcək həyatı, fəaliyyəti, uğurları, hətta taleyi də birbaşa müəllimdən asılıdır.

Məlumdur ki, pedaqoji konsepsiyada bütün dövrlərdə "kimi öyrətmək", "nəyi öyrətmək" və "necə öyrətmək" suallarına cavab axtarılmışdır və bu gün də axtarılmaqdadır. Mənə elə gəlir ki, hər şeydən əvvəl "kim öyrədir" sualına cavab tapmaq lazımdır. Bu cəhətdən obrazlı şəkildə desək, müəllimlik yaradıcılıqdır, müəllim əməyindəki yaradıcılıq yazıçının, bəstəkarın və rəssamın əməyindəki yaradıcılıqdan heç də az deyil, bəlkə də ondan daha ağır və məsuliy-yətlidir. Müəllim insan ruhuna bəstəkar kimi musiqi, rəssam kimi boyalar vasitəsilə deyil, birbaşa müraciət edir. Müəllimin sənət əsəri onun yetişdirdiyi şagirdlər-tələbə-lərdir. Öz zəhmətinin bəhrəsini görəndə, biləndə ki, biliklər verməklə yanaşı, şagirdlərinin yaradıcılıq potensialını aşkar edib, onlarda özünə inam yaradıb, müəllim iftixar hissi keçirir ki, taleyi ona misilsiz bir hədiyyə edib və o, Müəllim olubdur.

***III. Didaktik qabiliyyətlər*** isə müəllimin öyrətmə qabiliy-

yətidir. Müəllim zəruri məlumatları şagirdlərə çatdıra bilmək, materialı uşaqların səviyyələrinə uyğunlaşdırmaqla onları öyrətmək, material və ya problemi aydın və anlayışlı şəkildə şagirdlərə təqdim etmək, fənnə qarşı maraq oyatmaq, müsbət təlim motivasiyası yaratmaq, şagirdlərdə fəal müstəqil fikir yarada bilmək və stimul yaratmaq qabiliyyətinə malik olmalıdır.

Buraya ***müəllimin izah edə bilmək qabiliyyətini və ekspressiv-nitq qabiliyyətini də*** aid etmək olar.

*Müəllimin izah edə bilmək qabiliyyəti* - o deməkdir ki, müəllimin hər bir fikri şagirdə asanlıqla çatır və o bunu dərk edir. Belə müəllimlər çətin, anlaşılmaz materialı şagirdlər üçün anlaşıqlı edə bilirlər. Müəllim şagirdlərlə münasibətində uşaqların səviyyəsinə enməyi bacarır, onların dilində danışa bilir. Belə müəllimlər zəruri hallarda çətini asan etməyi, mürəkkəbi sadələşdirməyi, anlaşıqsızı anlaşıqlı etməyi bacarırlar.

*Ekspressiv-nitq qabiliyyəti* - müəllimlin natiqlik qabiliyyəti münasibətdə olduğu şəxsə ifadəli, analşıqlı təsir edə bilməkdir. Bu cür qabiliyyətə malik olan müəllim öz fikir və hissilərini nitqin, eləcə də mimika və pantomimika vasitəsilə aydın və dəqiq ifadə edə bilir, nitqin köməyi ilə şagirdlərin fikir və diqqətini maksimum səviyyədə fəallaşdıra bilir.

Ekspressiv-nitq qabiliyyəti müəllimin öz fikir və hissilərini nitq formasında aydın, dəqiq, mimika və pantomimika ilə zəngin ifadə etməsindən ibarətdir. Müəllim peşəsi üçün bu ən zəruri qabiliyyətlərdən biri hesab olunur. Adətən müəllimin

şagirdlərə zəzuri məlumatları çatdırması əsasən ikinci siqnal, danışıq xarakteri daşıyır. Ona görə də bu cür qabiliyyətli müəllimlər dolaşıq, mürəkkəb danışıq tərzindən qaçır, öz fikirlərini şagirdlərin başa düşəcəyi sadə, aydın dildə ifadə edirlər. Müəllimin şagirdlərlə ünsiyyət və münasibəti, danışığı canlı, obrazlı, ifadəli, emosional, aydın, stilistik, qramatik və fonetik cəhətdən qüsursuz olmalıdır.

***IV. Təşkilatçılıq qabiliyyəti*** - Müəllim-şagird münasibətləri üçün çox əhəmiyyətlidir. Təlim-tərbiyənin səmərəsi bu qabiliyyətdən çox asılıdır. Müəllimin təşkilatçılıq qabiliyyəti təlim-tərbiyə prosesində özünü dərhal büruzə verir. Bu cür qabiliyyətlərə malik olan müəllim-şagird kollektivini təşkil etməyi, onu möhkəmləndirməyi, istiqamətləndirməyi bacarır. Belə müəllim icra edəcəyi bir işdə öz təşkilatçılığını göstərir, öz işlərini planlaşdırmağı, ona nəzarət etməyi bacarır, vaxtı düzgün hiss edir, düzgün bölür, artıq vaxt itirmir. Ona görə də bu cür qabiliyyətlərə malik olan müəllimlər gözəl təşkilatçılıq nümunəsi göstərməklə vaxtdan səmərəli istifadə edə bilirlər.

***V. Kommunikativ qabiliyyətlər*** - müəllimin ünsiyyət mədəniyyətini, şagirdlərlə düzgün ünsiyyət və münasibətini, rəftarını nəzərdə tutur. Pedaqoji cəhətdən əsaslı kommunikativ qabiliyyətlər uşaqlarla düzgün əlaqə və münasibət yaranmasına imkan verir. Kommunikativ qabiliyyətlərə şagirdlərlə ünsiyyətə qabillik, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaq bacarığı, şagirdlərə pedaqoji nöqteyi- nəzərdən məqsədə müvafiq qarşılıqlı əlaqə yarada bilmək bacarığı aiddir. Lakin burada iki cür qüsurun qarşısını almaq lazımdır. Birincisi,

şagirdlərə qarşı yad münasibət bəsləmək, ayrı -seçkilik yaratmaq və ikincisi, ünsiyyət və münasibətlərdə "pərdə gözləməmək", "Məsafə saxlamamaq", hər cür "sərhəddi aradan götürmək" - belə ünsiyyət və yanaşmalar qəbul edilməzdir.

Müəllim yalnız nə deyəcəyi haqqında deyil, həmçinin necə deyəcəyi üzərində də düşünməlidir. Müəllimin nitqi düzgün təmiz, aydın, dəqiq, rəvan, normal, sürətli, obrazlı, rabitəli və başa düşülən tərzdə şagirdlərin yaş səviyyəsinə uyğun şəkildə olmalıdır.

***VI. Konstruktiv qabiliyyətlər*** müəllimin öz işini planlaşdırması, layihələşdirmə- si, gələcək işini qurmasıdır. Müəllim hər günkü işini planlalaşdırmalı, gələcək işlərini də nəzərdə tutmalı və ona müvafiq olaraq şəxsi fəaliyyət planı qurmalıdır. Belə plan qrafik formada aylıq tutula bilər. Müəllim pedaoji fəaliyyətində şagirdlərlə münasibətində deyəciyi sözün, "atacağı addımın" nəticəsini öncədən görməlidr.

***VII. Perseptiv qabiliyyətlər*** - müəllimin hər bir şagirdin, qrupun, sinfin psixoloji durumunu, vəziyyətini bilmək qabiliyyətidir. Bu qabiliyyət şagirdin daxili aləminə nüfuz edə bilmək, şagird şəxsiyyətini və onun müvəqqəti psixi vəziyyətinin incəliklərinə qədər başa düşməklə bağlı olan qabiliyyətidir. Belə qabiliyyətə malik olan müəllim hazırkı anda şagirdin psixologiyasını, onun psixi vəziyyətini qavrayır və eləcə də anlayır. Belə müəllim şagirdə ötəri bir nəzər salmaqla onun daxili aləmindəki ən cüzi dəyişikliyi, psixoloji vəziyyətini anlaya bilir.

Müəllim üçün çox vacib olan keyfiyyətlərdən biri şagirdin

zahiri davranışına görmək, onun daxili psixoloji vəziyyətini müəyyənləşdirmək bacarığıdır. Pedaqoji priyomlapı seçən zaman bunu nəzərə almaq lzımdır. Şagirdin həqiqi psixoloji vəziyyətini hər zaman nəzərə almaq pedaqoji məharət və qabiliiyətin əsasını təşkil edir və pedaqoji fəaliyyətdə mühüm yer tutur.

***VIII. Suqqestiv qabiliyyət*** - *(latınca "təlqin etmək" deməkdir) Müəllimin* şagirdlərə iradi - emosional təsir göstərmək qabiliyyəti, şagirdə inandırmaq, inam yaratmaq qabiliyyətidir. Belə qabiliyyət nəticəsində müəllim şagirdə verdiyi hər hansı bir tələbin yerinə yetirilməsinə nail olur. Suqqestiv qabiliyyətlər müəllimdə iradənin inkişafından, özünə qarşı dərin inamından asılıdır. Burada söhbət, müəllimin, şagirdi məcbur etmədən, inandırma yolu ilə öz tələb və tapşırığını irəli sürməsi və ona nail olmasından gedir. Müəllim şagirdə "Sən bunu bcararsan", "Buna sənin gücün çatar", "Sən çalışqan şagirdsən", "Bu yüksək qiymətə sən layiqsən" və s. belə təlqinedici sözlərlə şagirddə özünə güc, inam yaradır, şagird də fərəhlənir, daha çox çalışır, fəallaşır.

***IX. Pedaqoji təxəyyül*** qabiliyyəti tələb edir ki, müəllim şagirdlərlə ünsiyyət və münasibətdə olarkən, onlara müəyyən tapşırıq və tələb verərkən işin nəticəsini əvvəlcədən təxmin etməyi, görməyi, təsəvvür etməyi bacarsın. Burada pedaqoji təxəyyül mühüm rol oynayır. Pedaqoji təxəyyülə malik olan müəllim öz fəaliyyətinin nəticəsini əvvəlcədən görə bilir, şagirdin gələcəyini düzgün görüb, onu istiqamətləndirməyi bacarır, onda hansı keyfiyyətləri inkişaf etdirməyin mümkün

olduğunu da öncədən görə bilir.

***X. Diqqəti paylaya bilmək qabiliyyətinə*** malik olan müəllim öz diqqətini iki və daha artıq fəaliyət obyekti üzərində paylaya bilir. Bu cür müəllim materialı necə şərh etdiyini, şagirdlərin cavabını necə dinlədiyini izləməklə nəzər-diqqətini bütün şagirdlərin üzərinə yönəldə bilir, yorğunluq, diqqətsizlik, anlamamaq, intizamın pozulması hallarına öz münasibətini bildirir və nəhayət, öz davranış tərzini (davranış, hərəkət, jest, yeriş və s.) diqqətlə izləyir. Belə müəllim sınfin hər tərəfinə - sağa, sola arxaya, önə nəzər yetirməyi, şagirdlərlə göz təması qurmağı bacarır.

***XI. Pedaqoji refleksiya qabiliyyəti.*** Refleksiya latın sözü olub "arxaya baxmaq", "geriyə müraciət etmək" mənalarını verir. Pedaqoji refleksiya müəllimin öz hissləri, fikir və təəssüratları, fəaliyyət və hərəkətləri ilə bağlı özüntəhlil və özünü- qiymətləndirmədə, özünütənqiddə təzahür edən özünüdərk prosesidr. Müəllim öz fəaliyyətini daim nəzarətdə saxlamalı, onu təhlil etməli, nə etdiyini və necə etdiyini özünə hesabat verməli, pedaqoji kollektivdə mövqeyini bilməli, işini qiymətləndirməyi və təkmilləşdirməyi bacarmalıdır.

Refleksiya həmçinin şagirdlərin öz fəaliyyətini - onun gedişi və nəticələrini təhlil etməsi, özünüqiymətləndirməsi kimi də çıxış edir.

***XII. Müəllimin aktyorluq qabiliyyəti.*** Aktyor və müəllimin fəaliyyətində oxşar cəhətlər çoxdur. Hər ikisinə tərbiyəçi desək, olar. Müəllim məktəbdə, aktyor isə teatrda tərbiyə işi ilə məşğul olur. Aktyor səhnədən dinləyicilərə, ta-

maşaçılara, onların hisslərinə və şüuruna təsir göstərir. Müəllim isə bu vəzifəni sinif otaqlarından yerinə yetirir. Həm aktyor, həm də müəllim insanlar qarşısında çıxış edir. Hər ikisinin özünəməxsus auditoriyası vardır. Aktyor da, müəllim də başlıca olaraq söz vasitəsilə öz dinləyicilərinin şüuruna, qəlbinə yol tapmağa çalışır.

Müəllim də bir aktyor məharəti ilə jestlərdən, mimikadan, ifadəyə uyğun əl hərəkətlərindən, göz təmasından, ifadəli, mənalı baxışlardan istifadə edir, şagirdlərə müəyyən emosional təsir göstərir. Beləliklə, deyə bilərik ki, müəllim həm dərsin ssenaristi, həm rejissoru, həm də bir aktyorudur.

***XIII. Müəllimin tədqiqatçılıq qabiliyyəti*** — tələb edir ki, müəllim ilk növbədə öz fənninin tədqiqatçısı olsun. İxtisasını daim, təkmilləşdirsin, yeniləsin və şagirdləri də fənninə dair ən yeni bilik və məlumatlarla tanış etsin. Bu cəhətdən müəllim dərsliklə kifayətlənməməli, dərslik şagird və müəllim üçün yeganə bilik mənbəyi olmamalıdır. Müəllimin yaradıcı fəaliyyəti onun tədqiqatçılığı ilə bağlıdır. O ixtisasına dair məqalə və kitabları müntəzəm oxumalı, təhlil etməli, özü də məqalələr yazmalı, elmi konfraslarda, pedaqoji mühazirələrdə çıxışlar etməli, tezislər yazmalıdır. Pedaqoji məruzələrə həsr olunmuş müsabiqələrdə, "İlin müəllimi" müsabiqələrində davamlı iştirak etməlidir. Müəllimin tədqiqatçılıq qabiliyyəti və fəaliyyəti, şagirdlərə də təsir göstərəcək onlar da, tədqiqatçılığa sövq ediləcəkdir.

Bu gün müəllim şagirdlərə hazır biliklər vermir. Onları bilikləri öyrənməyi öyrədir, tədqiqat yolu ilə bilikləri daha çox

müstəqil yolla oxuyub öyrənməyə, düşünməyə istiqamətləndirir, onların idrak fəallığını inkişaf etdirir.

Tədqiqatçılıq işi şagirdlərə fənni duymağa, fənnə dair daha yeni biliklər qazanmağa sövq edir, yüksək tədris bacarıqları yaradır, intellektual səviyyə yüksəlir, başqa fənləri də yaxşı öyrənməyə həvəs yaradır və ən nəhayət şagirdlərdə yüksək əxlaqi-mənəvi keyfiyyətlər formalaşır. Təlim prosesində şagirdlərin intellektual bacarıq və qabiliyyətləri yüksəlir, problemə qeyri-standart mövqedən yanaşa bilir, problemləri ən səmərəli və optimal yollarla həll edə bilir.

***XIV. Müəllimin intellektual qabiliyyətləri*** - onun zehni əməyini düzgün qurması, zehni əmək bacarıq və vərdişlərinə yiyələnməsidir. Müəllim bilik mənbələrindən, kitab və kitabxanalardan, kompüter texnikasından, internet resurslarından səmərəli istifadə etməyi bacarmalıdır.

Təlim prosesində müvəffəqiyyət əldə etmək üçün müəllim yüksək pedaqoji qabiliyyətlərə malik olmalıdır. Qabiliyyət müəyyən fəaliyyətin müvəffəqiyyətlə icrasına əsas verir. Pedaqoji qabılıyyət özünü ən çox təlim prosesində göstərir. Pedaqoji qabiliyyətə malik olmayan müəllim heç bir müvəffəqiyyətdən söz aça bilməz.

***XV. Pedaqoji təsəvvür, təxəyyül (yaxud proqnozlaşdırma) qabiliyyəti.*** Bu öz hərəkətlərinin əvvəlcədən görünməsində ifadə olunan xüsusi qabiliyyətlərdir. Şagird şəxsiyyətinin, tərbiyəsinin planlaşdırılmasında bu çox mühümdür. Bu, şagirdin gələcəyini təmin edə bilər. Bu isə onun keyfiyyətlərini, inkişafını proqnozlaşdırmaq qabiliyyəti

deməkdir.

*XVI. Diqqətin bölüşdürülməsi qabiliyyəti.* Bu eyni zamanda fəaliyyətin bir neçə növü arasında gedir və müəllim işi üçün xüsusi əhəmiyyətə malikdir. Bacarıqlı, təcrübəli müəllim daim materialın izahında müvafiq forma və məzmunu izləyir, ona diqqət yetirir. Öz fikrinin necə inkişafı etməsini (yaxud şagirdin fikrinin necə inkişaf etməsini) və eyni zamanda, bütün şagirdlərin davranışını diqqət mərkəzində saxlayır və şagirdlərin yorulmasına, diqqətsizliyinə, dərk etmələrinin zəifləməsinə çevik şəkildə diqqət yetirir, onların intizamlarında gedən hər hansı pozuntulu halları aşkarlayır, müəyyənləşdirir və nəhayət, öz davranışına (duruşu, mimikası, pantomimikası, yerişi) bütün nə varsa – hamısına diqqət yetirir.

**Müəllimin Şəxsi keyfiyyətləri.** Müəllimin pedaqoji qabiliyyətləri onun şəxsi keyfiyyətlərindən ayrılmazdır. Başqa peşə sahələrindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə – pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim, ilk növbədə öz şəxsiyyəti ilə tərbiyə edir. Buna görə də o, əsl mənada şəxsiyyət olmalı, kamil şəxsiyyət səviyyəsinə yüksəlməlidir. Müəllimin şəxsi keyfiyyətləri çoxdur. Onları bir neçə qrupda birləşdirmək olar:

**1. Müəllimin ideya və vətəndaşlıq keyfiyyətləri.** Buraya müəllimin ideya inamı məslək və əqidəsi, vətəndaşlıq yetkinliyi, siyasi şüurluluğu, elmi dünyagörüşü, sosial fəallığı, yüksək ziyalılığı kimi keyfiyyətlər daxildir. Müəllim yüksək əqidə, məsləksahibi, müəllim-Vətəndaş olmalıdır. O, xalqın, vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda

yetişdirməlidir.

**2. Müəllimin peşə keyfiyyətləri.** Buraya müəllimin dərin zehni biliklərə malik olması, yüksək ixtisas və peşə hazırlığı, pedaqoji psixoloji və metodik ustalığı, təlim-tərbiyə işini yüksək səviyyədə həyata keçirmək bacarığı, nikbinlik, tələbkarlıq, məsuliyyət hissi, pedaqoji mərifət, şagird psixologiyasına bələdlik, onlarla düzgün qarşılıqlı münasibətlər qurmaq bacarığı, şagirdlərdə tədris etdiyi elmə maraq yaratmaq bacarığı və s. daxildir. Müəllimin ən başlıca keyfiyyəti öz elmini dərindən bilməsi və sevməsidir. Pedaqoji peşəkarlıq müəllimdən bir sıra peşə keyfiyyətləri tələb edir: Ünsiyyətçilik – tələbənin daxili aləminə nüfuz etməyə imkan verir; Özünü ələ almaq bacarığı – müəllimə öz hisslərini idarə etməyə, özünə nəzarət etməyə imkan verir; Təkidlilik – qarşıya qoyulmuş məqsədə çatmağa, prinsipial olmağa kömək edir; Qarşılıqlı anlaşma – müəllim və tələbə bir-birini başa düşməyəndə ünsiyyətdə soyuqluq, bəzən də münaqişə yaranır; Qayğıkeşlik – gənclərin qəlbinə qayğı ilə yanaşdıqca onlar tərbiyəçi üçün açıq olur yalnız özünü sevər eqoist müəllim yaxşı tərbiyəçi ola bilməz; Nikbinlik və yumor hissi – kollektivdə nikbin, şən ovqat yaratmağa imkan verir. Bu keyfiyyətlərlə yanaşı peşəkar müəllim yeni pedaqoji təfəkkürə yiyələnməli, idrak və praktik məsələlərin həllinə yaradıcı şəkildə yanaşmağı bacarmalıdır, tələbələrdə müstəqil, tənqidi, yaradıcı, dialektik təfəkkürün inkişafı qeydinə qalmalıdır.

**3. Müəllimin mənəvi, əxlaqi keyfiyyətləri.** Buraya ədalətlilik, xeyirxahlıq, humanizm, düzlük, doğruçuluq,

sadəlik, təvazökarlıq, vicdanlılıq, məsuliyyətlilik, mədənilik, pedaqoji etika və digər keyfiyyətlər daxildir. Müəllimin şəxsi keyfiyyətləri onun təlim-tərbiyə işinə təsirsiz qalmır. Yaxşı müəllim, hər şeydən əvvəl, yaxşı tərbiyəçidir, nəcib, alicənab, mədəni insandır. Müəllim peşəsi peşə sahibinin şəxsiyyəti ilə bilavasitə vəhdət təşkil edən, biri digərini tamamlayan peşələr sırasına daxildir. Bəlkə də ikinci elə bir peşə yoxdur ki, onun sahibinin şəxsiyyəti ilə bu qədər əlaqəli, bağlı olmuş olsun. Müəllim elə bir saflıq, təmizlik rəmzidir ki, onun şəxsiyyətində özünü göstərən müəyyən çatışmazlıqlar dərhal nəzərə çarpır və qınaq obyektinə çevrilir. Buna görə də çətin ki, başqa elə bir peşə, sənət tapılsın ki, onun sahibinin şəxsiyyətinə bu qədər çox tələbkarlıq göstərilsin və tələb verilmiş olsun.

Yuxarıda göstərilən pedaqoji qabiliyyətlər, peşə keyfiyyətləri müəllimin uğurlu fəaliyyəti üçün ən vacib şərtlərdəndir. Hər bir səriştəli, peşəkar müəllim pedaqoji qabiliyyətlərə və dəyərli keyfiyyətlərə malik olmalı və o qabiliyyətləri daim təkmilləşdirməlidir.

Dünyanın ən nüfuzlu universitetlərindən biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alan möhtərəm Prezidentimiz İlham Əliyev sonradan həmin universitetdə müəllim kimi çalışmışdır. Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxışı zamanı Prezident İlham Əliyev qeyd edir ki, 5 il ərzində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim fəaliyyəti ilə məşğul olub, ona görə müəllim peşəsi onun üçün yad peşə deyildir. Müəllimlərin fəaliyyətini çox yüksək qiymətləndirən dövlət başçısı bildirib ki, müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir: "**Müəllim hər zaman**

tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var".

Dövlət başçısı cənab İlham Əliyevin sözlərinə görə, müəllimlər daim yeniliklərə baxmalıdırlar: "Onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda müəllimlər də daim öz üzərlərində işləməlidirlər".

Bu yolda müqəddəs peşə sahibləri, Yer üzünün ən şərəfli peşə sahibləri cəmiyyətin ən dəyərli, hörmətli şəxsləri, ziyalısı və hər zaman nümunə götürüləcək, öyrəniləcək, tövsiyə alınacaq, istiqamət götürüləcək insanlardır.

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"/ Xalq, 16 iyun 1999- ci il
2. Azərbaycan müəllimlərinin XIII qurultayı. Bakı: Çaşıoğlu, 2009.
3. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009
4. Əliyev, H.Ə. Gənclər siyasəti haqqında/ "Azərbaycan" qəzeti, 12 may 2002-ci il.
5. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq/ "Azərbaycan" qəz. Bakı, 1996, 6 fevral.
6. Əliyev H.Ə. Azərbaycan Müəllimlərinin I qurultayındakı nitqi. 26 sentyabr, 1998-ci il. Azərbaycan qəz. 27 sentyabr, 1998.
7. Əliyev H.Ə. Türkiyənin Qars Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqi. 28 iyun, 2002-ci il. "Xalq" qəzeti, 5 iyul, 2002-ci il.
8. Əliyev H.Ə. Naxçıvanda Bəhruz Kəngərli muzeyinin açılışında çıxış. 18 iyun, 2002-ci il. "Şərq qapısı" qəz. 19 iyun, 2002.
9. Əliyev H.Ə. Naxçıvan MR-nın təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitq. 12

oktaybr, 1999-cu il. “Azərbaycan” qəzeti, 14 oktyabr, 1999-cu il.

10. Əliyev H. Ə. Ali Məktəb İşçilərinin Respublika Müşavirəsində nitq/ Azərbaycan ali məktəblərinin işini partiyanın yüksək tələbləri səviyyəsinə qaldıraq: ali məktəb işçilərinin respublika müşavirəsində nitq; 28 may 1980-ci il /Heydər Əliyev; [burax. məs. Ə.Ağayev].- Bakı: Azərnəşr, 1980, 46 s.
11. Əliyev H.Ə. Bakının 18 №-li məktəbində keçirilən görüşdə nitq. 1 sentaybr, 1997-ci il. “Azərbaycan” qəz. 2 sentyabr, 1997.
12. Əliyev H.Ə. Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə çıxış. 31.08.1994. “Azərbaycan” qəzeti, 1 sentyabr, 1994-cü il.
13. Əliyev H.Ə . Bakının Nərimanov rayonunda yeni orta ümumtəhsil məktəbinin açılış mərasimində nitq. 2 sentyabr, 1996/ Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. İyun, 1996- noyabr, 1996. Bakı: Azərnəşr, 1998.
14. Əliyev H.Ə. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq. “Respublika” qəz 15 avq. 2002 ci il
15. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, —Təhsil, 2002
16. Əliyev H.Ə. Azərbaycan Müəllimlərinin I qurultayındakı nitqi. 26 sentyabr, 1998-ci il. Azərbaycan qəz. 27 sentyabr, 1998. Heydər Əliyev. Naxçıvan MR-nın təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında nitq. 12

oktaybr, 1999-cu il. "Azərbaycan" qəzeti, 14 oktyabr, 1999-cu il.

17. Əliyev H.Ə.. Bakının 18 №-li məktəbində keçirilən görüşdə nitq. 1 sentaybr, 1997-ci il. "Azərbaycan" qəz. 2 sentyabr, 1997.
18. Əliyev H.Ə.. Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə çıxış. 31.08.1994. "Azərbaycan" qəzeti, 1 sentyabr, 1994-cü il.
19. Əliyev H.Ə. Bakının Nərimanov rayonunda yeni orta ümumtəhsil məktəbinin açılış mərasimində nitq . 2 sentyabr, 1996/ Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. İyun, 1996- noyabr, 1996. Bakı: Azərnəşr, 1998.
20. Əliyev H.Ə. Türkiyənin Qars Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqi. 28 iyun, 2002-ci il. "Xalq" qəzeti, 5 iyul, 2002
21. Əliyev H.Ə.Naxçıvanda Bəhruz Kəngərli muzeyinin açılışında çıxış. 18 iyun, 2002-ci il. "Şərq qapısı" qəz. 19 iyun, 2002.
22. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, "Təhsil", 2002
23. Əliyev H.Ə. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq. "Respublika" qəz 15 avq. 2002 ci il
24. Əliyev İ.H. Bərdə şəhərindəki Z.Əliyeva adına məktəbin açılışında çıxışı. "Azərbaycan müəllimi", 2009, 15 sentyabr

25. Əliyev İ.H. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” haqqında 24 oktyabr, 2013- cü il tarixli sərəncam/ “Xalq” qəz. 25 oktyabr, 2013
26. Əliyev İ.İ. Azərbaycan Etnopedaqogikası. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2009, 224 s.
27. Abbasov A.N. Ümummilli lider Heydər Əliyevin tarixi şəxsiyyətlərimizə verdiyi dəyər. Azərbaycan Respublikası elm və təhsil nazirliyi, Azərbaycan Respublikasının təhsil institutu// “Elmi əsərlər”, cild 90, № 6, 2023.
28. Abbasov Akif, Rəhimxanım Məmmədzadə, Lalə Məmmədli. Pedaqogika: Müntəxəbat. Bakı: Mütərcim, 2021, 608 s.
29. Abbasov A, L.Məmmədli, İ.Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik. – Bakı: Mütərcim, – 2022. – 464
30. Abbasov Ənvər. İnnovativ pedaqoji texnologiyalar. "Kurikulum" jurnalı, 2018, № 4 səh.5–11. (K.Quliyeva)
31. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005, 156 s.
32. Allahverdiyeva L.Z. İbtidai sinif şagirdlərinin ideya inamının formalaşmasında Heydər Əliyev irsndən istifadə. Naxçıvan: Əcəmi, 2019, 224 s.
33. Adıgözəlova Ş.Ə. Azərbaycanda məktəöb və pedaqoji fikrin inkişaf tarixi. (XVII – XVIII əsrlər) Dərs vəsaiti. Sumqayıt: SDU, 2022, 142 s.
34. Cəfərov Rauf. Ulu Öndər və ilk müəllimi/. Vedibasar qəz.30 iyun- 30 iyul, 2025, №13-14.

35. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi.Dərslik. Bakı:Elm və təhsil, 2014, 432 s.
36. Əhmədov H.H. Azərbaycn təhsilinin inkişaf strategiaysı. Bakı: Elm, 2010, 800 s.
37. Əlizadə Ə.Ə., Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika. Bakı: Ecoprint, 2019, 368 s.
38. Əlizadə Ə.Ə. Müasir Azırbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 200 s.
39. Əjdər Fərzəli. Gəmiqaya- Qobustan əlifbası. Bakı:"Azərbaycan milli ensiklopediyası. 2003, 375 s.
40. Hacıyev, İsmayıl. Heydər Əliyev- Azərbaycan tarixinin böyük himayədarı / İ.Hacıyev // Şərq qapısı.- 2004.- 30 noyabr, 1- 7 dekabr.- S.1,3.
41. Həbibbəyli İ.Ə. Nuhçıxandan – Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
42. Hüseynova Mahirə Nağı qızı.Missiya. Bakı: ADPU, 2019, 366 s.
43. Hüseynova Mahirə Nağı qızı, Sadıqova Sayalı. Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası. Bakı, 2023.
44. Həsənova Könül, Abdullazadə Nazilə. Zəakanın və milli yaddaşın təntənəsi. Bakı: Müəllim, 2023, 388 s.
45. Hüseynov Ş.Ə. İbtidai təhsilin idarə olunması. Dərs vəsaiti. Sumqayıt: SDU, 2022, 143 s.
46. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: ADPU, 2020, 538 s.

47. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2020, 500 s.
48. Hüseynzadə R.L.Məktəbdə pedaqoji prosesin təşkili. Metodik vəsait. Bakı: Aktual, 2013, 270 s.
49. Hüseynzadə R.L. Tərbiyə işi və onun metodikası. Dərs vəsaiti. Bakı: ADPU, 2012, 442 s.
50. Hüseynzadə R.L. Tərbiyə: Hüquqi-Normativ əsaslar. Dərs vəsaiti. Bakı: BDU, 222, 196 s.
51. Hüseynzadə R.L. Təhsilin idarə edilməsi. Bakı: ADPU, 2025, 190 s.
52. Hüseynzadə, R.L., Məlikov M.Ş., Kərimova G.H., Çıraqova V.M., Ələkbərova M.İ. Pedaqogika tarixi: Təhsilin magistr pilləsinə hazırlıq üçün dərs vəsaiti. -Bakı: "Zərdabi LTD" MMC, -2018, -255 s.
53. Hüseynzadə, Rüfət. Skala- təhsilin ilk tarixi məkanı : Gəmiqaya, Nuh peyğəmbər, təhsil / R.Hüseynzadə // NDU-nin elmi əsərləri.İctimai elmlər seriyası.- 2016.- № 6.- S.9, 13.
54. Hüseynzadə L T. Xalqın müəllimi. Bakı: Elm və təhsil, 2007, 127 s.
55. Hüseynzadə L.T. Araz şahiddir. Kazım Qarabəkir Paşa Naxçıvanda. Bakı: Elm və təhsil, 100 s.
56. Hüseynzadə L.T. Qaraqoyunlu Cahanşah Həqiqi. Bakı: Çənlibel, 2000, 90 s.
57. Hüseynzadə, L.T. Abidələr mənəvi sərvətimizdir : Naxçıvan MSSR ərazisində olan abidələr haqqında / L.Hüseynzadə // Sovet Naxçıvanı.- 1984.- 21 sentyabr.

58. Hüseynzadə Ə.R. Naxçıvan folklor mətnlərdə yaşayan tarix. Bakı: Elm və təhsil, 2016, 184 s.
59. Hüseynzadə Ə.R. Naxçıvan uşaq folklorundan örnəklər. Bakı: Elmin inkişaf fondu. 2017, 368 s.
60. Hüseynzadə Ə.R. Naxçıvan uşaq folkloru. Naxçıvan: Əcəmi, 2022, 336 s
61. Hüseynzadə, Əkrəm. Nuh taban və Nuhla bağlı adlar mərasimlər, rəvayətlər / Ə.Hüseynzadə // AMEA-nın Naxçıvan bölməsi.İctimai və humanitar elmlər seriyası.- 2012.- cild 8.- № 1.- S.196.
62. Xəlilov T.F. Heydər Əliyevin təhsil-tərbiyə haqqında fikirləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Təhsildə inkişaf mərhələləri: Rəqəmsallaşdırma və gələcək perspektivlər" mövzusunda I respublika elmi konfarnsı, Naxçıvan Dövlət Universiteti, 04-05 may ctice.5 may 2021.
63. İsayev Elbrus.Böyük ipək yolu və Naxçıvan.Bakı: Elm və təhsil, 2012, 214 s.
64. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik. 2 cilddə. Bakı: Mütərcim, 2013, I c. 576 s.
65. İsayev İ.N. Pedaqoji irsimizdən:M.V.Vidadidən H.K. Sanlıyadək. Bakı: ADPU, 2014, 406 s.
66. İlyasov M.İ.Müəllimin pedaqoji ustalığı.Bakı: Elm və təhsil, 2013, 216 s.
67. İsmxanov M.A., Vəliyeva S.V. Pedaqoji etika. Dərs vəsaiti. Bakı: BDU, 2013., 148 s.

68. Komenski Y.A. Böyük didaktika. Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi prof. Fərrux Rüstəmov. Bakı: Elm və təhsil, 212, 388 s.
69. Kərimova S.A.məktəbəqəədər yaşlı uşaqların ailədə tərbiyəsi. Dərs vəsaiti. Sumqayıt, SDU, 2021, 191 s.
70. Qasımov R.A. Naxçıvan ədəbi mühiti:problemlər, perspektivlər. Bakı: Elm və təhsil, 2018
71. Qasımov R.A. Qarabağ və Zəfər mövzuları Naxçıvan ədiblərinin yaradıcılığında/ 525-ci qəzet.- 2021.- 9 dekabr.- S.14.
72. Qasımova L.N. Məktəblilərin milli- mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s.
73. Qazıyev Y.Heydər Əliyev ideyaları əbədiyaşardır. Bakı: MBM, 2013, 464 s.
74. Quliyev Əbülfəz. Görkəmli filoloq Lətif Hüseynzadə və Naxçıvan ədəbi mühiti. Nuhçıxan. Sayt. 23.04.2020.
75. Mərdanov M.S. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı, 2006
76. Mərdanov M.S, Azərbaycan Təhsil islahatı illərində, Bakı, 2001.
77. Mərdanov M. S.Azərbaycan təhsil tarixi. 3 cilddə. I cild. Bakı: Təhsil, 2011, 296 s.
78. Məmmədova A.T. Professor Əhməd Seyidov: Azərbaycanda pedaqoji elmin inkişafı. Bakı: Elm və təhsil, 2018, s. 192 s.
79. Məmmədov K.A. Müstəqillik dövrümüzün pedaqoji problemləri. Bakı: Zəngəzurda çap evi. 2020.,108 s.

80. Məmmədova E.N. "Azırbaycan məktəbi": Pedaqoji fikir tarixindəön səhifələr. Bakı: 2024, 280 s.
81. Nəzərov M.H, Babayeva A.R.Mədəniyyət və təhsilin ümumi əsasları. Bakı: Mütərcim, 2016, 200 s.
82. Rüstəmov F. A. Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və təhsil, 216, 888 s.
83. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı: Nurlan, 2016, 750 s.
84. Rzayev Vahid. Naxçıvanda məktəb və pedaqoji fikir. (XIX əsr və XX əsrin əvvəlləri). Naxçıvan Əcəmi,392 s.
85. Salamova K.B., Məmmədov C.H. Dərketmə fəaliyyətinin psixologiyası. Dərs vəsaiti. Sumqayıt, SDU, 2020, 169 s.
86. Səfərli Hacı Fəxrəddin. Naxçıvanşünaslıq Mərkəzi / H.F.Səfərli // Şərq qapısı.- 2011.- 23 fevral.
87. Surə Seyid. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit.
88. Şəhla Aslan. Tariximizə Lətif Hüseynzadə baxışının dəyəri və önəmi/ **525-ci qəzet.- 2019.- 20 aprel.- S.18.**
89. Zamanov Asəf. Naxçıvanlı elmlər doktorları. Naxçıvan: Əcəmi, 2024, 307 s.
90. Zülfiyyə İsmayıl. Müstəqillik yollarında: Liderlik missiyası. Naxçıvan: Əcəmi, 2016, 218 s.

## MÜNDƏRİCAT

ÖN SÖZ........................................................................ 4

I. ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜƏLLİMLİK PEŞƏSİ HAQQINDA........................................................ 7

1. Ulu öndər heydər əliyevin nəzəri irsində müəllimlik.................................................................... 7

2. Heydər əliyevin naxçıvan pedaqoji texnikumunda təhsil illəri........................................................... 37

3. Heydər Əliyevin nəzəri irsində təhsil siyasəti..... 62

4. Müəllimlərin peşə bayramı - xalqın bayramıdır.... 84

II. TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR. TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ.............. 87

1. "Təhsil millətin gələcəyidir".................................. 87

2. Heydər Əliyevin təhsil siyasətinin müdrikliyi..... 102

3. Heydər Əliyev idarəçiliyində liderlik..................... 114

4. Təhsilin inkişafına Heydər Əliyev qayğısı........... 121

5. Gənclərin milli-mənəvi dəyərlər əsasında və vətənpərvərlik ruhunda tərbiyəsində heydər əliyev ideyalarının təntənəsi .................................................. 124

III. TƏHSİLİN VƏ MÜƏLLİM PEŞƏSİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI........................................................ 142
1. Təhsilin təşəkkülü və ilk tarixi məkanı.................. 142
2. Müəllimlik peşəsinin təşəkkülü və inkişafı........... 164
3. Klassiklər, tarixi şəxsiyyətlər müəllimlik peşəsi haqqında..................................................................... 173
IV. AZƏRBAYCAN PEDAQOJİ KADRLARINILN HAZIRLIĞINDA QORİ MÜƏLLİMLƏR SEMİNARİYASININ VƏ İRƏVAN PEDAQOJİ MÜHİTİNİN ROLU.......................................................................... 204
1.Azərbaycan pedaqoji kadrlarıniln hazırlığında Qori Müəllimlər Seminariyasının rolu....................... 204
2. Azərbaycan pedaqoji kadrlarınln hazırlığında İrəvan maarifçilik mühiti: Müəllimlər seminariyası, Gimnaziya və Progimnaziyalar, İnstitutlar................ 252
V. MÜƏLLİMLİK PEŞƏSİNİN ELMİ-PEDAQOJİ ƏSASLARI....................................................................... 311
1. Müəllimlik peşəsinin səciyyəvi xüsusiyyətləri....... 311
2. Müəllimlik peşəsinin pedaqoji prinsipləri............. 317
3. Müəllimlik peşəsinə verilən pedaqoji tələblər........ 323
4. Müəllimin yaradıcı pedaqoji fəaliyyəti................... 325

5. Müəllimin səriştəliliyi və peşəkarlığı...................... **330**
6. Müəllim-şagird münasibətlərinin səciyyəvi xüsusiyyətləri........................................................................ **344**
7. Müəllim-şagird münasibətlərində pedaqoji əməkdaşlıq........................................................................ **349**
8. Müəllimlik peşəsində pedaqoji bacarıq və vərdişlər........................................................................ **360**
9. Pedaqoji prosesdə müəllimin pedaqoji mərifəti..... **363**
10. Müəllimin pedaqoji qabiliyyətləri......................... **372**
ƏDƏBİYYAT...................................................................... **387**

**RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ**

*Pedaqoji elmlər doktoru, professor, Əməkdar Müəllim*

**SULTANƏLİ ŞÜKÜR OĞLU QURBANOV**

*Fizika üzrə fəlsəfə doktoru, dosent, ADPU-nun YAP – ın sədri.*

# YER ÜZÜNÜN ƏN ŞƏRƏFLİ PEŞƏSİ-
# MÜƏLLİMLİK

Nəşriyyatın direktoru: Ş.M.Şəfizadə

"Müəllim" nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99470) 213 10 61
(+99410) 213 10 61
E-mail: muallim.mmc@gmail.com

Çapa imzalanmışdır: 25.07.2025. Sifariş: 117
Kağız formatı: $70 \times 100^{1/16}$. 24,75 ç.v. Sayı: 100